Məhərrəm Zülfüqarlı

UCAR
TARİXİ

MİNGƏÇEVİR 2026

Müəllif: t. e. d., professor Məhərrəm Paşa oğlu Zülfüqarlı

Elmi redaktor: t.ü.f.d., dos. Qədirova Aygün Raqif qızı

Texniki redaktor: Məmmədov İlham Qonsur oğlu
Kompüter tərtibatı: Məmmədova İlhamə Raquf qızı

©M.P.Zülflqarlı. Ucar tarixi. Mingəçevir, səh. 288
Mingəçevir: İ.Q.Məmmədovun Poliqrafiya ofisi, 2026

Sizə təqdim olunan bu kitab Ucar tarixinə dair qədim dövrdən bu günə qədərki tarixi dövrü əhatə edən ilk irihəcmli elmi-tədqiqat əsəridir. Ucar rayonunun tarixinin bütün dövrlərini əhatə edən bu elmi əsərin hazırlanması Azərbaycanın digər regionlarının tarixi kimi, ölkənin mərkəzi hissəsində, tarixən Qafqaz Albaniyası və Şirvanşahlar dövlətinin ərazisində yerləşmiş Ucar rayonunun tarixinin də tədqiqinə xidmət edir. Bu tədqiqat ümumən Azərbaycan tarixinin daha da zənginləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Kitab magistrlər, doktorantlar, elmi işçilər və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

M əricat

1	Müəllifdən	**4**
2	Süni intellekt “Ucar tarixi” haqqında	**14**
3	I. Ucar sözünün mənşəyi	**15**

4	II. Rayon ərazisi qədim dövrdə – Bərgüşad, Qazyan, Ramal küp qəbirləri	**36**
5	2.1. Yuxarı Şilyandan tapılmış dəfinə	**46**
6	III. Rayon ərazisi orta əsrlərdə. Azərbaycanın görkəmli şairi Həbibi	**60**
7	IV. Ucar stansiyasının yaranma tarixi	**68**
8	4.1. “Paxanlar” məhəlləsinin yaranması (1870–1917-ci illər)	**68**
9	4.2. Çar rejiminə qarşı Ucarda qaçaq hərəkatı	**87**
10	4.3. Ucar–Göyçay–Şəki dəmir yolu layihəsi	**89**
11	V. Ucar ərazisi 1918–1920-ci illərdə	**93**
12	5.1. Göyçay qəzasında törədilmiş 1918-ci ilin iyun soyqırımı	**93**
13	5.2. Göyçay döyüşlərində Ucar stansiyasının strateji əhəmiyyəti (iyun–iyul 1918-ci il)	**97**
14	5.3. AXC-nin Türkiyəyə təhsil almağa göndərdiyi ucarlı tələbə – Sədi Hacı Həsən oğlu	**101**
15	VI. Ucar rayonu sovet hakimiyyəti illərində (1920–1991-ci illər)	**108**
16	6.1. Ucar ərazisi 1920–1941-ci illərdə	**108**
17	6.2. Böyük Vətən müharibəsinin ucarlı iştirakçıları (1941–1945-ci illər)	**119**
18	6.3. Ucar 1945–1960-cı illərdə	**134**
19	6.4. Zərdabın Ucara birləşdirilməsinə qarşı üsyan (1963–1965-ci illər)	**159**
20	6.5. 1969–1991-ci illərdə Ucar rayonunun inkişafı	**174**
21	VII. Ucar rayonu dövlət müstəqilliyinin bərpasından sonra (1991–2026-cı illər)	**200**
22	7.1. 1991–1993-cü illərdə Ucarda ictimai-siyasi vəziyyət	**200**
23	7.2. Ucar rayonu 1993–2026-cı illərdə	**203**
24	7.3. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş Ucar şəhidləri	**252**
	Müəllifdən	

Şimali Azərbaycanın mərkəzində yerləşən Ucar rayonun tarixi haqqında çox az tədqiqat işləri aparılması vətəni, onun tarixini sevən hər bir şəxsdə təbii olaraq narahatlıq doğurmaya bilməz. Rayondan çoxlu sayda müharibə və əmək veteranları, yüksək vəzifəli dövlət məmurları, hətta nazir, general, millət vəkilləri, iş adamları, elmlər doktorları, professorlar, elmlər namizədi, dosentlər, jurnalistlər və başqa adlı-sanlı şəxslər çıxmışdır. Bu cür potensiala malik Ucarın tarixinin lazımi səviyyədə indiyədək yazılmaması hamımızı, xüsusilə də bu rayonda dünyaya göz açaraq, onun suyu, çörəyi ilə ərsəyə gəlmiş insanları düşündürməlidir.

Tarixən strateji cəhətdən əlverişli ərazidə yerləşən, ilk insanın vətənindən biri olan, insan əmələ gəlməsi prosesinin baş verdiyi Azıx mağarasından, Qafqaz Albaniyasının paytaxtı Qəbələdən, Şirvanşahların paytaxtı Şamaxıdan heç də uzaqda yerləşməyən Ucarın tarixinə biganəlik təəssüf ki, hazırda da qalmaqda davam edir.

Ucarla qonşu rayonların, Şamaxı, Göyçay və Zərdab rayonlarının ensklopediyaları [9; 18; 19] nəşr olunsa da Ucar ensklopediyasının hələ də nəşr olunmaması təəssüf doğurmaya bilməz. Şamaxı, Göyçay, Kürdəmir, Hacqabul, Zərdab, Saatlı, Sabirabad və s. ərazisinə görə nisbətən Ucara yaxın rayonların tarixinə aid kitab və məqalələr [2; 5; 6; 7; 13; 14; 22; 26; 27; 40; 43; 44] nəşr olunsa da bunlarla müqayisədə Ucar rayonun tarixinə aid çox az sayda kitab və məqalələr nəşr olunub.

N. Nəbiyevin 1982-ci ildə nəşr olunmuş "Coğrafi adlar: İzahlı lüğət" kitabında "Abşeron" , "Ağsu", "Ağcabədi", "Bakı", "Balaxanı", "Qaramanlı kəndi" (Yevlax), "Qax", "Qobustan", "Quba", "Qusar", "Qutqaşen", "Daşkəsən", "Əli Bayramlı", "Zaqatala", "Zəngənə kəndi" (Sabirabad), "Zərdab", "Kürdəmir", "Gədəbəy", "Göyçay", "Lənkəran", "Mərdəkan", "Mingəçevir", "Mirbəşir", "Naxçıvan", "Neftçala", "Sabirabad", "Sarvan kənd" (Dəvəçi) toponimlər haqqında məlumat verilsə də Ucar çoğrafi adı haqqında dəqiq məlumat olmadığına görə kitaba salınmayıb [12, s. 6-210].

Ucar rayonunun tarixi coğrafiyasına aid F. Nağıyevin 2005-ci ildə yazdığı "Ucarın tarixi coğrafiyası" kitabında "Ucarın

tarixi haqqında qısa məlumat" başlıqlı yazı rayonun tarixinə aid yazılan az saylı mateiallardandır [11, s.22]. Kitabda 1870-1883 - cü illərdə Bakı-Tiflis dəmir yolunun çəkilişi ilə əlaqədar Ucar stansiyasının inşa edilməsi, stansiya yaxınlığında fəaliyyət göstərmiş Biyan zavodu, Pambıq zavodu, zavodun sahibkarlarının Əliyev qardaşlarının olması, ilk dəfə inşa edilən evlər, kəndlərin adlarının mənşəyi haqqında kitabda məlumatlar verilib.

Lakin kitabda Ucar stansiyasında Biyan zavodunun "1902-ci ildə "Urqarta" ingilis şirəti tərəfindən tikilməsi" faktları ilə bağlı yazılmış məlumatlatlar həqiqəti əks etdirmir [11,s.26-27]. Əslində Biyan zavodu Ucar stansiyasında 1899-cu ildə ingilis təbəəsi A.Urkqard tərəfindən inşa olunmuşdu.

N. Tapdıqoğlunun "Ucar rayonu və onun toponimiyası: [qısa ensikloopedik dərgi]" kitabında [20] rayonun kəndlərlərinin adlarının türk mənşəli olması, Ucar, Qaradağlı əhalisinin Cənubi Azərbaycanda gəlməsi, bu sözlərin mənşəyi haqqında qısa məlumat verilib. Bundan başqa kitabda 1896-1904-cü ildə Bakı-Batum neft kəməri çəkilərkən Bərgüşad dəmir yolu stansiyası yaxınlığında Neftaşıran qəsəbəsinin salınması haqqında da məlumat var. Buradan kəmərlə axıdılan neft nasoslar vasitəsilə irəli vurulduğuna görə qəsəbə belə adlandırılmışdı. Kitabda həmçinin II Dünya müharibəsinin tərkib hissəsi olan Böyük Vətən müharibəsinin ucarlı iştirakçıları və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş ucarlı qəhrəmanlar haqqında da məlumat verilib.

Hər iki kitabda çoxlu sayda faktlar yazılsa da onların əksəriyyətinin mənbəyi göstərilmədiyindən bunları elmi deyil, puplisitlik yazılar kimi dəyərləndirmək olar. N. Tapdıqoğlunun kitabının 1-119 səhifələrində olan yazıların, eyni kitabda 123-252 səhifələrdə təkrar çap edilməsinin, kitabın bəzən N. Tapdıqoğlu, bəzən isə Vəlişov söy adı ilə təqdim edilməsi anlaşılmazlıq yaradır.

Nizami Tağısoyun "Şilyan: özü, sözü – çeşmənin gözü" kitabı Ucarın ən qədim kəndlərindən bir olan "Yuxarı Şılyan" kəndinin folkloruna, lətifələrinə, şairlərinə həsr olunub. Kitabda digər şairlərlə yanaşı Ucar şəhərində nəşr olunan "Yeni söz"

qəzetində uzun illər çalışmış şair Rəhim Rəvanın şeirləri və qısa tərcümə-halı verilib [21].

Məzahir Əhmədoğlunun "Ucar Gələcəyə inamla baxır" adlı məqaləsində "Bu şəhərin yuxusundan qatarlar keçər", "Həbibinin vətəni", "Dövlət Proqramının icrası yeni mərhələdə" və "Yeni məktəblər, xəstəxanalar tikilir" yarımbaşlıqlarla rayon haqqında maraqlı məlumatlar verilib [8].

Cəvahir Səlimqızının "Mircəfər Bağırov gecə yarısı Ucara kimin yanına getmişdi? – ŞOK" başlıqlı yazısında Ucardan çıxmış tanınış şəxslərin Ucar rayonu haqqında xatirələri öz əksini tapıb [17].

Bir tarixçi kimi Ucarın tarixi ilə bağlı Azərbaycan regionlarının tarixi ilə bağlı nəşr olunmuş kitab və məqalələrimlə [23-48] yanaşı Ucarın tarixinə aid də bəzi yazılarım nəşr olunub. Müəllifi olduğum "Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun-iyul 1918)" kitabında "Ucar stansiyasının strateji əhəmiyyəti" başlıqlı yazı [35, s. 42- 46] və " Ucarda Cənubi Azərbaycan izi" adlı məqalə buna misal ola bilər [48].

"Ucar stansiyasının strateji əhəmiyyəti" başlıqlı yazıda 27 iyun 1918-ci il tarixində Qafqaz İslam Ordusunun Milli Ordu ilə birlikdə bolşevik-erməni daşnaq qüvvələrinə qarşı apardığı ölüm-dirim savaşı olan "Göyçay döyüşü"ndə Ucar stansiyasının oynadığı misilsiz roldan bəhs olunur.

"Ucarda Cənubi Azərbaycan izi" məqaləsində isə Ucar stansiyası və Qaradağlı kəndi əhalisinin Cənubi Azərbaycanın Qaradağ vilayətindən və bu vilayətin yaxınlığında olan Ucarçay mahalından gəldiyi faktlarla əsaslandırılıb.

Ucar rayonu ərazisində planlı şəkildə arxeoloji qazıntılar aparılmayıb. Tapılan maddi mədəniyyət abidələri təsərrüfat işləri görülən zaman təsadüfən aşkara çıxarılmış abidələrdir. Yalnız Bakı-Tbilisi-Ceyhan kəməri çəkiləndə BP şirkətinin sifarişi ilə rayonun Qazyan və Ramal kəndlərində əsaslı şəkildə arxeoloji qazıntılar aparılıb və qədim dövrə aid küp qəbirlər aşkara çıxarılıb.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanasının tərtib etdiyi "Odlar yurdu" başlıqlı

yazının 284-286 səhifəsində qısa olaraq Ucar rayonu haqqında aşağıdakı məlumatlar verilib:

Ucar rayonu yaranma tarixi - 24.01.1939

Ərazisi - 0,83 min kv. km

Əhalinin sayı - 85,0 min nəfər (1 yanvar, 2024-cü il)

Əhalinin sıxlığı - 1 kv. km 102 nəfər (1 yanvar 2024-cü il)

Şəhər - 1

Kəndlərin sayı - 29

Ucar rayonu ilə Bakı arasında olan məsafə - 234 km

Rayonun mərkəzi Ucar şəhəridir.

Ucar rayonu 24 yanvar 1939-cu ildə müstəqil rayon kimi təşkil olunana qədər Göyçay rayonunun tərkibində olmuşdur [49].

Ucar rayonu ərazisində Qafqaz Albaniyasına aid olan yer adları hələ də qalmaqdadır. Albaniya qədim türk və sanskrit dillərində "yüksək", "ucalıq", "zirvə", və "dağ" bildirən "alp", "alb", sözündən və "an" cəm şəkilçisindən yaranmış və "Dağlıq ölkə" mənasını verir [16, s.60].

Mirzəbala Məmmədzadə 1951-ci ildə Ankarada çapdan çıxmış "Azərbaycan tarixində Türk Albaniyası" əsərində qeyd edir ki, "Oğuz xanın babası Qara xanın zamanında yaşamış bir türk qəhrəmanının adı Alban idi. Alban sözünün kökü olan alp sözü əski və bir çox türk dillərində insanlara aid edildikdə qəhrəman, cəsur, igid, əraziyə aid edildikdə isə ucalıq, yüksəklik mənasını verir" [10, s.119-147].

Bəzi müəlliflərin fikirlərinə görə Ucar rayonun Alpı kəndinin adı alpanlı etnoniminin bir qədər dəyişilmiş formasıdır. Alpı yaşayış məntəqəsindən bir qədər kənarda Alvandərə oronimi qeydə alınıb. Alvandərə adı Albandərə sözünün təhrif olunmuş formasıdır. Göyçay və Qəbələ rayonlarında da Alvandərə keçidi ononimi qeydə alınıb [19, s.12-14].

Azərbaycan Respublikası məscidlərinin ensiklopediyası kitabında Ucarda fəaliyyət göstərən məscidlər haqqında da məlumatlar verilib [3].

Ucar şəhərinin Cümə Məscidi Molla Pənah Vaqif küçəsi 7-də yerləşir. İbadət evi 1989-1990-cu illərdə, şəkili memar Durğunov tərəfindən inşa olunub.

Düzbucaqlı formada olan məscidinin divarları kərpiclə işlənib. Məscidin minarəsi yoxdur. Günbəz fasad tərəfdən dəmir təbəqə ilə işlənib və dörd tağla əlaqələnib. Məscidin döşəməsi mərmər, tavanı isə taxtadandır. Hündürlüyü 5 metr olan mehrab, divarın içində yerləşib və tağvari formaya malikdir. Məscidin minbəri taxtadan düzəldilib və 8 pillədən ibarətdir.

Ucarda, müxtəlif zamanlar, bu məsciddən başqa, 2 Cümə məscidi də fəaliyyət göstərmişdi. XX əsrin əvvəllərində Ucarda köhnə Cümə məscid inşa edilmişdir, lakin 1953-cü ildə dağıdılmışdır. Bundan sonra, Ucar şəhər camaatının vəsaiti ilə şəhərin mərkəzində başqa bir Cümə məscidi tikilmişdir. Lakin bu məscid də 1977-ci ilə qədər fəaliyyət göstərmiş və sonradan bağlanaraq, ambar kimi istifadə olunmuşdur. Bügünki Cümə məscidinin digərləri ilə heç bir əlaqəsi yoxdur. Ucar şəhər Cümə məscidi hal-hazırda da fəaliyyət göstərir [3].

Ucarın tarixi bir sıra qonşu rayonların tarixi kimi kömpleks şəkildə tədqiq edilmədiyinə görə fikrimizcə "Ucar tarixi" kitabının yazılmasına ciddi ehtiyac var idi. Sizə təqdim olunan bu kitabı yazmaqda əsas məqəsəd Ucar rayonun qədim tarixə malik ərazisi haqqında ictimaiyyətə geniş məlumat verməkdir. Bununla yanaşı rayonun tarixinə aid bu vaxtda qədər yazılan kitab və məqlələrdə olan nöqsanları, saxtakarlıqları aradan qaldırmağa dair vəzifə kimi qarşıya qoyulmuşdu. Bu kitab Ucar tarixinə aid qədim dövrdən bu günümüzə qədər böyük tarixi dövrü əhatə edən ilk böyük həcimli tədqiqat işidir. Buna görə də kitaba münasibətin birmənalı olmayacağı, tənqidi yanaşmaların olacağı mümkündür və biz bunu təbii hesab edirik. Fikrimizcə bu həm də görülmüş işin davam etdirilməsinin aktuallığını bir daha sübut edəcək.

İnanırıq ki, gələcəkdə Ucar tarixinə aid yeni-yeni kitablar yazılacaq, bununla da tarixçilər Azərbaycan tarixinin daha da zənginləşməsinə öz töhvələrini verəcəklər.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi. Z.M. Bünyadov və Y.B.Yusifovun redaktəsilə, I cild, Bakı, 1994, s. 496
2. Aran rayonları (Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Şirvan, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Mingəçevir, Neftçala, Sabirabad, Salyan və Tərtər, Biləsuvar, Yevlax rayonlarının arxeoloji abidələri) Pul dəfinəsi: [Əlibayramlı və Kürdəmir r-da] //Bakı qəz.. - 1960. - 19 may.
3. Azərbaycan Respublikası məscidlərinin ensiklopediyası /İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzi; red. Ə.Hacızadə; tərt. S.Behbudlu; foto.: M.Qəniyev, H.Məmmədov, E.Arifoğlu.- Bakı: Beynəlxalq Əlhuda nəşriyyatı, 2001.- 310 s. Ucar s. 260-263
4. Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya /tərt. ed. G.Səfərəliyeva; ixt. red. və burax. məsul K.Tahirov; red. L.Axundova.- Bakı, 2016.- 648 s.
5. Cəbiyev Q. Kürdəmirdə orta şəhər mədəniyyətinə aid tapıntılar /Q.Cəbiyev //Xalq qəzeti. - 2009. - 7 noyabr. - s. 5
6. Ciddi H. Ərəb qubalı qədim yaşayış yeri haqqında ilk məlumat: [Kürdəmir rayonu] /H.Ciddi //AzSSR EA-nın Məruzələri.- 1980.- C.XXXVI. - №6. - s. 90-94.
7. Əliyev R. Salyanın tarix və mədəniyyət abidələri. Mədəniyyət, 2008, 17 may S.10.
8. Əhmədoğlu M. Ucar gələcəyə inamla baxır. "Ədalət" qəz. 2011, 3 mart, s. 7.

9. “Göyçay Ensiklopediyası” ISBN 978-9952-39-034-6. Bakı 2023, s. 646
10. Məmmədzadə M.“Azərbaycan tarixində Türk Albaniyası”Azərbaycan jurnalı 1989 №10
11. Nağıyev F. Ucarın tarixi coğrafiyası - Bakı: Araz, 2005. s.160
12. Nəbiyev N. Coğrafi adlar: İzahlı lüğət. Bakı: Azərnəşr, 1982. s. 282
13. Novruzlu Ə. Saatlının tarixi .- Bakı: Elm, 1995. s.114
14. Novruzlu Ə. Cavad bölgəsinin (Sabirabadın) tarixi /Əziz Novruzlu; red. Q.Qoşqarlı; Az. EA Arxeologiya və Etnoqrafiya İn-tu “Daş yaddaşı”.- Bakı: Elm, 1994. s.120
15. Nuriyeva İ.T. Azərbaycan tarixi (ən qədim zamanlardan–XXI əsrin əvvəllərinədək). Ali məktəblər üçün dərslik. – Bakı: Mütərcim, 2015, s. 336
16. Rəcəbli Q.Ə. Azərbaycan tarixi. Bakı, «Elm və təhsil», 2013, s. 544
17. Səlimqızı C. Mircəfər Bağırov gecə yarısı Ucara kimin yanına getmişdi? - Şok. https://publika.az/projects/haralisan/170368.html 30 Sentyabr 2016
18. “Şamaxı ensiklopediyası” Bakı 2015, s. 430
19. Tapdıqoğlu N. Zərdab ensiklopediyası - Bakı: Gənclik, 2009. s.287
20. Tapdıqoğlu, N. Ucar rayonu və onun toponimiyası: [qısa ensiklopedik dərgi] /Nazim Tapdıqoğlu; elmi red.: T.Bünyadov, B.Buda qov.- Bakı: Təhsil, 2005. s.120
21. Tağısoy N. Şilyan: özü, sözü – çeşmənin gözü.Birinci kitab.Bakı, 2009. s.172
22. Xəlilov, T. Hacıqabul abidələr diyarıdır /T.Xəlilov //Mədəni maarif.- 2007.- №7. s.12.
23. Zülfüqarlı M.P. “Sədərəyin mərd mübarizləri” Qanun, 2004, s. 127

24. Zülfüqarlı M.P. “Azadlıq və demokratiya mübarizləri (1988 – 2003)”Bakı, Qanun, 2004, s. 111 (Mingəçevirin ən yeni tarixinə aid)
25. Zülfüqarlı M.P. Dağlıq Qarabağda erməni terrorunun izləri. Qaradağlı faciəsi. 17 fevral 1992 – ci il. (Azərbaycan və ingilis dillərində). Bakı 2010, s. 36
26. Zülfüqarlı M.P. Şamaxı soyqırımı – 1918. SHAMAKHİ GENOCİDE 1918. (Azərbaycan və ingilis dillərində). Bakı, İSBN, 2011, s. 112
27. Zülfüqarlı M.P. Şamaxı qırmızı terrorun hədəfində. 1930-1940-cı illər repressiyaları. (Azərbaycan və ingilis dillərində). Bakı 2012, s.120
28. Zülfüqarlı M.P. Bakının qəhrəman müdafiəçisi. General Məmməd Bağır Hadı oğlu Bağırov. Bakı 2013, s. 68
29. Zülfüqarlı M.P. Erməni mərkəzlərin Sumqayıt təxribatı (Tarixşünaslığın təhlili)GEO Strategiya № 1 (13) Yanvar – Fevral 2013; Sumqayıt hadisəsinin tarixşünaslığı (27-29 fevral 1988-ci il) Journal of Qafqaz University. History, Law and Political Sciences -an International jornal 2013, say 1
30. Zülfüqarlı M.P. Sumgait disturbances in historiographi of Azerbaijan (27-29 fevruaru 1988). Kültür Evreni.UluslararasıHakemli Sosial Bilimler Dergisi say 18, 2013, s. 47-52
31. Zülfüqarlı M.P. Cənubi Azərbaycan tarixnin tarixşünaslığı (1941-1946-cı illər)“Azərbaycan Pedaqoji Universitetinin Xəbərləri” Humanitar elmlər bölməsi Bakı, №2, 2014, s.184-188
32. Zülfüqarlı M.P. Qarabağa yeni turizm marşrutu: Bakı-Quzanlı. “Turizm və Qonaqpərvərlik tədqiqatları.” Beynəlxalq jurnal №5, 2014, s.73-83
33. Zülfüqarlı M.P. Sərsəng SOS: təhlükə altında qalan tarix və mədəniyyət abidələri. Bakı, Mütərcim, 2014, s.120

34. Zülfüqarlı M.P. “Region tarixi”–dərs vəsaiti.Bakı “Mekan Serves NN” 2017, s. 93
35. Zülfüqarlı M.P. Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun-iyul 1918)Bakı, İSBN, 2017, s.110
36. Zülfüqarlı M.P. Dağlıq Qarabağ Muxtar Vilayətinin idarə sistemi (Sovet tarixşünaslığının təhlili). Müasir dövrdə effektiv idarəetmənin problemləri” mövzusunda Respublika konfransının materialları. 27 oktyabr 2017. Bakı 2018, s.73-78
37. Zülfüqarlı M.P. “Göyçay döyüşünün (27-29 iyun 1918-ci il) tarixi əhəmiyyəti”, “Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülü, fəaliyyəti, tarixi əhəmiyyəti” mövzusunda Respublika elmi konfransının materialları. (26-27 aprel 2018-ci il. Sumqayıt Dövlət Universiteti. Sumqayıt 2018, s. 197-198
38. Zülfüqarlı M.P. Göyçay döyüşləri -Türkiyə tarixşünaslığında. Bakı 2018, s.150
39. Zülfüqarlı M.P. Sirli, sehrli Buzovna (Etnoqrafiya). Bakı 2018, 45 s.
40. Zülfüqarlı M.P. Quba qalası-yer üzündən silinmiş tarix (1747-1870) “Turizm və Qonaqpərvərlik tədqiqatları” Beynəlxalq jurnal. №2-3, 2020, s. 70-81
41. Zülfüqarlı M.P. Bolqarstanda XVI əsr Azərbaycan abidəsi-Dəmir Baba Təkə türbəsi.“İdarəetmədə multikultural dəyərlər” mövzusunda beynəlxalq elmi konfransın materialları / Materials Of international scientific conference on "Multicultural values in management". Bakı, Mütərcim, 2020, – 316 səh., s. 46-50
42. Zülfüqarlı M.P. XIX əsrdən yarımçıq qalmış layihələr: Salyan-Cavad, Cavad-Yevlax, Yevlax-Tiflis marşurutları.“Turizm və

Qonaqpərvərlik tədqiqatları” Beynəlxalq jurnal. №1, 2021, s. 99-106
43. Zülfüqarlı M.P. Şuşa-müxtəsər tarix (1752-2022).ISBN, Bakı 2022, s.103
44. Zülfüqarlı M.P. Göyçay tarixi. ISBN, Bakı 2022, s.310
45. Zülfüqarlı M.P. Yer üzündən silinmiş müdafiə istehkamı. Quba qalası (1747-1870). Bakı 2023, s. 44
46. Zülfüqarlı M.P. Göyçay Azərbaycan tarixində və mədəniyyətində (Oçerklər)- Göyçay Ensiklopediyası. Bakı 2023, s. 481-510
47. Zülfüqarlı M.P. Azərbaycan Xalq Cümhuriyyətinin quruculari. Göyçaylı deputat Hacı Hüseyn Hacı Abdulla oğlu Əfəndiyev (1887 (1893?) – 1920). Bakı: Mütərcim, 2024. – 74 səh.
48. Zülfüqarlı M.P. “ Ucarda Cənubi Azərbaycan izi”. 525-ci qəzet. - 2010. - 12 mart. - s. 4
49. https://files.preslib.az//projects/azerbaijan/gl2.pdf#page191

Süni intellekt “Ucar tarixi” haqqında

Ucarın tarixi qədimdir və Azərbaycan tarixinin bir çox mərhələlərini özündə əks etdirir.

Ucarın tarixi – ümumi baxış

Ucar rayonu Azərbaycanın mərkəzi hissəsində, Aran bölgəsində yerləşir. Tarixi əsasən Qədim Albaniya dövrünə qədər gedib çıxır.

Qədim və orta əsrlər

- Ucar ərazisi qədimdə Qafqaz Albaniyasının tərkibində olub.
- Bölgə karvan yolları üzərində yerləşdiyinə görə ticarət və əkinçilik üçün əlverişli sayılıb.
- Orta əsrlərdə ərazi müxtəlif Azərbaycan dövlətlərinin - Şirvanşahlar, Səfəvilər, Qacarlar dövründə idarə olunub.

Adının mənşəyi

- “Ucar” adının mənşəyi ilə bağlı bir neçə fikir var:
- Bəzi tədqiqatçılar bunu “ucqar, kənar yer” mənası ilə əlaqələndirir.
- Digərləri isə qədim türk tayfa adları ilə bağlayır.

Rusiya imperiyası dövrü (XIX əsr)

- XIX əsrdə Rusiya imperiyasının tərkibinə qatıldıqdan sonra Ucar ərazisi Şirvan qəzasının tərkibində olub.
- Əhali əsasən əkinçilik, maldarlıq və ipəkçiliklə məşğul idi.

Sovet dövrü

- 1939-cu ildə Ucar rayon statusu alıb.
- Sovet dövründə pambıqçılıq, taxılçılıq və heyvandarlıq inkişaf etdirilib.
- Təhsil, mədəniyyət müəssisələri yaradılıb.

Müstəqillik dövrü

- 1991-ci ildən sonra Ucar Azərbaycanın müstəqil rayonlarından biri kimi inkişaf edir.

- Kənd təsərrüfatı, yol infrastrukturu, sosial obyektlər genişlənib.
- Qarabağ müharibəsi dövründə Ucar arxa cəbhə rayonu kimi mühüm rol oynayıb, çoxlu şəhid verib.

https://chatgpt.com/c/698d72ec-5ed0-832a-a2fd-f69f88537e6f

I . Ucar sözünün mənşəyi

Rayonun tarixi və "Ucar" adının mənşəyi ilə bağlı elmi ədəbiyyatda və sosial şəbəkələrdə müxtəlif məlumatlara rast gəlinir. Məsələn, A.Axundovun 2004-cü ildə nəşr olunmuş "Azərbaycan Dilinin Orfoqrafiya Lüğəti" kitabında qeyd olunur ki, UCAR sözü uçar; böyüyər, yüksələr, ad-san qazanar; uca ər mənasını verir.

Sosial şəbəkələrdə Ucar haqqında ən çox yayılmış məlumat aşağıdakı kimidir: "Ərəb coğrafiyaşünası Əl-Sitəkrinin "Məmləkətlərin yolları" adlı kitabında Ucar adına rast gəlinir. Burada Ucar Azərbaycanda orta əsr şəhəri kimi qeyd olunur" [23].

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, sosial şəbəkələrdə yayılan məlumatlarda görkəmli ərəb coğrafiyaşünasının özünün və əsərinin adı düzgün göstərilməyib. Onun adı Əl-Sitəkri yox, İstəxridir. Tam adı, Əbu İshaq İbrahim ibn Məhəmməd əl-Farisi əl-İstəxri (850-934) İranda (ehtimal Farsda, İstəhrdə) doğulmuş ərəb coğrafiyaçısı və səyyahıdır. Bir sıra Orta Şərq ölkəsinə, ola bilər Məğribə, Siciliyaya və Əndəlusa də səyahət edib. Şəxsi

müşahidələrin və ədəbi materialların əsasında, içində Qərbi Hindistandan Mərakəş və İspaniyaya qədər olan müsəlman ölkələrinin, o cümlədən Azərbaycanın da coğrafi, siyasi və statistik təsvirini verən "Məmləkətlər və yollar haqqında kitab" (араб. كتاب المسالك والممالك — «Китаб аль-масалик ва-ль-мамалик») əsərini yazıb [2, s. 349;17, s.135-136].



Əbu İshaq İbrahim ibn Məhəmməd əl-Farisi əl-İstəxri "Məmləkətlər və yollar haqqında kitab"

Kitabda verilən məlumatlar isə şimali Azərbaycanda olan Ucar yaşayış məskəninə deyil, Cənubi Azərbaycanın Qaradağ, Ərdəbil əyalətlərinin sərhəddində yerləşən Ucar çay vilayətinə aiddir. Bir faktı yaddan çıxarmaq lazım deyil ki, qədim və orta əsr mənbələrində qeyd olunan Azərbaycan ərazi adı çox zaman indiki Cənubi Azərbaycana aid edilirdi. Şimali Azərbaycan isə Arran adlandırılırdı. Bütün bunlar barədə ətraflı məlumat növbəti səhifələrdə veriləcək.

X əsrə aid bu kitabda bu ad Ucan kimi qeyd olunsa da sonrakı dövrlərə aid nəşr olunmuş kitablarda bu yaşayış məskəni Ucar çay və ya Ucar rud kimi göstərilməsi Ucan adının Ucar adının eyni olduğunu sübut edir. Cənubi Azərbaycanın Ucar çay şəhərinin daha qədim olması və tarixi mənbələrdə onun haqqında bəhs edilməsi, belə bir ehtimalın irəli sürülməsinə imkan verir ki, həmin ərazidən müxtəlif illərdə Şimali Azərbaycana köçmüş adamlar bu adı özləri ilə şimala gətirmiş, yaşadıqları yeni əraziyə Ucar adını vermişlər.

Həmçinin sosial şəbəkələrdə yayılan digər yazılarda qeyd olunur ki, XV əsrdə yaşamış Azərbaycan şairi Bədr Şirvaninin yazılarında Ucar sözünə rast gəlinir [23]. Bu fikir də həqiqəti əks etdirmir, çünki XV əsrdə yaşamış Azərbaycan şairi Bədr Şirvaninin yazılarında Ucarın deyil, Bərgüşad kəndinin adı ilə bağlı məlumat verilib [14, s. 48]. Nəzərə almaq lazımdır ki, Ucar rayonu ilə yanaşı Qubadlı rayonunda da Bərgüşad adlı kənd var.

Ucar sözünün "Ucqar" sözündən götürülməsinə aid də sosial şəbəkələrdə fikirlərə rast gəlmək olur. Həmin şəbəkələrdə qeyd olunur ki, hazırda Ucar rayonunun Respublikanın mərkəzi hissəsində yerləşməsinə baxmayaraq vaxtı ilə Şirvanşahların paytaxtı Şamaxı şəhərindən ən ucqar ərazidə yerləşdiyinə görə adının "Ucqar" sözündən götürüldüyü ehtimal olunur" [23]. Digər bir fərziyyəyə görə isə Şamaxı bəylərinin otlaq-örüş və ov yerlərinin Kür çayı sahillərinin ucqar hissəsində yerləşdiyindən, "Ucqar-Ucar" kimi tələffüz edilərək, müasir deyim şəklinə düşmüşdür [19].

Fikrimizcə bu fikirlər məntiqə uyğun deyil. Çünki paytaxt Şamaxı şəhərindən Şirvanşahların ən ucqar ərazisi Ucar deyil, Zərdab olmuşdu. Bu fikri söyləyənlərin məntiqi ilə onda gərək Zərdabın adı Ucar olmalı idi.

Digər buna oxşar fikirdə qeyd olunur ki, "toponimlərin yaranmasına aid tarixi məlumatlar hələ də xalq arasında yaşamaqdadır və yaxud təbii-coğrafi proseslərlə bağlı yaranan toponimlərə aid hadisələrin təkrarlanması indinin özündə də baş verir. Məsələn rayon mərkəzi kimi adlandırılan "Ucar"

toponiminin yaranmasını buna misal göstərmək olar. Bu mənada iki fərziyyə mövcuddur. Bunlardan biri "uçar" sözünün yerli dialektə və şivə tələffüzünə uyğun olaraq sonrada "ucar" kimi möhürbəndlənməsidir ki, gur sulu Göyçay çayının və onun qolları üzərində torpaq bəndlərinin tez-tez yuyulması, uçması təhlükəsinin yaddan çıxmaması, xalq arasında təşvişə səbəb olması nəticəsində "Uçar"-"Ucar" toponiminin meydana gəlməsi fikri söylənilir. Yaşlı sakinlərin bildirdiyinə görə, keçən əsrin 30-40-cı illərinədək Göyçay çayının daşması, bəndləri uçurması, təsərrüfat-əkin yerlərinə ziyan vurması halları müntəzəm olaraq təkrarlanmışdır" [19].

Fikrimizcə Ucar stansiyasının yaranma səbəbləri və tarixini nəzər alsaq bu versiyanı da məntiqə uyğun hesab etmək olmaz.

Rayonun adının Uçar sözündən və ya qədim Şirvanda yaşamış "Uçar" tayfasının adından götürülməsi ilə bağlı irəli sürülən fikir də həqiqəti əks etdirmir. Məsələn, "Kaxetidəki Ucar qalası..." başlıqlı məqalədə [6] müəllif heç bir mənbəyə istinad etmədən qeyd edir ki, Gürcülərin Kaxeti adlandırdırdıqları mahalın sakinlərindən biri Ucar türkləri idi. Onların qalası xristian salnaməçilərin əsərlərində Ucar, Uçar, Ucarma formalarında yazıya alınmışdır. Ucarlar Kür, Qax, Çolak nəsilləri ilə birlikdə İveriyanın baqrationlara qədərki mədəniyyətini yaratmışlar. Müəllif hətta heç bir mənbəyə istinad etmədən, əsası olmayan belə bir fikir də yazır ki, "Ucar isə Nuhun gəmisinin 4 adından biridir. Bizim babalarımız Nuhun yelkənli gəmisinə uçar deyirdilər. Quşlar qanadları ilə göydə uçan kimi Nuhun gəmisi yelkənləri ilə sularda uçurdu."

Müəllif hətta Gürcüstanın Kaxetiya vilayətində olan Ucarma qalasının Ucar qalası kimi təqdim edir. Həmçinin qeyd edir ki, Z.B.Ançabadzenin, İ.İ. Şöpenin kitablarında yazılmış "Ucarma qalası 262-265-ci illərdə Bakurun nəvəsi Asparuxun, 456-464-cü illərdə İveriyanın Kimer əsilli hökmdarı Vaxtanq Qorq Aslanın iqamətgahı olmuşdur" [6]. Müəllif daha sonra yazır: "Kaxetidəki Ucar qalasında xristianlıqdan qabaq Ucarma adlı məbəd var idi. Xristianlıq dövründə həmin məbədi söküb

yerinə kilsə tikdilər. Ucarma Ucar nəslinin ziyarətgahı deməkdir.”

Azərbaycan tarixində Ucarma qalasının adı bir hadisə ilə əlaqədar çəkilsə də onun Ucar sözü ilə əlaqəsi haqqında heç bir məlumat verilmir. Hadisə haqqında belə yazılıb: “1068-ci ilin əvvəlində Gürcüstana yürüş edən sultan Alp Arslan gürcü hökmdarı IV Baqratın və Cəfərilər sülaləsindən olan Tiflis əmirinin sultana itaət andını qəbul edir. Alp Arslan müttəfiqi olan Şavurun varisi, hakimiyyətə 1067-ci ildə, atasının ölümündən sonra gəlmiş II Fəzli özünün Tiflis və Rustavidəki atabəyi təyin edir. 1068-ci ildə II Fəzl Gürcüstana hücum edərək, bir çox yaşayış yerlərini talan edir. Msxeti yaxınlığında baş vermiş döyüşdə II Fəzlin qoşunları darmadağın edilir. Şəddadi hökmdarı böyük dəstə ilə Kaxetiyaya qaçır. Lakin əvvəlcə II Fəzlə sığınacaq vermiş Kaxetiya hökmdarı Bacarma və Ucarma qalaları müqabilində onu gürcü hökmdarına təslim edir. IV Baqrat öz qoşunları ilə Arrana gəlmiş Savtəkinin tələbi ilə II Fəzli azad edir [4,s.291].

Fikrimizcə heç bir elmi mənbəyə istinada etmədən bu məqalədə qeyd olunan fikirlərin Ucar rayonunun adı ilə heç bir əlaqəsi yoxdur. Ucarma sözünün oxşarlığına görə Ucara aid edilməsini isə müəllifin məsələyə subyektiv yanaşması kimi qəbul etmək olar.

Aparılan tədqiqatlar sübut edir ki, yuxarıda qeyd olunan və sosial şəbəkələrdə yayılan məlumatların əksəriyyəti mənbəyi olmayan, hansısa naməlum şəxslərin subyektiv fikirlərinə söykənən məlumatlardır. Fikrimizcə bu cür yanlışlıqların meydana gəlməsinin əsas səbəbi bəzi tarixçilərin Ucar sözünün mənşəyini bütöv Azərbaycan və ümumi Türk dünyası miqyasında deyil, yalnız şimali Azərbaycan və Gürcüstan ərazisində axtarması və öz subyektiv fikirlərini həqiqət kimi qələmə verməsi olmuşdur.

N. Tapdıqoğlu öz kitabında qeyd edir ki, “tarixi mənbələrdə Ucar adlı tayfanın ad çəkilir. Orta əsrlərdə Anadoluda Uçan (Uçar) adlı mahal olub. Bu mahal çox güman

ki, Cənubi Azərbaycanın Ucan (Ucar) şəhərlərinin (XIII əsrin əvvəllərindən məlumdur) adı ilə bağlıdır.

Digər bir fikrə görə Ucar oykonimi Səlcuqlar zamanında sərhəd torpaqlarını idarə etmək üçün hərbi xidmət müqabilində sərhədçilərə bağışlanan Uc torpaqlarının adı ilə əlaqədardır.

Osmanlı tarixçisi İbrahim Əfəndi Pənçəvinin (1574-1649) "Tarix" əsərində Azərbaycanda Ucar adlı ərazi qeyd olunub" [15, s. 89].

Bu faktı irəli sürən müəllif göstərdiyi kitabın hansı səhifəsində bu faktın verilməsini qeyd etməməsi bu fikrin elmi əhəmiyyətinə kölgə salır. Bundan başqa qeyd etdiyi kitabda yazılmış Ucar adlı ərazinin hansı Azərbaycana, şimali və yaxud cənubi Azərbaycana aid olmasına aydınlıq gətirməməsi də fakta elmi şəkildə istinad etməyə imkan vermir.

Ucar sözünün mənşəyi ilə bağlı ciddi tədqiqatlar aparılmadığından bəzən bir kitabda verilmiş və Ucara aid olmayan məlumatı başqa kitabda heç bir əsas olmadan Ucara aid edilməsi hallarına da rast gəlmək olur ki, bu da tarixi saxtalaşdırmaqdan başqa bir şey deyil.

Məsələn, F.Məmmədovanın Qafqaz Albaniyasına aid 1986-cı ildə rus dilində, 1993-cü ildə Azərbaycan dilində nəşr olunmuş kitablarında [11; 29], "Albaniyanın tarixi coğrafiyası" adlı fəslin "Siyasi inzibati vahidlər. Etnik sərhədlər" başlıqlı birinci paraqrafında belə bir məlumat yazılıb: " "VII əsr Erməni coğrafiyası"ndakı məlumata görə sol sahil Albaniyası on bir vilayətdən ibarət idi. Alban mənbəsi bunlardan daha böyük və siyasi cəhətdə əhəmiyyətli olan dördünü – Qəbələ, Şəki, Kambisena və Əcəri vilayətlərinin adını yada salır" [11,79; 29, s. 89].

Əcəri-Həcəri Qəbələ vilayətinin cənubunda Qarasu və Girdiman çayları arasında yerləşmişdir və cənubda Kür çayına söykənirdi. "VII əsr Erməni coğrafiyası"nda Əcəri həm də Dəşt-i-Barkan adlandırılır. Bu vilayət barəsində alban müəlliflərinin qeydləri qanunsuz olaraq qarışıq nigahlara yol verilməsi ilə əlaqələndirilir. Bu cür nigahlar Arşakaşen və Əcəri vilayətlərində təsadüf olunurdu (Kalantaklı II 32). Əcəri

barədə əlimizdə başqa bir məlumat yoxdur [11,s.85;29,s.94-95].

Göründüyü kimi F.Məmmədovanın kitabı 1986-cı ildə nəşr olunub və burada Əcəri-Həcəri vilayətinin Ucara aid olmasına aid heç bir fikir yoxdur. Onun kitabından 21 il sonra nəşr olunmuş, məsul redaktoru akademik N.Vəlixanlı olan 7 cildilik Azərbaycan tarixinin ikinci cildində həmin fakt F.Məmmədovanın əsərinə istinad edilmədən yazılıb və heç bir əsas olmadan bildirlib ki, Qafqaz Albaniyasının Eceri (Heceri) vilayətinin adı müasir Ucar şəhərinin adında qorunub saxlanmışdır [4, s.116].

F.Məmmədovanın kitabında Əcəri-Həcəri Qəbələ vilayətinin cənubunda Qarasu və Girdiman çayları arasında yerləşdiyi, cənubda Kür çayına söykəndiyi qeyd olunur.

Qarasu çayı Ucar, Kürdəmir, Sabirabad, Şirvan rayonlarında Kür çayının qədim yatağı ilə axan çaydır. Girdimançay - Kürün sol qoludur. İsmayıllı, Ağsu və Kürdəmir rayonları ərazisindən axır. Məlumat üçün qeyd edək ki, Qarasuçay adında Qəbələ, Oğuz və s. rayon ərazilərində də çay var. Bundan başqa Cənubi Azərbaycanın Ədrəbil əyalətindən axaraq Araz çayına tökülən çay da Qarasu adlanır.

Əcəri-Həcəri vilayəti haqqında ilk məlumatı F.Məmmədovun əsərində verildiyi və bu sözün Ucar sözü ilə əlaqəsi haqqında heç bir fikir irəli sürülmədiyi halda N. Vəlixanlının məsul redaktor olduğu kitabda belə yanlışlığa yol verilməsi bir də ona görə qəbul edilməzdir ki, bu yanlış faktlara sonradan digər müəlliflər də istinad etmişlər.

Həmin müəlliflər öz əsərlərində N.Vəlixanlının məsul redaktor olduğu kitaba istinad edərək "Eceri (Heceri) sözünü Əcəri yazaraq bunun Ucar rayonunun adının dəyişilmiş forması adlandırmışlar [5, s. 40]. Qanunsuz olaraq qarışıq nigahlara yol verilməsnin təsadüf olduğu Əcəri vilayətinin heç bir əsas olmadan Ucara aid edilməsi saxtakarlıqla yanaşı burada yaşayan əhaliyə qarşı ən azı hörmətsizlikdir. Fikrimizcə reallığı əks etdirməyən bu cür yanlış fikirlərin aradan qaldırılmasına müasir dövrdə ciddi ehtiyac var.

Ucar sözünün mənşəyi ilə bağlı tarixçi Sara Aşurbəyli də müəyyən yanlışlıqlara yol vermişdi ki, bu da sözün mənşəyi ilə bağlı səhv ehtimalların yaranmasına səbəb olmuşdur. Məsələn, S. Aşurbəyli öz kitabında "Gevondun (VIII əsr) "Xəlifələrin tarixi" əsərində adı çəkilən Xecar sözünü Ucar, bir yerdə Xozmas sözünü Xaçmaz [1, s. 39], başqa yerdə isə Xozmas sözünü Ucar [1, s. 48] sözü olduğunu yazmışıdır ki, fikrimizcə bunun da heç bir elmi əsası yoxdur. Bunu tarixçinin subyektiv yanaşması kimi dəyərləndirmək olar.

Ucar rayonu ərazisindən Göyçay çayı keçsə də bu çayın adının Qarasu və Girdiman çayları ilə yanaşı qədim mənbələrdə çəkilməməsi də maraq doğurur. Ümumiyyətlə faktlar sübut edir ki, Ucar kimi Göyçay şəhərlərinin və o cümlədən Göyçay çayının adı da bu əraziylərə sonradan köçmüş əhali tərəfindən gətirilib. Ona görə də S. Aşurbəylinin əsərində XVI əsrə aid Şamaxı vilayətinə aid qeyd olunmuş 16 sancaqlığın siyahısında Ucar və Göyçayın adı yoxdur [1, s.350]. Göyçay sözünün mənşəyi ilə bağlı "Göyçay tarixi" kitabında geniş açıqlama verilib [21, s.15].

Yuxarıda Ucar sözünün mənşəyini Qafqaz Albaniyasında VII əsrdə olmuş Əcəri vilayəti ilə, Ucar tayfası ilə və ya III əsrdə olmuş Ucarma qalası ilə bağlı hesab edənlərin arqumentlərinin səhv olduğunu tarixçi S.Aşurbəylinin "Şirvanşahlar" əsərindəki faktlarla sübut etmək mümkündür. Həmin əsərdə Şirvanın XVI əsrə aid yer adlarından Ağdaş, Zərdab və hətta Ucar rayonun hazırda kəndi olan Şilyanın (Siryan-Sirhan) adını çəkilməsi, Ucar haqqında məlumat verilməməsi sübut edir ki, Ucar adı Şimali Azərbaycan ərazisinə sonradan gətirilib. S.Aşurbəyli yazır: "Türklər tutduqları Azərbaycan şəhərlərində öz qarnizonlarını yerləşdirdilər və ölkəni paşalıqlara və sancaqlara böldülər. Şirvan iki bəylərbəyliyə - Şamaxı və Dərbənd bəylərbəyliklərinə bölündü. Osman paşa Şirvan bəylərbəyi təyin olundu. Şamaxı vilayəti 16 sancaqdan ibarət idi: Lahıc (Hövz-i Lahıc), Ağdaş, Qəbələ, Salyan, Zərdab, Şəki, Bakı (Badku) (Abşeronla birlikdə - S.A.) Səde-ru, Qara Ulus, Axtı,

İxir, Diku, Siryan (Sirhan), Osmani, Xudaverd (Xudaderd), Mahmudabad, Ərəş. Dərbənd vilayəti 8 sancaqdan ibarət idi: Dəmirqapı (Sancaq başı), Şabran (Şaburan), Axtı (bu sancağın adı Şamaxının 10-cu sancağı kimi çəkilir), Quba, Müskir (yaxud Məskür), Kürə, Çıraq , Restav" [1, s. 350].

Buradan belə bir nəticə çıxarmaq olar ki, əgər Albaniya ərazisində III və ya VII əsrdə Ucar adlı yaşayış məskəni olsaydı, XVI əsrə aid Şamaxı bəylərbəyi ərazisində də mütləq Ucar adına rast gəlinərdi. Bu cür faktlar bir daha təsdiq edir ki, XIX əsrdə Bakı-Tiflis dəmir yolu çəkilənə qədər Ucar stansiyası və ya Ucar adlı yaşayış məskəni Şimali Azərbaycan ərazisində olmayıb.

Sünu intelekin verdiyi məlumatda da qeyd olunur ki, Şimali Azərbaycanda Ucar toponimi, *"konkret toponim kimi xəritələrdə sabit şəkildə yalnız XIX əsrdən sonra yer alır"* (https://chatgpt.com/c/69c4d761-5a74-8394-bffd-ce73e66c12b2)

Faktlar sübut edir ki, Ucar sözü Cənubi Azərbaycanın Ərdəbil, Qaradağ və Şimali Azərbaycanın Lənkəran xanlıqlarının sərhəddində çaylarla zəngin dağlıq ərazidə yerləşmiş tarixi mənbələrdə Ucar çay və ya Uca rud kimi qeyd olunan mahalının adından götürülüb. Deməli Şimali Azərbaycandakı Ucar yer adı Cənubi Azərbaycan mənşəli olub, mənası "Uca", "Uca çay"deməkdir. Həqiqətən də Ucar çay vilayəti uca dağların qoynunda, çaylarla zəngin bir ərazidə yerləşir. "Uca" sözünün axırına əlavə olunmuş r hərfi isə çay mənası verən rud sözünün ilk hərfi kimi ada əlavə olunub və bununla da "Ucar" sözü əmələ gəlib. Bu deyilənləri elmi cəhətdən əsaslandırmaq üçün faktlara müraciət edək.

"Ucar" sözünün mənşəyi ilə bağlı ciddi araşdırmaların aparılması daha düzgün, daha maraqlı faktların ortaya çıxmasına səbəb olmuşdur.

Quzey Azərbaycandakı yer adlarının tədqiqi zamanı belə bir nəticəyə gəlmək olur ki, bunların əksəriyyətinin Güney Azərbaycanla bilavasitə bağlılığı var. Azərbaycan uzun illər

işğallara, zor gücünə assimilyasiyalara və yer adlarının dəyişdirilməsi siyasətinə məruz qalmasına baxmayaraq, əlamətdar haldır ki, xalq çətinliklə olsa da belə qədim yer adları qoruyub saxlaya bilib. Xalqın qoruyub saxladığı bu adlar vətənin böyüklüyünü, o taylı, bu taylı Azərbaycanın bütövlüyünü sübut edən ən etibarlı faktlardandır. Türkmənçay müqaviləsindən sonra ikiyə bölünmüş Azərbaycanın cənubu ilə şimalı arasında əlaqəni, birliyi sübut edən yer adlarından biri də "Ucar"dır.

Sonradan yaranan Ucar stansiyası Bakı – Tiflis dəmir yolunun üstündə yerləşdiyinə görə XIX əsrin II yarısından bu əraziyə iş dalınca gələnlərin sayı artırmışdır. Faktlar sübut edir ki, gələn əhalinin içərisində Cənubi Azərbaycanın Ucar çay və Qaradağ vilayətinin sakinləri çoxluq təşkil etmişdir. Həmin əhali "Ucar", "Qaradağlı" və s. yer adlarını da özləri ilə şimalı Azərbaycana gətirmişlər [20; 22].

Rayonun Qaradağlı kəndinin də əsasının Cənubi Azərbaycanın Qaradağ vilayətindən gəlmiş əhalinin qoyması və başqa faktlar məhz bu qəbildəndir. Cənubi Azərbaycanın Qaradağ vilayətindən gəlmiş əhali təkcə Ucarda deyil, Azərbaycanın 16 rayonlarında eyni adlı kəndlərin əsasını qoymuşlar. Konkret olaraq Azərbaycan Respublikasının Şəki, Xaçmaz, Gədəbəy, Salyan, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Kəlbəcər, Beyləqan, Tərtər, Goranboy, Kəngərli, Bərdə, Ağdaş, Ucar rayonlarında, bundan başqa tarixi Azərbaycan ərazisi olan, hazırda Rusiya Federasiyasının Dağıstan MR tərkibindəki Dərbənd rayonda da əhalisi azərbaycanlılardan ibarət Qaradağlı kəndi var. Hətta Ermənistan SSR-in azərbaycanlılar yaşayan Qəmərli (Artaşat) rayonunda da Qaradağlı kəndi olub. Lakin sonradan kəndin adı dəyişdirilib. Cənubi Azərbaycanda Qaradağ vilayətinin olması, Xürrəmilərin əsas iqamətgahı olan Bəzz qalasının bu vilayətdə yerləşməsi, Azərbaycan xalqının qəhrəman oğlu, 1905 - 1911-ci illər hərəkatının lideri, "Sərdari milli" adını almış Səttar xanın burada anadan olması və s. faktlar qaradağlıların tarixən qəhrəman və mərd insanlar olduğunu sübut edir [20, s. 4].

Ucar rayon mərkəzindən 11 km cənub qərbdə yerləşən Qaradağlı kəndinin və Qaradağlı inzibati ərazi dairəsinə daxil olan Çiyni kəndinin adının da mənşəyinin Cənubi Azərbaycanla bağlı olduğunu N. Tapdıqoğlu öz kitabında təsdiq edir. Onun fikrincə Qaradağlı tayfasının ilk yaşayış yeri Türkiyənin Anadolu vilayəti olmuş, onlar sonralar İran Azərbaycanına gələn Şahsevən qəbiləsinin mənşəyindən törəmişlər. Qaradağlılar Səlcuq Türkləri ilə qaynayıb qarışmış və İran Azərbaycanının Qaradağlı ərazisində maldarlıqla məşğul olmuşlar. Bu tayfaya məxsus nəsillərin böyük bir qismi sonlaralar şimali Azərbaycana köçərək məskunlaşdıqları yerlərə tayfalarının adını vermişlər.

Qaradağlı inzibati ərazi dairəsinə daxil olan Çiyni kəndi isə Qızılbaş tayfa ittifaqına daxil olan Qacar əsilli Çiyni türk tayfasının adını daşıyır. Hazırda Cənubi Azərbaycanda çoxlu sayda Çiyni adlı yaşayış məntəqələri var [15, s. 53-54].

Fikrimizcə Ucar şəhəri və qonşu rayonların dini məzhəb mənsubiyyətinə aid sosioloji sorğular keçirilsə Ucar stansiyasının ilk sakinlərinin cənubi Azərbaycandan gəlməsi ehtimallarını sübut edən digər maraqlı faktları üzə çıxarmaq olar.



Faktlar sübut edir ki, rayonun mərkəzi olan Ucar şəhərinin əhalisinin mütləq əksəriyyəti İslam dininin şiə məzhəbinə aid olduqları halda rayonun əksər kəndlərinin, qonşu Zərdab, Kürdəmir, Ağdaş rayonlarının əhalisinin sünni məhzəbinə, Göyçay rayonunun əhalisinin isə nisbətən qarışıq, şiə və sünni məhzəbinə aiddir.

Ucar şəhəri əhalisinin ətraf ərazilərin əhalisindən fərqli olaraq əksəriyyətinin İslam dininin şiə məzhəbinə aid olması da bir daha təsdiq edir ki, Ucar hələ kiçik dəmir yolu stansiyası kimi yaranarkən burada məskunlaşmış əhalinin əksəriyyəti Cənubi Azərbaycandan buraya köçmüş əhali olmuş və mənsub olduğu dini məhzəbi də qoruyub saxlamışlar. Ucar şəhəri əhalisinin əksəriyyətinin İslam dininin şiə məzhəbinə aid olmasını Ucar Cümə məscidində asılmış şüar da təsdiq edir.

Bundan başqa təsadüfü deyil ki, ətraf rayonların heç birində Səttarxan küçəsi olmadığı halda Ucarda Cənubi Azərbaycan Məşrutə hərəkatının rəhbəri, Qaradağ vilayətində anadan olduğuna görə Səttar xan Qaradağı kimi tanınan, Azərbaycan xalqının qəhrəman oğlu Səttar xanın adına küçə var. Ucar şəhərindəki Səttarxan küçəsi Xətai və Oğuz küçələri ilə kəsişən yaraşıqlı küçələrdən biridir.



Təbrizin Məşrutə bağında Səttar xana qoyulmuş heykəl

Bəs “Ucar” sözünün mənşəyinin Cənubi Azərbaycanla bağlılığını sübut edən digər faktlar da varmı? Faktlara müraciət edək.

Akademik N. Vəlixanlı qeyd edir ki, “Ucan (اجـن Uçan) – Rey yolu üstündə Təbrizin 10 fərsəxliyində kiçik şəhərdir. X əsr müəlliflərinin Azərbaycanın çiçəklənən, bir-birinə bənzəyən kiçik şəhərləri sırasında adını çəkdikləri Ucanı monqol hücumundan sonra burada olmuş Yaqut artıq xaraba vəziyyətində görmüşdü (Yaqut, 1906, c. I, s.210). Onun sözlərinə görə, Rey yolu ilə bu şəhəri Təbrizdən 10 fərsəxlik məsafə ayırır. Şəhərin əvvəllər qala divarları ilə əhatə olunduğunu, bazarı olduğunu bildirən Yaqut monqolların onu dağıtdığını xəbər verir.

Şəhərin monqol hücumundan sonrakı dövrü haqqında məlumat verən Həmdullah Qəzvini isə Səhənd dağı yanında yerləşən bu şəhərin qədimliyini, onun əsasının mifik İran hökmdarı Bican ibn Giv ibn Qodərz (Эвлия Челеби. Путешествия, s.140 - Paycan ibn Keyumərz ibn Qodərz) tərəfindən qoyulduğunu qeyd etməklə yanaşı, Qazan xanın hakimiyyəti illərində onun bərpa etdirilməsi, yenidən üç min addımlıq divarlarla əhatələndirilməsi, ona “Şəhri İslam” adınıın verilməsini də bildirir. Müəllif əhalisi müsəlman (şəfii) olan bu şəhərdə xristian icmasının olduğunu da xəbər verir (Казвини Х. Нузхат, s.43).

Akademik V. V. Bartold bu barədə məlumat verməklə yanaşı, Təbrizdən Miyanəyə gedən yolda, İranın ən sərin yerlərindən biri adlandırdığı bu şəhərdə XIX əsrdə şahın yay saraylarından birinin yerləşdiyini bildirmişdi [17, s.172].

Əbu İshaq İbrahim ibn Muhəmməd əl-Farisi əl-İstəxri, əl-Kərxi “Məmləkətlərin yolları kitabı”nda (“Məsəlik əl-məməlik”) yazmışdı: “Məlum olur ki, Azərbaycanın cənubunda həmin dövrdə ən böyük şəhər Ərdəbil olmuşdur. Ərdəbildən sonra Azərbaycanın ikinci böyük şəhəri Marağa olmuşdur. Ərdəbil və Marağadan sonra üçüncü böyük şəhər Urmiya idi.”

Əl-İstəxri digər şəhərlərin, o cümlədən "Əl-Məyanic, Xunəc, Ucan, Dəxərrəqan, Xuvey, Səlmas, Mərənd, Təbriz, Bərzənd, Varsan, Muğan, Cəbravan, Uşnuh şəhərlərinin kiçik, böyüklükdə bir-birinə bənzər şəhərlər" olduğunu, xüsusi olaraq qeyd edir [18, s.87-88].

Daha sonra N. Vəlixanlı ərəb coğrafiyaşünasının əsərinə istinad edərək yazır: "İstifadə etdiyimiz bu mənbələrdə tarixi Azərbaycanın ərəb vilayəti Azərbaycan hissəsində ən böyük şəhərlər kimi Ərdəbil, Marağa və Urmiyanın, ərəb vilayəti Arran hissəsində isə Bərdə, Bab əl-Əbvab (Dərbənd) və Tiflisin adları çəkilir. Bununla yanaşı cənubda əl-Məyanic (Miyanə), əl-Xunəc (Xunə), **Ucan,** Dəxərraqan, Xuvey (Xoy), Sələmas (Səlmas), Mərənd, Təbriz, Bərzənd, Varsan, Muqan (Muğan), Cabravan, Uşnuh, Əhər, Varzaqan, Varsan, Sisər, Miməz, Bəzz, Saburxast, Cənzə (Qazaka), Neriz, Şiz, Musaabad, Sərat (Sərab), Xan Babək, Bəlhab, Rusbə, Zəncan və b., şimalda Beyləqan, Bərdic, Bərzənc, Cənzə (Gəncə), Şəmkur (Şəmkir), Qəbələ, Şəki, Şamaxı, Şirvan, Abxaz (Layican), Şabran, Bakuh (Bakı), Nəşavə (Naxçıvan) və başqa şəhərlər haqqında məlumat verilir" [2, s. 349; 17, s.135-136: 18, s. 87-88].



Xəzər dənizi "Məmləkətlərin və yollar haqqında kitab"da olan 21 xəritədən biri

Bəzi mənbələrdə qeyd olunur ki, Güney Azərbaycanda Savalan dağından qərbdə Ucarçay mahalı var. Bu da yuxarıda adı çəkilən Qaradağ vilayətinin ərazisinə daxildir [3, s. 301; 22].

Ucar çay vilayəti haqqında İ. Oqranoviç, H.Ə. Dəlili, Cəmşid Məlikli və digər tarixçilərin əsərində geniş məlumat verilib. [7; 10; 30; 31] Bir sıra mənbələrdə Ucar çay şəhərinin xanlıqlar dövründə Ərdəbil xanlığının tərkibinə daxil olduğu qeyd olunur. Tarixçi H. Ə. Dəlili qeyd edir ki, "Ərdəbil xanlığı inzibati cəhətdən Ərdəbil, Meşkin, Arşaq (Ərşə), Nərmin, Bilkac, **Ucarcay** (Ucar rud. Rud – fars dilində çay deməkdir) və Astara mahallarına ayrılmışdır" [7, s. 59].

H. Ə. Dəlilinin "Ərdəbil xanlığı" adlı əsərində göstərilir ki, " **Uçarçay mahalı (Ucar rud)** Ərdəbil xanlığının şimal hissəsində yerləşir. O, şimal və qərbdən Talış xanlığı, Muğan düzü, cənubdan Arşaq mahalı, qərbdən Qaradağ xanlığı ilə

həmsərhəddi. Muğan istisna edilməklə mahalın ərazisi dağlıq sahələrdən ibarətdir. **Uçarçay mahalının** kiçik bir hissəsi meşəlikdir. Lakin üzəri otlaqlarla örtülən dağların ətəkləri çəmənliklərlə əhatə olunub. Mahalın torpağı münbit və məhsuldardı. Burada çoxlu çeşmə və bulaqlar, bir sıra kiçik çaylar, o cümlədən Balha, Daşdibi, Zinğir, Kermi, Bərzədi, Zingibad və s. çaylar vardı [7, s. 62].

H. Ə. Dəlili öz kitabında Ucarçay mahalının kəndləri haqqında da məlumat verib: "Uçarçay mahalının kəndləri: Bən, Üç qaçaq, Yuxarı təpə, Aşağı, Dərviş Görünməz, Yuxarı Şillə, Kermi, Kəbləbağır, Yuxarı Omistan, Orta Omistan, Yuxarı Əkərə, Orta Əkərə, Miri Xanlı, Kəlvan, Köçranın qışlağı, İsfəndiyarava, Yuxarı Zaqra, Aşağı Zaqra, Dazdağ, Ləngiyan, Kəra qaya, Ağa Şidinli, Azartlı, Məqrə, Pərmə, Muxij, Alazar, Cünə kənə, Dəmir daş, Dəmircalu. Uçarçay mahalın mərkəzi Ləngiyan kəndi idi. Kənd kiçik olmasına baxmayaraq müdafiə qalası və istehkamları var idi" [7, s. 63; 30, s.145; 31, s.10].

Yuxarıda qeyd olunan faktlardan aydın olur ki, Ucarçay mahalı Ərdəbil, Qaradağ və Lənkəran xanlıqlarının sərhədlərində yerləşdiyindən bəzi dövrlərdə bu mahal Ərdəbil, Qaradağ, bəzi dövrlərdə isə Lənkəran xanlığının tərkibində olmuşdur. Astaranın isə Ərdəbil xanlığının ərazisinə daxil olmasına aid faktlar da mövcuddur

Lənkəran xanlığının tərkibində bu yaşayış məntəqəsi Ucar Rud adlandırılmışdır. "Rud" sözü talış dillərində də "çay" deməkdir və hazırda Lerik rayonunda Çayrud kəndi, Xocavənd rayonunun Hadrut (iki çay arası) qəsəbəsi və s. yer adları bu adı özündə qoruyub saxlayır.

Bu məsələ barədə Qənbər Əli Xoşayine "Ərdəbil şəhəri XIX – XX əsrlərdə (Tarixi -etnoqrafik tədqiqat)" adlı araşdırmasında qeyd edir ki, "Ərdəbil xanlığının mahalları və əhalisinin məşğuliyyəti barədə məlumat verən tarixçi H. Dəlili bir sıra məsələlərdə, məsələn, xanlığın konkret sərhədlərini müəyyənləşdirərkən bəzi qüsurlara yol vermişdir. Beləki, o, xanlıqlar dövründə Ərdəbil xanlığının inzibati cəhətdən Ərdəbil, Meşkin, Ərşaq, Nəmin, Vilgic, Ucarçay və Astara

mahallarına ayrıldığını yazmışdır. Bu halda Lənkəran xanlığına mənsub olan Nəmin, **Ucarçay**, Vilgic və Astara mahallarını nəzərə almasaq, o zaman Ərdəbil xanlığının yalnız Ərdəbil, Meşkin və Ərşaq mahallarından ibarət olduğu qənaəti hasil olur ki, bu da həqiqətə uyğun deyil...Gülüstan və Türkmənçay müqavilələrindən sonra vaxtilə Lənkəran xanlığına aid olan **Ucarçay**, Vilgil (mərkəzi şəhəri Nəmin olmaqla), Astara mahalları Qacarlar dövlətinin tərkibinə keçdiyindən, onlar Ərdəbil əyalətinin tərkibinə daxil edilmişdi"[13, s. 6-7].

Tarixi mənbələrdə Lənkəran xanlığının gah 6, gah 10, gah da 11 mahaldan ibarət olması aid faktlara rast gəlirik. Eyni zamanda mahalların adlarında da fərqlilik var. Xanlıq haqqında əsas mənbə fars dilində yazılmış "Cavahirnameyi-Lənkəran" (Səidəli Kazımbəyoğlu, 1869) və "Əxbarnamə" (Mirzə Əhməd Mirzə Xudaverdi oğlu, 1882-1883) əsərləridir. "Cavahirnameyi-Lənkəran" əsəri 2005-ci ildə Səfər Şirinovun tərcüməsi və Hacı Etibar Əhədovun redaktorluğu ilə "Səidiyyə" adı altında çap olunmuşdur.

"Səidiyyə" kitabında xanlığın mahallarının sayının 11 olduğu göstərilir – Astara, Çayiçi Lənkəran, Dırığ (Derığ), Dəştvənd, Əsalim, Qorqanrud, Muğan, Uluf, **Ucar rud,** Vilgic və Zuvand" [9, s. 28].



Hazırda digər ərazilərdə də Ucar adı ilə bağlı yerlərə rast gəlinir. Məsələn, Dərbənd şəhərinin daxilində və ətrafındakı türk toponimlərindən olan **Boyat ucarı,** Boyat qapı toponumlərinin Ucarla əlaqəsi olması şübhəsizdir [8].

Azərbaycan Respublikasının Ucar rayonu ilə qonşu olan Kürdəmir rayonu ərazisində Ucarlı kəndi də mövcuddur. Bu yaşayış məntəqəsini Ucardan gəlmiş ailələr saldığı üçün belə adlandırıldığı ehtimal olunur. Qeyd etmək lazımdır ki, Türk xalqlarının yaşadığı ərazilərin bir çoxunda Ucar adının oxşarı Ucan, Uçan, Urjar və s. yer adları mövcuddur. Maraqlı faktlardan biri Şərqi Qazaxıstan vilayətində 143,5 min hektar əraziyə malik Milli Təbiət Parkı olan Urjar rayonu və Urjar çayı mövcuddur [33].



Ucar rayonun gerbi



Qazaxstan tarixi” kitabında qeyd olunur ki, “1855-ci ildə Vernova ətrafına Sibirdən böyük Alma - Ata yaşayış məntəqəsini formalaşdıran 400 ailə gəlmişdi. Həmin vaxtda da Lepitsk, Urjar, Kiçik Alma-ata, Talqars, İssık yaşayış məntəqələri və Uzun Aqaç və Kastek müdafiə istehkamları formalaşmışdı” [27, s186].

Şərqi Qazaxstandakı Urjar rayonu və Urjar çayının adı ilə Cənubi Azərbaycandakı Ucar çay və Şimali Azərbaycandaki Ucar rayonunun adı arasında əlaqənin olub, olmaması haqqında hələlik əlimizdə əsaslı faktlar yoxdur. Lakin çox güman ki, Orxon – Yenisey abidələrindən başlayaraq Dəclə-Fərat ərazisinə qədər olan geniş ərazidə yaşamış, türk tayfalarının və yer adlarının mənşəyi ilə bağlı gələcək tədqiqatlar bu adların bir-biri ilə bağlılığına aid yeni faktlar üzə çıxaracaqdır.

Araşdırmalar sübut edir ki, Azərbaycanın yer adlarının obyektiv tədqiqi müasir dövrdə olduğu kimi gələcəkdə də

aktual olaraq qalacaq. Ucar sözünün mənşəyi ilə bağlı tədqiqatların davam etdirilməsi fikrimizcə yeni-yeni maraqlı faktların üzə çıxmasına kömək edə bilər.

İstifadə olunmuş ədəbiyyat

1. Aşurbəyli S. Şirvanşahlar dövləti (VI –XVI əsrlər). Bakı: Azərnəşr, 2006, 416 s.
2. Ağayev R. "Əl-İstəxrinin "Əl-məsalik va-l-məmalik" əsəri Azərbaycan haqqında" // Tarix və onun problemləri (ISSN 1047). Nəzəri, elmi, metodik jurnal. № 4, 2014,s.349
3. "Azərbaycan tarixi" (uzaq keçmişdən 1870-ci ilə qədər. Red. S. Əliyarlı) Bakı 1996, s. 301
4. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı. " Elm". 2007. 608 səh. - 24 səh. illüstrasiya.
5. Cəbiyev Q. C. Girdiman tarixi (IV-IX əsrlər). Bakı, "Şərq-Qərb", 2010,616 s.
6. Cəfərsoy İlhami Kaxetidəki Ucar qalası...08/02/2022 https://azpolitika.info/?p=662142
7. Dəlili H.Ə. Azərbaycanın cənub xanlılqları (XVIII əsrin ikinci yarsında). Elm nəşriyyat, Bakı 1979, 144 s.
8. Hacıyev A. XIX-XX əsrin əvvəllərində Azərbaycanın "Dərbənd şəhərinin əhalisinin etnik tərkibi". Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu ELMİ ƏSƏRLƏR Dərbənd şəhərinin tarixi: Azərbaycan və Dağıstan xalqlarının qardaşlıq və dostluq əlaqələrinin parlaq səhifələri mövzusunda beynəlxalq elmi konfransın materialları Xüsusi Buraxılış Dərbənd şəhərinin 5000 illiyinə həsr olunur. Dərbənd 2012, 40 s. 265
9. Kazımbəyoğlu S. "Səidiyyə". B., 2005
10. Məlikli Cəmşid Şəhr-e moqəddəs-e Ərdəbil. Təbriz, 1330, s. 28.
11. Məmmədova F. Azərbaycanın siyasi tarixi və tarixi coğrafiyası. Bakı: Azərnəşr, 1993.

12. Nağıyev F. Ucarın tarixi coğrafiyası /Fazil Nağıyev; baş məsl. və elmi red. B.Budaqov; red. M.Novruzov.- Bakı: Araz, 2005.- 160 s.

13. Qənbər Əli Xoşayine "Ərdəbil şəhəri XIX – XX əsrlərdə (Tarixi -etnoqrafik tədqiqat) 5102.01 – Etnoqrafiya və etnologiya Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Bakı – 2016

14. Salmanov Ç. Qubadlının yer-yurd adları (mononimləri). Simqayıt. "Azəri" nəşroyyatı-2015, 264 s. 48 s.

15. Tapdıqoğlu N. Ucar rayonu və onun toponimiyası: [qısa ensikloopedik dərgi].- Bakı: Təhsil, 2005.- 120 s.

16. Vəlixanlı N.M. "IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı 1974, 223 s.

17. Vəlixanlı N. M. "Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər." Bakı, 2016, 480 s

18. Vəlixanlı N. M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında -Mənbəşünaslıq, Tarixşünaslıq Tarix və onun problemləri, № 4 2014

19. Yunusoğlu Q. "Şilan" toponimi necə "Şilyan" oldu? https://kaspi.az/az/silan-toponimi-nece-silyan-oldu/?action=disablemobile 25.01.18

20. Zülfüqarlı M. P. Qaradağlı faciəsi : Dağlıq Qarabağda erməni terroru: 17 fevral 1992-ci il / M. P. Zülfüqarlı. - Bakı : Qanun, 2010. - 36 s.

21. Zülfüqarlı M. P. Göyçay tarixi. ISBN, Bakı 2022, 310 s.

22. Zülfüqarlı M. P. " Ucarda Cənubi Azərbaycan izi". 525-ci qəzet. - 2010. - 12 mart. - S. 4

23. http://ucar-ih.gov.az/az/ rayon-haqqinda.html

24. Ucar rayonunun tarixi (Ucar rayon Tarix-Diyarşünaslıq Muzeyinin təqdimatında) https://www.youtube.com/watch?v=JcENnSfeBo8

Rus dilində

25. Анчабадзе З.В. Из истории средневековой Абхазии. Сухуми, 1959

26. Всесоюзная перепись населения 1926 года.М.: Геокчайский уезд.Издание ЦСУ Союза ССР, 1928-29. Том 10. Стр. 2-3. Том 11. Стр. 2-3. Том 14.Стр.5. Том 15.Стр.6. Том 16. Стр.4.

27. Кузембайулы А., Абиль Е.А. История Казахстана: Учебник для вузов. 8-е изд. перераб. и доп./ Костанай: Костанайский региональный институт исторических иссле дований, 2006. - 350 с.

28. Крачковский И. Ю., Арабская географическая литература, Избр. соч., т. 4, М.-Л., 1957

29. Мамедова Ф. Д. ПОЛИТИЧЕСКАЯ ИСТОРИЯ И ИСТОРИЧЕСКАЯ ГЕОГРАФИЯ КАВКАЗСКОЙ АЛБАНИИ (III в. ДО н. э. — VIII в. Н. Э. Баку 1986, С. 282

30. Огранович И. Описание Ардабильской провинции пространств . Записи Каказского отдела императорского руского географического общества, кн. X, вып.1, Тифлис, 1874, 214 с.

31. Огранович И. Путешествие в Персию. СПб 1874

32. Шопен И.И. Новые данные о Кавказе и его древних обитателей. Санкт-Петербург, 1866

33. https://ratel.kz/kaz/natsionalnyj_prirodnyj_park_sozdadut_v_urdzharskom_rajone_vko KAZİNFORM 24 dekabr 2016

II. Rayon ərazisi qədim dövrdə

Bərgüşad, Qazyan, Ramal küp qəbirləri, Yuxarı Şilyandan tapılmış dəfinə

Ucar rayonun ərazisi miladdan əvvəl IV əsrdə yaranmış Qafqaz Albaniyasının və onun ərazisində formalaşmış Girdiman (VII əsrin əvvəlləri və 705-ci il) və Şirvanşahlar dövlətlərinin (861-1538) tərkibində əsas karvan yollarının üzərində, strateji cəhətdən əlverişli ərazilərdən biri olmuş və hazırda da strateji əhəmiyyətini saxlayır.

Arxeoloq R.M.Vahidov indiki Ucar ərazisinin tarixi Girdiman dövlətinin ərazisinə daxil olması haqqında yazır: "Girdiman vilayəti, həmçinin, Acınohur-Ceyrançöl ön dağlığından cənuba doğru olan və müasir coğrafi ədəbiyyatda Mərkəzi aran rayonu kimi tanınan ərazilərin də xeyli hissəsini əhatə edir. Buraya Türyançayın aşağı axarından Ağsu və Girdiman çaylarının aşağı axarınadək olan ərazilər, yəni, indiki Ağsu, Kürdəmir, Göyçay, Ucar və Zərdab rayonlarının xalq arasında Şirvan düzü kimi tanınan əraziləri də aiddir " [6,s.73].

Təbii şəraitdən asılı olaraq Girdiman ərazilərində süni suvarmanın tətbiq dərəcəsi də müxtəlif olub. Ağsu, Kürdəmir, Ucar, Zərdab, Ağdaş və Göyçay rayonları ərazisində taxıl sahələri və üzüm bağları mütləq şəkildə suvarılırdı. N.A. Abelovun XIX əsrin sonlarına aid qeydlərində bildirildiyi kimi, Şirvan düzü süni suvarmasız insan yaşamayan boş səhraya bənzəyirdi. Çaylardan çəkilən süni suvarma arxları hesabına həmin ərazilər firavan yaşayış məskənlərinə çevrilib. Süni suvarmanın tətbiq dərəcəsindən asılı olaraq Girdiman ərazilərində müxtəlif suvarma qurğularından istifadə olunub.

Bu məqsədlə hələ erkən orta əsrlərdə salınan bənd və kanalların əksəriyyəti sıradan çıxsa da, onların bir qismindən yerli əhali indinin özündə də yararlanmaqdadır [6, s.168-169].

M.Kalankatuklunun məlumatına görə, Albaniyanın Kürsahili ərazisində həm də külli miqdarda pambıq əkilirdi. Mingəçevir ərazisində aparılan arxeoloji qazıntılar zamanı 3 saylı yaşayış yerinin II mədəni təbəqəsindən tapılan çiyid dənələri bu məlumatı bir daha təsdiqlədi [6, s. 73-74]. Buradan belə bir qənaətə gəlmək olar ki, Kür çayının sol sahili boyunca olan Girdiman ərazilərində də pambıq əkini yerli əhalinin təsərrüfat həyatında əhəmiyyətli yer tutub[6, s.173].

Ucar rayonunun Alpı, Alpout, Bağban, Bağırbəyli, Bərgüşad, Boyat, Çiyni, Gəraybəyli, Xələc, Küçəkənd, Qarabörk, Qaracallı, Qaradağlı, Qazıqumlaq, Qazyan, Quləbənd, Lək, Məlikballı, Müsüslü, Pirkənd, Ramal, Rəstəcə, Şahlıq, Şilyan, Türkəçi və başqa qədim adlara malik kəndlərin hər biri Azərbaycan tarixinin dərindən öyrənilməmiş səhifələrini təşkil edir.

Daimi arxeoloji ekspedisiyaların fəaliyyət göstərdiyi rayonlardan fərqli olaraq Ucar rayonu ərazisində "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi"(CQBKG) ilə əlaqədar arxeoloji işlərin aparıldığı 2013-2018-ci illərə qədər demək olar ki, ciddi arxeoloji qazıntıların aparılmayıb. Bu da Ucar rayonun tarixinin qədim dövrü haqqında elmi ədəbiyyatda məlumatların çox az olmasına gətirib çıxarıb. Lakin rayonun Bərgüşad, Yuxarı Şilyan kəndlərindən təsərrüfat işləri görülərkən, Qazyan, Ramal kəndlərində isə CQBKG ilə əlaqədar arxeoloji qazıntılar aparılarkən qədim dövrlərə aid maddi mədəniyyət abidələri tapılmışdır. Bu da sübut edir ki, rayon ərazisində sistemli şəkildə arxeoloji qazıntılar aparılarsa qədim dövrə aid çoxlu sayda maddi mədəniyyət abidələrinin aşkara çıxarılmasının şahidi ola bilərik.

Yeddicildlik "Azərbaycan tarixi"nin birinci cildində qeyd olunur ki, Qafqaz Albaniyası ərazisində iri küplərdə dəfn etmək adəti geniş yayılmışdı. Belə qəbirlər Mil, Qarabağ və

Şirvan düzlərində, dağətəyi rayonlarda, Kür çayının sahillərində qeydə alınıb. Ağcabədi, Ağdam, İsmayıllı, Göyçay, Ucar, Şamaxı, Xankəndi, Qəbələ rayonlarında, Mingəçevirdə, Qalatəpə xarabalıqlarının ətrafında və başqa rayonlarda yüzlərlə küp qəbir tədqiq edilib. Küplərdə dəfn etmək adəti ən qədim əsrlərdən başlanıb. Bu tip qəbirlər müxtəlif vaxtlarda Ön Asiyada və Qafqazda geniş yayılıb. Albaniyada bu adət e.ə. I minilliyin ikinci yarısından eramızın VIII əsrinədək mövcud olmuşdur [1, s.340-341].

Ucarın Bərgüşad kəndi yaxınlığında m.ə. II əsrə aid Qaratəpə, Qıztəpə, Adsıztəpə yaşayış yerlərində aparılmış arxeoloji tədqiqat işləri nəticəsində antik dövrə aid küp qəbirləri aşkar olunmuşdur. Qəbirlərin hündürlüyü 2 metrə çatır. Burada tapılmış Küp qəbirlər küpün böyüklüyünə, ölünün arxası üstdə qoyulmasına, istiqamətinə görə Azərbaycan ərazisindəki digər küp qəbirlərdən fərqlənir. Əldə olunmuş bəzək əşyaları, keramika məmulatları və s. əsasən Bərgüşad küp qəbirlərini e.ə. III-b.e. II əsrinə aid etmək mümkündür [3].

APA TV-nin yerli bürosunun xəbərinə görə, Ucar rayonunun Bərgüşad kəndi ərazisində, köhnə qəbiristanlıqda yerləşən XVI əsrə aid olan 7 ədəd qəbir arxeoloji abidə kimi dövlət qeydiyyatına alınıb. Bu qəbiristanlıqdakı məzar daşları öz görünüşü, naxışları ilə diqqət çəkir.

Kənd sakinlərini deyir ki, bu qədim qəbiristanlıqdakı qeyri-adi baş daşları onlar üçün çox maraqlıdır. Ancaq bu baş daşlarının tarixi barədə heç bir məlumatları yoxdur.Mütəxəssislərin fikrincə nəinki rayon ərazisində, ümumiyyətlə Aran bölgəsində bu tip qəbirlər təkcə Ucar rayonunun Bərgüşad kəndi ərazisindədir [15].

Ucar rayonunun Bəhmən-Bərgüşad kəndi yaxınlığındakı Qaratəpədə yay formalı cəftəli sancaq aşkar edilib. Bunlar erkən Roma dövrünə aid qövs formalı əyməsi olan tunc sancaqlardır. Belə sancaqlardan ikisi Mingəçevirin küp qəbirlərindən, biri qədim Şamaxının nekropolundakı torpaq qəbrindən və sonuncu nümunəsi isə Ucar rayonunun

Bəhmən-Bərgüşad kəndi yaxınlığındakı Qaratəpədə tədqiq olunmuş küp qəbirlərinin birindən aşkar olunmuşdur.



Bəhmən-Bərgüşaddaki sancaq üzə çıxarılmış 2 №-li küp qəbrində arxası üstündə uzadılmış vəziyyətdə böyük adam və uşağa məxsus 2 skelet aşkar olunmuşdur. Qəbirdə üzərində parça izləri qalmış sancaq və qaşlı üzük tapılmışdı [20,s.21]. Belə sancaqların Galliya və yaxud Şimali İtaliyada istehsal olunduğu ehtimal edilir. Onların ayrı-ayrı nümunələrinə daha çox Şimali Qafqazda, az bir qisminə isə Dnepr çayının orta axarlarındakı ərazilərdə və başqa bölgələrdə təsadüf edilmişdir.

A.K.Ambroz bu tipə daxil olan məlum sancaqları və onlarla əlaqədar başqa materialları müqayisəli surətdə təhlil edərək belə nəticəyə gəlmişdir ki, yeni eranın I əsrinin birinci yarısında bu sancaqlar geniş yayılmış və 70-80-ci illərdə onların istehsalı dayandırılmışdır [18, s. 26; 24].

Bu fikri Mingəçevirin küp qəbirlərindən sancaqla birlikdə tapılmış imperator Avqust (e.ə. 27 - e. 14-cü illəri) və Arsaklar sülaləsindən olan IV Fraatın (e.ə. 38/7 - e. 3/2 - ci illəri) sikkələri də təsdiq edir [19, s.16; 21, s. 55-56].

Beləliklə, təsvir etdiyimiz sancaqların tarixini I əsrdən əvvələ aparmaq olmaz. Bu tarixi I əsr çərçivəsində müəyyənləşdirmək daha dəqiq olar. Əgər belədirsə, onda Mingəçevirdə və Ucar rayonunda tədqiq edilmiş, eyni tipli sancaqların aşkar edildiyi küp qəbirlərini və qədim Şamaxı nekropolunda açılmış torpaq qəbrini milad təqviminin I əsrinə aid etmək olar [7].

2018-ci ildə tamamlanmış Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) ilə əlaqədar aparılan arxeoloji işlər yerli və xarici arxeoloqlardan ibarət komandanın iştirakı ilə 48 yerdə aparılıb. Bura Ucar rayonun Qazyan və Ramal kəndlərində aparılan arxeoloji qazıntılar da aiddir [11].

CQBKG ilə əlaqədar 2013-2018-ci illərdə Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntıları David Maynard, Qoşqar Qoşqarli, Nəcəf Müseybli, Şamil Nəcəfov, Vaqif Əsədov, Anar Ağalarzadə, Dmitriy Kiriçenko, Müzəffər Hüseynov və Azad Zeynalovdan ibarət beynəlxalq tərkibə malik kollektiv həyata keçirib. Konkret olaraq Ucar rayonunun Qazyan kəndində Müzəffər Hüseynov, Ramal kəndində isə Anar Ağalarzadə arxeoloji qazıntı işlərini aparmış və arxeoloji tədqiqat haqqında elmi arayışlar yazmışlar.

Qazyan kəndi ərazisindəki küp qəbirdə aparılmış arxeoloji tədqiqatlar haqqında qısa
ELMİ ARAYIŞ

Summary The report provides information on the archaeological excavation carried out on March 22-23, 2017 at the Gazyan jar burial necropolis, which was discovered in Ujar district Gazyan village at KP 149.840 of the gas export pipeline corridor of the SCPX project. Jar graves and ceramics samples were discovered during the archaeological excavations. Archaeological data that sheds light on the burial traditions of the residents of this ancient settlement was obtained on the site. According to the analysis of the archaeological content, it was

established that the ancient necropolis dates to the period of Caucasian Albania, i. e. 2nd-1st centuries BC.

Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi layihəsi ilə bağlı (SCPX layihəsi) kəmərinin inşaatı ilə əlaqədar tikinti işlərinin gedişində (xəndək qazıntısı zamanı) Ucar rayonunun Qazyan kəndi ərazisində (E 8728231 N 44883725), boru kəmərinin 149.900-ci km-də arxeoloji qazıntı işləri həyata keçirilmişdir.

Ərazidə boru kəmərinin xəndəyi qazılarkən bir ədəd küp qəbir dağıntıya məruz qalmışdır. Küp qəbirin yerüstü əlaməti olmadığı üçün əvvəldən müəyyənləşdirmək mümkün olmamış, yalnız xəndək qazıntısı həyata keçirilərkən təsadüfən aşkar edilmişdir. Ümumilikdə ərazidən 2 ədəd küp qəbir aşkar edilmişdir. Təsadüfən dağılan küp qəbirin aşkar edildiyi əraziyə baxış keçirilmiş və həssas zona kimi nəzarətə götürülmüşdür. Təsadüfən dağılmış küp qəbirdən 7-8 metr məsafədə daha bir küp qəbir aşkar edilmiş və dərhal texnikanın qazıntı işləri dayandırılaraq ərazidə arxeoloji qazıntı işləri həyata keçirilmişdir.

Arxeoloji qazıntılar 22 mart 2017-ci ildə aparılmışdır. Yanı üstə, ağız hissəsi qərb istiqamətində qoyulmuş küp qəbir 2 metr dərinlikdən aşkar olunmuşdur. Küp qəbirin qarşı tərəfində 3 ədəd saxsı qab qoyulmuşdur. Qablar çox zövqlə hazırlanmışdır. Qablardan biri böyük həcmli küpə, biri vaza digəri isə bardaqdan ibarətdir. İri həcmli küpənin ağzı yastı əhəngdaşı ilə qapanmışdır. Küp qəbirdən azyaşlı uşağa məxsus xırda sümük hissələri aşkar edilmişdir. Küp qəbirin yerləşdiyi sahə çox sulu olduğundan sümüklər çox pis saxlanmışdır.

Hər iki küp qəbirdən aşkar edilən arxeoloji materialların təhlilinə əsasən qəbirlərin son antik dövrə aid olduğunu söyləyə bilərik.

Müzəffər Hüseynov [24]

Qazyan küp qəbirlərindən əldə olunmuş arxeoloji materiallar e.ə. II-I əsrlərə aid edilir [12].



Photo 1. Gazyan jar grave 1.



Photo 2. Gazyan jar grave 1 after cleaning.



Photo 3. Fragments of burial jar, Grave 2.

Qazyan kəndi ərazisindən tapılmış küp qəbrinə aid şəkillərdi.

Ramal kəndi ərazisindəki küp qəbirdə aparılmış arxeoloji tədqiqatlar haqqında qısa

ELMİ ARAYIŞ

Ramal küp qəbiri SCPX boru kəmərinin 169-cu km-də, Ucar rayonunun Ramal kəndi ərazisində, boru xəttinin düz mərkəzi hissəsində təsadüfən aşkar edilmişdir. Qəbir şimal-şərq-cənub-qərb istiqamətli olub iri ölçülü dəfn küpündən ibarətdir. Dəfn küpü qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilib. Ağız kənarı qıfşəkilli olub xaricə qatlanmışdır. Bu hissə qab bişirilmədən əvvəl batıqvari naxışlarla sadə bəzədilmişdir. Cənubi Qafqaz boru dəhlizinin qazıntısı zamanı küpün ağzından gövdəyə keçən hissəsinə qədər olan yeri dağılmışdır və buna görə də küpün içində dəfn edilmiş insan skeletinin hansı istiqamətdə və necə dəfn edildiyi məlum deyildir. Lakin skeletə məxsus çanaq və ayaq sümüklərini saxlanılmışdır. Küpün uzunluğu 170 sm, gövdəsinin diametri 110 sm, oturacağının diametri isə 30 sm olmuşdur. Skeletin bel tərəfində 1 ədəd süzgəc tipli qab və ayaq tərəfində küpə tipli saxsı qab qoyulmuşdur. Tapıntılar arasında 1 ədəd şəffaf qonur rəngli dəvəgözü (obsidian) qəlpəsi də vardır. "Süzgəc" tipli qab sarımtıl rəngli, təmiz tərkibli gildən yaxşı bişirilmiş qabdır. Qabın ağız hissəsi maye tökülməsi üçün açıqdır. Mayenin süzülməsi üçün isə süzgəcli deşiklər açılmış, daha sonra isə asan tökülməsi üçün novçaşəkilli kanalvari düzəldilmişdir. Arxaik səciyyəli qulpu zoomorf formalıdır. Qulpu qabın ağzı ilə gövdəsini birləşdirir və yuxarı hissəsi it başı (?) təsvirini xatırladır. Gövdəsi bikonikdir və üç tərəfində bir-birinə simmetrik olaraq yapma formasında düyməşəkilli naxış vurulmuşdur. Gövdəsi oturacağına kəskin daralır və alt hissəsi içəri batıq formalıdır. Qab yaxşı cilalanmışdır. Ölçüləri: hündürlüyü 15 sm, gövdəsinin diametri 14 sm, oturacağının diametri 5 sm, novçasının uzunluğu 13 sm-dir. İkinci qab kiçik ölçülü küpə tipli olub tünd qonur rəngli, qum qarışıqlı gildən zəif bişirilmişdir. Gilinin tərkibi çox kövrəkdir. Nisbətən dar

boğazlıdır, şar şəkilli gövdəsi oturacağına kəskin daralır. Qabın üzərində yanıq izləri müşahidə olunur. Çiyin hissəsini zəif dalğavari naxışlar qurşaqlayır. Bu naxışlar qab bişirilməzdən əvvəl vurulmuşdur. Qabın ölçüləri: ağzının diametri 17 sm, boğazının hündürlüyü 5 sm, hündürlüyü 21 sm, gövdəsinin diametri 23 sm, oturacağının diametri 12 sm-dir.

t.ü.f.d. Anar Ağalarzadə [4;10; 23]

SCPX İNFRASTRUKTUR LAYİHƏSİ İLƏ BAĞLI KƏMƏR MARŞRUTUNUN 169-cu km-dəki RAMAL KÜP QƏBRİNDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR HAQQINDA QISA ELMİ ARAYIŞ

Ramal küp qəbiri SCPX boru kəmərinin 169-cu km-də, Ucar rayonunun Ramal kəndi ərazisində, boru xəttinin düz mərkəzi hissəsində təsadüfən aşkar edilmişdir. Qəbir şimal-şərq-cənub-qərb istiqamətli olub iri ölçülü dəfn küpündən ibarətdir. Dəfn küpü qırmızı rəngli, narın qum qatışıqlı gildən yaxşı bişirilib. Ağız kənarı qıfşəkilli olub xaricə qatlanmışdır. Bu hissə qab bişirilmədən əvvəl batıqvari naxışlarla sadə bəzədilmişdir. Cənubi Qafqaz boru dəhlizinin qazıntısı zamanı küpün ağzından gövdəyə keçən hissəsinə qədər olan yeri dağılmışdır və buna görə də küpün içində dəfn edilmiş insan skeletinin hansı istiqamətdə və necə dəfn edildiyi məlum deyildir. Lakin skeletə məxsus çanaq və ayaq sümüklərini saxlanılmışdır. Küpün uzunluğu 170 sm, gövdəsinin diametri 110 sm, oturacağının diametri isə 30 sm olmuşdur. Skeletin bel tərəfində 1 ədəd süzgəc tipli qab və ayaq tərəfində küpə tipli saxsı qab qoyulmuşdur. Tapıntılar arasında 1 ədəd şəffaf qonur rəngli dəvəgözü (obsidian) qəlpəsi də vardır. "Süzgəc" tipli qab sarımtıl rəngli, təmiz tərkibli gildən yaxşı bişirilmiş qabdır. Qabın ağız hissəsi maye tökülməsi üçün açıqdır. Mayenin süzülməsi üçün isə süzgəcli deşiklər açılmış, daha sonra isə asan tökülməsi üçün novçaşəkilli kanalvari düzəldilmişdir. Arxaik səciyyəli qulpu zoomorf formalıdır. Qulpu qabın ağzı ilə gövdəsini birləşdirir və yuxarı hissəsi it başı (?) təsvirini xatırladır. Gövdəsi bikonikdir və üç tərəfində bir-birinə simmetrik olaraq yapma formasında düyməşəkilli naxış vurulmuşdur. Gövdəsi oturacağına kəskin daralır və alt hissəsi içəri batıq formalıdır. Qab yaxşı cilalanmışdır. Ölçüləri: hündürlüyü 15 sm, gövdəsinin diametri 14 sm, oturacağının diametri 5 sm, novçasının uzunluğu 13 sm-dir. İkinci qab kiçik ölçülü küpə tipli olub tünd qonur rəngli, qum qarışıqlı gildən zəif bişirilmişdir. Gilinin tərkibi çox kövrəkdir. Nisbətən dar boğazlıdır, şar şəkilli gövdəsi oturacağına kəskin daralır. Qabın üzərində yanıq izləri müşahidə olunur. Çiyin hissəsini zəif dalğavari naxışlar qurşaqlayır. Bu naxışlar qab bişirilməzdən əvvəl vurulmuşdur. Qabın ölçüləri: ağzının diametri 17 sm, boğazının hündürlüyü 5 sm, hündürlüyü 21 sm, gövdəsinin diametri 23 sm, oturacağının diametri 12 sm-dir.

imzasını
TƏSDİQ EDİRƏM
Azərbaycan Milli Elmlər Akademiyası
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA
İNSTİTUTUNUN ELMİ KATİBİ

t.ü.f.d. Anar Ağalarzadə

1











Ramal kəndi ərazisindən tapılmış küp qəbrinə aid şəkillərdi

2015-ci ildə başlayaraq Cənubu Qafqaz Boru Kəmərinin genişləndirilməsi zamanı Ucar rayonunun Ramal kəndində tapılmış b.e.ə. II əsrlərə və b.e.II əsrinə aid 16 ədəd artefaktlar AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqları tərəfindən muzeyə təhvil verilmişdir. [12]

Küp qəbirlər e.ə. IV əsrdən – bizim eranın III əsrlərinə qədər Qafqaz Albaniyasında məskunlaşmış tayfaların maddi və mənəvi mədəniyyətlərinin öyrənilməsi üçün əhəmiyyətli mənbə sayılır. Küp qəbirlər Azərbaycanın demək olar ki, bütün bölgələrində qeydə alınmışdır. Bu tip qəbirlər Gürcüstan ərazisində 77 məntəqədə aşkar edilmişdir [4;21,s.11]

2.1.Yuxarı Şilyandan tapılmış dəfinə

Ucar rayonu ərazisində bəzək əşyaları, bilərziklər və 100-dən artıq qızıl sikkələrin olduğu dəfinənin tapılması ilə bağlı məlumatlar 80-ci illərin axırlarından diqqət mərkəzində olmuşdur. Buna görə də Azərbaycan Respublikası ərazisində orta əsr sikkə tapıntılarının xəritəsinə (XI –XII əsrlər) Ucarın da adı daxil edilib. Ucar ərazisində tapılmış bu qızıl sikkələr yerli əhalinin qədim orta əsrlərdə beynəlxalq ticarət əlaqələri haqqında fikir irəlu sürülməsinə imkan verir.



Suni intelekt Ucar rayonunun Yuxarı Şilyan kəndidə tapılmış qızıl sikkələr haqqında

Ucar rayonu (xüsusilə Şilyan kəndi ilə əlaqələndirilən) **100-dən çox Bizans qızıl sikkəsi tapıntısı** barədə məlumat Azərbaycan numizmatikasında maraqlı, lakin eyni zamanda problemli və tam sənədləşdirilməmiş hadisələrdən biri kimi qiymətləndirilir.

Aşağıda mövcud məlumatlar sistemləşdirilmiş şəkildə təqdim olunur.

1. Tapıntının ümumi xarakteristikası

Məlumatlara görə:

- Tapılan sikkələrin sayı: **100-dən çox**
- Material: **qızıl**
- Mənsubiyyət: **Bizans İmperiyası**
- Tapılma yeri: **Ucar rayonu, Şilyan ətrafı (Şirvan düzü zonası)**

Bu tapıntı klassik numizmatik terminologiyada **"xəzinə (hoard)"** tipinə aiddir — yəni eyni dövrdə və ya yaxın dövrlərdə dövriyyədə olmuş çoxsaylı sikkələrin bir yerdə gizlədilməsi.

2. Bizans qızıl sikkələrinin tipi

Bizans imperiyasında əsas qızıl pul vahidi:

- **Solidus** (IV–XI əsrlər)
- Daha sonrakı dövrdə: **Hyperpyron** (XI əsrdən sonra)

Bu sikkələr:

- yüksək saflıqlı qızıldan hazırlanırdı
- imperatorun portreti (ön tərəf)
- dini simvollar (xaç, İsa təsviri və s.) ilə xarakterizə olunurdu

3. Xronoloji çərçivə (ehtimal)

Tapıntının konkret kataloqlaşdırılması olmadığından dəqiq tarix vermək mümkün deyil, lakin analoji tapıntılara əsasən:

Ən real ehtimallar:

VI–VII əsrlər (I Justinian və ya Heraclius dövrü solidusları) və ya **X–XI əsrlər** (Bizansın Qafqazla intensiv iqtisadi əlaqələri dövrü)

4. Tapıntının tarixi əhəmiyyəti

Bu cür böyük Bizans qızıl xəzinəsi aşağıdakı faktları göstərir:

a) Şirvan–Arran bölgəsinin beynəlxalq ticarətdə rolu

Azərbaycan ərazisində müxtəlif dövrlərə aid sikkələrin tapılması regionun geniş iqtisadi əlaqələrini sübut edir

b) Bizans–Qafqaz əlaqələri

- Bizans imperiyası Qafqaz Albaniyası və sonrakı yerli hakimiyyətlərlə əlaqədə idi
- diplomatik ödənişlər və ya hərbi subsidiyalar qızıl sikkələrlə verilirdi

c) Karvan yolları

Ucar ərazisi:

- Kür–Araz ovalığında yerləşir
- tarixi ticarət yollarının üzərində olub

5. “Müəmmalı” adlandırılmasının səbəbləri

Bu tapıntı bir neçə səbəbə görə qeyri-adi hesab olunur:

1. Rəsmi arxeoloji hesabat yoxdur

- sikkələrin **dəqiq siyahısı, çəkisi, tipologiyası** məlum deyil

2. Tapıntının taleyi qeyri-müəyyəndir

- muzey fondlarına tam daxil olub-olmaması bilinmir

3. Elmi dövriyyədə zəif əks olunma

- nə AMEA nəşrlərində, nə də beynəlxalq kataloqlarda geniş təsvir verilib

4. Ehtimal olunan izahlar

I. Gizlədilmiş xəzinə (ən real)

- müharibə və ya təhlükə zamanı basdırılıb
- sahib geri qayıtmayıb

II. Ticarət kapitalı

- karvan rəhbərinə və ya tacirə məxsus olub

III. Diplomatik və ya hərbi ödəniş

- Bizans tərəfindən yerli hakimə verilmiş qızıl

5. Analoji tapıntılar

Bizans qızıl sikkələri müxtəlif regionlarda da bu cür toplu şəkildə tapılmışdır. Məsələn, Balkanlarda VI əsrə aid tremissislərin aşkar olunması göstərir ki, bu tip xəzinələr geniş yayılmış fenomen idi

6. Nəticə

Ucar–Şilyan bölgəsində aşkar edilmiş 100-dən çox Bizans qızıl sikkəsi:

- Azərbaycan ərazisində **ən iri potensial Bizans xəzinələrindən biri** hesab oluna bilər
- Lakin **elmi sənədləşmə çatışmazlığı səbəbindən** onun dəqiq tarixi və tərkibi müəyyən edilməmişdir
- Buna baxmayaraq, tapıntı regionun **erkən orta əsr beynəlxalq iqtisadi sistemində mühüm rolunu** təsdiqləyir

Əlavə araşdırma üçün

Bu mövzunu dərinləşdirmək üçün:

- AMEA Arxeologiya və Antropologiya İnstitutunun fond materialları

• Milli Azərbaycan Tarixi Muzeyinin numizmatika kolleksiyası

• yerli qəzet arxivləri (xüsusilə 1990–2000-ci illər)

əsas mənbələr hesab olunur.

https://chatgpt.com/c/69c3f7f5-6440-832d-8e2a-d6c7edf987c3



Bizans qızıl sikkələri

Ucar rayonunda dəfinə tapılması ilə bağlı rəsmi şəkildə geniş məlumat əldə etmək mümkün olmasa da, sosial şəbəkələrin bir neçəsində Ucarın Şilyan kəndində qızıl sikkələrin tapılması barədə qısa məlumata rast gəlmək olur. Məsələn, Azərbaycanın görkəmli numizmatiki, AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika və Epiqrafika Elmi Fondunun şöbə müdiri, t.e.d., professor Əli Rəcəbli müsahibələrinin birində Ucarda tapılmış qızıl sikkələr və qiymətli bəzək əşyaları haqqında demişdir: "Bir dəfə Ucar rayonunda 100-dən çox Bizans qızılının olduğu böyük bir dəfinə tapılmışdı. Bəzək əşyaları, bilərziklərlə və s. zəngin bir dəfinə idi. Mən də ora getdim. Orda məni polislər qarşıladılar, kəndə apardılar. Guya dəfinəni tapan adam itib-batıb, yoxa

çıxıb. Camaat isə hər şeyi danışırdı. Polis, prokuror da hər şeyi bilirdi…" [9].

Ə. Rəcəbli digər müsahibəsində məsələ ilə bağlı bunları deyib: "Mənim işlədiyim vaxtlarda Azərbaycanda təkcə antik dövrə aid 10-dan çox dəfinə tapılıb. Onlardan cəmi iki-üçü bizim Muzeyə təhvil verilib. Təsəvvür edin ki, 2300 il bundan öncə basdırılan dəfinələr, qızıl sikkələr (pul) bizim dövrə qədər gəlib çatıb. İndi 10 dənə dəfinə tapılıbsa, görün bu illər ərzində nə qədər dəfinələr aşkar olunub?! Nə qədər dəfinə də hələ yerin altındadır! Bu dəfinələr axtarmaqla yox, təsadüfən tapılır. Bəzən həmin dəfinəni basdıran adamın özü ölür, bəzən də basdırdığı yeri tapmır. Beləliklə həmin sikkələr bizə gəlib çatır. Azərbaycanın elə bir rayonu yoxdur ki, orada dəfinə tapılmasın. Dəfinəni tapan adamlar çox vaxt onu özləri mənimsəyib, satırlar. Buna görə də həmin dəfinlərin hamısı bizə gəlib çatmır... Sadəcə olaraq deyə bilərəm ki, Azərbaycanda hər il ən azı 10-15 dəfinə tapılır" [9].

Ə. Rəcəbli qeyd edir ki, " Əksəriyyət qədim tarixə məxsus olan dəfinəni tapdıqda bunu gizlədir, dövlətə təhvil vermək istəmir, çünki güman edir ki, dövlətin ona verdiyi mükafat tapdığı xəzinənin dəyərindən qat-qat aşağı olacaq və yaxud heç olmayacaq. Nəticədə qədim dövrdə həmin ərazidə mövcud olan ictimai-siyasi həyatı özündə əks etdirən, tarix üçün mühüm əhəmiyyət kəsb edən dəfinələr itib-batır. Təhvil verilən dəfinələr isə Tarix Muzeyinin Numizmatika Fonduna verilir, burada saxlanılır. Məlumata görə, bu günə qədər fondda təxminən 150 minə qədər mis, gümüş, qarışıq sikkə, 1000-dən çox qızıl sikkə, 10 minlərlə gümüş sikkə, 100 minlərə isə mis sikkə qorunub saxlanılır " [17, 29 avqust 2019].

Digər məlumatda isə deyilirdi ki,“ Bir dəfə Ucar rayonunda 100-dən çox Bizans qızılının olduğu böyük bir dəfinə tapılmışdı. Digər dəfinə isə Qəbələ yaxınlığında tapıldı. Orada arxeoloqlar işləyirdi. Pullar da dəfinə tapılan yerə səpələnmişdi. Onlar təxminən 600-700 dənə pul toplayıb Muzeyə təhvil verdilər. Hər il ölkəmizdə ən azı 10-15 dəfinə tapılır ” [8].

Göründüyü kimi bu məlumatda Qəbələdə aşkara çıxarılan dəfinədəki sikkələrin Muzeyə təhvil verilməsi haqqında deyilsə də, Ucardan tapılan sikkələrin taleyi naməlum qalır.

Ucar rayonunda tapılmış müəmmalı 100-dən çox Bizans qızıl sikkəsi ilə bağlı axtarışları davam etdirsək də müsbət bir irəliləyişin olmadığını nəzərə alaraq AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutuna müraciət etməyi lazım bildik. İnstitutun “Çöl tədqiqatlarının monitorinqi və qiymətləndirməsi şöbəsi”nin müdiri, t.ü.f.d., dosent Təvəkkül Əliyev Ucarda tapılmış qızıl sikkələr haqqında maraqlı faktlar barədə bizə məlumat verdi: ***“****Ucar rayonunda 100-dən çox Bizans qızılının olduğu böyük bir dəfinə tapılması ilə bağlı, mərhum numizmatik, t.e.d. doktoru, professor M. Seyfəddinidə məlumat vardı. O, deyirdi ki, 1992-1993-cü illərdə onu prezident aparatına çağırıb, Ucar rayonundan tapılmış sikkələri ona göstərərək ekspertiza rəyi verməsini istəyiblər. M. Seyfəddini laboratoriya şəraitində ekpertiza aparılması üçün həmin qızıl sikkələrin ona verilməsini istəsə də bu alınmayıb. Bundan sonra o, həmin qızılların Muzeyə təhvil verilməsini tələb etsə də buna da əməl olunmayıb. M. Seyfəddini bildirmişdi ki, 1993-cü ilin*

oktyabrından sonra, bu faktla bağlı rəsmi qurumlara müraciət edib."

Nisbətən daha geniş məlumatı isə 1985-92-ci illərdə isə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunda elmi işçi vəzifələrində işləmiş, 1992-1993-cü illərdə Ucar rayonu İcra Hakimiyyəti başçısı olmuş, Beydulla Abdullayevdən ala bildik.

B.Abdullayev Ucarda tapılmış qızıl sikkələr haqqında bir sıra məsələlərə aydınlıq gətirib: *" 100-dən çox Bizans qızıl sikkəsi 1988 və ya 1989-cu ildə Ucarın Şilyan kəndində bir traktorçu kotanla yer şumlayarkən aşkara çıxarmışdı. O, əvvəl torpaq üzərində bir neçə parlayan sikkəni görərək götürüb və nahara gedib. Yeməkdən sonra qayıdıb və həmin yeri bir qədər qazdıqdan sonra çoxlu sayda qızıl sikkə aşkara çıxıb. Həmin traktorçunun oğlu bu qızılları tədricən diş həkimlərinə satmağa başlayıb. Bir qədər sonra bundan xəbər tutan rayon prokurorluğunun və polis şöbəsinin rəhbər işçiləri ona təzyiq etməklə sikkələrin bir hissəsini ondan alıblar.*

Hakimiyyət dəyişikliyindən sonra, AXC hakimiyyəti dövründə bundan xəbər tutan yeni polis rəisi sikkələri tapanı polis idarəsinə dəvət edərək ona dövləti cinayət etdiyini başa salıb. Cinayət məsuliyyətinə cəlb olunacağından qorxaraq sikkəni tapan traktorçunun oğlu sikkələrin qalan hissəsini gətirib Ucar rayon polis şöbəsinin rəisinə təhvil verib. Polis rəisi də həmin sikkələri Bakıya gətirərək Daxili İşlər Naziri İsgəndər Həmidova təhvil verib. İ. Həmidov da öz növbəsində onun rəhbərliyi altında polis orqanlarının nümunəvi xidmət göstərdiyini sübut etmək üçün qızıl sikkələri Prezident Əbülfəz Elçibəyə təqdim edib.

Ə. Elçibəy əvvəllər şərqşünas alim kimi Elmlər Akademiyasının Əlyazmalar şöbəsində işlədiyindən və nümuzmatikləri yaxşı tanıdığına görə t.e.d. doktoru, professor M. Seyfəddinini Prezident aparatına mütəxəssis kimi dəvət edib. M. Seyfəddini qızıl sikkələrin elmi dəyərini və qiymətini müəyyən edərək arayışlar hazırlayaraq prezidentə təqdim edib. Prezident Ə.Elçibəy də bu işlərə məsul olan yüksək vəzifəli rəsmi şəxsi dəvət edərək sənədləri və sikkələri Muzeyə təqdim etmək üçün ona verib. Lakin rəsmi şəxs həmin sənədlərlə birlikdə qızıl sikkələri muzeyə təhvil verməyərək kabinetindəki seyfə qoyub. Hakimiyyət dəyişikliyindən sonra onun kabinetində axtarış aparılarkən həmin sənədlər və qızıl sikkələr seyfdə aşkar olunub və götürülüb."

1993-cü ildə nəşr olunan KİV-lərin bəzilərində AXC hakimiyyətində yüksək vəzifə tutmuş həmin şəxsin Ucarın Yuxarı Şilyan kəndində tapılmış qızıl sikkələri mənimsəməsi haqqında məlumatlar verilirmişdi. Lakin əgər yuxarıda deyilənlərə istinad etsək Ucarın Şilyan kəndində tapılmış qızıl sikkələrin AXC nümayəndəsi tərəfindən mənimsəməsi fikrini düzgün hesab etmək olmaz. Çünki hakimiyyətin təhvil verilməsi zamanı həmin qızıllar əgər qeyd olunan şəxsin seyfində aşkar olunubsa deməli qızılların AXC nümayəndəsi tərəfindən mənimsəməsi haqqında fikirlər həqiqəti əks etdirmir.

Fikrimizcə o zaman məsələyə ciddi yanaşılsaydı hakimiyyətin təhvili zamanı seyfin açılışında iştirak etmiş komissiya üzvləri dəfinənin sonrakı taleyi haqqında daha düzgün məlumat verə bilərdi. Lakin həmin dövrdə ölkədə mövcud olmuş siyasi böhran, hərc-mərcli, Gəncə qiyamı

nəticəsində S.Hüseynovun baş nazir postuna yiyələnməsi və s. məsələlər həqiqətin üzə çıxmasına imkan verməmişdi.

T.ü.f.d., dosent Təvəkkül Əliyevin və Beydulla Abdullayevin bu məlumatları rəsmi mənbə olmasa da şifahi mənbə kimi qəbul etmək olar. Çünki hazırda dünyanın əksər ölkəsində tarixi tədqiqatlarda şifahi mənbələrdən geniş istifadə olunur. Hələlik yuxarıda qeyd olunan məlumatlardan başqa Ucardan tapılmış qızıl sikkələrlərlə bağlı hər hansı ciddi məlumat əldə etmək mümkün olmayıb.

Ucarın Şilyan kəndindən tapılan dəfinədəki qızıl sikkələr və ziynət əşyalarının taleyi qeyri müəyyən olduğundan onları aşkara çıxarmaq mümkün deyil. Buna oxşar hadisə qonşu Kürdəmir rayonunda da baş verib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor Qafar Cəbiyev qeyd edib ki, "1970-ci illərdə rayonun Ərəbqubalı kəndi yaxınlığındakı "Şəhərgah" adlı orta əsr şəhər yerində pambıq əkiləcək sahələr şumlanarkən bir neçə yerdə əsasən qızıl pullardan ibarət dəfinələr üzə çıxıb. Nəzarətsizlik səbəbindən həmin dəfinələr yerli sakinlər və qonşu rayonlardan olan "qızılaxtaranlar" tərəfindən tam şəkildə talan edilərək dağıdılıb. Kürdəmirdə uşaqdan böyüyədək hamının bildiyi bu olay barədə guya aidiyatı orqanlara məlumat verilməyib…"

Daha sonra Q.Cəbiyev ölkə ərazisində tapılmış qızıl sikkələrlə bağlı ətraflı məlumat verərək demişdi: " Qızıl pullardan ibarət dəfinəni ilk dəfə mən tapmışam. Arxeoloji tədqiqatlar zamanı tapılan bu dəfinə Ağsu dəfinəsidir. Orada qızıl pullarla yanaşı, gümüş pullardan ibarət dəfinə də tapdıq.

Dəfinə tapılan yer şəhərin anbar buzxanası olub. 7-8 metr dərinlikdə böyük bir ərazidir... Tökuntünü təmizləyərəkən bir yerdən topa hallında 37 ədəd qızıl çıxdı. Holland qızıl duqatlarıdır. Əyyarı 986, diametri 21,8 mm, qalınlığı 1,3 mm, leqal çəkisi 3,49 qram, forması dairəvi, kənarı döyülüb, üzəri zərb olunub. Sikkələrin üzərində latın dilində yazısı olan kvadrat lövhə var. Təcüməsi isə belədir: "İmperiya qanunlarına uyğun olaraq Belçika Əyalət Federasiyası hökumətinin sikkəsidir". Sikkənin digər üzündə zirehli cəngavər təsvir olunub.

Bu hadisə şənbə günü olmuşdu. Birinci gün onu Tarix Muzeyinə Nadir Metal Əşyalar Fonduna aktla təhvil verdim... Həmin qızılları təhvil verəndən sonra söz-söhbət çoxaldı. Yəni ki, bəs bu arxeoloqlar yüz ildi qazıntı işləri aparırlar, nə əcəb indiyə qədər qızıl tapmayıblar? Məlum oldu ki, ayrı-ayrı arxeoloqlar müəyyən vaxtlarda qızıl əşyalar tapıblar və özlərində saxlayıblar. Tarix Muzeyinin təkidindən sonra bəzi arxeoloqları bir neçə qızıl əşyanı gətirib muzeyə təhvil veriblər...Bəzi arxeoloqlar birbaşa olaraq mənə dedilər ki, "sən çox pis bir iş gördün. Sən tapdığın qızılları aparıb ora təhvil verməklə hamımızı təzyiq altına saldın" [9].

Digər müsahibəsində Q. Cəbiyev dəfinələrlə bağlı bunları deyib: "Dəfinələr əsasən təsadüflər nəticəsində, məsələn, yer qazarkən, qazıntı işləri apararkən, təbii hadisələr baş verərkən, sel suları xəndəklər açarkən üzə çıxır... Azərbaycanda qanunvericiliyə əsasən tapılan dəfinə dəyərləndirilir və ona əsasən müəyyən faiz qədər şəxsə mükafat verilir. Amma bu təsadüfən dəfinə tapan şəxslərə aiddir. Tutaq ki, mən çöldə arxeoloq kimi tədqiqat işi aparıram, bu zaman xəzinə tapanda

onu gətirib dövlətə təhvil verirəm, bunun müqabilində müəyyən mükafat verirlər. Məsələn, qızıl sikkələr tapanda mənə mükafat verilmədi. Sadəcə, Elmlər Akademiyasının 2013-cü ildə bir sərəncamı oldu. Həmin sərəncam dəfinə tapmış arxeoloqlar barəsində idi. Həmin sərəncamda yazılıb: *"2012-ci ildə Milli Elmlər Akademiyası (AMEA) Arxeologiya və Etnoqrafiya İnstitutunun Ağsu arxeoloji ekspedisiyası apardığı qazıntı işləri zamanı qədim dəfinə tapılıb. Dəfinədə 18-ci əsrə aid 37 qızıl sikkə var. Böyük tarixi-elmi əhəmiyyəti olan bu tapıntı tarix üzrə elmlər doktoru Qafar Cəbiyevin rəhbərlik etdiyi ekspedisiyanın apardığı araşdırmalar nəticəsində aşkarlanıb. Tapılan nümunələr qanunvericiliyə əsasən qorunmaq məqsədilə Milli Azərbaycan Tarixi Muzeyinin Qızıl Fonduna təhvil verilmişdi. Əsl alim və vətəndaş mövqeyini nümayiş etdirən alimlərimizin əməyinin dəyərləndirilməsi məqsədilə Qafar Cəbiyevəyə onun rəhbərlik etdiyi arxeoloji ekspedisiyanın üzvlərinə Akademiyanın Rəyasət Heyəti adından təşəkkür elan edilsin. Arxeologiya və Etnoqrafiya İnstitutuna tapşırılsın ki, ekspedisiya rəhbərliyi və üzvlərinin mükafatlandırılması təmin edilsin".*

Həmin tapıntıdan şəxsən mənə və ekspedisiya üzvlərinə heç bir şey çatmadı. Fikrimizcə dəfinələr tapıldıqdan sonra dövlətə təhvil verilməsi sahəsində neqativ halları aradan qaldırmaq üçün bu sahədə olan mövcud qanunvericiliyə dəyişiklik edilməli, dəfinə taparaq dövlətə təhvil verən vətəndaşlar və arxeoloqlar da layiqincə qiymətləndirilməlidir " [17, 30 avqust 2019].

Nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası bir sıra beynəlxalq konvensiyalara qoşulub ki, onlardan biri də

“Oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəniyyət sərvətləri haqqında” Konvensiyasındır.

Beynəlxalq Xüsusi Hüququ Unifikasiya İnstitutunun (YUNİDRUA) “Oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəniyyət sərvətləri haqqında” Konvensiyasına və ona edilmiş Əlavəyə qoşulmaq barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Azərbaycan Respublikası Beynəlxalq Xüsusi Hüququ Unifikasiya İnstitutunun (YUNİDRUA) "Oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəniyyət sərvətləri haqqında" 1995-ci il iyunun 24-də Roma şəhərində qəbul olunmuş Konvensiyasına və ona edilmiş Əlavəyə **qoşulsun**.

2. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

Azərbaycan Respublikasının Prezidenti
HEYDƏR ƏLİYEV

Bakı şəhəri, 24 mart 2000-ci il
№ 846-IQ

Faktlar sübut edir ki, digər ərazilərdə tapılan dəfinələr kimi Ucar ərazisində də tapılmış dəfinənin mənimsənilərək aidiyyat dövlət qurumlarına təhvil verilməməsinin əsas səbəblərindən biri bu sahədə qanunvericiliyin kifayət qədər təkmil olmamasıdır. Bu cür xoşagəlməz halların aradan qaldırmaq və tariximizi yeni elmi faktlarla zənginləşdirmək üçün bu sahədə dəyişiklərin, islahatların aparılmasına ciddi ehtiyac var.

Yekun olaraq qeyd etmək olar ki, Ucar ərazisindən tapılmış maddi –mədəniyyət abidələri, o cümlədən m.ə. III-m.t. II əsrinə aid edilən Bərgüşad küp qəbirləri, Ramal kəndində

tapılmış m..ə. II əsrlərə- m.t.II əsrinə aid 16 ədəd artefaktlar, küp qəbirləri, Qazyan kəndində arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış m.ə. II-I əsrlərə aid küp qəbirlər, Yuxarı Şilyan kəndində tapılmış qızıl sikkələr və ləl cəvahirlər olan dəfinə bu ərazinin qədim tarixə malik olduğunu sübut edir.

Bu faktlar sübut edir ki, gələcəkdə Ucar rayonu ərazisində arxeoloji qazıntılar daha geniş şəkildə aparılarsa qədim dövrə aid yeni-yeni maddi –mədəniyyət abidələrinin üzə çıxmasının şahidi ola bilərik.

İstifadə olunmuş ədəbiyyat

1. "Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən - b.e. III əsri)", Bakı, 2007
2. Aşurbəyli S. Şirvanşahlar dövləti (VI-XVI əsrlər).Bakı: Azərnəşr,2006,416 s.
3. Əliyev T. Alican və Tülyançay hövzəsinin küp qəbirləri. Tarix və onun problemləri. 4, 2013, s.321
4. Əsədov Vaqif, Ağalarzadə Anar "Antik dövrə aid bir qrup küp qəbirləri haqqında" Qafqaz Albaniyasının etno-mədəni irsi. № 3, s. 56-57
5. Vəlişov N.T. Ucar rayonu və onun toponimiyası. Bakı, "Təhsil" NPM, 2005; 120 s
6. Vahidov R. M. Mingəçevir III-VIII əsrlərdə. Bakı: Elm, 1961.
7. Xəlilov C.A. Albaniyanın qəbir abidələrinin dövrünün təyinində antik sancaqların rolu s. 58. (Azərbaycan Arxeologiyası 2013 Azerbaijan Archaeology Vol.:17 Num.:1)
8. "Bir Bax" kanalı https://www.youtube.com/watch?v=STr7qjBRYcg
9. https://hafiztimes.com/5-kilo-qizil-pulu-vedrəyə-yigdiq-azərbaycanda-dəfinə-tapanlarhəmin-yerləri-qazin-sensassion-arasdir
10. https://archaeologydataservice.ac.uk/archives/view/object.cfm?object_id=2239334
11. https://intarch.ac.uk/journal/issue59/11/ia.59.11.pdf

12. https://aghdash.mct.az/az/view/360/20/Ucar_TarixDiyarsunasliq_Muzeyi
13. https://intarch.ac.uk/journal/issue59/11/ia.59.11.pdf
14. https://archaeologydataservice.ac.uk/archives/view/object.cfm?object_id=2239334
15. APA TV 20 iyun 2022-Zahid Abışov, Devran Əsgərov,
16. APA TV-22 iyun 2022-Zahid Abışov, Devran Əsgərov
17. Yeni Müsvat qəzeti

Rus dilində

18. Амброз А.К. Фибулы юга европейской части СССР. II в. до н.э. - IV в.н.э. Свод археологических источников, выпуск Д 1-30. Москва, 1966.
19. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, 1959.
20. Голубкина Т.И. Археологическое обследование и раскопки кувшинных погребений в Азербайджане в 1953 г. // Известия АН Азербайджанской ССР, серия общественных наук, 1959, № 1, с. 17-38.
21. Нонешвили А.И. Погребальные обряды наро дов Закавказья (кувшинные погребения VIII в. до н.э. – VIII в. н.э.). Тбилиси: Мецниереба, 1992, 173 с., илл.
22. Ионе Г.И. Мингечаурские кувшинные погребения с оружием / КСИИМК, выпуск 60. Москва, 1955, с. 54-62.

İngilis dilində

23. National Academy of Sciences Archaeology and Ethnography Institute DETAILED SCIENTIFIC REPORT Excavation of Ramal jar burial at KP 169.6 SCPX pipeline. Author of the report: ANAR MIRSAMID OGLU AGALARZADƏ Leading fellow at the Archaeology and Ethnography Institute, PhD in history, associate professor Baku-Azerbaijan 2018
24. Azerbaijan National Sciences Academy Institute of Archaeology and Ethnography COMPREHENSIVE SCIENTIFIC REPORT Excavations in Gazyan necropolis at

KP 149.8 SCPX pipeline. Author of report: MÜZƏFFƏR Magsud oghlu HÜSEYNOV Senior research fellow at Institute of Archaeology and Ethnography, PhD in History, associate professor Baku, Azerbaijan 2018

III. Rayon ərazisi orta əsrlərdə Azərbaycanın görkəmli şairi Həbibi

Qədim dövrlərə aid faktlar əsasən rayonun qədim tarixə malik kəndlərində aşkara çıxarıldığı kimi, orta əsrlərə aid faktlar da bu kəndlərdə aşkara çıxarılmışdı. Belə kəndlərdə biri Bərgüşad kəndidir.

Tarixçi Fəxrəddin Mübarəkşah (XII əsr) 58 türk tayfası arasında bərgü tayfasının da adını çəkib. Fəzlullah Rəşidəddin (XIII əsr) bu etnonimi bərküt (bərgülər) kimi qeydə almışdır. Tədqiqatçıların fikrinə görə, bərgülər tatar-monqol yürüşlərindən xeyli əvvəl Azərbaycanda məskunlaşmışlar. Toponimin tərkibindəki şad/şat sözü isə bir növ cəmlik bildirir. Bərgüşad dağları, Bərgüşad çayı, Bərgüşad çökəyi toponimləri "bərgülərin dağı", "bərgülərin çayı", "bərgülərin çökəyi" mənasındadır. XV əsr Azərbaycan şairi Bədr Şirvaninin əsərlərində də Bərgüşad coğrafi adı çəkilir. Bərgüşad toponimi çox geniş coğrafi areala sahibdir. Ucar rayonunda Bərgüşad adlı kənd var... [6, s. 22; 8, s. 48].

Ucarın Bərgüşad kəndi görkəmli Azərbaycan şairi Həbibinin doğulub boya, başa çatdığı qədim tarixə malik kəndlərdən biridir.

Şair Həbibi (1470/1475, Şirvan mahalının, Ucar (hazırda



rayonunnun) Bərgüşad k. – 1520 İstanbul) ***Rəssam Asəf Cəfərov***

Dahi ədib Füzulinin ustadlarından sayılan görkəmli Azərbaycan şairi Həbibi təqribən 1470-75 illərdə Şirvan mahalının 1867 ildən Göyçay qəzasına daxil olmuş indiki Ucar rayonunun Bərgüşad kəndində anadan olmuşdur. Əsl adı mənbələrdə çəkilməyən Həbibi rəvayətə görə uşaqlıqda çobanlıq etmiş və təsadüf nəticəsində gənc yaşlarında Ağqoyunlu hökmdarı Sultan Yaqubun sarayına gətirilmişdir. Sonralar Şah İsmayıl Xətainin sarayında böyük nüfuz qazanmış, hətta Məlik üş-şüara olmuşdur. Çaldıran döyüşündən (1514) sonra ömrünü Türkiyədə keçirmişdir. Mənbələrdə Türkiyəyə getməsinin səbəbləri barədə dəqiq məlumat yoxdur. Müasir tədqiqatçılar bunu Osmanlı sultanı I Səlimin o vaxt Səfəvilərin paytaxtı olan Təbriz şəhərini tutması ilə əlaqələndirirlər. Akademik Həmid Araslıya (1902–1983) görə, Həbibi 1514 ildə Təbriz ələ keçirildikdən sonra Osmanlı sultanı I Səlim tərəfindən Konstantinopola gətirilmiş 1700 incəsənət xadimindən biri idi.

Övliya Çələbi Həbibini I Səlimin saray əyanı kimi təsvir etmişdir. Müasir tədqiqatçılar buna əsaslanaraq güman edirlər ki, türk və fars ədəbiyyatı ilə yaxından maraqlanan sultan Həbibini sarayını tərk etdiyinə görə məyus qalmış Şah İsmayıldan qorumağa çalışırdı.

Həbibi Ağqoyunlu Sultan Yaqubun, sonralar isə Şah İsmayıl Xətainin sarayında böyük nüfuz qazanmış, hətta məlik üş-şüəra olmuşdur. Həbibi yaradıcılığı Xətai və Füzuli poeziyasının formalaşmasında münbit zəmin rolunu oynamışdı. Böyük Füzulinin özü Həbibi şeirindən təsirlənmiş və onun bədii təsvir baxımından gözəl bir qəzəlinə təxmis (Şərq, o cümlədən Azərbaycan şeirində lirik janrın nisbətən az yayılan şəkillərindən biri) yazmışdı [3, s.741].

Çaldıran döyüşündən (1514-cü il) sonra Həbibinin ömrünü Türkiyədə keçirməsi haqqında mənbələrdə qısa məlumat verilsə də, səbəbləri göstərilməyib. Fikrimizcə, görkəmli şair Çaldıran döyüşündən sonra, I Səlim tərəfindən İstanbula aparılan sənətkarlar arasında olub. Bu məsələ barədə tarixi mənbələrdə aşağıdakı məlumat var: "Əsas döyüş 1514-cü il avqustun 23-də Maku şəhəri yaxınlığındakı Çaldıran düzündə baş verdi... Sentyabrın 6-da Sultan Səlim Səfəvilər dövlətinin paytaxtı Təbrizə daxil oldu, lakin bir həftədən sonra geri döndü. Qışın yaxınlaşması, ərzaq qıtlığı və ən nəhayət, qızılbaş döyüşçülərinin vətən torpağı uğrunda misilsiz igidliyi Sultan Səlimi Azərbaycandan tezliklə çıxmağa vadar etdi... Sultan Səlim geri dönərkən, bir neçə min mahir Təbriz sənətkarını ailəliklə əsir alıb Türkiyəyə apardı" [2, s.178-179].

Maraqlı faktlardan biri budur ki, Həbibi ilə birlikdə I Səlim tərəfindən İstanbula gətirilmiş əhalinin bir hissəsi 1509-cu ildə İstanbulda baş vermiş güclü zəlzələdən sonra şəhərdə həyata keçirilən bərpa işlərinə cəlb edilmiş, bir hissəsi isə o zaman Osmanlı imperiyasının ərazisi olan, hazırkı Bolqarstana köçürülmüşdür. Bolqarstana köçürülmüş insanlar burada şiə qızılbaş zirətgahı olan Dəmir Baba Təkə türbəsini inşa etmişlər.



Demir BabaTeke.
Felix Philipp Kanitz (1829-1904)

Türbənin adında olan Təkə sözü haqqında müxtəlif fikirlər irəli sürülsə də tarixi faktlar sübut edir ki, Təkə-türkmən tayfalarında biridir və bu tayfanın bir qolu olan təkəlilər qızılbaş tayfalarından biri hesab olunurdu. Onlar Səfəvilər dövlətinin siyasi həyatında mühüm rol oynamaqla yanaşı, Azərbaycan xalqının etnogenezində də fəal iştirak etmiş türk tayfalarından biridir. Qızılbaşlar əvvəlcə şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər, varsaq, qaradağlı, sonralar isə bayat, qaramanlı, baharlı, alpaut, ərəşli, qazaxlı və başqa türk tayfalarını birləşdirirdi. Qızılbaşların başlarına ördükləri 12 zolaqlı qırmızı çalma da təkkə (incə materialdan olan baş örtüyü) adlanırdı. Ehtimal etmək olar ki, türbənin adında olan Təkə sözü Təkə tayfasının adından götürülüb.


23/02/2014 14:20


AVCILAR
BELEDİYESİ
Oğlan Oldum, adım sakladım.
Yiğit oldum önüm sakladım
Er oldum
DEMİR BABA
23/02/2014 14:20



Dəmir Baba abidə-ziyarətgahı Razqrad vilayətinin İsperix bələdiyyəsi ərazisinə daxil olan Malık Provers və Sveşarı kəndləri arasında yerləşir. Tarixi abidə “ Sobryano” tarixi-arxeoloji qoruğun ərazisinə daxildir [11].

Əsərlərini doğma Azərbaycan dilində, aydın üslubda yazan, hürufilik və təsəvvüf kimi mövzulardan bəhs edən, sənətkarlığı ilə Füzulini belə heyran edən, onu əsərinə nəzirə, təxmis yazmağa sövq edən, Kişvəri ilə dostluq edən Həbibinin şeirləri yüksək poetik işləmələri, həyatın incə duyğuların tərənnümü ilə fərqlənir. Lakin Həbibinin divanı dövrümüzədək gəlib çatmamışdır. Onun ədəbi irsindən yalnız 50-yə qədər şeiri (qəsidə, qəzəl, müsəddəs (hər bəndi 6 misradan ibarət klassik şeir forması), tövhid, qitə və s. məlumdur. Şairin şeirləri “Şeirlər” (1981), “Qəsidələr, qəzəllər. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə”, 3-cü cild (1984) və “Həbibi. Şeirlər” (2006) kitablarında nəşr olunub. [5; 7; 10, s. 44-45]

Öz dövrünün görkəmli Azərbaycan şairlərindən biri olan Həbibiyə Çakəri Sinan Çələbi, Səfayi Çələbi, Cəlalzadə Mustafa Çələbi, Həyati Çələbi, Tutmaçı kimi XVI əsr şairlərinin nəzirələr yazmaları onun Osmanlı poeziyasında da tutduğu yerin əhəmiyyətini göstərir. [1; 4, s. 4-16; 9; 12]

Həbibinin yaradıcılığı Azərbaycan şeirinə, Şah İsmayıl Xətai, Füzuli və başqalarının yaradıcılığına, ümumiyyətlə, türkdilli poeziyaya güclü təsir göstərmişdir. Şeirlərinin xalq ifadə tərzinə yaxın olan dilində mürəkkəb ərəb və fars tərkibləri qismən azdır:

Aşiqə məşuqinin cövrü səfası xoş gəlür,
İki aləmdən ana bir mərhəbası xoş gəlür.
Gözlərim dərdinə sürmə olmağiyçün dəmbədəm
Tutiyayi-cövhərindən xaki-payi xoş golür.
Ömri-baqi saçlarındır, badə vermə, ey sənəm,
Görün ol ömri-əzizi, çün bəqası xoş gəlür.
Cümlə bu xəlqi-cəhanın qilü qalindən mənə
Eşigində itlərünün macərası xoş gəlür.
Sana, ey zahid, behiştü hurü rizvani, mənə
Ol büti-ziba nigarımın liqası xoş gəlür.
Bu Həbibinin duasın müstəcab et, ey sənəm,
Çün kərəm əhlinə dainin duası xoş gəlür.

Həbibinin Ağqoyunlu sarayına gəlməsi ilə bağlı maraqlı bir rəvayət məlumdur.Həmin rəvayətə görə, şairin uşaqlığı Bərgüşad kəndində quzu otarmaqla keçirmiş. Bir gün Sultan Yaqub ova çıxanda çöldə quzu otaran bir uşaq görür. Mülazimlərindən birini göndərib quzuların sahibinin kim olduğunu soruşmaq istəyir. Mülazim uşağın yanına gəlib soruşur:

– Nə yığırsan?

– Çör-çöp.

– Çör nədir, çöp nədir?

– Çöp dik duranlardır, çör yıxılanlar.

– Bu quzular kimindir?

– Qoyunların.

– Kəndinizin böyükləri kimdir?

– Öküzlər hamıdan böyükdür.

– Onu demirəm, kəndinizə gələnləri kim qarşılayır?

– Sənin kimi əziz adamlar gələndə onu qarşılamağa itlər yüyürür.

Mülazim qəzəblənib deyir:

– Ay, nə çapaydım səni.

Uşaq cavab verir:

– Atını çap, gör ki, yoldaşların getdi.

Mülazim həmin söhbəti Sultan Yaquba nəql edir. Hazırcavablığı, məzəli söhbətləri çox sevən Sultan Yaqub uşağın çox istedadlı olduğunu başa düşüb, onu saraya gətirdir, təlim və tərbiyəsi ilə məşğul olur.

Sonralar Həbibi görkəmli sənətkar kimi məşhurlaşır [13].

S. Cengiz Sadıkoğlunun "TDV İslam Ansiklopedisi İnternet sitesi"ndə yazdığı "Həbibi -Azərbaycan şairi حبیبی" adlı məqalə şair haqqında maraqlı məlumatlar verir: " Ağqoyunlu SultanYaqubun 1478 -ci ildə hakimiyyətə gəldiyini və onunla görüş zaman Həbibinin təxminən 8 yaşı olduğunu nəzərə alsaq Həbibi təxminən 1470-ci ildə dünyaya gəldiyi demək olar. O ilk serlərini Ağqoyunlu sarayında yazıb. 1490-cı ildə Sultan Yaqubun ölümündən sonra 1502-ci ildə Şah İsmayılın sarayına gəldiyi 12 illik dövrdəki fəaliyyəti ilə bağlı

mənbələrdə məlumata hələlik rast gəlinməyib. Özü də şair olan Şah İsmayılın ona "melikü'ş-şuara" adını verməsi Həbibinin böyük şöhrət qazandığını sübut edir. Tarixçi Nitekim Hamit Araslı Yavuz Sultan Səlimin Təbrizi aldıqdan sonra (920/1514) ailəliklə birlikdə İstanbula aparılan 1700 sənətkarın içində Habibinin də olduğunu irəli sürür. Ancaq Eğridirli Hacı Kemalın 918 (1512) ilində tamamladığı "Camiu'n-nezair" əsərinə Həbibinin bir çox şeirlərinin daxil edilməsi onun II Bəyazidın dövründə Anadoluya gəlməsi ehtimalını və şöhrətinin gəlməmişdən əvvəl bu ölkəyə yayıldığı ehtimalını da irəli sürməyə imkan verir.

Övliya Çelebinin Həbibini Yavuz Sultan Səlimin nedimi, yəni saray adamı olduğunu göstərməsi (Seyahatnâme, I, 411), Türk ve Fars ədəbiyatlarına böyük dəyər verən Sultan Səlimin Şah İsmayıla qarşı onu himayə etmiş ola biləcəyi fikrini irəli sürməyə imkan verir.

Həbibnin, bir çox şairlərin bəzilərini Ağqoyunlu ve Səfəvi sarayında olarkən tanıdığı və şeirlərinə nəzirələr yazdığı təhmin edilir. Köprülü ise bu şeirlərin nazirə olaraq yazılmadığını, vəzin ve qafiyə baxımından adı geçen şairlərin şeirlərinə benzədiyi için Hacı Kemal tərəfindən nazirə kimi qəbul edildiyini bildirir.

Fuzulinin "Ger senünçün kılmayam çak ey büt-i nazük beden" misrasıyla başlayan beş beyitlik qəzəlinə Həbibi yeddi bəntlik "Dedim dedi" adlı təzkirə yazıb. Bundan başqa onun təzkirə şeirlər yazmadığı bildirilir.

M. Fuad Köprülü Nəsimi, Xətayi və Fuzuli arasında bir geçid dövrünü təmsil edən Habibinin yaşadığı dövrün ən önəmli Azərbaycan şairlərindən biri olduğunu qeyd edir.

Nəsimidən sonra Həbibi Azərbaycanda şairlərin yetişməsinə ən çox təsir göstərmiş böyük şair hesab olunur. Onun şeirlərindək sufi anlayışları, eşq, aşiq, sevgi, məhəbbət, insana səcdə və vəhdətə çatmaq və s. üstünlük təşkil edir.

Mənbələrdə I Səlimin dövründə vəfat etdiyi bildirilən Həbibinin dəqiq ölüm tarixi məlum deyil. Övliya Çələbinin qeydlərinə görə, o, Sütlücədə yerləşən Cəfərabad xanəgahında dəfn edilmişdir [15].

Həbibinin **"Müstədam olğıl həmişə, ey gözəl xanım mənim"** şeri:

Müstədam olğıl həmişə, ey gözəl xanım mənim,
Gözləri nərgiz, yüzü gül, zülfi reyhanım mənim.
Gün yüzün gördükcə, vallahi, bu könlüm şad olur,
Həq səni var eyləsün, dövlətli sultanım mənim.
Sən fərağət, şadü xürrəm, mən qılıram nalələr
Xoşmidir, dilbər, sana bu ahü əfğanım mənim?
Həsrətindən xəstə oldum, dərdimi bilməz təbib,
Dilbəra, vəslindədir, var istə dərmanım mənim.
Ey Həbibim, iştə ğori mədhini təkrar edəm,
Bülbüli-şuridənəm, sənsən gülistanım mənim [5;14].

Bərgüşad kəndi ilə yanaşı Ucar rayonunda Azərbaycanın görkəmli şairi Məhəmməd Fizulinin mənsub olduğu Boyat tayfasının adını daşıyan Boyat kəndi də var. Boyat tayfası Səlcuq yürüşlərində iştirak etmiş, Səfəvilərin tərkibində olmuş qədim oğuz tayfasıdır.

Ucarın digər kəndi Alpovudun adı da qədim türk tayfasının adından götürülüb. Alpovud tayfası XI-XII əsrlərdə Səlcuqların, XIV-XV əsrlərdə Qaraqoyunlu və Ağqoyunların tərkibində olublar [6, s.16, 24].

Tədqiqatlar aparlılmadığından Ucar rayonun orta əsrlər tarixinə aid materiallar da digər dövrlər kimi azlıq təşkil edir. Fikrimizcə gələcəkdə bu sahədə tədqiqatlar genişləndirilərsə orta əsrlərə aid yeni samballı faktların ortaya çıxmasının şahidi olarıq.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan ədəbiyyatı tarixi, III cilddə, I cild, Bakı, 1960;
2. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər)", Bakı, 2007
3. Azərbaycan Milli Ensklopediyası. 25 cilddə. "Azərbaycan" xüsusi cildi", Bakı, 2007
4. Məmmədov Ə. Füzulini heyran edən şairimiz // Həbibi. Şeirlər. Bakı, "Şərq-Qərb", 2006,
5. Həbibi. Şeirlər. Bakı, "Şərq-Qərb", 2006. 88 səh.
6. Tapdıqoğlu, N. Ucar rayonu və onun toponimiyası: [qısa ensikloopedik dərgi] Bakı: Təhsil, 2005.- 120 s.
7. Qəsidələr, qəzəllər. "Azərbaycan klassik əbədiyyatı kitabxanası". "20 cildə", C.3. Bakı: 1984.
8. Салманов Ч. ГУБАДЛЫНЫН ЙЕР-YURD АДЛАРЫ (mononimləri) Сумгайыт «Азяри» няшрийяаты– 2015, 264 с.
9. Səfərli Ə., Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. "Ozan", Bakı, 1998.
10. Zülfüqarlı M. "Göyçay tarixi". Bakı, 2022, 307 s.
11. Zülfüqarlı M.P. Bolqarstanda XVI əsr Azərbaycan abidəsi-Dəmir Baba Təkə türbə. "İdarəetmədə multikultural dəyərlər" mövzusunda beynəlxalq elmi konfransın materialları

/ Materials Of international scientific conference on "Multicultural values in management". Bakı, Mütərcim, 2020, – 316 səh., s.46-50

12. https://goychay-encyclopedia.az//həbibi/
13. https://anaveushaq.wordpress.com/2022/04/24/həbibi/
14. https://www.ensiklopediya.az/az/hebibi-mustedam-olgil-hemise-ey-gozel-xanim-menim
15. https://islamansiklopedisi.org.tr/habibi



IV Ucar stansiyasının yaranma tarixi

4.1. "Paxanlar" məhəlləsinin yaranması (1870-1917-ci illər)

XIX əsrdə Bakı-Tiflis yolu çox mühüm iqtisadi, hərbi, strateji əhəmiyyətə malik idi. Ucar və digər stansiyaların yaranmasına səbəb olmuş Bakı-Tiflis dəmir yolu çəkilməsindən xeyli əvvəl, çar Rusiyası Xəzər dənizindən Kür çayı vasitəsilə Tiflisə qədər gəmilərlə yüklərin və canlı qüvvənin daşınması üçün su yolunu çəkməyi planlaşdırmışdı.

Çar Rusiyasının mütəxəssisləri imperiyanın siyasətinə uyğun olaraq Kür çayı vasitəsilə Xəzər dənizindən Tiflisə qədər su yolunun istifadəyə verilməsi üçün XIX əsrdə layihələr təklif

etmişdilər. Kür çayında gəmiçiliyin inkişafı ilə bağlı layihəni Qafqaz çanişini Mixail Vorontsov irəli sürmüşdü. Onun 27 dekabr 1844 - 1 mart 1854-ci il tarixlərində Qafqaz çanişini olduğunu nəzərə alsaq, məlum olur ki, Kür çayında gəmiçiliyin inkişafı ilə bağlı layihənin irəli sürülməsi Bakıda neft sənayesinin inkişafının ilkin mərhələsinə düşür. Bu layihənin reallaşması üçün müəyyən hazırlıq işləri də görülmüşdü. Lakin sonradan obyektiv və subyektiv səbəblərə görə bu layihədən imtina edildi.

Kür çayında su nəqliyyatına uzun illər çayın dibində yığılıb qalan iri ağac kötükləri mane olurdu. Buna görə də Kürün ağac kötüklərindən təmizlənilməsi işinə başlanılmış, 1852-ci ilin axırlarına yaxın böyük zəhmət hesabına Mingəçevirə qədər Kürün gəmi keçəcək bütün yerləri eni 15-20 sajenə qədər təmizlənmiş, çaydan 500-dən çox ağac çıxarılmışdı [10, s.11; 16].

Kürdəki maneələr barədə H.B.Zərdabi yazır: "Məlum oldu ki, Kür daşan vaxt çayda üzən ağacları Yevlax körpüsünün yanında tutmağı yaddan çıxarıblar, hansı ki, bu çayın dibinə bataraq yeni çıxıntılar əmələ gətiribdir... Onda qərara gəldilər ki, işi aşağıdan yuxarı, məhz Salyandan başlamaq lazımdır... Beləliklə, çay Körpükənd kəndinə qədər təmizləndi... Nəticədə qeyd edək ki, bakılı Vəliyevin, bir neçə iri balıq sənayeçisinin və Balıqçılıq İdarəsinin gəmiləri artıq Kür çayında işləyir, lakin təcili hərəkət heç bir yerdə yoxdur" [7; 10; 22, s.329].

M.Vorontsovun irəli sürdüyü təklif imperator tərəfindən qəbul olunur və nəzərdə tutulan gəmiçilik xidmətinin yaradılması məqsədilə baron Meyendorfun rəhbərliyi altında komitə yaradılır. Knyaz M.Vorontsovun əlahəzrət İmperatora

təqdim etdiyi başqa bir hesabatda Xəzər dənizində və Kür çayında gəmiçiliyin inkişafı ilə bağlı maraqlı məlumatlar var. Canişinin yazdığına görə, 1850-ci ildə mütəxəssislər tərəfindən müəyyən edilib ki, Zərdabdan Mingəçevirə qədər olan ərazidə təmizlik işləri aparmaqla gəmilərin bu çayda rahat üzməsinə imkan yaratmaq olar... Xəzərdə gəmiçiliyin təşkili həm də Novqorod yarmarkası ilə Qafqaz və İran arasında ticarət əlaqələrinin artırılmasına səbəb ola bilərdi. Rusiya imperatorunun, dövlət məmurlarının, o cümlədən knyaz Vorontsovun, nəinki Xəzər dənizində, eyni zamanda Kür çayında gəmiçiliyin təşkilinə böyük maraq göstərməsinin səbəbləri sırasında bu amil də var idi [8, s. 9].

Bu məsələ Azərbaycanın XIX əsrdə görkəmli şəxsiyyətlərinin də diqqət mərkəzində olub. Azərbaycanda milli şüurun oyanışında müstəsna xidmətləri olan görkəmli şəxsiyyət Həsən bəy Zərdabinin "Kaspi" qəzetinin 3 oktyabr 1899-cu il tarixli sayında, rus dilində dərc olunan "Kür çayında gəmiçilik" adlı məqaləsində bu layihələr haqqında ətraflı məlumat verilir. Görkəmli filosof Heydər Hüseynovun rus dilində nəşr olunan "Azərbaycanın XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsərində H.B.Zərdabinin bu məqaləsi geniş şərh edilib [16].

Məqalədə layihə barədə aşağıdakı fikirlər göstərilib: "Heç bir düz-əməlli ölkədə Kürlə müqayisədə böyük bir çay tapmazsan ki, orada gəmiçilik olmasın... Hələ keçmiş canişin knyaz Vorontsov Kürün mənsəbi ilə Tiflis şəhərini birləşdirmək istəyirdi, ancaq mühəndis araşdırmalarına görə, Tiflisdən aşağı hissədə çayın yatağında olan astanaya görə bu mümkün olmamışdı. Buna görə də o vaxt Salyanı Zərdab kəndi ilə

birləşdirən kiçik bir gəmi ilə kifayətləndilər. Sonra gəmiçilik haqqında düşünmədilər.”

Məqalədən məlum olur ki, neft sənayesinin sürətlə inkişaf etdiyi XIX əsrin ikinci yarısında layihəyə yenidən maraq artır: “Bakı və onunla birlikdə Xəzərsahili ərazilər rəhbərliyin gözü qarşısında dirçəldi, elə buna görə dəmir yolunun açılışından sonra Kürdə gəmiçilik haqqında düşünməyə başladılar, bu dəfə onun mənsəbindən Yevlax stansiyasına qədər. Nəqliyyat mühəndisləri tapdılar, sualtı əyriləri təmizləyən bütöv suölçən ştatı yaratdılar; rəhbərlik üçün kayutalı gəmilər qurdular və su hövzəsini təmizləyən donanma Kür ilə irəliləyərək ildə 25 min dövlət pulunu udmağa başladı” [7; 10; 16; 22, s.329].

Fikrimizcə, çar hökuməti çayda nəqliyyata mane olan amilləri nəzərə alaraq, sonradan bu layihədən imtina edərək Bakı-Tiflis dəmir yolunun inkişafına üstünlük verib. Bu yolun böyük bir hissəsinin Göyçay qəzasının, indiki Ucar rayonunun ərazisindən keçməsi Ucar, Müsüslü, Bərgüşad stansiyalarının yaranmasına səbəb oldu. Yuxarıda qeyd olunan faktlardan belə nəticə çıxarmaq olar ki, əgər Kür çayından Tiflisə qədər su nəqliyyatı layihəsi həyata keçirilsəydi Bakı-Tiflis dəmir yolunun çəkilişinə ehtiyac qalmazdı. Bununla da indiki Ucar rayonunun ərazisində olan Ucar, Müsüslü, Bərgüşad stansiyaları da inşa edilməzdi.

Faktlar sübut edir ki, görkəmli mütəfəkkir Həsən bəy Zərdabi bir müddət Ucarda yaşamış və vəkil kimi fəaliyyətini burada davam etdirmişdir. Bu dövrdə Zərdab polis məmurlarının, rayon balıqçılıq idarəsi rəislərinin, dövlət əmlak müvəkkillərinin, vergi müfəttişlərinin və məhkəmələrin

kabinetlərinə çoxlu sayda Həsən bəy Məlik-Zərdabinin yumşaq, dairəvi və aydın dəsti ilə yazılmış hər cür müraciət və şikayətləri daxil olurdu. Bütün bu dövlət agentləri hakimiyyətə qarşı çıxmağa cəsarət edən hədsiz dərəcədə qeyrətli və cəsur hüquqşünasa qarşı qüvvələrini birləşdirdilər. Həsən bəy Zərdabi onlara qarşı mübarizə aparmaq üçün ailəsini Zərdabda qoyub, orada qurduğu fermanı unudub, bağı tərk edib, rayon mərkəzinə, eləcə də Bakıya və xüsusən Tiflisə daha yaxın olmaq üçün Ucar stansiyasında, dəmiryol xəttinin yaxınlığında məskunlaşdı [34, s.89]. Fəaliyyətini bir müddət Ucardan davam etdirdi.

1870-1883-cü illərdə Bakı - Tiflis yolu çəkilərkən Hacıqabul ilə Gəncə arasında dəmir yolundan istifadə olunan buxar maşınları ilə işləyən paravozların su götürməsi üçün dəmir yoluna öz axarı ilə suyun gətirilməsi mümkün olan əlverişli yerin axtarıb tapılmasına ehtiyac var idi. Buna görə çar hökuməti tərəfindən xüsusi komissiya yaradılıb, müsabiqə elan edilmişdi. Komissiya uzun axtarışdan sonra indiki Ucar şəhəri ərazisinin bu iş üçün əlverişli olması qənaətinə gəlib. Çünki bu ərazi nisbətən çökək olduğundan yaxındakı Qarabörk kəndindəki arxdan öz axarı ilə suyun gətirilməsi mümkün idi. Məhz bu səbəbdən indiki Ucar stansiyası bu ərazidə inşa edildi. Su öz axarı ilə bura gətirilir, xüsusi hovuzlara doldurulur, paravozlar da buradan su götürərək yollarına davam edirdilər [12, s. 40].







Ucar stansiyasının ilk tikililəri

Ucar stansiyası ilə yanaşı qonşu Hacıqabul, Kürdəmir,Yevlax və digər stansiyalar da tikilirdi.

Kürdəmir dəmiryolu vagzalı. 1883 cü il.
(Arxiv)



https://bizim.media/az/read/197162/https://bizim.media/az/cemiyyet/197162/kurdemirde-yasi-esr-yarima-yaxin-olan-tkllrn-aqbt-aradirmafoto/

Aparılmış elmi araşdırmalar sübut edir ki, XIX əsrin II yarısında Bakı-Tiflis dəmir yolu inşa edilənə qədər hazırkı Ucar rayonunun bir sıra kəndləri mövcud olsa da, rayon mərkəzi olan Ucar yaşayış məntəqəsi olmamışdır. Bakı-Tiflis dəmir yolu inşa edilərkən qəza mərkəzi olan Göyçay şəhərinə dəmir yol xəttindən ən yaxın, 18 km ərazidə kiçik Ucar stansiyası inşa edilmiş, sonradan əlverişli ərazidə yerləşdiyinə görə tədricən inkişaf etmişdir. Ehtimal etmək olar ki, əgər qəza mərkəzi olan Göyçay şəhəri Bərgüşad və ya Müsülü kəndlərinə yaxın məsafədə yerləşsəydi və həmin ərazilərə suyu öz axarı ilə gətirilməsi mümkün olsaydı bəlkə də Ucar stansiyasının inşasına ehtiyac olmazdı. Bir də Göyçay şəhəri Göyçay çayının Ucar rayonu ərazisindən keçən Qulabənd kəndi istiqamətində dəmir yoluna ən yaxın məsafədə yerləşsəydi və həmin əraziyə də suyu öz axarı ilə gətirilməsi mümkün olsaydı onda Qulabənd stansiyası inşa edilər, yenə də Ucar stansiyası inşa edilməzdi. Deməli buradan da belə nəticə çıxarmaq olar ki, Ucar stansiyasının indiki ərazidə yaradılması qəza mərkəzi olan Göyçaya dəmir yolundan ən yaxın məsafədə yerləşməsi və bu ərazinin çökək olduğundan bura suyun öz axarı ilə gəlməsi səbəb olmuşdu. Bu iki versiyanı birləşdirərək demək olar ki, Ucar paravozları su ilə doldurulmasını təmin edən, həm də qəza mərkəzi Göyçaya ən yaxın məsafədə yerləşən stansiya kimi meydana gəlmişdi.

Dəmir yollarının çəkilişi, dəniz nəqliyyatının inkişafı, rabitə yollarının yaxşılaşdırılması və s. feodal münasibətlərinin dağılmasına, kənd təsərrüfatı sahələrinin ixtisaslaşmasına, bazar üçün istehsalın genişlənməsinə yardım göstərdi ki, bu da

əmtəə istehsalının və kapitalist münasibətlərinin inkişafını sürətləndirdi [1,s.254].

Şimali Azərbaycan çar Rusiyası tərəfindən işğal olunduqdan sonra vəziyyətin ağırlığından müsəlman əhalinin bir hissəsi İran və Türkiyəyə köçmüşdür. Bu proses Türkmənçay müqaviləsindən başlayaraq mərhələ-mərəhələ XIX əsrin axırlarına qədər davam etmişdir. Köçən əhali içərisində indiki Ucar rayonun kəndlərinin də əhalisi olmuşdur. Məsələn,1894-cü ilin noyabrında Yelizavetpol quberniyasının Ərəş qəzasından Türkiyəyə köçlə bağlı bəzi məlumatlarda (Köç edən əhalinin bir qismini əhatə edir) hazırda Ucar rayonuna aid olan Qazqumlaq kəndində 14 nəfərin, Məlik-Ballı kəndindən 13 nəfərin köçməsi qeyd olunub [28; 30]. Şimali Azərbaycandan İran və Türkiyəyə əhali köçdüyü kimi İrandan, əsasən də Cənubi Azərbaycandan şimali Azərbaycana kapitalizmin inkişafı ilə əlaqədar işləmək üçün çoxlu sayda ucuz işçi qüvvəsi çörək pulu qazanmaq üçün gəlirdi. Zaqafqaziyada iranlı əmək mühacirlərinin olması hələ 1854-cü ildə qeydə alınmışdır.1855-ci ildə İngiltərənin Təbrizdəki konsulu K.E. Abbott, yerli Rusiya konsulluğunun iki ay ərzində 3000-dən çox pasport verdiyini bildirmişdi. Proses sonradan xeyli gücləndi və 1897-ci ildə keçirilən ilk ümumrusiya əhalinin siyahıya alınması zamanı Rusiya İmperiyası ərazisində 74.000 iranlı aşkar edildi, onlardan 21.000-i qadın idi. Bütün iranlıların təxminən 72%-i Bakı, Gəncə, İrəvan və Tiflisdə yaşayırdı, 32.000 nəfər farsdilli, qalanları isə türkdilli idi. 1876-1890-cı illərdə Təbriz, Mahabad və Mazandarandakı rus konsulluqları hər il orta hesabla 13.000 pasport verirdi. Əsrin sonunda bu rəqəm 67 minə çatmışdı. Nəticədə 1913-cü ilə qədər 274.555 iranlı Rusiyaya qanuni yolla daxil oldu (qanunsuz miqrasiya bir neçə dəfə çox idi).

Bəzi hesablamalara görə, 1900-1913-cü illər arasında İrandan Rusiyaya xalis miqrasiya 25.000 nəfər olub. Beləliklə, Birinci Dünya Müharibəsi ərəfəsində Rusiyada iranlıların sayı 500 min nəfərə yaxın idi. Belə intensiv miqrasiya mübadiləsinə Qafqazla Şimali və Şimal-Qərbi İran arasında çoxillik tarixi əlaqələr, eləcə də mədəni, dini və dil oxşarlıqları böyük ölçüdə şərait yaratdı.Lakin nəzərə almaq lazımdır ki, Qafqaz sakinlərinin İrana axını bir neçə dəfə az idi. Buna səbəb İranda iş yerlərinin kifayət qədər olmaması, əksinə kapitalizmin inkişafı ilə əlaqədar Şimali Azərbaycanda iş yerlərinin ildən -ilə artması idi.

İqtisadiyyatının əsasını kənd təsərrüfatı və ticarət təşkil edən (bundan əlavə Gilan və Həmədan kifayət qədər qabarıq olan) bu vilayətdə iqtisadi durğunluq səbəbindən iranlı mühacirlərin təxminən 85%-i Azərbaycandan olan kəndlilər idi. Bunlar əsasən mövsümi miqrantlar idi. Onların bəziləri ölkəyə Cənubi Qafqazda kənd təsərrüfatı işlərinin qızğın olduğu mart-aprel və avqust-sentyabr aylarında gəlirdilər. İranlı miqrantların xeyli hissəsi Bakıda fəal şəkildə inkişaf edən və əhəmiyyətli işçi qüvvəsi tələb edən neft sənayesində məşğul idilər. Mövsümi miqrantlar qazanclarının əsas hissəsini İrana gətirirdilər ki, bu da ölkə iqtisadiyyatı üçün faydalı idi. Mövsümi miqrantların idxal etdiyi mallar vergiyə cəlb edilmirdi. Sənədsiz gəlməyin mümkün olması ilə əlaqədar getdikcə daha az miqrant miqrasiya sənədləri almağa başladı. Belə ki, 1905-ci ildə təkcə Ərdəbil bölgəsində 30-40 min əmək miqrantı Qafqaza sənədsiz səfər etmişdi [32, s. 83- 92].

XIX əsrin ikinci yarısından kapitalizmin inkişafı ilə əlaqədar dünyanın hər yerindən Bakı neft rayonuna işləmək üçün gələn insanlar çoxmillətli fəhlə sinfinin formalaşdırırdılar. Bu fəhlə sinfinin tərkibində Cənubi Azərbaycanda gələnlər də

çox idi. Bunların əksəriyyəti Abşeron neft mədənlərində, bir hissəsi isə kənd rayonlarında günə muzd çalışırdılar. 1900-cü ildə sənayenin aparıcı sahəsində - neft sənayesində azərbaycanlı fəhlələr 33,8 faiz (o cümlədən 15,8 faizi Şimali və 18 faizi Cənubi Azərbaycandan), rus fəhlələr 19,5 faiz, erməni fəhlələr 25,3 faiz, dağıstanlı fəhlələr 13,5 faiz və qeyri fəhlələr 7,9 faiz təşkil edirdi [1,s.254].

Kənd rayonlarında işləyən Cənubi Azərbaycandan gəlmiş işçilərə kəsbkarlar deyilirdi. Kəsbkarlıq sözü əsasən iki mənada işlənidilirdi: 1. Muzdla işləməyə gələn kəndlilər; 2. Cənubi Azərbaycandan çörək pulu qazanmaq üçün Şimali Azərbaycana gələn kəndlilər.

Kəsbkarların çoxu sənaye müəssisələrində bir müddət işlədikdən sonra vətənə qayıdır, lakin digər hissəsi isə burada qalaraq mədən və zavodlarda kök salırdı.

Cənubi Azərbaycandan kəndlilərin kəsbkarlığa getməsi kütləvi şəkil almışdı. Xaricə iş dalınca gedənlərin əksəriyyəti Türkiyəyə, Cənubi Qafqaza (başlıca olaraq Şimali Azərbaycana), Volqaboyuna, Mərkəzi Asiyaya və s. yerlərə gedirdilər. Onlar getdikləri yerlərdə "qara fəhlə" kimi çalışır və yerli fəhlələrdən xeyli az maaş alırdılar [14,s. 23].

XIX əsrin axırı-XX əsrin əvvəllərində indiki Ucar rayon ərazisinə də cənubi Azərbaycandan kəsbkarların gəlməsi günü-gündən artırdı. 1885-1886 –cı illərə aid olan məlumata görə yalnız Göyçay qəzasının Lahic və Bərgüşad yaşayış məntəqələrində Cənubi Azərbaycandan kəsbkarlığa gələnlərini sayı artaraq 449 nəfəri əhatə edən 164 ailə olmuşdu (məlumat qış və baharın ilk aylarına aiddir).

1897-ci ilin siyahıya alınmasına görə Göyçay qəzasında yaşayan yerli olmayan əhalinin 419 nəfəri İrandan gəlmələr idi. Qəza rəisinin 1 yanvar 1915-ci ilə olan məlumatına görə

Göyçay qəzasının "müvəqqəti əhalisi" sayı 6568 nəfərə çatmışdı [21; 30].

Əkinçi kəsbkarların əsas kütləsi mövsümi və günəmuzd fəhlələr idi. Belə kəsbkarlar əkinçi, biçinçi, dəryazçı kimi işləyir, çəltik, tütün, üzüm və pambıq plantasiyalarında məhsul yığır, barama qurdlarının bəslənilməsi, baramanın növlərə ayrılması, ipək sarıması və biyan kökü çıxarılması ilə məşğul olur, çobanlığa gedirdilər və s.

Ucar stansiyası yarandığı ərazidə əvvəl yaşayış olmadığından ərazinin ilk sakinləri bura iş dalınca kənardan gələn ucuz işçi qüvvəsi hesab olunan, kəsbkarlar olub. Ucar stansiyasına nisbətən yaxın Qarabörük və Gəraybəyli kəndlərinin olmasına baxmayaraq onlarda yaşayan insanların sayı çox az olduğundan stansiyanın işçiyə olan tələbatını ödəmək gücündə olmayıb. Bundan başqa həmin kəndlilər sosial vəziyyətlərinin ağırlığından təsərrüfatlarını və ev-eşiklərini qoyub cüzi əmək haqqı verilən stansiyada işləməyə meyl göstərməyiblər.

Bu dövrdə həmin kəndlərin sakinləri ağır istismara məruz qaldığına görə kəndən çıxıb başqa yerə getmək imkanları da yox idi. Rusiyada 1861-ci ildə təhkimçilik hüququnun ləğvi haqqından qanunun qəbulundan sonra 1870-ci ildə Azərbaycanda islahatlar keçirilməsinə başlanılmasına baxmayaraq kəndlilərə tətbiq olunan ağır vergilər qalırdı. Məsələn, bu dövrdə məhkəmənin qərarı olmasına baxmayaraq kəndlilərdən vergilərin əvvəlki kimi toplanması davam edirdi. Bu cür hallar Göyçay qəzasının Zərdab, Veysəlli, Lək I, Lək II, Ucar, Gəraybəyli və bir çox başqa kəndlərdə baş vermişdi [21, s.91].

Qarabörük və Gəraybəyli kəndlərindəki ağır sosial problemlərlə yanaşı nəqliyyat probleminin də mövcud olması Ucarın ilk sakinlərinin əksəriyyətini ucuz işçi qüvvəsi hesab olunan, əsasən ailələrini yaşadığı ərazilərdə qoyaraq bu ərazilərə çörəkpulu qazanmağa gələn, sərbəst yerdəyişmə həyata keçirmək imkanı olan Cənubi Azərbaycandan gəlmiş kəsbkarlar təşkil edirdi. Onlar stansiya və ətrafındakı alaçıqlarda məskunlaşaraq əksər yardımçı işləri həyata keçirirdilər.

Ucar şəhərinə ən yaxın olan Qarabörk və Gəraybəyli kəndlərinin də tarixi qədimdir. Börk papaq mənasını verdiyindən, Qarabörük Qarapapaq anlamını verir. Qarapapaqlar Türk tayfa İttifaqıdır. Qarapapaqlar daha çox Borçalıda və Gürcüstandakı digər qədim Azərbaycan torpaqlarında və Türkiyədəki Qars, Ərdahan, İğdır vilayətlərində yaşayırlar. Oykonim özündə qıpçaqların qarabörklü tayfasının adını əks etdirir. Etnotoponimdir. Qazax rayonunda Qarapapaq adlı kənd də var [4]. Özbəkstanın Qaraqalpak vilayətinin adının mənası da qarapapaq mənasını verir.

Azərbaycanda ilk dəmir yollarının çəkilişinə XIX əsrin 70-ci illərindən başlanmışdır. 1878-ci ildə Bakı şəhərini neft mədənləri və neft korpusu ilə birləşdirən 25,2 verst uzunluğundakı dəmir yolu xəttinin inşasına icazə verildi. “Neft sahəsi” adını alan bu xətlərin tikintisi 1879-cu ilin sonunda başa çatdırıldı. Və rəsmən 1880-ci ilin 20 yanvarında istismara verildi.

1879-cu ilin 22 dekabrında Cənubi Qafqaz dəmir yolu hissəsinin Bakı-Tiflis dəmiryol magistralının çəkilişinə icazə verildi. 515 verst uzunluğundakı bu yolun 1883-cü il 8

mayında rəsmi açılışı oldu və həmin gün Tiflisdən çıxan ilk sərnişin qatarı 9 mayda Bakıya çatdı [18].

1883-cü il mayın 8-də Bakı-Yelizavetpol-Tiflis magistral dəmir yolu işə salınması ilə yanaşı Tiflisdən Batum limanına da dəmir yolu çəkildi. Bakı-Yelizavetpol-Tiflis magistral dəmir yolunun davamı Tiflis-Qori- Kutaisi-Poti-Batum yolu olduğundan dəmir yolu vasitəsi ilə Xəzər dənizi ilə Qara dənizi sahilləri birləşdirildi.

1883-cü ildə Bakı–Yelizavetpol (Gəncə)-Tiflis magistral dəmir yolu xətti işə salındı. Azərbaycanın ilk yük stansiyası olan Bakı yük stansiyasından Tiflis istiqamətində dəmir yolu ilə ilk neft 1883-cü ilin mayın 8-də göndərildi. Tiflis şəhəri dəmir yolu vasitəsilə Poti şəhəri ilə bağlı olduğundan neft Qara dəniz sahillərinə qısa müddətdə çatdırılırdı [13, s. 204].

Bakı-Tiflis dəmir yolunun çəkilişi üçün 1873-cü ilin sonu və 1874-cü ilin başlanğıcında mühəndislər Malevski və Behbudovun rəhbərlik etdiyi hökumət komissiyası 662 verstlik məsafədə sonuncu kəşfiyyat işlərini apardı. İlk azərbaycanlı yol mühəndisi İsax Mehmandarovun 1882-ci ildə Peterburq Yol Mühəndisləri İnstitutunun bir qrup tələbəsi ilə birlikdə Ucar və Müsüslü stansiyaları arasında dəmir yolu tikintisində istehsalat təcrübəsi keçməsi barədə tarixi mənbələrdə məlumatlar var [6, s.63].

Bu dövrdə baş verən təbii hadisələr yolun çəkilişinə mane olurdu. Məsələn, 1882-ci ilin sentyabr ayında güclü yağış Ucar stansiyasında 10 verstlik məsafədə yolun yatağını yuyub aparmışdı [6, s.61].

1883-cü ilin sonu və 1884-cü ilin başlanğıcında kəşfiyyat işləri başa çatdıqdan sonra Yollar nazirliyinin üstünlük vediyi varianta görə Bakı –Tiflis dəmir yolunun Novtoluq, Ağstafa,

Zəyəm, Gəncə, Aqraklı (Yevlax), Ucar, Kürdəmir, Hacıqabul, Ələt və Biləcəridən keçməklə inşasına başlanıldı.

Bakı-Tiflis dəmir yolu üzərində Göyçay qəzası ərazisində əvvəl Ucar, Müsüslü, Kürdəmir, 1888-1890-cı illərdə isə Padar, Karrar, Bərgüşad yarımstansiyaları tikildi [6, s.77].

İki dənizi – Xəzəri və Qara dənizi birləşdirən Bakı-Tiflis dəmir yolu açılandan sonra Bakı neft sənayesinin məhsullarını Mərkəzi Rusiya və dünya bazarlarına kütləvi surətdə çıxarmaq mümkün oldu.

1893-cü ildə Yelizavetpol quberniyasından dəmir yolu ilə 132 min pud quru meyvə, 140 min pud qoz, badam, püstə ixrac edilmişdi. 1890-1895-ci illərdə Ucar, Müsüslü və Kürdəmir stansiyalarından hər il 16 min puddan çox meyvə ixrac olunurdu. Meyvələr əsasən Cənubi Qafqazın digər bölgələrinə və Rusiyanın daxili əyalətlərinə ixrac edilirdi [34; 35, s. 35].

1900-cü ildə Bakıdan dənizlə 353 milyon, dəmir yolla isə 84,8 milyon pud mal aparılmış, buraya dənizlə 30,6 milyon, dəmir yolla 16,7 milyon pud mal gətirilmişdi. 1913-cü ildə Bakıdan dənizlə 307,7 milyon, dəmir yolla isə 72,6 milyon pud mal aparılmış, buraya isə müvafiq surətdə 33 və 46,3 milyon pud mal gətirilmişdi. Azərbaycanın ticarət əlaqələrinin inkişafında Xəzər dənizi sahilində yerləşən digər limanlar - Lənkəran və Astara, habelə mühüm dəmir yolu stansiyaları - Hacıqabul, Kürdəmir, Ucar, Yevlax, Gəncə, Ağstafa da mühüm rol oynayırdı. Onlar Azərbaycanın, demək olar ki, bütün ərazisini Rusiyanın daxili rayonları və xarici ölkələrlə əlaqələndirirdi [2, s. 66-67].

Bir maraqlı faktı da qeyd etmək lazımdır ki, Bakı –Tiflis dəmir yolunun çəkilişi üçün daha 3 istiqamətdə layihə hazılanmışdı. 3-cü istiqamət Gəncədən keçən əsas xəttin 158-ci versində Kür çayı boyu Zədab kəndindən keçməklə Hacıqabula

qədər uzanan xətt idi. [2,s.49] Buradan belə nəticə çıxarmaq olar ki, bu layihə qəbul olunsaydı deməli Ucar, Bərgüşad, Müsüslü, Kürdəmir, Karrar, Sığırlı stansiyaları inşa edilməyəcək, bu ərazilər tamamilə başqa istiqamətdə inkişaf edəcəkdi.

Bakı ilə Tiflis arasında dəmir yolunun istifadəyə verilməsi yeni istiqamətlərdə şose yollarının çəkilməsini zəruri edirdi. 1882-ci il fevralın 12-də Qafqaz poçt dairəsi idarəsi dəmir yolu stansiyalarından qəza mərkəzlərinə poçt yolları çəkilməsi məsələsini qaldırdı. Belə yollardan biri Göyçaydan Ucara çəkilməli idi. Bakı quberniyasının 1886-cı il üzrə icmalında Göyçaydan Ucara 16.5 verst uzunluğunda olan yolun artıq şoseləşdirilməsi qeyd olunur. Bu yol Göyçay qəzası ilə yanaşı, Şəki qəzasının da şərq hissəsinə xidmət edirdi. XX əsrin başlanğıcı Ağsu-Göyçay (55 verst), Göyçay-İvanovka kəndi (18,5 verst) poçt yolu, Göyçay-Ucar (16.5 verst) şose yolu, Şamaxı-Kürdəmir (68,8 verst) şose yolu yük daşımalarında fəal iştirak edirdi. Bundan əlavə Ucar-Zərdab (40 verst) torpaq yolu da mövcud idi [6, s.100, 105].

Dəmir yolu və şose yollarının çəkilişi Göyçay qəzasında kapitalizmin inkişafına və muzdlu işçilərin sayının artmasına səbəb oldu. 1901-ci ildə Bakı-Tiflis və "Neft sahəsi" dəmir yolu xətlərində 7.3 min nəfər çalışırdısa, 1913-cü ildə dəmiryolçuların sayı 16 min nəfərdən artıq oldu. Əvvəllər o qədər də nəzərə çarpmayan Kürdəmir, Ucar və digər yaşayış məntəqələri dəmir yolunun üzərində yerləşdikləri üçün, XX əsrin əvvəllərində Azərbaycanın iqtisadi həyatının mühüm mərkəzlərinə çevrilməkdə idilər [6, s.112;17, s. 68-72].

M.Ə. Rəsulzadə Bakı-Tiflis dəmir yolunun əhəmiyyəti haqqında demişdir: "XIX əsrin sonlarına yaxın Qafqazın həyatında mühüm bir hadisə baş verdi. Hərbi məqsədlə inşa

olunan dəmiryolu Cənubi Qafqazda iqtisadi bir inqilaba səbəb oldu. Xəzər dənizini Qara dənizə bağlayan bu yol Qafqazı dünya bazarına çıxardı. Bakı neftinin ixrac və istehsalını sürətləndirən bu hadisə, ümumən Qafqazın, xüsusilə Şərqi Qafqazın kapitalizm və burjua dövrü inkişafına daxil olmasını təmin etdi" [20, s. 22-23].

Vaxtilə sovet alimləri Stalinin səhv olaraq dediyi " Bakı neft rayonunu çıxmaq şərti ilə Azərbaycan feodal-patriarxal ölkə olmuşdur" fikrini təsdiq etməklə məşğul olmuşlar. Stalinin ölümündən sonra həqiqət üzə çıxdı və kapitalizmin Bakı neft rayonu ilə yanaşı regionlarda da inkişaf etdiyi faktlarla sübut olundu. Kapitalizmin sürətlə inkişaf etdiyi regionlardan biri də Bakı- Tiflis dəmir yolu üzərində yerləşən ərazilər idi. XIX əsrin axırı XX əsrin əvvəllərində Bakı quberniyasındakı 23 zavodun bir hissəsi Ucarda, Kürdəmirdə, Göyçayda, Hacıqabulda, qalanı isə quberniyanın kəndlərində yerləşirdi. Cavad qəzasının Xıllı kəndindəki zavod H.Z.Tağıyevə məxsus idi [5, s.16].

XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda biyan kökü emalı da inkişaf etməyə başlamışdı. Biyan (lat. Glycyrrhiza) — bitkilər aləminin paxlaçiçəklilər dəstəsinin paxlakimilər fəsiləsinə aid bitki cinsidir. Biyan qiymətli texniki bitkilərdən biridir. Biyan latın dilində "qlisseraza" adlanır, "şirin kök" mənasını verir. Biyan bitkisinin dünyada 18 növü yayılmışdır. Azərbaycanda onun 8 növünə təsadüf olunur. Şirin biyan Azərbaycan çöllərində heç bir qulluq, qayğı görmədən külli miqdarda yetişir. Bu bitki Azərbaycanın Kür-Araz, Samur-Dəvəçi ovalıqlarında, Xəzərsahili düzənliklərdə, Muğanda, Qobustanda, Abşeronda, Alazan-Əyriçay vadisində, Kürdəmirdə, Ucarda, Qazaxda, Bərdədə, Böyük Qafqazın

şimal-şərqində, Kiçik Qafqazın mərkəzi və cənub hissələrində, Naxçıvanın düzənliklərində yayılmışdır.

Şimali Azərbaycanda biyan kökü emalına 1865-cı ildə Qədirağa və Hacı Əbdürrəhman qardaşları başlasalar da, onun sənaye sahəsi kimi inkişafı 80-ci illər və xarici kapitalla bağlıdır. 1886-cı ildə yunan tacirləri Gizi və Xrussaki qardaşları Ləkidə, 1890-cı ildə ingilis Urkqardt Ucarda, ingilis Bliss Yelizavetpol stansiyası və Kürdəmirdə biyan kökü emalı zavodları inşa etdilər. 1902-ci ildə "A.Urqkardt və K0" şirkəti Blissin Yelizavetpol və Kürdəmirdəki zavodlarını aldı və az sonra bütün biyan kökü zavodları "Mak-Andryus və Forbs" şirkəti halında birləşdirildi. 1906-cı ildə ingilis-amerikan sənayeçiləri bu zavodlar əsasında "Biyan kökü əldə edilməsi və onun emalı üçün Qafqaz səhmdar cəmiyyəti"ni təsis etdilər. Bütün bu zavodların illik istehsal gücü 800 min rubla bərabər idi [11, s. 70; 25, s. 64].

1888-1889-cu illərdə Ucar və Elizavetpol stansiyalarında iki yeni Biyan zavodu tikildi. Bu zavodların tikintisi 90-cı illərin əvvəllərində başa çatdırıldı. Həmin vaxt onlardan birincisində 78, ikincisində isə 45 fəhlə işləyirdi. 90-cı illərin ortalarında Azərbaycanda biyan kökü emalı zavodlarının hamısında 221, əsrin sonunda isə 308 işçi çalışırdı. Qeyd edək ki, biyan kökü emalı zavodlarının hamısında buxar maşınları var idi. Buna görə də Azərbaycanda bu sənayedə çalışanlar fabrik işçiləri kimi təsnif edilir [34; 35, s.68].

Çar Rusiyasının biyan kökü emalı ilə məşğul olan 7 zavoddan 4-ü Azərbaycanda yerləşirdi. Çünki dünyanın ən keyfiyyətli biyanı məhz bizim ölkədə yetişirdi. Azərbaycanda hər il 20 mindən çox kəndlinin yığdığı 5-6 milyon pud biyan kökü bu zavodlarda emal olunurdu. Emal prosesində alınan maye-cövhər başlıca olaraq yeyinti sənayesində işlənirdi. Onu

tütünə, siqara, konfetə, pivəyə, likora və b. məhsullara qatırdılar. Əczaçılıqda müxtəlif dərmanların hazırlanmasında, eləcə də texnikada, xüsusən sap, sarı-qonur rəngli parçalar istehsalında və s. istifadə edilirdi [5, s. 19-20].

Ucar stansiyası inkişaf etdikcə sənayenin inkişafı üçün əlverişli ərazidə yerləşdiyinə görə yerli və xarici kapitalistlərin diqqətini cəlb etməyə başladı. Ucarda Biyan zavodu istifadəyə verildikdən sonra stansiyada çalışan kəsbkarlardan bir hissəsi burada işləməyə başladı.

Təkcə bir ildə Ucar, Yelizavetpol və Kürdəmirdə olan 3 zavodda 3324 min pud biyan kökü emal edilmişdi [23, s. 8].

Alınan məhsul başlıca olaraq xaricə - İngiltərə və Amerikaya göndərilirdi. 1890-1895-ci illərdə Batum və qismən Poti vasitəsilə xaricə 5,2 mln. pud quru biyan kökü göndərilmişdi. Sonrakı dövrlərdə biyan kökü əsasən Azərbaycanda emal edilir, xaricə isə şirəsi göndərilirdi. Beləliklə, çarizmin müstəmləkəçi iqtisadi siyasətindən doğan maneələrə baxmayaraq, ölkənin sənaye həyatında kapitalist münasibətlərinin inkişafı bir sıra sahələrdə artıq özünün yeni mərhələsinə qədəm qoymuşdu [1, s.187].

Hər il Şimali Azərbaycanda 100 min pudlarla biyan kökü toplanırdı. Məsələn, Yelizavetpol quberniyasında 1889-cu ildə 1 mln pud, 1890-cı ildə isə 2260500 pud biyan kökü çıxarılmışdı . Lakin 1893-cü ildən etibarən biyan kökünün toplanması və aparılması xeyli azalır. Bu, həmin bitki ilə zəngin olan yeni rayonların (başlıca olaraq Suriyada) aşkara çıxarılması və biyan kökünün Cənubi Qafqaz dəmir yolu ilə daşınmasının bahalığı ilə əlaqədar idi. Nəticədə biyan kökü sənayesində böhran başlandı və bu bitkinin çıxarılması tədricən tənəzzülə uğradı [1, s.199].

Ucar stansiyası əlverişli ərazidə yerləşdiyinə görə burada Biyan zavodundan başqa digər sənaye müəssisələri də yaradılırdı. Məsələn, 1906-cı ildə 9 spirt saflaşdırma zavodundan biri Bakıda, üçü Ucarda, o cümlədən biri Bərgüşad stansiyasında, digərləri isə Kürdəmirdə, Gəncədə və b. yerlərdə idi [2, s. 33; 27, s. 74].

XX əsrin əvvəllərində Şimali Azərbaycanda araq-spirt və konyak istehsalında da yüksəliş müşahidə edilirdi. 1900-cu ildə Şimali Azərbaycanda 19.800 min dərəcə araq-spirt çəkilmişdisə, 1913-cü ildə bu rəqəm 29 min dərəcəyə yüksəlmişdi [10, s. 169]. Yelizavetpol quberniyasında çəkilən araq-spirtin 57%-i Şuşa qəzasının, xüsusilə Ağdam zavodlarının, Bakı quberniyasında istehsal olunan araq-spirtin isə 61,7%-i Kürdəmir və Ucar zavodlarının payına düşürdü [10, s. 68-69; 15, s. 45].

Ucar stansiyasının ilk sakinlərinin əksəriyyətini cənubi Azərbaycandan gələn kəsbkarlar təşkil etsələr də, stansiya və dəmir yoluna texniki xidmət göstərən nisbətən ixtisaslaşmış rus dilli əhali də Ucar stansiyasında tədricən məskunlaşmağa başlamışdır. 1870-1883-cü illərdə Ucar dəmir yolu stansiyası ətrafında fəhlələrin yaşaması üçün dövlət tərəfindən ilk dəfə evlər tikilmişdi. [12,s.40] Dəmir yolunda işləyən rus dilli işçilərin yaşadığı bu ərazi sonradan xalq arasında "Paxanlar" məhəlləsi adlandırılmışdır. Məlumat üçün qeyd edək ki , rus dilində ara sözü kimi işlənən "Paxan" sözü ata, "Pasan" sözü isə uşaq mənasında işlədilir.









“Paxanlar” məhəlləsinin hazırki görünüşü

Ucar stasiyası strateji cəhətdən əlverişli ərazidə yerləşməsinə baxmayaraq ətrafında olan bəzi qədim kəndlərin adı rəsmi sənədlərdə və xəritələrdə daha çox qeyd olunudu. Məsələn, Bakı qubermiyasının aşağıda verilmiş 1914-cü ilə aid xəritəsində hazırda Ucar rayonun kəndi olan Qazyanın adı olsa da Ucarın adının olmaması deyilənləri sübut edir.



Faktlar sübut edir ki, Bakı-Tiflis dəmir yolu çəkiləndən sonra da Ucar stansiyası əhalisinin sayı az olan kiçik yaşayış yeri olub. Burada əhalinin məskunlaşması tədricən baş verib. Qazyan kəndində isə o dövrdə ətraf kəndlərdən və s. yerlərdən gətirilən malların satıldığı "Qazyanbazar" adlanan bazar fəaliyyət göstərib. Buna görə də Qazan kəndi həmin dövrdə daha çox diqqət mərkəzində olub.

Bu dövrdə Qazyanla yanaşı Bərgüşad, Müsüslü və digər kəndlərində Ucar stansiyasına nisbətən daha çox əhali yaşayırdı.

4.2. Ucarda çar rejiminə qarşı qaçaq hərəkatı

Şimali Azərbaycanın digər yerlərində olduğu kimi Ucarda da əhali çar Rusiyasından narazı idi. Buna görə də rejimə qarşı müxtəlif formada etirazlar olurdu ki, bunlardan biri də Qaçaq hərəkatı idi. Tədqiqat işləri aparılmadığından hələ ki, bu hərəkatlar haqqında məlumatlar azlıq təşkil edir.

F. Nağıyevin kitabında Ucarda qaçaq Məmmədəlinin başçılığı ilə baş vermiş bir hadisə barəsində verilmiş qısa məlumat Ucardakı Qaçaq hərəkatı barədə təsəvvür yaratmağa imkan verir. Məlumatda deyilir: "Vokruq Sveta" jurnalinin 28

noyabr 1904-cü il 47-ci sayında B.Levskiy adlı müəllifin "Mugan düzündə (Qatarda sərgüzəşt)" adlı məqaləsində 2 il əvvəl, yəni 1902-ci ildə Ucar stansiyasında baş vermiş hadisə haqqında məlumat verilib. Həmin məqalədə müəllif qeyd edir ki, Tiflisdən Bakıya 2-ci dərəcəli vaqonda yol gedərkən dəmir yolunun kiçik stansiyalarında bufet, yeməkxana olmadığı üçün çox acmışdıq. Deyirdilər ki, nisbətən böyük stansiya olan Ucarda bufet var və oradan yemək almaq olar. Qatar stansiyaya daxil olub dayanması ilə bərabər başqa yerdən bərk gurultu qopdu ki, əvvəl gurultunun haradan gəldiyini biz bilmədik. Dayanacağın perronunda qeyri-adi qarışıqlıq, səs-küy, tüfəng səsləri və ucadan "vaqonlara qayıdın" əmri səslənən qışqırıq eşidilirdi. Qatarın təhlükəsizliyini təmin etmək üçün maşinist qatarı bir qədər kənara çəkib saxladı. Hamı vaqonlara qayıtdı.

Stansiya rəisinin çağrışı ilə Kürdəmirdən jandarm dəstəsi çağırıldı və onların gəlişi uzun çəkmədi. Sonradan bizə məlum oldu ki, həmin atəş açanlar quldurlar (qaçaqlar – M.Z.) imiş, onların hücumu bizə - qatara deyil, Ucar dəmir yol stansiyasının yaxınlığında yerləşən "Urqarta" İngilis kompaniyasının Biyan zavoduna qarşı yönəldilmişdir. Onlar zavodu mühasirəyə alıb atəşə tutan zaman bizim qatara da güllələr dəyibmiş.

Kuban kazakları (Kürdəmirdən gətirilmiş jandarm dəstəsi –M.Z.) quldurların (qaçaqların –M.Z.) basqınının qarşısını aldı. Quldurların (qaçaqların –M.Z.) atları vurulmuş, 5 nəfəri qılıncla doğranmışdı. Ucarda 5 nəfər, biri ataman Məmmədəli və onun silahdaşları Zülfüqar, Həsən, Eyyub, Nəsrullah, Muğanda isə 8 nəfər diri tutulmuş, yalnız bir nəfər yaralı halda qaça bilmişdi [12, s. 26-27].

Ucarda sonralar da çar və sovet rejimə qarşı üsyanlar, qaçaq hərəkatı olsa da bunlar çox təəssüf ki, indiyədək araşdırılmayıb. Fikrimizcə digər mövzular kimi bu mövzunun da araşdırılmasına ciddi ehtiyac var.

4.3. Ucar-Göyçay-Şəki dəmir yolu layihəsi

Bakı-Tiflis dəmir yolu ilə daşınmalar artdıqca bu yoldan şaxələnən yeni yolların çəkilişi ilə bağlı yeni layihələr irəli sürülürdü. Belə layihələrdən biri Bakı-Tiflis dəmir yolundan Ucar-Göyçay-Şəki dəmir yol xəttinin çəkilməsi layihəsi idi. Bakı-Tiflis dəmir yolunu Azərbaycanın şimal-qərb rayonları ilə birləşdirilməsi mühüm strateji və hərbi əhəmiyyətə malik idi. Bununla yanaşı həmin yol ətraf ərazinin çörəklə təmin olunmasında da mühüm rol oynaya bilərdi. Bu dövrdə "Bakı quberniya xəbərləri" qəzeti yazırdı ki, Göyçay qəzasında taxıl, çörək ticarəti Kürdəmir, Qazyan, İsmayıllı və Bərgüşad kəndlərindəki həftəbazarlarında cəmləşmişdi. Taxıl dəniz yolu ilə kənardan gətirildikdən sonra Göyçay qəzasına Cənubi Qafqaz dəmir yolunun Ucar, Müsüslü, Kürdəmir, və Sığırlı stansiyaları vasitəsilə, Zərdab və Salyana isə Kür çayı vasitəsilə çatdırılırdı [24,S.20].

Ucar-Göyçay-Şəki dəmir yolunun çəkilişi digər məsələlərlə yanaşı ətraf rayonların ərzaqla təminatına və iqtisadi əlaqələrinin inkişafına da müsbət təsir göstərə bilərdi.

1903-cü ildə Yeni Dəmir Yolları Komissiyası Yevlax-Xan bağı və Ucar-Göyçay dəmir yolu xətlərinin çəkilməsinə prinsipcə razılılaşdı. Uzun sürən müzakirələrdən sonra, 1908-ci ilin yanvar ayında çarın göstərişi ilə B. Q. Krasnayarski və M. Y. Rozenfeldə icazə verildi ki, Göyçaydan Şəkiyə və Zaqatalaya qədər (210 verst uzunluğunda) dəmir yolunun çəkilməsi üçün texniki-axtarış işlərinə başlasınlar və həmin rayonların iqtisadi imkanları haqqında məlumat toplasınlar. Tezliklə bu işlər görüldü və araşdırmaların nəticələri ilə bağlı 1911-ci ildə rus dilində kitab nəşr edildi [6, s. 87; 17, s. 68-72; 28] .

Ucar-Göyçay-Şəki dəmir yolu layihəsinin həyata keçirilməsinə dövlət komissiyası razılıq versə də sonradan bu layihə obyektiv və subyektiv səbəblərdən həyata keçirilmədi. Lakin bu ideya əsasında sonralar, 1980-1985-ci illərdə Şəkidən keçməklə Yevlax-Balakən dəmir yolu çəkilib istifadəyə verildi

[19]. Bu yol, Bakı-Tiflis dəmir yolundan regionlara çəkilən digər dəmir yolları kimi Azərbaycanın iqtisadi inkişafında əvvəlki illərdə olduğu kimi bu gün də mühüm rol oynayır.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı. ―Elmi. 2007. 504 səh. + 48səh. illüstrasiya.
2. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. "Elm". 2008. 696 səh. + 40 səh. illüstrasiya
3. "Azərbaycan dəmir yolunun 140 illik salnaməsi". www.anl.az. 23 iyul 2023
4. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. II cild. Bakı, "Şərq-Qərb", 2007, 304 səh.
5. XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı, "Təhsil", 2009, 560 səh.
6. Əliyev Q. Ə. "XIX-XX yüzilliyin başlağıncında Şimali Azərbaycanda nəqliyyatın inkişafı", Bakı, 1995,114 s.
7. Həsənov E. "Həsən bəy Zərdabinin Kür çayında gəmiçiliklə bağlı təklifləri", - http://www.zerdab.com/?p=5081
8. Həsənov M. "Azərbaycanda gəmiçilik: sənədli tarix. Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyinə həsr edilir", Bakı, 2018
9. Kərimova İ.M. "Göyçay rayonu toponimlərinin linqvistik təhlili", "Azərbaycan dili Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı", Bakı, 2013
10. "Kürdə sərnişin daşınmasına start verilir" - https://lent.az/ news/45928
11. Məmmədova R. M. XIX əsrin II yarısı– XX əsrin əvvəllərində Şimali Azərbaycanda vergi sisteminin tarixindən. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2010. – 200 s.
12. Nağıyev F. Ucarın tarixi coğrafiyası /Fazil Nağıyev; baş məsl. və elmi red. B.Budaqov; red. M.Novruzov.- Bakı: Araz, 2005.- 160 s.

13. Nuriyeva İ. T. Azərbaycan tarixi (ən qədim zamanlardan–XXI əsrin əvvəllərinədək). Ali məktəblər üçün dərslik. – Bakı: Mütərcim, 2015. – 336 səh.

14. Qocayev Ə.Ə., Quliyeva S.M., Əliyeva S.A. Tarixi anlayış və terminlərin izahlı lüğəti. Bakı 2003, 46 s.

15. Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı, 1977, 146 s.

16. Zülfüqarlı M. "XIX əsrdən yarımçıq qalmış layihələr: Salyan-Cavad, Cavad-Yevlax, Yevlax-Tiflis marşrutları", "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnalı, № 1, 2021, s.99-106

17. Zülfüqarlı M. "Göyçay tarixi". Bakı, 2022, 307 s.

18. https://apa.az/corridors/uc-esrin-sinagindan-ugurla-cixan-azerbaycan-demir-yollari-871646

19. https://demokrat.az/az/news/189353/yevlax-balaken-demir-yolunu-heyder-eliyev-tikdirdi-kamran-bagirov-ise-acilisina-bele-gelmedi

Türk dilində

20. Resulzade, M.E. Kafkasya Türkleri / M.E.Resulzade. – İstanbul: Türk Dünyasi Araştırmaları Vakfı - 1993. – 132 s.

Rus dilində

21. Гасанов Г.Н. Из истории североазербайджанской деревни в конце XIX- начале XX вв. Баку, «Тахсил», 2007, 224 с.

22. Гусейнов Г. «Из истории общественной и философской мысли в Азербайджане XIX века», Баку, 1958 г., 429 с.

23. Джафаров А.П. Присоединение Ширванского ханства к России и восстановление города Шемахи. Автореф. дис. канд. ист. наук. Б., 1955, стр. 8.

24. Исмаилов М.А. Сельское хозяйство Азербайджана в начале XX в. Баку, Изд-во АН Азерб. ССР, 1960 (на азерб. яз) с. 43.

25. Исмаилов М.А. Промышленность Баку в начале XX ве ка. Баку, 1976, 153 с.

26. «Kavkaz» № 242, 14.09.1882 г.

27. Кавказский календарь на 1900 г., отд. III, стр. 74.
28. Краснаярски Б.Г., «Комерческое овладование района Евлахской ширококоленной железной дороги», Тифлис, 1911 г.
29. Население Империи по переписи 28-го января 1897 года. По Уездам / Составлено Центр. Стат. Комитетом. – С.-Петербург: Печати Яковлева – 1897. – 34 с.
30. Первая всеобщая перепись населения Российской империи 1897 г. LXI.Бакинская губерния, с.2
31. Свод статистических данных о населении Закавказскаго края, извлеченных из посемейных списков 1886 г. / - Тифлис: Тип. И. Мартиросянца, - 1893. – 487 с.
32. Норик Б.В. МИГРАЦИЯ ИЗ СССР В ИРАН В 1930-е ГОДЫ ЧАСТЬ 1 Восточный архив № 1 (51), 2025
33. Топчибашев. Избранное: В 4-х томах/ Составитель Гасан Гасанов. Т.4.-Баку: 2015,420 стр
34. Обзор Бакинской губернии за 1895 г.; Обзор Елизаветполь ской губернии за 1895 г.
35. Кафарова З.А. Формирование рабочего класса Азербайджана. Баку, Елм, 2004, 166 с.

V. Ucar 1918-1920-ci illərdə

5.1. Göyçay qəzasında törətdilmiş 1918-ci ilin iyun soyqırımı

Rusiyanın I Dünya müharibəsi illərində iqtisadi cəhətdən zəifləməsi, ərzaq qıtlığı Azərbaycana da təsir göstərirdi. 1917-ci il fevral burjua inqilabı, 1917-ci ilin oktyabrında baş vermiş bolşevik çevrilişi ölkədə açlığa səbəb oldu. Sovet ərzaq idarələrinin arxiv sənədləri 1917-1918-ci illərin qışında Azərbaycanın bəzi quberniya şəhər və kəndlərinin vəziyyətinin acınacaqlı olduğunu sübut edir. Ərzaq İdarəsinin əməkdaşlarının yuxarı orqanlara göndərdiyi bir neçə teleqramda bu barədə belə yazılmışdı: (Astaradan): "...Ərzaq İdarəsinin işçiləri həddindən artıq işdən qorxaraq, işləməkdən imtina edirlər... beşinci gündür ki, əhali aclıq çəkir". "... əhalimiz sözün əsl mənasında aclıqdan ölür... zibil yeməyə məcburdur... sakinləri hara köçürməyi göstərin ki, acından ölməsinlər..." (Ucardan): "... kənddə aclıq başlayıb, çörək bişirənlər üç aydır işləmir". (Şamaxıdan): "... aclıqdan ölənlərin izdihamı komitəni mühasirəyə alır" (Qida İdarəsi). Aclıq hakimiyyətin qorunub saxlanmasını təhlükə altına qoydu" [21, s.71].

Belə bir vəziyyətdə yerli əhalidə milli şurun inkişafı, milli siyasi partiyaların nüfuzunun artması bolşevik və erməni daşnakları təşvişə salaraq yerli müsəlman əhaliyə qarşı soyqırım həyata keçirməsinə səbəb oldu.

Elmi ədəbiyyatda erməni-daşnak, bolşevik quldurlarının Şamaxı, Bakı, Quba və digər ərazilərdə dinc müsəlman əhaliyə qarşı törətdikləri vəhşiliklər haqqında çox yazılsa da, Ucar

stansiyasının da daxil olduğu Göyçay qəzasında baş verən soyqırım haqqında çox az tədqiqat işi aparılıb. Faktlar göstərir ki, 1918-ci ilin mart soyqırımının davamı olaraq həmin ilin iyun ayında

Ələt, Hacıqabul, Kürdəmir ərazilərində soyqırım həyata keçirilib. 1918-ci ilin mart-aprel aylarında Şamaxıda, həmin ilin iyun-iyul aylarında Ələt, Hacıqabul, Kürdəmir ərazilərində baş vermiş soyqırım zamanı ölümün cəngindən qurtaraq Ucara pənah gətirmiş insanlar haqqında demək olar ki, hələlik heç bir tədqiqat işi aparılmayıb. Bir neçə kitab müəllifi olan mərhum Xanımana Bağırovanın əlyazma şəklində olan "Məleykənin taleyi" romanı bu faciəyə həsr olunub. Romanda 1918-ci ildə Şamaxıda baş vermiş soyqırımdan qurtularaq ailəsi ilə Ucara pənah gətirmiş Məhəmməd kişinin qızı Məleykənin acı taleyindən bəhs olunur.

Bolşevik-daşnak qüvvələri yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətini beşikdəcə boğmaq üçün Gəncə üzərinə hücuma keçərkən 12 iyun 1918-ci il tarixində Kürdəmiri və onun qərbindəki bir neçə kəndi, o cümlədən Qarabucaq stansiyasını işğal edərək yandırmışlar. Nəticədə, Kürdəmir kəndində 56 ev və dükan, 127 mülk, 2 məscid binası tamamilə yandırılmış, qalan bütün ev və mülklər dağıdılıb, talan və qarət edilmişdi. 1918-ci ilin iyun-iyul aylarında Göyçay qəzasının Kürdəmir və ətraf kəndlərində düşmənlər 4 017 nəfər soydaşımızı qətlə yetirmiş, 35 kənd yerlə-yeksan olunmuşdu [13, s.12; 14, s.39].

Digər məlumatda qeyd olunur ki, 1-12 iyun 1918-ci il tarixlərində S.Lalayanın və T.Əmiryanın başçılıq etdikləri daşnak-terrorçu qrupları Hacıqabul-Kürdəmir, Göyçay ərazilərinə soxularaq yeddi min əliyalın, dinc sakini qətlə

yetiriblər. 11-20 iyun 1918-ci il tarixlərində Göyçay ərazisinə daxil olan daşnak terror qruplaşmaları Cəngi kəndində 5 mülkü yandıraraq, burun-qulaqlarını kəsib, kəllə sümüklərini əzərək 20 nəfəri, Qaravəlli kəndində 30 evi yandıraraq 2 nəfəri, Qarabucaq kəndində 121 evə od vuraraq 7 nəfəri, Ərəb-Mehdibəyli kəndində 84 mülkü yandıraraq 83 nəfəri qəddarcasına qətlə yetirmiş, Mustafalı, Sadalı kəndlərini talan etmişlər [6, s.24; 14, s. 39-40].

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə Təhqiqat Komissiyasının üzvü N.M.Mixaylov 1918-ci il oktyabrın 26-da, həmin ilin sentyabrın 22-dən oktyabrın 23-nə qədər olan müddətdə Göyçay qəzasında aparılan təhqiqat işləri haqqında məlumat verib. O, məlumatında göstərirdi ki, bu müddət ərzində 500 nəfərdən çox şahid dindirilib, Kürdəmir dəmir yolu vağzalına və Kürdəmir polis sahəsinə aid 7 kəndə (Kürdəmir, Qarabucaq, Mustafalı, Xəlilli, Qasım bəy, Ərəb-Mehdibəyli, Dadalı) baxış keçirilib. Göyçay qəzasının Ərəb-Mehdibəyli kəndində 84 mülk darmadağın edilib, yandırılıb, 83 nəfər, o cümlədən 78 kişi, 4 qadın və 1 oğlan uşağı qətlə yetirilmişdi [4].

Fövqəladə Təhqiqat Komissiyasının sədri Ə.Xasməmmədov 1919-cu il iyunun 4-də ədliyyə nazirinə yazdığı məktubunda xəbər verirdi ki, müsəlmanlara qarşı törədilən cinayətlərin iştirakçılarını məsuliyyətə cəlb etmək məqsədilə 128 qərar layihəsi hazırlanıb ki, bunlardan da 18-i Göyçay qəzasına aiddir. 1919-cu il avqustun 27-də Fövqəladə Təhqiqat Komissiyasının üzvü Ç.Klassovski tərəfindən komissiyanın fəaliyyəti ilə əlaqədar tərtib edilən arayışda göstərilirdi ki, komissiya tərəfindən toplanan materiallar 36 cild və 3 500 vərəqdən ibarətdir. Göyçay qəzasının Kürdəmir

və başqa kəndləri üzrə 4 cild 340 vərəq material toplanıb [14, s.21; 15; 101-102; 16].

1918-ci ilin 10 iyununda bolşevik-daşnak qüvvələri Hacıqabul stansiyası istiqamətində hücuma keçən zaman onların qarşısını kəsən polkovnik Maqalovun komandirlik etdiyi müsəlman və gürcü korpuslarının müştərək qərargahı Ucarda yerləşmişdi. Mənbələrdə Azərbaycan korpusundan olan Müsüslüdəki rus və gürcü teleqrafçılarının 15 iyun gecəsi fərarilik etdərək mövqelərini özbaşına tərk etmələri haqqında məlumat verilir. Bəzi mənbələrdə buna aclığın səbəb olduğu göstərilir. Polkovnik Maqalovun komandirlik etdiyi Müsəlman korpusu qüvvələr nisbəti qeyri-bərabər olduğundan Ucara doğru geri çəkilməyə məcbur olmuşdur.



Officiers de la Division Sauvage. Debout : au milieu, prince Magalof ; derrière lui, comte Komarofski; à sa droite, colonel Oremm; à gauche, prince Fazoula Mirza Kadjar, commandant la 2e brigade, l'Auteur, colonel Mouzoulaief, comte Bobrinski. Assis : princes Jorjadze, Jerwajidze, etc.

Polkovnik Maqalovun komandirlik etdiyi Müsəlman korpusu

14 iyun 1918-ci il tarixdə Nazim bəy Kürdəmir yaxınlığında yerləşən Müsüslü stansiyasına gələrək burada olan Qafqaz İslam Ordusu hissələrinə rəhbərlik etməyə başlayıb. Həmin gün düşmənə qarşı mübarizəni gücləndirmək üçün bir qüdrətli dağ batareyası ilə 38-ci alay, ləzgi süvari alayı, 250

sandıq piyada mərmisi və 600 atım top sursatı Yevlaxdan Kürdəmirə göndərildi [14, s. 14]. Bundan sonra Müsülü bölüyünə rəhbərlik polkovnik-leytenant Həbib Səlimova həvalə olunub.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra H.Səlimov Qafqaz İslam Ordusunun tərkibində daşnak-bolşevik qoşunlarına qarşı döyüşlərdə fəal iştirak etmişdir. Onun komandanlığı altında formalaşdırılan Müsüslü dəstəsi Müsüslü, Kürdəmir və Karrar ətrafındakı döyüşlərdə daşnak-bolşevik hərbi birləşmələri üzərində parlaq qələbə qazanıb. 1918-ci ilin iyulun ortalarında Müsüslü dəstəsinin bazasında yaradılan Cənub qrupu Həbib bəyin komandanlığı altında Bakı ətrafına qədər şərəfli döyüş yolu keçib. Azərbaycan qoşunlarının Gəncədən Bakıya qədərki yürüşü zamanı Atbulağı, Nəvahini (indiki Hacıqabul rayonunun ərazisi) və Ələti erməni-bolşevik qüvvələrindən azad edib. Bu nailiyyətlərinə görə hələ daşnak-bolşeviklərə qarşı əməliyyatların davam etdiyi dövrdə ona polkovnik hərbi rütbəsi verilib.



Müsüslü bölüyü komandiri – polkovnik-leytenant

Həbib Səlimov

1918-ci il noyabrın 15-də Hərb Nazirliyinin əmri ilə H.Səlimov Azərbaycan Ordusunun Ümumi qərargahının və nazirliyin dəftərxanasının rəisi təyin edilib. 1919-cu ilin fevralında Nazirlər Şurasının qərarı ilə Bakının azad edilməsindəki xidmətlərinə görə "general-mayor" rütbəsinə layiq görülüb [17].

5.2 Göyçay döyüşlərində Ucar stansiyasının strateji əhəmiyyəti (iyun-iyul 1918-ci il)

Azərbaycan xalqı daim yadelli işğalçılara qarşı şərəflə mübarizə aparıb. Bu şərəfli mübarizədə göstərilən qəhrəmanlıqlara aid tarixdə çoxlu sayda faktlar mövcuddur. XX əsrin əvvəllərində baş verən belə qəhrəmanlıqlardan biri də Göyçay döyüşləridir.

Göyçay döyüşlərini aşağıdakı dövrlərə bölmək olar:

- Birinci Qaraməryəm döyüşü (16-18 iyun 1918-ci il)
- Göyçay şəhəri uğrunda döyüşlər (27 iyun -29, 1 iyul 1918-ci il)
- İkinci Qaraməryəm döyüşü (29 iyun -2 iyul 1918-ci il)

Göyçay döyüşlərində Qafqaz İslam Ordusu ilə yeni yaranan Azərbaycan Milli Ordusunun erməni-daşnak bolşevik qoşunları üzərində qələbəsinin Azərbaycanın dövlətçilik tarixində çox böyük tarixi əhəmiyyəti vardır. Bunlar aşağıdakılardan ibarətdir:

• Göyçay döyüşündəki qələbə bolşevik, erməni-daşnak qüvvələrinin yerli müsəlman əhaliyə qarşı 1918-ci ilin martında başladığı və 1918-ci ilin 27 iyununa qədər davam edən soyqırımın qarşısını aldı;

• Göyçay döyüşündəki qələbə Şərqin ilk demokratik Respublikasının beşikdəcə boğulmasına imkan vermədi. (Göyçay döyüşündə düşmənə sarsıdıcı zərbə vurulmasaydı, 28 may 1918-ci ildə elan olunan Azərbaycan Xalq Cümhuriyyəti bir ay keçməmiş Gəncənin düşmən tərəfindən işğalı ilə süquta uğraya bilərdi);

• Göyçay döyüşündəki qələbə Azərbaycan Xalq Cümhuriyyətinin ömrünü uzatmaqla, onun dünya dövlətləri tərəfindən de fakto tanınmasına şərait yaratdı;

• Göyçaydakı qələbə Azərbaycanda marağı olan Rusiya, Böyük Britaniya, Fransa, Almaniya və s. dövlətlərin planlarını alt-üst etdi;

• Göyçaydakı qələbə Bakının azad edilməsinin əsasını qoydu;

• Göyçay döyüşündəki qələbə Türkiyə ilə Azərbaycan arasında mənəvi birliyi, qardaşlığı daha da möhkəmlətdi;

• Göyçay döyüşündəki qələbə xalqın mübarizlik, döyüş ruhunu özünə qaytardı, ordu quruculuğunda mühüm rol oynadı;

• Göyçaydakı qələbə xalqın vətənpərvərlik hissinin, milli şüurunun, milli birliyinin daha da inkişafına səbəb oldu;

• Göyçay döyüşündəki qələbə Azərbaycan adının şüurlardan silinməsi siyasətinin davam etdirilməsinin qarşısını aldı. Vətənin adının özünə qaytarılması prosesini möhkəmlətdi;

• Göyçay döyüşündəki qələbənin yaratdığı beynəlxalq əlverişli mühit 27 aprel 1920-ci il tarixində Azərbaycanı işğal edən Sovet Rusiyasının XI ordusunun Azərbaycan adının üstündən xətt çəkməsinə imkan vermədi. İşğalçı, saxta da olsa, "Müstəqil Sovet Azərbaycanı" şüarından istifadə etməyə məcbur oldu;

• 18 oktyabr 1991-ci il tarixində dövlətçiliyin bərpası ilə yaranan Azərbaycan Respublikasının adında da vətənin adının olması Göyçay döyüşündəki qələbənin nəticəsində mümkün olub. (Yəni bu qələbə olmasaydı, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü daha da qısa olar və Cümhuriyyət dünya dövlətləri tərəfindən tanınmaya bilərdi. Onda bolşeviklər 27 aprel 1920-ci il işğalından sonra, çar Rusiyasında olduğu kimi, Azərbaycan adını bütün sənədlərdən və şüurlardan silə bilərdi.) [14, s. 68-69]

Göyçay döyüşlərindəki qələbədə Ucar stansiyasının böyük rolu olub. Qəza mərkəzi olan Göyçaydan 18 km məsafədə, Bakı-Tiflis dəmir yolunun üstündə yerləşən Ucar

stansiyasının döyüşlər baş verən zaman böyük strateji əhəmiyyəti var idi.



Qafqaz İslam Ordusunun Gəncədən Göyçaya gəlməsində və düşmənə sarsıdıcı zərbələr vurulmasında Ucar stansiyası mühüm rol oynamışdır. Bundan başqa Göyçay döyüşündə yaralananların əksəriyyəti Ucar stansiyası vasitəsilə Gəncəyə aparılırdı. Bolşevik-daşnak hərbi qüvvələrinin qarşısının alınmasında, Müsüslü, Kürdəmir, Göyçay, Qaraməryəm döyüşlərində düşmənə sarsıdıcı zərbələr vurulmasında Ucar stansiyasının əvəzsiz xidməti olmuşdur. Gəncəyə doğru hərəkət edən bolşevik, erməni daşnak qoşunlarının dəmir yoluna hakim olmalarının qarşısı məhz Ucar ərazisində alınmışdır.

Göyçay döyüşü ərəfəsində Qafqaz İslam Ordusunun baş komandanı Nuru paşanın yenicə Qazax bölgəsinə daxil olmuş türk alayını, uzun bir yol gələn əsgər və zabitlərə dincəlmək imkanı belə vermədən Ağstafadan qatarla birbaşa Ucara göndərməsi, Ucar stansiyasının Göyçay döyüşündə oynadığı strateji əhəmiyyəti əyani şəkildə sübut edir.

Gəncədən Ucara gələn Qafqaz İslam Ordusunun əsgər və zabitlərinin bir hissəsi Ucardan atlar və faytonlarla, bir hissəsi isə piyada olaraq qəza mərkəzi olan Göyçaya gedərək burada döyüş mövqeyi tutmuşdular.

Bəzi kitablarda "Qafqaz İslam Ordusu komandanı Nuri paşa, Əlağa Şıxlinski və Ərkani-hərb rəisinin səhər tezdən Müsüslü cəbhəsinin arxasında qatardan enərək Göyçaya getməsi" kimi cümlələr işlədilir və bu məkanın adı qeyd olunmur [11,s.16-17].

Yadda saxlamaq lazımdır ki, Müsülü stansiyası hazırda Ucar rayonunun ərazisinə daxildir. 1918-ci ilin 17 iyununda Müsüslüdə döyüşlər gedərkən bu cəbhənin arxası Ucar stansiyası hesab olunurdu. Fikrimizcə gələcəkdə tədqiqatçılar bu kimi faktlardan istifadə edərkən Qafqaz İslam Ordusu komandanı Nuri paşa, Əlağa Şıxlinski və Ərkani hərb rəisinin məhz Ucar stansiyasına gələrək, oradan Göyçaya getməsini qeyd etsələr daha düzgün olar. Heç şübhəsiz ki, digər ətraf ərazilərin əhalisi kimi Ucar əhalisi də 1918-ci ildə də bolşevik-daşnak qüvvələrinə qarşı mübarizənin önündə olmuşdur. Düşmənə qarşı Qafqaz İslam Ordusunun tərkibində vuruşan könüllülər içərisində ucarlıların da olması şübhəsizdir [14, s. 42-46].

Çox güman ki, tarix elmi inkişaf etdikcə gələcək tədqiqatlarda Ucarın 1918-ci ilin iyun döyüşlərində oynadığı rola aid yeni-yeni faktlar üzə çıxacaq, bu döyüşlərdə iştirak etmiş, lakin adları xalqa hələ məlum olmayan çoxlu sayda qəhrəmanları aşkar etmək mümkün olacaq.

5.3 AXC-nin Türkiyəyə oxumağa göndərdiyi ucarlı tələbə - Sədi Hacı Həsən oğlu

Azərbaycan Xalq Cümhuriyyətində mövcud olan problemlərdən biri də təhsil strukturlarının tam formalaşmaması, kadr çatışmazlığı idi. Xüsusilə ölkənin inkişafı və idarə edilməsi üçün xaricdə təhsil alan kadrlara ciddi ehtiyac yaranmışdı. Əsas məqsəd xarici təhsil ocaqlarına, xüsusilə də Avropa universitetlərinə tələbə göndərmək, oxutmaq, sonra da onları vətəndə ixtisaslarına uyğun işlərlə təmin etmək idi. Bütün bunları nəzərə alaraq, cümhuriyyət

hökuməti və parlamenti vaxt itirmədən, bu sahədə milli kadrlar hazırlanmasının sürətləndirilməsinə başladı.

Xaricə göndəriləcək tələbələri seçmək üçün Xalq Maarifi Nazirliyi yanında Məhəmməd Əmin Rəsulzadə (sədr), Əhməd bəy Pepinov, Qara bəy Qarabəyli, Mehdi bəy Hacınski və Abdulla bəy Əfəndizadədən ibarət çox nüfuzlu münsiflər heyəti yaradılmışdı. Münsiflər heyətinin diqqətlə seçdiyi tələbələrdən 10 nəfərinin İngiltərəyə, 23 nəfərinin İtaliyaya, 45 nəfərinin Fransaya, 9 nəfərinin Türkiyəyə göndərilməsi nəzərdə tutulurdu. Nəticədə isə Xalq Maarifi Nazirliyi tərəfindən xaricə göndərilən tələbələrdən 49 nəfərinə Almaniyanın, 27 nəfərinə Fransanın, 4 nəfərinə İtaliyanın, 1 nəfərinə İngiltərənin, 6 nəfərinə isə Türkiyənin müxtəlif ali məktəblərinə göndərilmələri barədə rəsmi sənəd verilmişdi. Qalan 13 nəfər isə Rusiyaya göndərilməli idi. Rusiyada vətəndaş müharibəsi ilə əlaqədar yaranmış şəraitə görə oraya tələbə göndərmək mümkün olmamışdı [3, s.15-16].

"Azərbaycan" qəzetinin 1919-cu il 23 iyul tarixli nömrəsində "Tələbələr haqqında" sərlövhəli məqalədə yazılırdı: "Maarif nəzarəti 100 nəfər tələbəni xaricə göndərəcək. Hər tələbəyə 36.000 manat xərcləmək və 5.000 manat yol pulu hesablanıb. Cəmi 4.100.000 manat edir".

Ümumilikdə, 1919-1920-ci il tədris ili üçün Azərbaycan Cümhuriyyəti Parlamentinin xaricdə təhsil almağa göndərilən azərbaycanlı tələbələrə vəsait ödənilməsi haqqında qərarı ilə bu məqsəd üçün dövlət xəzinəsindən Xalq Maarif Nazirliyinin sərəncamına 7 milyon manat ayrılmışdı. Avropa məktəblərinə göndərilən hər tələbəyə ayda 400 frank təqaüd və 1000 frank yol xərci, Rusiya ali məktəblərinə göndəriləcək tələbələrə isə hər ay 3 min rubl təqaüd və 1000 manat yol xərci ayrılmışdı [5].

Təqaüdçülərin 24 nəfərlik ilk dəstəsi Bakıdan 14 yanvar 1920-ci ildə yola salındı. Həmin gün Bakı vağzalında əsl bayram ovqatı yaşanmışdı. "Azərbaycan" qəzetinin 16 yanvar 1920-ci il sayında yolasalma mərasimindən verilən geniş reportajda bildirilirdi ki, tədbirdə tələbələrin yaxın qohumları,

parlament komissiyası üzvləri ilə yanaşı, məclisi-məbusanın və hökumətin üzvləri, tanınmış xeyriyyəçilər, iş adamları, din xadimləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər. Səməd ağa Ağamalıoğlu, İbrahim Əbilov, Əhməd Pepinov və başqaları gənclərə uğurlar dilədilər [7].

Yolasalma mərasimi təmtəraqlı təşkil edildi. Hacıqabul, Kürdəmir, Yevlax və Gəncə dayanacaqlarında adamlar gələcək tələbələri salamlayırdılar. Tiflisdən Batuma yollanmaq üçün gələcək tələbələrə xüsusi vaqon ayrıldı [15, s.169].

Fevralın 11-də Parisə çatan tələbələr burada Paris Sülh Konfransında iştirak edən Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyəti tərəfindən xüsusi diqqətlə qarşılandı. Əlimərdan bəy tələbələr qarşısında geniş nitq söyləyərək onları təbrik etdi. Bundan sonra onlar təhsil almaq üçün Avropanın müxtəlif ölkələrinə yola düşdülər [5].

"Azərbaycan" qəzetinin 23 aprel 1920-ci tarixli sayında dərc edilmiş "Tələbələrimiz xaricdə" başlıqlı məqalədə bu görüş barədə məlumat verilmişdir.

Xaricə göndərilən tələbələr demək olar Azərbaycanın bütün regionlarında, hətta İrəvan, Tiflis və Daşkəndən seçilərək siyahıya salınmışdır. Bu tələbələrin konkret olaraq 20 nəfəri Bakıdan, 6 nəfəri Bakı kəndlərindən, 9 nəfəri Gəncədən, 19 nəfəri Şuşadan, 6 nəfəri Şamaxıdan, 3 nəfəri Salyandan, 2 nəfəri Lənkərandan, 2 nəfəri Qubadan, 2 nəfər Qazaxdan, 3 nəfəri Zəngəzurdan, 5 nəfəri İrəvandan, 8 nəfər Tiflisdən, 5 nəfəri Dağıstandan, hərəsindən 1 nəfər olmaqla Daşkənd, Xaçmaz, İsmayıllı, Şəki, Ağdam, Tərtər, Füzuli, Şəmkir, Oğuz, Ucardan seçilmişlər. [12, s.40-47]



Azərbaycan Xalq Cümhuriyyəti dövründə xarici dövlətlərə ali təhsil almaq üçün göndərilən tələbələr

Xaricə təhsil almağa göndərilən tələbələrin siyahısında 76-cı sırada Sədi Hacı Həsən oğlunun adı yazılıb. O, Göyçay qəzasının Ucar kəndindən olmaqla Türkiyəyə oxumağa göndərilmişdir [12, s. 44; 15, s.168-169].

AXC-nin xaricə təhsil almaq üçün göndərdiyi ucarlı Sədi Hacı Həsən oğlu bəzi mənbələrdə Sədi Hacı Həsən oğlu, bəzilərində isə Hacı Həsən Səədi kimi qeyd olunub. Onun haqqında məlumat çox az olduğundan gələcəkdə tədqiqatçılar onun taleyi ilə bağlı araşdırmalarını davam etdirməlidirlər. Bir sıra yazılarda onun anadan olduğu yerin ümumi Göyçay qəzası göstərilsə də, Ə. Tahırzadənin kitabında Ucarın Bərgüşad kəndidə anadan olduğu qeyd olunub.

Azərbaycanın bütün regionlarından, hətta azərbaycanlıların yaşadığı Zəngəzur, İrəvan, Tiflis, Dağıstan və Daşkənd də daxil olmaqla böyük bir ərazidən seçilən istedadlı gənclərin sırasında Ucarı təmsil edən bir nəfərin olması qürurverici hadisədir. Bu dövrdə Göyçay qəzasına daxil olan Ucar, Zərdab, Kürdəmir, Ağsu, İsmayıllı, Ağdaş ərazisindən 100 - nəfərin sırasına daxil edilmiş 2 nəfərdən birinin Ucardan olması sübut edir ki, bu dövrdə Ucarın Bərgüşad kəndində savadlılıq səviyəsi digərlərinə nisbətən daha yüksək olub.

Hacı Səədi ilə yanaşı Türkiyə oxumağa göndərilənlər arasında Abdulla Tahirzadə, Əbdül Əbdülzadə, Əli Kərimov,

Əlimuxtar Həsənov, Əliyusif Cəfərov, Hənəfi Zeynallı , Məmməd bəy Xələfbəyov və Məmmədzəki Dursunzadə də var idi

Ucarlı Hacı Sədi haqqında verilmiş məlumatda qeyd olunur ki, "*1919-cu ildə Türkiyədə İstanbul Universitetinin tibb fakültəsinin son kursunda oxuyarkən maddi çətinlik üzündən təhsilini yarımçıq buraxmağa məcbur olmuş və Azərbaycana qayıtmışdı. Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün yenidən İstanbul Universitetinə (Türkiyə) göndərilmişdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır"* [10; 18].

Araşdırmalar göstərir ki, xaricə göndərilən tələbələrin maddi təminatını böyük mesenat, Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev aşağıdakı şərtlərlə öz üzərinə götürmüşdü:

1.Hər tələbəyə təhsil müddəti ərzində ayda 50 manat veriləcəkdir. Yay tətillərində Qafqaza gəliş-gediş xərcləri də ayrıca ödəniləcəkdir.

2.Tələbə ali təhsilini bitirdikdən sonra mütləq Vətəninə dönərək öz ölkəsinə xidmət edəcəkdir.

3.Tələbə qeyri-türklə və ya qeyri - müsəlmanla evlənməyəcəkdir.

4.Tələbə təhsilini bitirib həyata atıldıqdan sonra təhsil müddəti ərzində Hacı Zeynalabdindən aldığı pulları birdəfəlik və ya hissə-hissə Xeyriyyə Cəmiyyətinə ödəyəcəkdir [5].

Azərbaycanlı tələbələrin xaricdə təhsil alması üçün Cümhuriyyəti tanıyan dövlətlər tərəfindən, xüsusilə Osmanlı İmperiyası tərəfindən bir sıra təşəbbüslər göstərilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin İstanbuldakı konsulluğu tərəfindən azərbaycanlı tələbələrin təkcə Türkiyədə təhsil almalarını deyil, eyni zamanda Avropanın qabaqcıl təhsil müəssisələrinə yönləndirilməsini də təmin edirdi.

Təəssüflər olsun ki, Şərqdə ilk Demokratik Respublikanın min bir əziyyətlə xaricdə təhsil almağa göndərdiyi tələbələrin taleyi 1920-ci il Aprel işğalından sonra acınacaqlı oldu.Tələbələrə pul göndərilmədiyi üçün onlar bu

barədə Nəriman Nərimanova müraciət etdilər. N.Nərimanovun göstərişi ilə ilk olaraq xaricdə olan 83 tələbənin siyahısı və təhsil aldığı ölkələr müəyyən edilmişdir. Tələbələrə maddi yardım göstərilməsi üçün tərtib olunan sənədlərdən birində qeyd olunur ki, Almaniyada təhsil alan bir qrup azərba ycanlı tələbə Komitə təşkil edib. Qurumun adı rəsmi müraciətdə "Almaniyada ikmali-əqil edən Azərbaycan tələbələrinin Mərkəzi Birliyi Qomitəsi" kimi qeyd olunur.

Müraciətdə tələbələr Almaniyada təhsillə bağlı rastlaşdıqları maddi çətinliklərin aradan

qaldırılması üçün mövcud hakimiyyətə xahiş ünvanlamış dılar. Nəriman Nərimanovun göstərişinə əsasən tələbələrin ilkin tələbatlarının qarşılanması üçün adıçəkilən cəmiyyətə min marka pul göndərilmişdi [8].

Azərbaycan İnqilab Komitəsinin 1920 il avqustun 9-da Nəriman Nərimanovun şəxsi təşəbbüsü və sədrliyi ilə keçirilən iclasında keçmiş Azərbaycan Hökumətinin xaricə göndərdiyi tələbələrin təhsillərini başa vurması üçün vəsait buraxılması və ümumiyyətlə, onlara maddi yardım göstərilməsi məsələsi müzakirə edilərək, müsbət qərar qəbul olundu və xaricdə oxuyan tələbələrə lazımi maddi kömək göstərilməsi yollarının müəyyənləşdirilməsi və göndərilməsi məsələlərinin həlli xalq maarifi və xalq xarici işlər komissarlıqlarına tapşırıldı. Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri kimi Nəriman Nərimanov xaricdə təhsil alan azərbaycanlı tələbələrə yardımın davam etdirilməsi haqqında xüsusi qərar imzaladı. Nəriman Nərimanov hələ 1919 ildən xaricdə oxuyan azərbaycanlı tələbələrin işi ilə məşğul olmaq üçün 1921 il iyunun 18-də Bəhram Axundovu xaricdə oxuyan azərbaycanlı tələbələrin işləri üzrə xüsusi müvəkkil təyin etdi. Həmin il iyulun əvvəllərində B.Axundov xaricdə oxuyan azərbaycanlı tələbələrin maddi vəziyyətini öyrənmək və onlara əməli köməklik göstərmək üçün azərbaycanlı tələbələrin oxuduğu Qərbi Avropa ölkələrinin paytaxtlarına ezam olundu. O, bütün maneələri dəf edərək, yalnız həmin il oktyabrın axırlarında Parisə gəlib çata bildi. 1922 ilin yanvarına qədər Paris, Berlin

və Avropanın digər şəhərlərinə səfər edən B.Axundov Fransamn müxtəlif məktəblərində 28, Almaniyanın ali məktəblərində 49, İtaliyada 3 nəfər tələbənin oxuduğunu müəyyənləşdirdi. Bakıya qayıtdıqdan sonra, o, 1922 il martın 2-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun adına əhatəli hesabat təqdim etdi. Bu hesabat əsasında Nəriman Nərimanovun şəxsi göstərişi ilə xaricdə oxuyan tələbələrə təhsillərini müvəffəqiyyətlə davam etdirmələri üçün lazımi şərait yaradılması tapşırıldı.

1922 ilin sonlarında Nəriman Nərimanov Moskvaya işə keçirildikdən sonra, xaricdə oxuyan tələbələrə münasibət yenidən dəyişdi. Xaricdə oxuyan tələbələr "sədaqətli" və "sədaqətsiz" adı ilə iki qismə bölündü. Onlara münasibət də bu yöndə quruldu. Nəticədə, təhsil haqqını ödəyə bilməyən tələbələrdən gündəlik çörəyə möhtac olaraq, ən ağır şəraitdə işləmək məcburiyyətində qalanlar, həbsxanalara düşənlər, hətta böhranlı vəziyyətdən çıxış yolu tapmayaraq, intihar edənlər də olmuşdur. Çox çətinliklə təhsilini başa çatdırıb, yüksək ixtisaslı mütəxəssislər kimi vətənə qayıdan tələbələrin əksəriyyəti isə sonralar "qırmızı terror"un qurbanı oldular. [1, s. 5; 2; 3, 15-16; 9; 19; 20].

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. "Elm". 2008. 696 səh. + 40 səh. illüstrasiya
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), B., 1998
3. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, "Lider nəşriyyat", 2005, 472 səh.
4. Abdulla H., "1918-ci il qırğınlarının izi ilə. Göyçay qırğınları", 18.12.2014 - http:// www.qafqazinfo.az
5. Anar Turan "Azərbaycan Xalq Cümhuriyyəti dövründə xaricə göndərilən tələbələr və onların taleyi barədə qeydlər" Xalq qəzeti.-2012.- 25 iyul.- S. 7.
6. Əroğul Ə., "Azərbaycanda erməni-daşnaq terrorunun xronologiyası (bədii, tarixi publisistika)", Bakı, 2009, s. 200

7. Əliyeva İ. Cümhuriyyət tələbələri. “Azərbaycan” qəz., - 2023.- 28 may. - № 112. - S. 17
8. İmanova
Ş. “Azərbaycandan xarici ölkələrin ali məktəblərinə 100-dən artıq tələbə göndərilib” “Azərbaycan müəllimi” qəz.,- 17 avqust.- 2018
9. Paşayev A., Açılmamış səhifələrin izi ilə, B., 2001;
10. Tahırzadə Ə. Azərbaycan Cümhuriyyəti Tələbələri. Bakı: TEAS Press. 2016
11. Təkəli M., Rıhtım M. Qafqaz İslam Ordusunun xronologiyası. Bakı, “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2008, 104 səh.
12. Teyyub Qurban “Yüz tələbə, yüz tale” . Bakı: Şur, 2018
13. Zeynallı A.H., “Kürdəmir faciəsi və Qafqaz İslam Ordusunun qurtuluş savaşları: 1918”, Bakı, 2010, 196 s.
14. Zülfüqarlı M., “Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi. Göyçay döyüşləri (iyun-iyul 1918-ci il)”, Bakı, 2017, 110 s.
15. Zülfüqarlı M.P. Göyçay tarixi. Bakı: 2022 – 312 s.
16. http://milliarxiv.gov.az - “Fövqəladə Təhqiqat Komissiyası”
17. https://mod.gov.az/ az/pre/54991.html
18. https://obastan.com/wiki/Hacı_Səədi

Rus dilində

19. Абуталыбов Р., Азербаиджанские студенты в Западной Европе, газ. «Панорама», 1996, 15-е марта.
20. Азербаиджанскя Демократическая Республика (1918-1920). Законадательные акты (сборник дакументов) Б.,1998;
21. Каземзаде F. Борьба за Закавзазье (1917–1921). CA&CC Press®, 2010. 328 стр.



VI. Ucar rayonu sovet hakimiyyəti illərində (1920-1991-ci illər)

6.1. Ucar ərazisi 1920-1941-ci illərdə

Bolşeviklərin erməni daşnaklarla birlikdə müsəlman əhaliyə qarşı törətdikləri 1918-ci ilin mart soyqırımı və 1920-ci ilin aprel işğalından dərhal sonra həyata keçirdiyi repressiyalar Azərbaycan əhalisinin sayının kəskin şəkildə azalmasına səbəb oldu. Əgər 1917-ci ildə Azərbaycanda 2 milyon 353,7 min əhali var idisə, 1920-ci ildə 1 milyon 952,2 min nəfər olub, başqa sözlə 401,5 min nəfər azalıb [9, s.442].

Azərbaycan Xalq Cümhuriyyətinin XI ordu tərəfindən işğalından sonra müsadirələr, əhali üzərində vergi və rekvizisiya təzyiqləri artması, keçmiş hərbçilər, bəylər və kənd əhalisinin təqib edilməsi və s. kənd yerlərində, o cümlədən Şirvan düzündə silahlı müqavimətin yaranmasına səbəb oldu . Azərbaycanın mühacir mətbuatı olan "Odlu Yurd" ("Birinci-kanun" dekabr - 1929, № 10) jurnalında çap olunan məqalədə sovet hakimiyyətinə qarşı digər bölgələrdə baş verən üsyanlarla yanaşı, Göyçay qəzasındakı üsyanı haqqında da məlumat verilib: "Millətimizin bu müqaviməti 1926 sənəsinə qədər davam etmiş və bolşeviklərin kəndi statistikalarına görə,

bu müddət zərfində 60-a qədər müsəlləh üsyan vaqe olmuşdur ki, ən mühümləri Gəncə üsyanı, Ağdam-Qarabağ üsyanı, Lənkəran üsyanı, Səlyan-Muğan üsyanı, Şəki-Zaqatala üsyanı, Göyçay üsyanı, Kürdəmir üsyanı və s. Bunların bir qismi həftələrlə, bir qismi aylarla, Lənkəran üsyanı isə illərlə davam etmişdir. 1926 sənəsinin sonlarına qədər Bakının "Qobustan" və "Daşlar" namilə (adı ilə) məruf (məlum) partizan hərəkatından maəda (başqa, əlavə) Lənkəran, Qazax, Göyçay, Zaqatala, Qarabağ, Gəncə və Quba dağları ilə Muğan və Səlyan steplərində 9 ildən bəri davam edən mücadiləsində inad göstərən müsəlləh müqavimətlər nəticəsində nə qədər qurban verilmişdir!" [11, 23 sentyabr 2017-ci il].

Bəzi məlumatlara görə, Azərbaycanda sovet hakimiyyəti əleyhinə 1923-cü ilə qədər 53, 1941-ci ilə qədər isə 200-ə qədər irili-xırdalı üsyan və silahlı çıxış baş verib. [10, 30 oktyabr 1990-cı il]

Sovet rejiminə qarşı üsyanları xronoloji baxımdan aşağıdakı dövrlərə bölmək olar:

- 1920–1922 – ilk silahlı müqavimət dalğası (işğaldan dərhal sonra)
- 1923–1926 – lokal qaçaq dəstələrinin fəaliyyəti
- 1929–1931 – kollektivləşməyə qarşı kəndli üsyanlarının yeni mərhələsi

Mənbələrin müqayisəsi göstərir ki, Ucar və Şirvan ətrafında müqavimət aşağıdakı formalarda olmuşdur:

- Nəqliyyatın sabotajı, dəmir yolunun bloklanması
- sovet siyasətinə qarşı ümumi üsyan dalğası

Ucar (o dövrdə inzibati baxımdan Şirvan və Göyçay bölgələri ilə bağlı idi) ətrafında üsyanlar daha çox lokal xarakter daşıyırdı. Qaçaq dəstələri sovet hakimiyyətini tanımır,

sovet orqanlarına, ərzaq yığımına (prodrazvyorstka) və milis dəstələrinə hücumlar edirdilər.

Cəza dəstələri müqaviməti zor gücünə yatırdılar, kəndlərdə kütləvi həbslər və sürgünlər həyata keçirildi, üsyançıların ailələri təqib edildi.

1920-ci il mayın 18-də bolşeviklər və qırmızı döyüşçülər Şuşada yeni hökumətə qarşı hazırlanan üsyandan xəbər tutub onun qarşısını ala bildilər. Həmin vaxtlarda Ucar və Bərgüşadda yeni rejimlə razılaşmayan əhali dəmir yolu xəttində qatarların hərəkətini dayandırmağa cəhd göstərdi. 1920-ci il mayın ortalarından Bakıda sovet hakimiyyəti əleyhinə üsyana hazırlıq aparıldı. Şəhər hərbi qarnizonunun rəisi, 28-ci diviziyanın komandiri Nesterovskinin 1920-ci il mayın 26-da imzaladığı əmrdə göstərilirdi ki, Bakı şəhərində fəhlə və kəndli hökumətinə qarşı üsyanların hazırlanması barədə şayiələr dolaşmaqdadır. Əmrdə daha sonra deyilirdi:

"Hansı evdən güllə atılsa, o ev top atəşinə tutulacaq, evdə sükunət edənlər də fəhlə və kəndli hökumətinin düşməni adlandırılaraq, 16 yaşından 50 yaşına qədər olan hər kəs mühakiməsiz güllələnəcək. Siqnal və yaxud nişan verənlər tutulduqları yerdə gülləbaran ediləcəklər." [1,s.241]

Sovet hakimiyyətinin ilk illərindən başlayaraq yeni quruluşa qarşı baş qaldıran narazılıqlar ötən əsrin 30-cu illərinin ortalarına qədər davam etdi. Həmin dövrdə kollektivləşməyə, yəni kolxoz quruluşuna qarşı ayrı-ayrı bölgələrdə baş verən bu narazılıqlar bəzən üsyanlar səviyyəsinə qədər gəlib çatırdı. Belə bölgələrdən biri də Göyçay qəzasının tərkibində olan Ucar ərazisi idi.

Azərbaycan K(b)P MK 1929-cu il dekabr plenumunda Bərdə, Xıllı, Ucar dairələrində və Gəncə mahalında yaz əkini

dövründə elliklə kollektivləşdirmə keçirməyi qərara aldı. Bu qərar əhalinin ciddi narazılığına və üsyanlara səbəb oldu.

ÜİK/b/P MK-nın 1930-cu il 5 yanvar qərarında da "Kollektivləşmənin sürəti və kolxoz quruculuğuna dövlət tərəfindən yardım edilməsi tədbir lərihaqqında" qərara baxmayaraq, yerli partiya və dövlət nümayəndələri yuxarıda oturanın xoşuna gəlmək xatirinə qoyulan müddəti pozaraq kolxoz quruculuğunu zorla sürətləndirir, tabe olmayanlara qarşı zorakı tədbirlər görürdülər. Əhalinin əksəriyyəti bu qaydaları qəbul edə bilmir və çox zaman etiraz çıxışları təşkil edirdilər. Quba dairəsində, Gəncə dairəsində bir çox kəndlərində, Qazax dairəsində, Qarabağda, Şirvan və Ucar dairəsində kütləvi çıxışlar olmuş və amansızlıqla yatırılmışdı [4, s. 397-398].

Ucar rayonunun da daxil olduğu Göyçay qəzasında qaçaq Zahid, Qaçaq Ələm, Qaçaq Məhəmməd sovet rejiminə qarşı mübarizə aparmışdı. Məşhur qaçaq Ələm Boyat kəndindən idi [5, s. 24; 6].

Süni intellektdə Ucar və ətraf ərazilərdə sovet rejiminə qarşı mübarizə aparmış qaçaq dəstələrinin başçıları haqqında aşağıdakı məlumat verilir:

Şirvan - Ucar bölgəsində fəaliyyət göstərən qaçaqlar

Qaçaq Zahid

Mənbələrdə ən çox xatırlanan qaçaqlardan biridir . Ucar və ətraf kəndlərdə kiçik silahlı dəstəyə rəhbərlik etməklə sovet vergi və müsadirə siyasətinə qarşı çıxışlar təşkil edib.

Qaçaq Ələm

Şirvan düzənliyi, Ucar zonasında yerli kəndli dəstələrinin təşkil edib sovet idarəetmə orqanlarına qarşı hücumlar təşkil edib.

XX əsrin əvvəllərində Azərbaycanda, xüsusilə Şirvan və ətraf bölgələrdə fəaliyyət göstərmiş qaçaqlardan biri kimi xatırlanır. Onun fəaliyyəti əsasən sosial-iqtisadi zülmə və sovet hakimiyyətinin ilkin dövründə aparılan zorakı siyasətlərə qarşı müqavimət kontekstində qiymətləndirilir. Onun haqqında məlumatlar əsasən şifahi tarix, yerli xatirələr və bəzi arxiv materiallarında dağınıq şəkildə qorunub saxlanmışdır. O, yerli qaçaq dəstələrinin təşkilində iştirak, regional müqavimət şəbəkəsinin formalaşmasına töhfə verməsi, sovet hakimiyyətinə qarşı silahlı müqavimətin simvollarından biri kimi qəbul olunub. Bu baxımdan o, sosial ədalətsizliyə qarşı çıxan, yerli əhali tərəfindən bəzən "xalq qəhrəmanı", "ədalət tərəfdarı" kimi qəbul edilən, sovet rejimi tərəfindən isə "bandit" kimi təqdim olunan şəxs kimi səciyyələndirilib. Sovet dövründə qaçaqların mənfi obrazda təqdim edilməsi, rəsmi sənədlərdə məlumatların qəsdən təhrif olunması, şifahi tarix materiallarının gec toplanması onun haqqında məlumatların məhdud olmasına səbəb olub.

Qaçaq Məmməd

Kürboyu kəndlərdə, Göyçay-Ucar xəttində (Ucar ətrafı daxil) kiçik mobil dəstələrlə fəaliyyət göstərib. Qısa müddətli basqın taktikasına üstünlük verib. NKVD siyahılarında (1920-ci illərin əvvəlləri) adı qeyd olunub. [16]

Qaçaq Əli

Fəaliyyət ərazisi: Göyçay–Ağdaş–Ucar zonasında 1920–1923-cü illərdə sovet rejiminə qarşı mübarizəyə, əsasən ərzaq yığımına qarşı çıxışlar, yerli sovet orqanlarına hücumlara rəhbərlik edib. Sovet mənbələrində adı "bandit dəstə başçısı" kimi hallanır.

Qaçaq Kərim

Göyçay- Ucar xəttində əsasən dəmir yolu xəttinə nəzarət edən dəstələrə qarşı hücumlar təşkil etməklə mübarizə aparıb. Onun haqqında daha çox lokal folklor və arxiv materiallarında az sayda məlumat var [17].

Ucar və digər ərazilərində sovet rejiminə qarşı baş vermiş qaçaq hərəkatı haqqında elmi ədəbiyyatda da məlumatlara rast gəlinir. Məsələn, çoxcildlik "Azərbaycan tarixi"nin VI cildində qeyd olunur ki, " Gəncənin Nərimanov dairəsində, Şirvanın Ucar dairəsində, Şamxor dairəsinin Bitdili kəndində kütləvi çıxışlar olmuşdu. 1930-cu ilin yazında Naxçıvan MSSR-də, Nuxa-Zaqatala dairəsində sovet hakimiyyətinə qarşı qalxan qiyamlarda ortabablar da iştirak edirdilər. Onların iştirakçılarına divan tutuldu və qiyam yatırıldı [1, s. 241].

Ucar dairəsində sovet rejiminə qarşı üsyanlar geniş miqyaslı mərkəzləşdirilmiş qiyam formasında deyil, əsasən lokal silahlı müqavimət və qaçaq hərəkatı şəklində təzahür etmişdir. Bu hərəkatlar ümumilikdə Cənubi Qafqazda sovet hakimiyyətinin qurulmasına qarşı kəndli və milli müqavimətin tərkib hissəsi idi.

1930 ilin noyabr ayında Qaraməryəm kəndliləri sovetlərə qarşı üsyan baş verdi. Hələlik yazılı təsdiqlənməmiş məlumata görə, üsyan düz bir il çəkmişdir. Sovet dəstələri üsyançılarla amansız davranırlar. Bu dövrdə yalnız İsmayıllı rayonunda 300 nəfər həbs edilmiş, 63 nəfər güllələnmişdi [1, s. 322].

AK(b)P MK-nın elliklə kollektivləşməyə keçməklə əlaqədar qolçomaqların bir sinif kimi ləğv edilməsi haqqında 23 fevral 1930-cu il tarixli qərarı ilə Azərbaycanın digər bölgələrində olduğu kimi Şirvan, Göyçay, Ucar və s. ərazilərdə qolçomaqlar kütləvi şəkildə məhv edilirdi.

1934-cü il sovetlərin hesabat kampaniyası dövründə Dəvəçi, Göyçay və Xaçmaz rayonlarında sovet fəalları öldürülmüşdür [6].

1931 ilin noyabrında keçirilən əməliyyat nəticəsində Göyçay, Zərdab, Ucar, Kürdəmir və digər bölgələrdə sovetlərə qarşı vuruşan Məhəmməd Həsən oğlu Xəlilovun rəhbərlik etdiyi üsyançı dəstələr ləğv olundu, üsyançıların bir hissəsi İrana qaça bildi [7, s.183].

Yerli əhalinin sovet rejimindən narazılığına baxmayaraq sovet hakimiyyəti öz siyasətinə uyğun olaraq Bakı-Tiflis dəmir yolunun, o cümlədən bu yolun üzərində olan stansiyaların inkişafına xüsusi fikir verirdi. Bu da Ucarın tədricən inkişafına və əhalisinin artmasına səbəb oldu. Məsələn, əgər 1917-ci ildə Ucar stansiyasında cəmi 225 nəfər yaşayırdısa, 1925-ci ildə Ucar qəsəbə statusu aldıqdan sonra stansiya ətrafında yeni binalar tikilməyə başlandı.

Yeni İqtisadi Siyasətin həyata keçirilməsi prosesində baramaaçma və pambıq təmizləmə müəssisələrinin fəaliyyəti canlandı. 1923-cü ildə Şərur rayonunda və Ucar stansiyasında pambıqtəmizləmə zavodlarının fəaliyyəti bərpa olundu [1, s. 98; 9].

Buradan belə nəticə çıxarmaq olar ki, Ucarda tədricən sənaye inkişaf etdikcə Göyçay qəzasının əsas yaşayış məntəqələrindən birinə çevrilirdi. 1934-cü ildə dəmir yolu yaxınlığında 6 yaşayış binası tikildi. Tikinti üçün materiallar at və kəl arabalarında Göyçaydan gətirilirdi. [7]

Göyçay qəzası 1922-1925 illərdə də 4 bölgədən, 1926 ildə isə– Zərdab, Qaraməryəm, Kürdəmir, Mollakənd, Müsüslü, Suraxanı və Ucar bölgələrindən ibarət 7 bölgəyə bölünmüşdür. Suraxanı bölgəsi İsmayıllı da adlandırılırdı. Zərdab bölgəsində 5 kənd sovetliyi, Qaraməryəm bölgəsində

10 kənd sovetliyi, Kürdəmir bölgəsində 7 kənd sovetliyi, Mollakənd bölgəsində 9 kənd sovetliyi, Müsüslü bölgəsində 10 kənd sovetliyi, Suraxanı bölgəsində 10 kənd sovetliyi, Ucar bölgəsində isə 12 kənd sovetliyi fəaliyyət göstərmişdir [3].

24 yanvar 1939-cu ildə Ucar Göyçay qəzasının tərkibindən çıxaraq ayrıca rayon kimi fəaliyyətə başladı. 1956–1965-ci illər arasında Ucar rayonunda olan kolxozların böyük hissəsi ya birləşdirildi, ya da adları dəyişdirildi.

1960–1980-ci illərdə bəzi kolxozlar sovxozlara çevrilmiş və ya ixtisaslaşdırılmış təsərrüfatlar yaradılmışdır (xüsusilə pambıqçılıq üzrə). 1990-cı illərin əvvəllərində SSRİ-nin dağılması ilə bu təsərrüfatlar ləğv olunmuş və torpaq islahatları aparılmışdır.

1925-ci ildə Gəncə, Ləki, Ucar, Salyan pambıqtəmizləmə zavodları bərpa edilmiş, Noraşen (indiki Şərur) və Yevlaxda yeni pambıqtəmizləmə zavodları tikilmişdi [2, s. 258]. Ucar və Yevlaxda pambıqtəmizləmə zavodları 1926-1927-ci illərdə işə salınmışdı [2, s. 282].

1938-1939-cu illərdə Ucarda kiçik ölçülü istilik elektrik stansiyası işə salındı. Lakin bu stansiya yalnız strateji obyekt olan dəmir yolu stansiyasını elektrik enerjisi ilə təmin edirdi. Sakinlərin yaşadığı evlərə elektrik enerjisi verilmirdi.

Ucar istilik elektrik stansiyasının generatoru işə düşərkən çıxardığı səsə görə xalq arasında bu stansiyaya Tıp-tıp deyilirdi. Həmin stansiyanın binası indiyənə qədər tarixi abidə kimi Ucar şəhəri ərazisində qalmaqdadır.





Ucarda kiçik ölçülü istilik elektrik stansiyası

Traxoma kimi, malyariya xəstəliyi də 1920-ci ildən sonra Azərbaycanda geniş yayılmışdı. Azərbaycanın digər əraziləri ilə müqayisədə 1920-1930-cu illərdə Ucar ərazisində vəziyyət daha ağır idi.

Malyariya ilə mübarizə üçün baş plan işlənib hazırlanmış, onun həyata keçirilməsi gedişində respublikada tropik stansiyalar, malyariya dispanserləri, həkimlərdən, orta tibbi heyətdən ibarət malyariya ilə mübarizə dəstələri təşkil edilmişdi. Malyariya ilə mübarizəyə respublikanın bütün əhalisi səfərbər olunmuş, xeyli vəsait ayrılmışdı. Xalq Komissarları Sovetinin nəzdində malyariya ilə mübarizə üzrə xüsusi komitə, Naxçıvan MSSR MİK, DQMV İcraiyyə Komitəsi və iri sovxozların nəzdində analoji komitələr təşkil edilmişdi, malyariya ilə mübarizəyə operativ rəhbərlik Xalq Səhiyyə Komissarlığı və Tropik İnstituta (1931) həvalə edilmişdi. Yevlax, Ləki, Ucar, Kürdəmir kimi malyariya ocaqlarına xüsusi diqqət verilirdi [1, s.355].

Azərbaycan Xalq Cümhuriyyəti XI ordu tərəfindən işğalından sonra 30-cu illərə qədər İranla sərhəd şəffaf olduğundan əvvəlki illərdə olduğu kimi əhalinin işləmək üçün Şimali Azərbaycana gəlib, getməsində ciddi problem olmurdu. Lakin sərhədlər bağlandıqdan sonra cənubi Azərbaycanda şimali Azərbaycana gələn kəsbkarların yolu bağlandı.

İranla 1930-cu illərdə sərhədin bağlanması məsələsi Sovet İttifaqının sərhəd siyasətinin bir hissəsi olaraq baş vermişdi və bu həm daxili, həm də xarici siyasi faktorlarla bağlı idi. Bu dövrdə Azərbaycan SSR ilə İran arasında olan sərhəd ciddi şəkildə nəzarət altına alınmış, insanlar və mal dövriyyəsi demək olar ki, tamamilə dayandırılmışdı. İranla sərhədin bağlanması Sovet İttifaqının qapalı dövlət siyasətinin bir hissəsi idi. Bu, həm ölkə daxilində siyasi nəzarəti gücləndirməyə, həm də xaricdən gələn təsirləri (mədəni, siyasi, iqtisadi) minimuma endirməyə yönəlmişdi. Azərbaycan SSR ilə İran arasında olan tarixi, mədəni və ailə əlaqələri bu sərhəd bağlanması nəticəsində ciddi şəkildə pozulmuşdu [9].

31 may 1928-ci ildə“Sərhəd bölgələrinin sakinlərinin SSRİ ilə İran arasında sərhədi keçməsi haqqında” konvensiya imzalandı. 1937-ci ildən sonra sovet höküməti yalnız sovet vətəndaşlığını qəbul etmiş və ya qəbul etməyə hazır olan iranlıların ölkədə qalmasına icazə verirdi. [15, s. 83-92]. Bununla da İrandan, o cümlədən cənubi Azərbaycandan şimali Azərbaycana miqrasiya tamamilə dayandı.

Bundan sonra cənubi Azərbaycanda işləmək üçün şimali Azərbaycana gəlmiş əhalinin bir hissəsi sovet vətəndaşlığını qəbul etdiklərinə görə sovet Azərbaycanının daimi vətəndaşına çevrildilər. Bununla da Ucar stansiyasına və Qaradağlı kəndinə gəlmiş cənubi Azərbaycan əhalisinin böyük bir hissəsi burada daimi qalmağa məcbur oldu. Belə ailələrdən biri də Zülfüqar Məmmədqulu oğlunun ailəsi idi.





Zülfüqar Məmmədqulu oğlu həyat yoldaşı Nübar Sadıxova ilə birlikdə Cənubi Azərbaycanın Qaradağ vilayətinin

mərkəzi Əhər şəhərindən 10 km aralıda yerləşən Sumbulan kəndindən, Göyçay qəzasının Ucar stansiyasına təxminən, Şeyx Məhəmməd Xiyabani hərəkatının məğlubiyyətindən sonra, 1920-ci ilin sonlarında köçmüşdülər. O, bacarıqlı, işgüzar bir insan olduğu üçün Ucar dəmir yolu stansiyasının yaxınlığında çayxana, yeməkxana açaraq ailəsini dolandırmaqla yanaşı, bir neçə nəfərə də çörək qazanmaq imkanı yaratmışdı. Ucar stansiyasında anadan olmuş oğlanları Paşa Zülfüqar oğlu Məmmədov və Novruz Zülfüqar oğlu Məmmədov Böyük Vətən müharibəsində fəal iştirak edərək faşist Almaniyasına qarşı döyüşlərdə qəhrəmanlıqlar göstərmişlər.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild. Bakı. "Elm". 2008. 696 səh. + 40 səh. illüstrasiya
2. XX əsr Azərbaycan tarixi. II cild. Ali məktəblər üçün dərslik. Bakı, «Təhsil», 2009, 560 səh.
3. Göyçay ensiklopediyası. Bakı 2023, 681 s. GÖYÇAY QƏZASI"
4. Qəniyev H.Q. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. Bakı, 2019, "Elm və Təhsil" nəşriyyatı, 499 səh. s.397-398
5. Tapdıqoğlu N. Ucar rayonu və onun toponimiyası: [qısa ensikloopedik dərgi] - Bakı: Təhsil, 2005.- 120 s. s.24
6. Məmmədov N.Z., "Sovet hakimiyyətinin səhv siyasətinə qarşı genişlənən kəndli hərəkatı (1920-1930-cu illər)", "Bakı Universitetinin Xəbərləri", 2014, № 2, s.50-57
7. Ucar rayonunun tarixi (Ucar rayon Tarix-Diyarşünaslıq Muzeyinin təqdimatında) https://www.youtube.com/watch?v=JcENnSfeBo8
8. Zülfüqarlı M. "Göyçay tarixi". Bakı, 2022– 312 s.
9. Zülfüqarlı M.P., "İkinci Respublikanın tarixi (1920-1991-ci illər)", Bakı, 2020, 310 s.
10. "Tarix" qəzeti
11. "525-ci qəzet"

Rus dilində

12. Атабаки Т., Волков Д. В. Полет от большевистской зимы: советские беженцы через южные границы (1917–30) // Журнал исследований беженцев. 2021. Т. 34. № 2. С. 1900–1922.

13. "Бакинский рабочий", 23 марта 1923 г.

14. Всесоюзная перепись населения 1926 года.М.: Геокчайский уезд.Издание ЦСУ Союза ССР, 1928-29. Том 10. Стр. 2-3. Том 11. Стр. 2-3. Том 14.Стр.5. Том 15.Стр.6. Том 16. Стр.4.

15. .Норик Б.В. МИГРАЦИЯ ИЗ СССР В ИРАН В 1930-е ГОДЫ ЧАСТЬ 1 Восточный архив № 1 (51), 2025

16. https://chatgpt.com/c/69cd71ed-5e20-8330-8fc5-f009bfc7a139

17. https://chatgpt.com/c/69cd6aeb-2904-8326-8f81-f661c72d6867



6.2. Böyük Vətən müharibəsinin ucarlı iştirakçıları (1941-1945-ci illər)

Azərbaycan tarixinin ən gərgin və ziddiyyətli dövrlərindən biri də 61 ölkəni, yer kürəsi əhalisinin 80 faizini özünə cəlb etmiş ikinci dünya müharibəsi, onun tərkib hissəsi olan 1418 gün davam etmiş və 20 milyondan artıq sovet vətəndaşının tələfatı ilə nəticələnmiş Böyük Vətən müharibəsi dövrüdür [3, 162].

Ucar strateji cəhətdən əlverişli ərazidə yerləşdiyinə görə İkinci Dünya müharibəsi və onun tərkib hissəsi olan Böyük Vətən müharibəsi dövründə mühüm əhəmiyyətə malik olmuşdu. Onun ərazisindən keçən magistral yollar arxa cəbhədən döyüşən orduya ərzaq, canlı qüvvə, silah, sürsatın daşınmasında mühüm rol oynamışdı. Bununla yanaşı ölkənin digər ərazilərinin əhalisi kimi Ucar rayonunun da səfərbərlik vasitəsilə cəbhəyə göndərilmiş çoxlu sayda sakini faşist Almaniyasına qarşı qəhrəmancasına vuruşmuşdur.

Sonralar 416-cı Taqanroq diviziyası adı ilə məşhurlaşmış diviziya Ucar şəhərində formalaşdırılmışdı. Zaqafqaziya Hərbi Dairəsinin komandanlığının 1942-ci ilin 22 fevral tarixli əmrinə əsasən bu işə başlanmışdır. 1942-ci ilin martın 22-də diviziyanın şəxsi heyəti hərbi andiçmə mərasimində iştirak etmişdi. Diviziyanın heyətinə 11050 azərbaycanlı, 291 rus, 225 erməni, 110 gürcü, 99 ukraynalı,72 tatar, 28 yəhudi, 23 belarus, eləcə də digər millətlərin hərbi qulluqçuları daxil idi [7].

Diviziyanın şəxsi heyətinin tərkibində Ucar və ətraf ərazilərdən də səfərbərliyə alınmış əsgərlər var idi.

Böyük Vətən müharibəsində qəhrəmanlıqlar göstərmiş 1942-ci ilin iyunundan 1945-ci ilin mayın 2-dək Berlinə kimi 2800 kilometr müzəffər döyüş yolu keçmiş 416-cı diviziya Ucarda yaradılması onun strateji cəhətdən əlverişli ərazidə olduğunu bir daha sübut edir. Diviziya düşmənin 23 minə yaxın əsgər və zabitini məhv etmiş, 5474 nəfər əsir tutmuş, çoxlu döyüş texnikasını qənimət kimi ələ keçirmişdi. Diviziyanın 8 döyüşçüsünə "Sovet İttifaqı Qəhrəmanı" adı verilmişdi. Ümumən, diviziyanın 14369 nəfər əsgər və zabitləri SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilmişdi. Reyxstaqın alınmasında böyük qəhrəmanlıq göstərmiş Yusif Sadıqov "Sovet İttifaqı Qəhrəmanı" adı ilə təltif edilmişdi. Diviziyanın bir çox heyət üzvü xarici ölkələrin orden və medallarına layiq görülüb [5].

Əsasən azərbaycanlılardan ibarət diviziya Taqanroq şəhərinin faşistlərdən azad edilməsindəki qəhrəmanlıqlara görə Taqanroq diviziyası adlandırıldı.



416-cı Taqanroq diviziyası



Taqanroq şəhər muzeyində 416-cı atıcı diviziya haqqında kitablar.

Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1980-ci il may ayının 8-də Taqanroq şəhərini faşist işğalçılarından azad



etmiş azərbaycanlı döyüşçülərin şərəfinə Taqanroq şəhərində

abidə ucaldılmışdır. Abidənin açılışında iştirak edən Heydər Əliyev çıxış edərək müharibədə düşmən üzərində qələbə qazanılmasında azərbaycanlıların iştirakını, 416-cı Azərbaycan Milli Taqanroq Diviziyasının döyüş şücaətini yüksək qiymətləndirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın Rostov vilayətində "Sambek yüksəklikləri" - Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı ilə bağlı "Rossiya-24" və "Rossiya-1" telekanallarının reportajlarında yayımlanan müsahibəsində demişdir: **"**Rostov vilayətini azad etmiş 416-cı Taqanroq atıcı diviziyasının döyüşçülərinin 90 faizindən çoxu əslən Azərbaycandan idi. 416-cı Taqanroq diviziyası təkcə Rostovu deyil, bütün Rostov vilayətini, o cümlədən Taqanroq şəhərini azad edib, bundan sonra diviziyaya Taqanroq adı verilib. Melitopol, Kişineu, Odessa şəhərlərini də 416-cı diviziya azad edib. Bu diviziya uğurla həyata keçirilmiş Mozdok əməliyyatında xüsusilə fərqlənib. Əslində, bu əməliyyat Bakı şəhərinin faşistlər tərəfindən tutulmasının qarşısını alıb. Əks halda, Böyük Vətən müharibəsinin nəticələri fəlakətli olardı. O dövrdə cəbhə üçün yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edirdi. Əgər Azərbaycan və onun mədənləri faşistlərin əlinə keçsəydi, müharibənin nəticəsi tamam başqa olardı" [2].

Ucar şəhərində 416 –cı Taqanroq Diviziyanın xatirəsinə ucaldılmış abidə [5].

416-cı Taqanroq Diviziyası indiki Nizami adına Ucar şəhər 3 saylı orta məktəbin (o zaman 8 illik məktəb olub) binasında formalaşdırıldığından diviziyanın xatirəsinə məktəbin həyətində 1976-1978-ci illərdə abidə ucaldılıb.

Bəxtiyar Vahabzadə-nin "416" poemasını bu diviziyaya həsr edib:

416 - adın düşdü dillərə,
Qanla yazdın şanını ellərə.
Döyüşlərdə oddan keçdin mərd kimi,
Tarix səni yazdı qəhrəman kimi...

Sovet dövründə nəşr olunmuş kitablarda adətən II Dünya müharibəsi dövründə kommunist ideologiyasının standartlarına uyğun olan məsələlər və şəxslər təbliğ edilmiş, çoxlu sayda mövcud faktlar, o cümlədən azərbaycanlılara qarşı yeridilmiş ayrı-seçki siyasəti haqqında yazmaq qadağan olunmuşdur. Kitablarda adı yazılan az sayda şəxslərdən başqa digər müharibə iştirakçıları kölgədə qalmışdır. Buna görə də Azərbaycandan cəbhəyə getmiş 600 mindən çox döyüşçünün sırasında olan minlərlə qəhrəmanın, o cümlədən Ucarlı

qəhrəmanların əksəriyyəti haqqında hələ də heç bir tədqiqat işlərinin aparılmaması təəssüf doğurmaya bilməz. Lakin Rusiya Federasiyasının arxivlərində qorunan Böyük Vətən müharibəsi iştirakçılarına aid materialların bir hissəsinin hazırda internet vasitəsilə əldə edilməsinin mümkün olması bu problemin həllinə müəyyən qədər kömək edə bilər. Ucarlı müharibə iştirakçılarının doğmaları onların ad, ata adı və soyadlarını https://pamyat-naroda.ru saytına yazmaqla az da olsa məlumat əldə edə bilərlər. Bu məlumatların toplanması onlar haqqında yeni məqalə və kitabların yazılmasına kömək edə bilər.

Nümunə üçün bu saytlardan əldə olunmuş məlumatlar əsasında Ucarlı müharibə iştirakçıları haqqında bir neçə məlumatı oxuculara təqdim edirik. Bu məlumatlardan biri iki qardaş Məmmədovlar haqqındadır.



Bölük komandiri Paşa Zülfüqar oğlu Məmmədov - 1921-ci ildə Azərbaycan SSR-in Ucar şəhərində anadan olub. Atası Zülfüqar Məmmədqulu oğlu və anası Nübar Sadıxova Cənubi Azərbaycanın Qaradağ vilayətinin mərkəzi olan Əhər şəhəri yaxınlığındakı Sumbulan kəndindən, Ucar şəhərinə təxminən 1918-1920-ci illərdə köçüb gəliblər. O,1941-ci ilin

dekabrında döyüşən orduya səfərbərliyə çağırılmış, birbaşa qızğın döyüşlərin getdiyi cəbhəyə göndərilmiş və qələbəyə qədər döyüşlərdə iştirak etmişdir. 3-cü motoatıcı batalyonun bölük komandiri kimi 27 noyabr 1942-ci il tarixdə Rusiyanın Şimali Osetiya Muxtar Respublikasının paytaxtı Orcanikidze şəhəri (Hazırda Vladiqafqaz) uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq ağır yaralanmışdır.

Aşağıdakı arxiv sənədində 3 –cü sırada onun yaralanması haqqında ayrıca qeyd var:



Он же, что тов. участвуя в Отечественной войне с июля 1941 года, был ранен 3 раза: 27.8.1941 года г. Шепетовка, 2.11.41 г. г. Киев апрель 1943 года Латвь-Курган. Находится в строю.

1920 года рождения, Узбек, член ВЛКСМ, в РККА с 1941 года, призван Янги-Курганским РВК

Домашний адрес: [redacted]

имеет

Медаль „За боевые заслуги"

1. Третьего номера 3 миномётной роты – красноармейца Кадырова Кул Мамеда за то, что он участвуя в Отечественной войне с апреля 1942 года, был ранен 14 июля 1942 г. в Белоруссии, Канаду-ей в строю.

1920 г. рождения, туркмен, беспартийный, в РККА с апреля 1942 года, призван Багинским РВК Домашний адрес: [redacted]

Наград не имеет.

2. Командира отделения 4 стрелковой роты – сержанта Кунукалова Петра Илларионовича за то, что он участвуя в боях за освобождение Родины от немецких оккупантов с февраля 1943 года ранен 3 раза: 10 апреля 1943 года хутор Прилубенский, 1 сентября 1943 года под г. Стайно и 29 октября 1943 года под Вареницевкой в наступательных боях. Находится в строю.

1925 года рождения, русский член ВЛКСМ, в РККА с февраля 1943 года, призван Ново-Ахмедовским РВК Ленинградской обл. Домашний адрес: [redacted]

Наград не имеет.

3. Командира отделения 7 стрелковой роты – младшего сержанта Медведева Пашу Серафимовича за то, что он, участвуя в Отечественной войне с 12.1941 года, был ранен 27.11.1942 года под городом Ордженикидзе. Находится в строю.

1921 года рождения, Сверд. области, член ВЛКСМ, в РККА с 12.1941 года, призван Свердловским РВК Домашний адрес: [redacted] Наград не имеет.

4. Командира отделения 5 стрелковой роты – сержанта Нихденко Николая Харитоновича за то, что он, участвуя в Отечественной войне с февраля 1943 года, был дважды ранен: 12.7.1943 и 14.9.1943 года. Находится в строю.

1925 года рождения, русский, беспартийный, в РККА с 1.2.1943 года, призван Нижне-Ахтырским РВК Домашний адрес: [redacted] Наград не имеет.

5. Второго номера противотанкового ружья 2 стрелкового батальона – младшего сержанта Павлова Сергея Ивановича за то, что он, участвуя в Отечественной войне с 24.9.1941 года, был



ГОСПИТАЛЬ

СПРАВКА О РАНЕНИИ

В боях за СОВЕТСКУЮ РОДИНУ сержант 157

МАМЕДОВ Паша Зульфугарович был легко ранен

27/XI-42 г.

Диагноз ранения: сквозное осколочное ранение стопы / правой / без повреждения костей.

Начальник ЭГ 3677

Врач 2 р.

Лавитес

Госпиталь

Həmin döyüşdə göstərdiyi qəhrəmanlıqlara görə o, 10 aprel 1944-cü ildə “Döyüş xidmətlərinə görə” medalı ilə təltif olunmuşdur [4, s.130-132; 8].



1942-ci ilin noyabrından 1943-cü ilin aprel ayına kimi Bakının Buzovna qəsəbəsində müalicə olunmuşdur. Müalicə aldığı müddətdə ailəsinin təkidi ilə evlənmiş və yenidən döyüşən orduya qayıtmışdır. 1944-cü ilin fevralında o cəbhədə döyüşərkən ilk övladı dünyaya gəlmişdir.



30 aprel 1944-cü il tarixdə Krımın Sevastopol şəhəri yaxınlığındakı Balaklava şəhəri (Mənası "Balıqlı hava"-Krım tatar dilindən götürülüb) uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərib. O, düşmənin müxtəlif növ silahlardan dolu kimi yağdırdığı atəş altında xüsusi igidlik göstərərək, qəfil faşistlərin ön xəttinə keçə bilmiş, avtomatdan atdığı atəşlə almanların diqqətini özünə cəlb edərək, şəhərin tezliklə azad edilməsinə layiqincə kömək göstərmişdir. Döyüşdə göstərdiyi qəhrəmanlığa görə "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.





P.Z.Məmmədov iki dəfə yaralansa da, müharibədən sonra ikinci qrup müharibə əlili kimi vətənə qayıda bilmişdi. Lakin odun- alovun içindən sağ-salamat evinə qayıtsa da 1958-ci il may ayında Göyçay-Ucar yolunda baş verən avtomobil qəzası nəticəsində 6 uşaq atası olan P.Z. Məmmədov 37 yaşında faciəli şəkildə vəfat edib.Ucar şəhər qəbiristanlığında dəfn edilib.





Novruz Zülfüqar oğlu Məmmədov

1920-ci ildə Azərbaycan SSR-in Ucar şəhərində anadan olub. O, qardaşı Paşa Məmmədovdan bir az sonra 1942-ci ilin əvvəlində döyüşən orduya səfərbərliyə çağırılmış və birbaşa qızğın döyüşlərin getdiyi cəbhəyə göndərilmişdir. Cəbhədə olduğu müddətdə döyüşlərdə iştirak etməklə yanaşı həm də yaralılara tibb xidmət göstərmişdir.



Döyüşdə göstərdiyi qəhrəmanlıqlara görə o, "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunmuşdur [11].

Müharibədən sonra N. Z. Məmmədov uzun müddət Bakıda Mərkəzi Bankda müxtəlif vəzifələrdə işləmiş, 70-ci illərdə vəfat edərək Bakıda "Qurd qapısı" qəbiristanlığında dəfn olunmuşdur.


AZƏRBAYCAN RESPUBLİKASI
VƏTƏNDAŞININ ŞƏXSİYYƏT VƏSİQƏSİ
Seriya AZE № 0375358
Soyadı
ALLAHVERDİYEV
Adı
XUDU
Atasının adı
İBRAHİM OĞLU
Doğulduğu yer və tarix
AZƏRBAYCAN,UCAR ray.,LƏK K.
01.07.1919

Xudu İbrahim oğlu Allahverdiyev

01 iyul 1919-ci ildə Azərbaycan SSR-in Ucar rayonunun Lək kəndində anadan olub. Arxiv sənədlərində qeyd olunur ki, Xudu Allahverdiyev 1939-cu ildə hərbi xidmətə yollanıb. Müharibə başladıqdan sonra 126 atıcı diviziyanın 69 - cı alayının sıravi əsgər kimi alman faşistlə qarşı döyüşlərin iştirakçısı olub və döyüşlərdə bir neçə dəfə yaralanıb. O, döyüşlərdə göstərdiyi igidliklərə görə 1942-ci ilin 22 dekabrın

“Stalinqradın müdafiəsi”, 1943-cü ilin 24 oktyabrında “İgidliyə görə”, 1945-ci ili 22 noyabrında “Budapeştin alınması” medalları və 1985-ci ilin 06 aprelində qələbənin 40 illik yubleyi münasibətilə “II dərəcəli Vətən müharibəsi Ordeni” ilə təltif olunmuşdur. [10] Bunlardan əlavə o Stalinin şəxsi imzası ilə təşəkkürnamə də almışdı.











Секретно
экз. №..4 335 332

ПРИКАЗ

17-й ЛУШЕЧНОЙ АРТИЛЛЕРИЙСКОЙ СВИРСКОЙ ОРДЕНА БОГДАНА-ХМЕЛЬНИЦКОГО БРИГАДЫ

№ 22 ноября 1945 г: №.0203 снв. 3 кли.г. Джурджу

В соответствии с Указом Президиума Верховного Совета Союза ССР от 9-го июня 1945 г: и положением о медали "ЗА ВЗЯТИЕ БУДАПЕШТА"

НАГРАЖДАЮТСЯ МЕДАЛЯМИ "ЗА ВЗЯТИЕ БУДАПЕШТА" :

1.	Ефрейтор	АБРАМОВ Василий Васильевич	Телефонист бат.управл. Бригады.
2.	Сержант	АБУЕВ Михаил Петрович	Разведчик наблюдатель 213 ПАП
3.	Красноарм.	АБЕЕВ Анатолий Федорович	Разведчик 1092 ПАП
4.	Красноарм.	АБУМОВ Агаммагамет	Орудийный номер 1092 ПАП
5.	-"-	АТМАНБЕКОВ Алдай	Орудийный номер 213 ПАП
6.	-"-	АБЕНИКОВ Михаил Григорьевич	Радист 1092 ПАП
7.	Ефрейтор	АБОЛГАРИЕВ Харис Незамович	разведчик 213 ПАП
8.	Красноарм.	АВТОНОВ Дмитрий Герасимович	Разведчик 213 ПАП
9.	-"-	АЛЕКСЕЕВ Александр Никифорович	разведчик 1092 ПАП
10.	Гв.ст.с-нт	АЛЕКСЕЕВ Алексей Семенович	разведчик 213 ПАП
11.	Капитан	АНКУДИНОВ Владимир Яковлевич	Командир батареи 1092 ПАП
12.	мл.сержант	АБРАШИТОВ Абдул Ахматдинович	телефонист старший 213 ПАП
13.	Красноарм.	АРЕШИН Николай Андреевич	орудийный номер 1092 ПАП
14.	-"-	АЛЛАХВЕРДИЕВ Худу Ибрагимович	орудийный номер 1092 ПАП
15.	ст.сержант	АСАТРЯН Ашот Аванесович	Пом.ком.взвода 1092 ПАП
16.	красноарм.	АФОНИН Николай Сергеевич	шофер 1092 ПАП
17.	ст.сержант	АБЛИН Александр Иванович	ком.отд.разв.213 ПАП
18.	красноарм.	АБДУЛЕЕВ Махмадло	телефонист 213 ПАП
19.	-"-	АБРОСИМОВ Василий Денисович	

-2-

[13]

1946-cı ildə ordudan tərxis olunaraq Azərbaycana, Ucarın Lək kəndinə qayıdıb və 2020-ci ilin yanvar ayında doğma kəndində 101 yaşında vəfat edib və yaşadığı kənddə torpağa tapşırılıb [1].



Baxşəliyev Məhərrəm Albaba oğlu

1925-ci ildə Ucar rayonun Yuxarı Şilyan kəndində anadan olub. II Dünya müharibəsində Alman faşizminə qarşı döyüşlərin iştirakçısı olub 1985-ci ilin 11 noyabrında qələbənin 40 illik yubileyi münasibətilə "II dərəcəli Vətən müharibəsi Ordeni" ilə təltif olunub [12].



Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümü münasibətilə Ucar rayonunun Yuxarı Şilyan kəndində Baxşəliyev Məhərrəm Albaba oğlunun evində onunla görüş keçirilib. Çoxsaylı övladları, nəvələri, nəticələri, kötücələri olan 95 yaşlı Məhərrəm Baxşəliyev keçdiyi döyüş yolundan xatirələr danışıb, ona Ucar Rayon İcra Hakimiyyəti tərəfindən gətirilmiş bayram sovqatına görə təşəkkürünü bildirmişdir [6].



Hüseynov Süleyman Abdulhüseyn oğlu 10 sentyabr 1913-cü ildə Ucarın Qarabörk kəndində anadan olub. 1939-cu ilin 20 noyabrında hərbi çağrışla Şimali Qafqaz cəbhəsində orduda xidmətə başlamış, baş leytenant rütbəsinə layiq görülüb. 06 sentyabr 1943-cü ildə yaralandığına görə ordudan tərxis olunub. "Qafqazın müdafiəsinə görə", "1941-1945 Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunub.



1985-ci il aprelin 4-də qələbənin 40 illiyi ərəfəsi "II dərəcəli Vətən müharibəsi" Ordeni ilə təltif olunub [14].

Hüseynov Süleyman 1996-cı il sentyabrın 15-də 83 yaşında vəfat edib.

2003 dekabrın 23-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Böyük Vətən müharibəsi əlillərinə 15 ədəd "OKA" markalı pulsuz avtomobilin verilməsi münasibətilə tədbir keçirilmişdir. Avtomobil alan arasında ucarlı veteran Məmmədov Bəylər Rəşid oğlu da var idi [15].



Ucarda 416-cı Taqanroq diviziyasına aid abidə ilə yanaşı Böyük Vətən müharibəsində həlak olanların xatirəsini əks etdirən aşağıda qeyd olunan bir neçə abidə də var:

●1941-1945-ci illər Böyük Vətən müharibəsində Abidə rayon Mədəniyyət evinin qarşısında ucadılmış və 1976-cı ildə inşa edilmişdir. Abidənin texniki vəziyyəti normaldır. 2005-ci ildə yenidən qurulmuşdur.

●1941-1945-ci illər Böyük Vətən müharibəsində həlak olanların xatirəsini əks etdirən abidə. Abidə RİHB-nın Əlikənd kənd üzrə ərazi nümayəndəliyinin həyətində yerləşir. Abidə 1986-1987-ci illərdə inşa edilmişdir. Abidə texniki cəhətdən normaldır.

●"Naməlum əsgərin" xatirəsini əks etdirən monumental abidə. Abidə Ucar pambıq zavodunun ərazisində yerləşir. Abidə 1981-1982-ci illərdə inşa edilmişdir. 2010-cu ildə yenidən qurulmuşdur. Abidə texniki cəhətdən yararlıdır [5].

İstifadə olunmuş ədəbiyyat

1. Abışov Zahid "Ucarın sonuncu Böyük Vətən müharibəsi veteranı 101 yaşında vəfat edib" APA 15 yanvar 2020

2. Rzalı R. "Berlinin Brandenburq qapılarını 416-cılar açdı" Ordu.az 31 Avqust 2020

3. Zülfüqarlı M.P. Tarixşünaslıq (1920-1991-ci illər) Azərbaycan tarixi – DƏSRLİK. Bakı ―MEKAN SERVES NN‖ 2017, 486 s.

4. Zülfüqarlı M.P. İkinci Respublikanın tarixi. Bakı 2020,310 s., s.130-132
5. http://ucar-ih.gov.az/az/page/16.html
6. http://ucar-ih.gov.az/ az/news/520.html
7. https://stav.aif.ru/society/society/history/ot_kavkaza_do_berlina_v_kazhdoy_seme_zhivy_vospominaniya_o_geroyah Arqumenti I faktı stav. aif.ru 02. 04. 2015
8. https://pamyat-naroda.ru(архив-серж. Мамедов Паша Зульфугарович) (Даты подвига: 27.11.1942, Наименование награды: Медаль «За боевые заслуги» Приказ подразделения №: 9/н от: 10.04.1944, Издан: 694 сп 383 сд)
9. https://pamyat-naroda.ru(архив-серж. Мамедов Паша Зульфугарович) (Даты подвига 30.04.1944 Номер фонда ист. информации 33 Номер описи ист. информации 686044 Номер дела ист. информации 4281, Архив: ЦАМО, Расположе ние документа: шкаф 55, ящик 9)
10. https://pamyat-naroda.ru/heroes/podvigchelovek_yubileinaya_kartoteka1510395741/
11. https://pamyat-naroda.ru/heroes/person-hero83180545/
12. https://pamyat-naroda.ru/heroes/podvigchelovek_yubileinaya_kartoteka1510961979/
13. https://pamyat-naroda.ru/heroes/podvig-chelovek_nagrazhdenie1535859288/
14. https://pamyat-naroda.ru/heroes/podvig-chelovek_yubileinaya_kartoteka1514477012/
15. https://azertag.az/xeber/boyuk_veten_muharibesi_elillerine_dovlet_qaygisi_davam_edir-302561

6.3. Ucar 1945-1960-cı illərdə

II Dünya müharibəsi SSRİ-nin, o cümlədən Azərbaycan SSR-in iqtisadiyyatına ağır zərbə vurmuşdu. 1710 şəhər dağıdılmış, 70 min kənd yandırılmışdı. Ölkədə 15 milyon işsiz, milyonlarla evsiz, şikəst insanlar, milyonlarla valideyinlərini itirmiş uşaq var idi [13, s.155].

Müharibə ərzində faşist Almaniyası və Yaponiya SSRİ -yə vurduğu maddi ziyanın həcmi 2569 milyard rubl olduğu

bildirilir. Faşistlər 31850 sənaye müəssisəsini, ildə 100 mln ton daş kömür verən 1135 şaxtanı, ildə 5 mln tona qədər neft verən neft buruqlarını, neft kəmərlərini, neft bazalarını və neftayırma zavodlarını, 37 qara metallurgiya zavodunu, 739 ağır və orta maşınqayırma zavodunu məhv etmişdilər. Müharibə SSRİ-də neft sənayesini 15 il geri atmışdı [14, s. 47].

Müharibə dövründə Azərbaycanda sənaye istehsalının əsas göstəriciləri kəskin surətdə aşağı düşmüşdü. Sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə 22 faiz aşağı enmişdi. Neft hasilatı 1945-ci ildə 1940-cı ildəkinə nisbətən təqribən yarıbayarı azalmışdı. Müharibə dövründə texniki bitkilər məhsulunun xeyli azalması nəticəsində istehlak malları istehsalı kəskin surətdə aşağı düşmüşdü. 1945-ci ildə 1940-cı ilə nisbətən pambıq istehsalı 154 min tondan 65 min tona, barama istehsalı 2384 tondan 1615 tona qədər azalmışdı. 1940-cı ildən 1946-cı ilədək iribuynuzlu malqaranın sayı 1382 min başdan 1203,5 minə enmişdi. Əhalinin sayında da kəskin azalma baş vermişdi. Azərbaycan əhalisi 1940-cı ildə 3304,1 min nəfər olduğu halda, 1945-ci ildə onun sayı 17,65 faiz azalmışdı [1, s.76].

Kartoçka sisteminin ləğvi və vahid qiymətlərin qoyulması dövlət və bazar qiymətləri arasında fərqin tədricən azalmasına kömək edirdi. Amma nə pul islahatı, nə də qiymətlərin aşağı salınması əhalinin alıcılıq qabiliyyətinin əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarmadı. 1948-ci ildə qiymətlərin ümumi səviyyəsi 1940-cı ildəkindən üç dəfə yüksək idi [1, s.101].

Azərbaycan SSR Nazirlər Sovetinin "Kolxozlara, kolxozçulara və fərdi təsərrüfatlara taxılın və günəbaxanın sərbəst satışının qadağan edilməsi haqqında" qərarı (avqust 1946-cı il) əhalinin vəziyyətini daha da ağırlaşdırmışdı. Həmin qərarı pozan kolxoz sədrləri və digər rəhbər işçilər məhkəmə məsuliyyətinə cəlb olunurdular. Sıravi kolxozçular və fərdi təsərrüfatçılar qərarı pozardılarsa, birinci dəfə 300 manat cərimə, ikinci dəfə isə məhkəmə məsuliyyətinə cəlb olunma nəzərdə tutulurdu.

Müharibədən sonrakı Azərbaycan kəndindəki vəziyyəti öyrənmək üçün 1948-1949-cu illərə aid 24 kənd rayonundan hərbi qulluqçulara göndərilmiş 74 məktubdakı fikirlər maraq doğurur. Azərbaycan kəndlilərinin hərbi qulluqda olan övladlarına bu illərdə yazdıqları məktublarda deyilirdi: "Biz indi məhsul yığımına hazırlaşırıq, amma yığmağa bir şey yoxdur… Bizim həyatımız çox ağırdır, indi aclıq çəkirik", " İndiki zamanda bizim kəndimizdə eynilə əvvəlki kimi aclıqdır, insanlar aclıqdan getdiyi yerdə yıxılırlar", "Xalq korluq çəkir, heç kim öz həyatından razı deyil", "Bilmirik axırımız necə olacaq, əgər bir ay da belə davam etsə hamımız milçək kimi qırılacağıq", "Bu il bir qram da taxıl verməyəcəklər, kartof da çox azdır, işlər çıxılmaz vəziyyətdədir. Gənclər hamısı şəhərə qaçır", "Çox pis yaşayıram, mənim vəziyyətimdə olmaqdansa həbsxanada olmaq daha yaxşıdır", "Çörək çatmır, almağa da pul yoxdur, ağırdır, uşaqlar yemək istəyən dəqiqədə ölmək istəyirəm. Özüm haqqında danışmağa dəyməz" və s. [12, s.23-24]

1937 Koreyalılar, 1941-ci ilin avqustu Volqaboyu almanlar, polyaklar, Finlər, Axıska türkləri, krım tatarları, çeçennlər, inquşlar, kalmıklar və s. xalqlarla yanaşı o cümlədən sərhəd rayonlarında yaşayan və xaricdə qohumları olan azərbaycanlılar deportasiyaya məruz qalmışdı. SSRİ-də ümumiyyətlə 1941-1944-cü illərdə 12 xalqın nümayəndələri zorla deportasiyaya məruz qalmışdılar [15;16].

1948-1953-cü illərdə sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı düşmən siyasətinin davamı olaraq azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindən deportasiyası həyata keçirildi. Sovet dövründə bu mövzunun obyektiv tədqiqinə imkan verilmədiyindən yalnız Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra buna imkan yarandı. Bu işdə Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi deportasiyası haqqında" (18 dekabr 1997-ci il) fərmanının mühüm rolu olub.



Совет Министров
Азербайджанской ССР

СОВЕТ МИНИСТРОВ СССР

ПОСТАНОВЛЕНИЕ № 4083

от 23 декабря 1947 г. Москва, Кремль.

О переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР.

Совет Министров Союза ССР ПОСТАНОВЛЯЕТ:

1. Переселить в 1948-1950 гг. на добровольных началах в Кура-Араксинскую низменность Азербайджанской ССР 100 тыс. колхозников и другое азербайджанское население из Армянской ССР, из них: 10 тыс. человек – в 1948 году, 40 тыс. человек – в 1949 году и 50 тыс. человек – в 1950 году.

11. Разрешить Совету Министров Армянской ССР освобождаемые азербайджанским населением постройки и жилые дома в связи с переселением их в Кура-Араксинскую низменность Азербайджанской ССР использовать для расселения зарубежных армян, прибывающих в Армянскую ССР.

Председатель
Совета Министров Союза ССР И.Сталин

Управляющий Делами
Совета Министров СССР Я.Чадаев

[9]

Fərmanda göstərilir ki, “SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. “Bu qərarlar əsasında 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur... Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrün Azərbaycan rəhbərliyinin də öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır” [7, s.179].

1949-cu ildə Ermənistandan Azərbaycanın Saatlı, Göyçay, Mirbəşir (indiki Tərtər), İmişli, Əli Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (indiki Beyləqan), Yevlax, Ucar, Gədəbəy və Bərdə rayonlarına 15276 adam köçürülmüşdü. 1950-ci ildə Ermənistandan Azərbaycana 2907 təsərrüfat və ya 12332 adam köçürülmüşdü. Bu, əvvəlki illərlə müqayisədə ən yüksək göstərici idi...1952-53-cü illərdə Ermənistandan daha 3155 təsərrüfat və 1376 nəfər azərbaycanlı deportasiya edildi. Deportasiya prosesi 1956-cı ilə qədər davam etdirildi. 1954-1956-cı illərdə 1316 təsərrüfat və 5876 nəfər Ermənistandan deportasiya olunmuşdu. Ümumiyyətlə, Ermənistan SSR-də etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla köçürülmüş və ya köçməyə məcbur edilmişdir. Onların hər üç nəfərindən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib, aclıq və xəstəlikdən həlak oldu [1, s. 137-138].

Azərbaycan Respublikası Dövlət Arxivindəki sənədlər o dövrün faciələrini fakt və rəqəmlərin timsalında qoruyub saxlayır. Bu sənədlərə görə, 1948-ci il noyabrın 1-dək Ermənistandan Azərbaycana 1799 təsərrüfatda birləşən 7747 insan köçürülmüşdü. Üstəlik, bu vaxt ərzində Azərbaycana özbaşına daha 2834 nəfər üzvü olan 429 ailə köçüb gəlmişdi.

Getdikcə sayı artan insanları yerbəyer etmək o qədər də asan məsələ deyildi. Azərbaycan çox çətin problemlər qarşısında qalmışdı. 1949-cu ildə respublikaya daha 40000 nəfərin köçürülməsinə qərar verilmişdi. Belə bir vəziyyətdə Azərbaycan Nazirlər Soveti SSRİ Nazirlər Sovetinə məktubla müraciət etmək məcburiyyətində qalır. Məktubda xahiş olunur ki, 1949-cu ildə Azərbaycana 40000 deyil, 12-15000 nəfər köçürülsün. Köçürülənləri onların əvvəl yaşadığı iqlimə uyğun olaraq Azərbaycanın dağ rayonlarında yerləşdirməyə icazə verilsin. SSRİ Nazirlər Soveti bütün bu təklif və xahişləri rədd edir.

1950-ci ilin yanvarında Qaradonludan alınmış teleqramda deyilirdi ki, 11 vaqondakı köçkünlər üçüncü sutkadır vaqonları tərk etmir. Noyabr ayında Ucardan alınmış teleqramda isə

bildirilirdi ki, Zərdab rayonuna köçürülmək üçün Ucar stansiyasına gətirilmiş 52 ailə bir aydan artıqdır açıq səma altında gecələyir. Onlar əvvəllər Beyləqan (Jdanov) rayonuna köçürülən qohumları ilə birlikdə yerləşdirilmələrini xahiş edirlər [3].

1950-ci il martın 14-də və avqustun 25-də Azərbaycan və Ermənistan respublikalarının Nazirlər Sovetləri həmin ilin yazında və payızında müvafiq olaraq Azərbaycana 3419 təsərrüfatın və 14361 nəfər adamın köçürülməsi barədə qərar qəbul etmişdilər.

Lakin köçürülmə, daha doğrusu, mütəşəkkil deportasiya planı erməni millətçilərin istədikləri sürətlə həyata keçirilmirdi. Bu, qeyri-insani tədbirin planlaşdırılmış şəkildə həyata keçirilməsinə bir sıra obyektiv və subyektiv səbəblər mane olurdu. Deportasiya olunanların sosial və məişət problemləri lazımınca həll edilmirdi (respublikanın qısa müddətdə bu yerlərdə kifayət qədər mənzil tikmək imkanı yox idi). Yerlərdə buna süni maneələr də yaradılırdı. Bunun nəticəsi olaraq, 1950-ci ildə Azərbaycandan Ermənistana - öz keçmiş yaşayış yerlərinə qayıtma prosesi başlanmışdı. Köçkünlər içərisindən çıxılmaz vəziyyətə düşənlərin bəziləri əlacsız qalaraq Mərkəzi hökumətə şikayət və etiraz məktubları göndərirdilər. Lakin bu şikayət və etirazlar heç bir nəticə vermirdi.

1950-ci ildə Ermənistandan Azərbaycana 2907 təsərrüfat və ya 12332 adam köçürülmüşdü. Bu, əvvəlki illərlə müqayisədə ən yüksək göstərici idi. Lakin erməni millətçiləri və onların mərkəzi hökumətdəki himayədarları SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarlarının yerinə yetirilməsi vəziyyətindən qəti narazı idilər. Onların təkidi ilə 1951-ci il fevralın 28-də SSRİ Nazirlər Soveti "1951-ci ildə köçürülmə planı haqqında" 605 saylı məxfi qərar qəbul etmişdi. Bu rəsmi sənəddə köçürmə prosesinin sürətləndirilməsi tələb olunurdu. Lakin görülən sərt inzibati tədbirlər də öz lazımi nəticəsini vermədi. Əksinə, hətta 1951-ci ildə erməni millətçilərinin istəyinin əksinə olaraq, köçürülənlərin geriyə qaytarılması halları çoxaldı. Belə ki,

Ermənistan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəisi 1951-ci mayın 27-də verdiyi məlumatda 36 azərbaycanlı ailəsinin geriyə qayıtdığını göstərirdi. 1952-53-cü illərdə Ermənistandan daha 3155 təsərrüfat və 1376 nəfər azərbaycanlı deportasiya edildi [1, s.137-138].

Ermənistandan Ucara köçürülmüş əhalinin bir hissəsi rayon mərkəzində sonradan "İrəvanlılar" adlandırılan məhəllədə məskunlaşmışdılar. Bu məhəllə Ucar dəmir yolu stansiyasının yaxınlığında yerləşirdi. Vəziyyətin ağır olmasına baxmayaraq Ucar əhalisi Ermənistandan köçürülmüş soydaşlarımıza qayğı ilə yanaşaraq onlarla mümkün olan yardımları edirdilər. Yerli əhali Ucara köçürülmüş əhali ilə qaynayıb qarışmış, qohumluq əlaqələri yaratmışdır. Köçürülmüş əhalinin bir çoxu rayonda işlə təmin olunmuşdu. Ermənistandan Ucara köçürülmüş əhali içərisində "İrəvanlılar" məhəlləsinin ağsaqqalı hesab olunan Heydər kişi sonradan uzun müddət şəhər xəstəxanasında təsərrüfat şöbəsinin müdiri vəzifəsində çalışmışdı. Həmin əhalinin digər üzvlərindən Kazım Məhərrəmov Rayon İaşə idarəsinin müdiri, Paşa Paşayev Rayon Xalq Nəzarət Komitəsinin sədri işləmişlər. Digər rəhbər vəzifələrdə də köçürülmüş əhalinin nümayəndələri var idi.

II Dünya müharibəsindən sonra digər ərazilər kimi Ucarda da vəziyyət ağır olaraq qalırdı. 1945 – 1969-cu illərdə Ucardakı ağır vəziyyət haqqında demək olar ki, heç bir araşdırma aparılmadığından yazılı ədəbiyyatda məlumatlar demək olar ki, yoxdur. Buna görə də Ucarın həmin dövrdəki ictimai-siyasi və iqtisadi vəziyyəti haqqında hazırda qərb ölkələrində geniş istifadə olunan şifahi tarixi mənbələrə, yəni həmin dövrdə yaşamış canlı şahidlərin xatirələrinə istinad etməklə problemi qismən aradan qaldırmaq mümkündür. Fikrimizcə bu illərdə Ucar və ətraf ərazilərdə yaşamış insanların xatirələri Ucarda 1945-1960-cı illərdəki ictimai-iqtisadi və siyasi vəziyyəti haqqında məlumat əldə olunmasına yaxında köməklik göstərə bilər. Bu xatirələr həmin insanların subyektiv fikirləri olunmasına baxmayaraq həmin

dövrdəki vəziyyəti öyrənmək baxımında çox mühüm əhəmiyyətə malikdir.



Millət vəkili Elxan Sirac oğlu Süleymanov

1940-cı ildə Göyçayın Qaraman kəndində anadan olmuş Elxan Süleymanov öz xatirələrində yazır: "Ucar stansiyası ilə ətraf yaşayış məntəqələri arasında XX əsrin 50-60-cı illərində ciddi nəqliyyat problemləri var idi. Müəllim işlədiyim Göyçayın Çaxırlı kəndinə getmək üçün çox böyük çətinliklərlə üzləşir, hətta bəzən Göyçayın Hacalı kəndlərindən Çaxırlı kəndinə getmək üçün Ucara gələrək qatardan istifadə etmək məcburiyyətində qalmalı olurdum... Həftənin altı günü məktəbdə çalışırdım, hər şənbə günü dərsdən çıxıb ara kənd yolları ilə 20-25 kilometr məsafə qət edib gəlirdim düz öz evimizə. Şənbə gecəsi evdə qalırdım, bazar günü axşam gedirdim Göyçaya, təhsil illərində qaldığım Tamam xalagilə. Gecə saat üçdə rayon mərkəzindən Göyçay-Ucar avtobusu yola düşürdü. Bu avtobusla Ucarın dəmir-yolu stansiyasına gedirdim. Səhər saat beşdə isə Bakı–Tbilisi qatarı gəlirdi. Həmin qatara bilet alırdım. Qatar... Bərgüşadla Müsüslü stansiyası arasında yarım dəqiqə dayanıb sərnişin gözləyirdi. Burada düşüb piyada Çaxırlıya, birbaşa məktəbə gedirdim.

Günlərin birində bu yolda ağır qəzaya düşdüm: qatarda məni yuxu tutar, stansiyanı ötüb keçərəm. Oyanıb tələsik özümü qatardan atdım, diz oynağımı zədələdim... Neçə vaxt

keçdi, bilmədim. Özümə gələndə saat altının yarısı olardı. Birtəhər axsaya-axsaya getdim məktəbə... Leninqradda diz oynağımdan əməliyyat olunmağımın səbəbi bu idi" [6, s. 84]



Məlahət Paşa qızı Zülfüqarova

1944-cü ildə Ucarda anadan olmuş Məlahət Zülfüqarova öz xatirələrində yazır: "Keçən əsrin 40-cı illərin axırı - 50-ci illərin əvvəllərində Ucar rayon mərkəzində çox az yaşayış evləri vardı. Evlər əsasən stansiya binasına yaxın, qamışdan, qarğıdan və palçıqdan tikilirdi. Bir qədər sonra çıy kərpiclə də evlər tikilməyə başlandı.

Rayon mərkəzi olan Ucar stansiyasında təbii su mənbələrinin olmadığından o dövrdə əhali susuzluqdan daim əziyyət çəkirdi. Stansiyadan xeyli kənarda olan "Köndələn arx" deyilən kiçik arxa hərdən kənardan su vurudular. İnsanlar çəlləklərlə kəl arabası ilə uzaq məsafədə yerləşən həmin

arxdan su daşımağa məcbur olurdu. Çox zaman heç həmin arxda da su olmurdı. Buna görə əhali məcbur olaraq dəmir yol stansiyasına gedib, qatar gələndə güc-bəla ilə maşinistlərdən xahiş edərək paravozlarda su götürürdülər. Paravozlar buxar mühərriyi ilə işlədiyindən, ondan çox su götürməyə icazə verilmirdi. Belə olan halda insanlar kor-peşman vedrələrini əllərinə alıb geri dönürdülər. Su olmadığından Ucar stansiyası yaxınlığında əkin-biçin, yaşıllıq da yox idi.

XX-əsrin 40 - 50-ci illərinin axırlarında Ucar stansiyasında nə bazar, nə hamam var idi. Yalnız rayon mərkəzindən xeyli uzaq olan Ucarın Qazyan kəndində əvvəldən mövcud olmuş və bu zaman da fəaliyyət göstərən "Qazyanbazar" adlanan bazar fəaliyyət göstərirdi. Sonradan dəmiryolçular üçün dəmir yolu vokzalının yaxınlığında hamam tikildi.

Dəmir yolçular üçün tikilmiş binada əsasən gəlmə dəmiryolçular yaşadığından və onların tərkibində ruslar çoxluq təşkil etdiyində bu binanın və ətraf ərzinin adı yerli azərbaycanlılar tərəfindən "Paxanlar" adlandırıldı. Həmin ərazi indi də bu cür adlandırılır. "Paxanlar"da hamam tikildikdən sonra dəmiryolçularla yanaşı stansiyanın digər əhalisi də həmin hamama çətinliklə olsa da, növbə ilə gedirdilər.

Bu zaman Ucar rayon mərkəzində dövlətin çörək bişirmə zavodu və ya sexi də yox idi. Çörəklər evlərdə təndirlərdə bişirilərdi. Təndir üçün odunu olmayanlar ocaq üstündə qoyulan dəmirdə "yanlama" adlanan çörək bişirməyə məcbur olurdular.

Bu dövrdə Ucarda elektrik və hətta lapaları yandırmaq üçün neft də yox idi. Nənəm həyətdə "Gənə-gərçək" kolu əkərək, onun toxumunu əzib lampaya tökərdi. Bundan sonra lampanı yandıranda his qarışıq işıq gələrdi. "Gənə-gərçək" bitkisi kol şəkilində olur, susuzluğa davamlı bitkidir. Əkəndən sonra suvarmağa ehtiyac yox idi. Bu bitki keçən əsrin 40-cı illərində Ucar əhalisinin dadına çatardı. Bu bitkinin adına hazırda el arasında rus dilinə uyğun olan "Kastorka" da

deyirlər. Çox güman ki, o zaman bu bitkinin həyat üçün təhlükəli, zəhərli olmasından əksəriyyətin xəbəri yox idi.

Ucar əhalisinin gecələr işıqlandırmaq üçün istifadə etdiyi adi gənəgərçək (lat. Ricinus communis)-bitkisi haqqında elmi ədəbiyyatda belə məlumat var: *"Adi gənəgərçək birillik bitki olub, tərkibində zəhərli təsir göstərən iki maddə var. Hoksaalbumin, ribin və risinin alkaloididir. Hoksaalbumin qüvvətli zəhərdir. Yalnız toxumunun üst qatında olur (0,1 faizə qədər). Risin bitkinin bütün hissələrində mövcuddur (toxumunda 0,15%, yarpaqlarında 1,37 %-ə qədərdir).*

Bütün növ heyvanlar onun toxumunu və ya jımıxını yedikdə zəhərlənir. Bəzi məlumatlara görə onun toxumunun ölüm dozası atlara 30-50 qram, qaramala 350-400 qram, qoyunlara 30 qram, buzovlara 20 qram həcmindədir" [19].

Ucar stansiyasında əhali az olduğuna görə əvvəl məktəb də yox idi. Mən özüm 1949-cu ildə 5 yaşında məktəbə gedəndə ancaq ibtidai siniflər təzə fəaliyyətə başlamışdı. Uşaq çatışmadığından ev-ev gəzib məktəb üçün şagird axtarırdılar. Dərs deməyə müəllim olmadığından rayon prokurorunun həyat yoldaşı Adilə xanın ibtidai sinifdə dərs deməyə başladı. Sonrakı illərdə yuxarı siniflər üçün iki otaq ayırsalar da ibtidai sinifdə kiçik yaşlı uşaqlarla yuxarı sinif şagirdləri, yəni 5, 6, 7-ci siniflərin şagirdləri bir yerdə dərs keçirdilər. Bütün bu işlərə İsmayıl müəllim rəhbərlik edirdi. Sonrakı illərdə uzun müddət onun kürəkəni Aydın Babayev Ucar rayon maarif şöbəsinə müdür olmuşdu.

Bu dövrdə Ucarda evlərdə radio da yox idi. Dəmir yolu vokzalının qarşısında dirəkdən bir böyük radio asılmışdı. Hər gün günorta vaxtı bütün əhali xəbərlərə, həftədə bir dəfə isə muğam konsertinə qulaq asmaq üçün ora toplaşardı. Sonrada evələrin radiolaşdırılması həyata keçirildi."

Ucar şəhərini su ilə təchizini yaxşılaşdırmaq üçün 1949–1950-ci illərdə dəmir yolu vağzalının yaxınlığında və 1953–1954-cü illərdə indiki Ş.Fərzəliyev küçəsində yerləşən hündürlüyü 32, eni 8 metr olan "Su qüllə"ləri inşa edilmişdir.



Ucar dəmir yolu vağzalının yaxınlığında "Su qülləsi"

Müharibədən sonra bir sıra tikintilərdə, o cümlədən yaxınlıqdaki Mingəçevir su anbarı və su elektrik stansiyasının tikintisində olduğu kimi bu qüllərin də tikintisində alman əsirlərinin əməyindən istifadə olunduğu ehtimal olunur. Almaniyanın Könqsbryuk şəhərində eyni ilə bu su qülləsindən olması bu su qüllələrinin layihəsinin və avadanlıqlarının Almaniyadan gətirildiyini sübut edir [8]. Hazırda texniki vəziyyəti normal olan "Su qüllə"ləri tarixi abidə kimi dövlət tərəfindən mühafizə edilir.

Azərbaycanda elektravozlar istifadə edilənən qədər buxarla işləyən paravozları su ilə təmin etmək üçün Ucarla yanaşı Kürdəmir, Güləzi və digər stansiyaların yaxınlığında da su qüllələri inşa edilmişdi.



Kürdəmir dəmir yolu vağzalının yaxınlığında "Su qülləsi" [10]



Giləzi dəmir yolu vağzalının yaxınlığında "Su qülləsi"

Mingəçevir su anbarından çəkilərək 1964-cü ildə istifadəyə verilmiş 216 km uzunluğu olan Baş Şirvan kollektoru Ucar və digər ətraf rayonların su ilə təchizatında mühüm rol oynadı. Bu kollektor Şirvan düzündə Ucar ərazisi də daxil olmaqla 155 min hektar, Mil və Qarabağ düzündə 142 min hektar sahənin meliorasiya vəziyyətini yaxşılaşdırmışdı [5, s. 21].

Ucarda fəaliyyət göstərən Biyan zavodunda 1953-cü ildə yanğın baş vermiş və nəticədə zavod yanmışdır. Yanğıdan sonra zavod öz fəaliyyətini müəyyən müddət dayandırmış və 1956-ci ildə Konserv zavod adı ilə fəaliyyət göstərmişdir [4, s. 26-27].

1951-1960-cı illərdə respublikada yeni iri müəssisələr - Bakı marqarin zavodu, Astara və Masallı çay fabrikləri, Bakı tütün-fermentasiya zavodu, Bakı ət kombinatının kolbasa zavodu, Bakı süd kombinatı, Ucar konserv zavodu, Bakı konyak, Bakı quru buz, İstisu mineral sularının doldurulması, yağpendir, çörək, şərab zavodları işə başlamışdı. Gəncə yağ-piy kombinatının, Bakı pivə zavodunun, makaron fabrikinin, Lənkəran çay fabrikinin, Xaçmaz və Quba konserv zavodlarının sexləri yenidən qurulmuşdu [1, s. 111].

Müharibədən sonra Ucarda iqtisadiyyat, xüsusilə kənd təsərrüfatı tədricən inkişaf edirdi. Bunun nəticəsində bir sıra şəxslər yüksək göstəricilərinə görə mükafatlandırılırdı. Bunlardan biri də pambıqçı Kərimova Aşafatma Hidayət qızı idi.

Kərimova Aşafatma Hidayət qızı

1929-cu ildə Ucar rayonunun Qaradağlı kəndində anadan olmuşdur. 1943–1963-cü illərdə Ucar rayonunun Qaradağlı kəndində Lenin adına kolxozda kolxozçu, manqa başçısı işləmişdir.Yüksək əmək göstəricilərinə görə 1948-ci ildə Lenin ordeni, 1950-ci ildə Sosialist Əməyi Qəhrəmanı fəxri adını almışdır. 1963-cü ildən İttifaq əhəmiyyətli fərdi pensiyaçı olmuşdur. 2002-ci ildən Prezident təqaüdçüsü idi. 2009-cu ildə vəfat etmişdir [20].

Ucar rayonu aran rayonu olduğuna görə burada pambıqçılıq, taxılçılıq, heyvandarlıq inkişaf etmişdir. Bu regionun əsas meyvəsi nar olduğundan rayonda sonradan nar sovxozu da yaradılmışdı.



1954-cü ildə Ucar rayonu dövlətə pambıq təhvili planını ilk yerinə yetirən rayon olduğuna görə "Kirpi" jurnalının üz qabığında rayonun bu qələbəsini əks etdirən kollaj da verilmişdi.

1950-ci illərə qədər Mingəçevir su anbarı tikilənə qədər Yevlaxdan Hacıqabul gölünə qədər təxminən 150 km uzunluğu və genişliyin təxmin edilməsi çətin olan bir su hövzəsi var idi. Bu su hövzəsinin ətrafında yerləşən digər rayonların kəndlərinin əhalisi kimi Ucarın Şilyan kəndinin də əhalisi bu su hövzəsinin ətrafına yerləşdiyindən bu ərazidən çəltik əkini üçün istifadə edirdilər.

Bu su hövzəsinin ən geniş yerində, təxminən indiki Ucar və Kürdəmir rayonlarının Şilyan kəndlərinin ərazisinə düşən hissəsində uzun illər əhalinin balıqla təmin edən "Qara su" adlı göl mövcud olub. Ucarın Yuxarı Şilyan kəndi ərazisinə də daxil olmuş bu göldə çoxlu saylı quş növləri və zəngin balıq ehtiyatı olduğu bildirilir. Mingəçevir su anbarı və SES tikintisi nəticəsində bu gölün əsas qida mənbəyi olan Kür daşqınların qarşısı alınıb və bu gölə tökülən Göyçay çayı Kür çayına yönləndirilib. Hazırda bu bataqlıqdan geriyə kiçik su hovzələri və Hacıqabul gölü qalıb ki, bu göl də son illər quruyub.

1960-1969-cu illərə aid yazılı ədəbiyyatda məlumat az olduğundan həmin dövrdə rayonda yaşamış sakinlərin, tarixin

canlı şahidlərinin xatirələri bu dövr haqqında ətraflı məlumat verir.

T.e.d., prof. Məhərrəm Zülfüqarlı: *" Mənin 1955-1972-ci illərdə uşaqlıq və məktəb illərim Ucar mərkəzində keçib. Evimiz dəmir yolu vokzalı yaxınlığında, o zamanki rayon partiya komitəsinin, mədəniyyət evinin (həm də kino-teatr), poçt idarəsinin və 8 illik məktəbin yaxınlığında yerləşirdi. Dəmir yolu vokzalı qarşısında ucaldılmış Nəriman Nərimanovun heykəlinin əli düz bizim küçəni göstərirdi. Evimiz N. Nərimanov küçəsi ev 24 ünvanda yerləşirdi. Bu küçə dəmir yolu vokzalından başlayıb "Dostluq" kino-teatrının yanından Ucar-Göyçay yoluna birləşirdi.*

1961-1972-ci illərdə Ucar şəhər 1 saylı (sonradan 2 saylı) orta məktəbdə oxuyarkən hər il sentyabr-noyabr aylarında dərsləri dayandıraraq şagirdlərin pambıq yığımına cəlb edilməsinin şahidi olmuşam. Digər şagirdlər kimi mən də Ucarın müxtəlif kəndlərində pambıq yığımında iştirak edirdim. Pambığın hər kiloqramına görə bizə 10 qəpik əmək haqqı verilirdi.

Ucar şəhəri 1963-cü ilə qədər çiy kərpicdən tikilmiş evlərdən ibarət idi. Evimiz kirəmitli olsa da köhnə çiy kərpicdən tikilmişdi. Buna görə anam 1962-ci ildə onu sökdürərək, mişar daşından gözəl, kürsülü bir ev tikdirdi. Onda mənim 7-8 yaşım olardı. Bu ev həm bizi, həm də qonşularımızı 1963-cü ildə Ucara sel gələrkən ölümdən xilas etdi.

Yaxşı yadımdadır, sel gecə ikən Göyçay tərəfdən gələrək bütün həyətləri basmışdı. Bizim evimizə sığınmış qonşu arvadlar balkonda toplaşaraq ağlayır, əhali çaşqın vəziyyətdə nə edəcəyini bilmirdi. Bu zaman Bircə adlı qonşu arvadın qaranlıqda küçədə suyun içində köməksiz qaldığını görən anam pəncərədən ona tərəf səsləndi: "Bircə, uşaqların haradadır?" Qadın acizanə şəkildə "evdə" deyə cavab verərkən, anam həyəcanlı şəkildə "tez get uşaqları gətir bizə, iraq olsun, evin uçar uşaqlar altında qalar" deyə onu tələsdirdi. İndiyəcən həmin hadisə gözümün qabağındadır. Bircə xala tez evə gedib üç uşağını (ikisinin adı yadımdadır:

Qismət və Mahir, bir də balaca qız uşağı vardı) bizə gətirib, balkonumuza çıxan zaman qorxulu bir gurultu səsi gəldi. Bircə xalanın torpaq evi uçaraq, yelə bir oldu. Anamın sayıqlığı nəticəsində qonşunun üç uşağı ölümün caynağından xilas edildi. Bundan sonra balkona toplaşmış qadınların ağlaşması daha dəhşətli hal aldı. Bu hadisə anamın həyatda etdiyi çoxlu sayda savab işlərdən biri kimi yadımda qalıb. Seldən sonra Ucarın kiçikyaşlı məktəbliləri dövlət xətti ilə pioner düşərgələrinə göndərildi. Mən də 1963-cü ilin yay aylarında Ucardan aparılmış uşaqlarla birlikdə Mərdəkandakı "Dostluq" düşərgəsində qalmalı oldum.

Orta məktəbdə əla qiymətlərlə oxuduğuma görə Ucar Təhsil şöbəsi tərəfindən 8-ci sinfin yay tətilində Moskvaya, 9-cu sinifdə isə Leninqrada (hazırkı Sankt-Peterburq) pulsuz putyovka ilə mükafatlandırılmışdım. Yəni sovet dövrünün çatışmazlıqlarına baxmayaraq təhsildə bu cür həvəsləndirmə vasitələrindən istifadə olunurdu ki, bu təcrübədən hazırda yararlanmaq olar.

Ucarda 50 - ci və 60-cı illərin axırına kimi musiqi məktəbi olmadığında çox az sayda həvəskar musiqiçi mədəniyyət evində fəaliyyət göstərirdi. Mədəniyyət evinin müdiri isə Gülmaya adlı çox tələbkar bir qadın idi. Mədəniyyət evində müğənni Murtuzəlinin başçılığı altında, xanəndə Yusif, qarmonçalan Məmməd, tar çalanlar Kamil, Ağahüseyn və digərlərindən ibarət özfəaliyyət kollektivi fəaliyyət göstərirdi. Bu kollektiv tez-tez rayon mərkəzində və kəndlərdə konsertlər verir, el şənliklərində, toylarda iştirak edirdilər. Qadın toylarında (buna o zaman Ucarda "Bazarlıq" deyilirdi) isə əsasən qadın musiqiçilər iştirak edirdilər. Bunlardan qavalçalan Mina, qarmonçalan Həcər o zaman məşhur idi. Bu musiqiçilərlə yanaşı o zaman məşhur Şirvan aşıqlarından olan, Ucarlı aşıq Vərhad və bir neçə digər aşıqlar da tez-tez konsertlərdə, el şənliklərində iştirak edirdi.

5 yaşında ikən Məmməd müəllimdən qarmon dərsləri almağa başladım. Artıq 5 yaşımda "Kukla" mahnısını ifa edirdim. İki nəfərdən biri məni qaldırıb stula qoyur, o biri

qarmonu gətirib mənə verirdi. İfa edib qurtardıqdan sonra yenə həmin iki nəfərin köməyi ilə səhnəni tərk edirdim.

O zaman mədəniyyət evi köhnə 8 illik məktəbin və sonradan tikilmiş 4 mərtəbəli poçt binası ilə üzbəüz binada yerləşirdi. Sonradan həmin binanı söküb yerində səhv etmirəmsə Şahmat məktəbi tikdilər. 4 mərtəbəli poçt binasının yerində isə əvvələr qırmızı kərpicdən tikilmiş iki mərtəbəli yaşayış binası var idi. Həmin binanı sökərkən əhalinin əksəriyyəti oradan kərpicləri həyətlərinə necə daşıması indi də yadımdadır.

1961- 1972-ci illərdə Ucar şəhər 1 saylı orta məktəbdə təhsil almışam. Lakin seldən sonra Fin qəsəbəsinin yaxınlığında yeni məktəb tikildikdən sonra həmin məktəb 1 saylı, bizim məktəbimiz isə 2 saylı oldu.



Ucar şəhər 2 saylı orta məktəb

O zaman məktəbimizdə təhsilin səviyyəsi çox yüksək idi. İbtidai sinif müəllimiz Məryəm müəllimə, rus dili müəllimi Lyudmila müəllimə, Riyaziyyat müəllimləri Əvəz, Səftər müəllimlər, coğrafiya müllimi Firidun müəllim, idman müəllimi Məmməd müəllim, ingilis dili müəllimi Zeynəb müəllimə,

Kimya müəllimi Kəbirə müəllimə, fizika müəllimi Xeyransa müəllimə, tarix müəllimləri Soltanməcid müəllim, Maisə müəllimə, Ələşrəf müəllim, ədəbiyyat müəllimi Məbud müəllim, Almara müəllimə və başqa müəllimlərimzin əməyi sayəsində buna nail olunmuşdu. O zaman məktəbdən kənar ayrıca müəllim yanına getmək, repetitorluq yox idi. Məktəb yüksək təhsil verdiyinə görə 1972-ci ildə məktəbi qurtaran ili yalnız bizim sinifdən, Ucar şəhər 2 saylı orta məktəbin 10 B sinifindən 17 nəfər ali məktəbə qəbul olunmuşdu:



Ucar şəhər orta məktəbinin 1972-ci il buraxılışı

Bunlardan Ələkbər Hüseynov və mən Azərbaycan Dövlət Universitetinə (Hazırda BDU), Rəna Babayeva, Sevinc Şıxaliyeva və Yaşar Kərimov Tibb İnstitutuna, İlham Qafarzadə Azərbaycan Neft və Kimya İnstitutuna, Zülfəli Hüseynov, Afiq Məmmədov Xalq Təsərrüfatı İnstitutuna, Sahib Əzimov, Əlisa Məmmədov, Çodər Hacıyev, Gəray Zakirov Politexnik

İnstitutuna, Mədinə Allahverdiyeva İdman İnstitutuna, Kifayət Məmmədova Rus dili və ədəbiyyatı İnstitutuna, Şərafət Mustafayeva, Zenfira Hacıyeva Pedaqoji İnstitutuna əyani, Rövşanə Hüseynova isə Azərbaycan Dövlət Universitetinin qiyabi şöbəsinə qəbul olunmuşdular. Ucar rayonu dəmir yolunun üzərində sənaye mərkəzi kimi inkişaf etdiyindən əksər əhalisi Azərbaycanlılardan ibarət olsa da, digər millətlərin də nümayəndələri yaşayırdı. Buna görə də məktəbimiz o zaman deyildiyi kimi beynəlmiləl məktəb idi. 10 illik təhsilin hər pilləsində fəaliyyət göstərən 3 sinifdən 2-si Azərbaycan, 1 rus bölməsi idi.

Məktəbimizin direktoru əvvəl Veysəl müəllim, sonra isə uzun illər Rəsul müəllim olmuşdu. Hər ikisi rayonda böyük nüfuza malik idilər.

1963-cü ildə baş vermiş seldən sonra evi uçmuş sakinlər üçün şəhərin kənarında taxtadan "Fin qəsəbəsi" (əhali bura Finski deyirdi) tikilmişdi. Ucarda musiqi müəllimi olmadığı üçün 8-ci sinifdə oxuyanda məni bu qəsəbədə fəaliyyət göstərən uşaq bağçasına 41 manat maaşla ştata musiqi müəllimi təyin etmişdilər. Bu o vaxt üçün az məbləğ deyildi.

Dərslərim 2-ci növbə olduğundan hər gün səhər dəmir yolu vokzalı yaxınlığında yerləşən evimizdən "Fin qəsəbəsi"nə qədər ağır qarmonu apararaq uşaqlar üçün musiqi ifa edib, sonra yenə qarmonla geri qayıdır, hazırlaşaraq dərsə gedirdim. Dərslərimdən əla qiymətlər almaqla yanaşı, həm də iki il musiqi müəllimi kimi fəaliyyət göstərdim. Bununla az da olsa ailəmizə maddi dəstək verirdim.

Məktəbimizdə təşkil etdiyim ansambl və sinifimizdə təhsil alan Rəna, Mədinə, Xuraman, Kifayət adlı 4 qızdan ibarət kvartet vasitəsilə tez-tez şagirdlər qarşısında çıxış edir, tənəffüslərdə məktəb radio qovşağı vasitəsilə də konsertlər verirdik.

Məktəb illərində futbola çox böyük maraq göstərirdik. Siniflərarası təşkil etdiyimiz yarışlara hətta kənardan çoxlu

azarkeş baxmağa gəlirdi. İdman müəllimiz Məmməd müəllimin bu işdə böyük rolu var idi.

Ucarda 70-ci illərə qədər qazdan istifadə olmadığından, əhali qış aylarında evləri qızdırmaq üçün odun və daş kömürdən istifadə edirdilər. Daş kömür dəmir yolu vasitəsilə vaqonlarda gətirilərək stansiyanın yaxınlığında ayrılmış xüsusi əraziyə boşaldılırdı. Əhali bu ərazini o zaman "Kömürlük" adlandırırdı.

1972 -ci ildə orta məktəbini fərqləmə atestatı ilə bitirərək Azərbaycan Dövlət Universitetinin (hazırda BDU) Tarix fakültəsinə qəbul olunduqdan sonra rayona ancaq tətil vaxtları gəlmək imkanım olurdu. Bakı-Gəncə elektrik qatarının işə salınması Ucarda Bakıya və başqa ərazilərə gediş gəlişi asanlaşdırdı"

Ucarın 60-cı illərdəki vəziyyəti haqqında M. Əhmədoğlu "Ucar gələcəyə inamla baxır" başlıqlı məqaləsində yazır: " Sovet dövründə Bakı-Tbilisi dəmir yolu Ucar adlı rayonumuzun çox yerlərdə tanınmasında və taleyində gerçəkdən böyük rol oynayıb. Zarafat deyil, ərazisinə görə kiçik rayonlar sırasında olan Ucarın dəmir yolu xidmətinə 4 stansiya və 1 vağzal düşür. Bu fakt və burdan qaynaqlanan digər amillər rayonun iqtisadiyyatında, əhalinin dolanışıq məsələlərində həmişə xüsusi əhəmiyyət daşıyıb.

... Və dəmir yolu bir dəfə Ucarın, daha doğrusu, rayon mərkəzini böyük bəladan qurtarmağın başlıca səbəbi olub. Bildiyimə görə 1963-cü ildə aramsız güclü leysandan əmələ gəlmiş sel suları Ucar şəhərinin evlərini, bir çox inzibati binalarını, demək olar ki, əsasən uçurub-dağıtmış, yararsız hala salmışdı. Əhali şəhəri tərk etmişdi. Yaranmış vəziyyətlə bağlı bəlkə də rayon mərkəzi başqa bir əraziyə köçürülə bilərdi. Ancaq məhz həmin o dəmir yolu faktı Ucarı ehtimal olunan daha böyük bəlalardan qurtardı. Pis-yaxşı, şəhər yenidən tikildi, hətta böyüdü, əlavə bazalar, idarələr yarandı. Təbii şərait və quruluş imkansızlıqdan istənilən səviyyədə inkişaf edə bilməsə də, lazımi komforta malik olmasa da, ancaq Ucar digər

amillərdən, başlıcası “çörəkli yer” adı qazanması səbəbindən həmişə prestijli rayon statusunda olub.” [2]



Mübariz Əsgərov, tanınmış jurnalist:

- Uşaqlığım Ucarda keçib, 2 saylı Ucar rayon orta məktəbini bitirmişəm. Evimiz dəmir yol stansiyasının yaxınlığında yerləşir. Hər gecə qatarların səsi ilə yatıb, qatarların səsiylə də oyanırdım. Hətta qatarların səsindən müəyyən edirdim ki, hansı yük, hansı sərnişin qatarıdır. Yük qatarının səsi kobud, kişi addımını xatırladırdı, sərnişin qatarı isə zərif qadın addımlarının səsini çıxarırdı. O vaxt Vaqif Səmədoğlunun sözlərinə Emin Sabitoğlunun bəstələdiyi məşhur bir mahnı var, onu dinləyib, xəyallar qururdum:

Çıxırlar dünyaya qatarlar,
Qatarlar min yerə çatarlar.
Hələ ki, dünyada qatar var,
Gələrəm, vaqonlar ötəndə
Bəlkə, bəlkə, bəlkə də…[11]

60-cı illərin ortalarında partiya, onunla birlikdə sovet, həmkarlar ittifaqları və komsomol orqanları təşkilatca yenidən ərazi prinsipi üzrə quruldu. Sov.İKP və respublika KP Mərkəzi

Komitələrində bürolar birləşdirildi, kənd, rayon partiya komitələri bərpa olundu.

Milli dəyərlərə diqqət artdı. Bu işdə 1966-1967-ci illərdə AKP MK katibi vəzifəsində işləmiş Şıxəli Qurbanovun və onun həmfikirlərinin önəmli xidməti olmuşdu. 1966-cı ildə İranda yaşayan böyük Azərbaycan şairi Seyid Məhəmməd Hüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması Bakıda çap olundu. Mütərəqqi fikirli yaradıcı gənclər üçün 1967-ci ildə "Ulduz" jurnalının nəşrinə başlandı. Novruz bayramı "Bahar bayramı" adı ilə rəsmi şəkildə qeyd edildi. Ədəbiyyatda yeni milli motivlər, tənqidi ruh qüvvətləndi [1, s. 146].

Bütün bunlar ölkənin digər ərazilərində olduğu kimi Ucar rayonunda da milli şurun inkişafına müsbət təsir göstərdi. Bu dövrdə rayonun iqtisadiyyatında, xüsusilə pambıqçılıqda müsbət irəliləyişlər əldə olunmuşdur. Bunun nəticəsində pambıqçı Vəsilə Alı qızı Zahidova 1966-cı ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü.



Vəsilə Alı qızı Zahidova (10 mart 1922, Yuxarı Şilyan, Göyçay qəzası – 2 may 2005, Ucar) -Azərbaycan pambıqçısı, Sosialist Əməyi Qəhrəmanı (1966), SSRİ Ali Sovetinin deputatı.

Zahidova Vəsilə 10 mart 1922-ci ildə Ucar rayonunun Yuxarı Şilyan kəndində anadan olmuşdur. Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirib. 1952-ci ildən Sovet İttifaqı Kommunist Partiyasının üzvü olub. 1943–1954-cü illərdə inzibati idarələrdə işləmiş, Boyat kənd sovetinin sədri olmuşdur. 1954-cü ildən 1983-cü ilədək "Sovet Azərbaycanı" kolxozunun sədri işləmişdir. 1960-cı illərdə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (5, 7, 9-cu çağırış) deputatı olmuşdur. 2 dəfə "Lenin" ordeni, 2 dəfə "Qırmızı əmək bayrağı" ordeni ilə təltif edilmişdir. 1966-cı ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adını almışdır. 2002-ci ildən Prezident təqaüdçüsü idi. Ucar şəhəri M. Hüseynzadə küçəsi 21 saylı evdə yaşayıb. Hazırda yaşadığı küçə onun adını daşıyır [21].

SSRİ Nazirlər Sovetinin Sədri Nikita Xruşşovun təşəbbüsü ilə 1962-ci ildə inzibati-ərazi bölgüsü islahatı həyata keçirilib. İslahat zamanı SSRİ-nin tərkibindəki rayonların ümumi sayı bu dövrdə 3421-dən 1711-ə qədər azalmışdır [17].

Bu islahatlara uyğun olaraq Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 4 yanvar 1963-cü il tarixli Fərmanı ilə respublika tabeliyində olan 50 rayon və 6 şəhər əvəzinə 31 rayon və 7 respublika tabeli şəhər yaradılıb. Ümumilikdə aşağıdakı 23 rayon ləğv edilib:

Ağcabədi, Əli Bayramlı (indiki Şirvan), Astara, Ağsu, Balakən, Daşkəsən, Cəbrayıl, Dəvəçi (indiki Şabran), Yevlax, Jdanov (indiki Beyləqan), Zərdab, Qax, Qubadlı, Qutqaşen (indiki Qəbələ), Mirbəşir (indiki Tərtər) Nuxa (indiki Şəki), Puşkin (indiki Biləsuvar), Saatlı, Tovuz, Xaçmaz, Naxçıvan MSSR-də Ordubad və Şahbuz, Dağlıq Qarabağ Muxtar Vilayətində Şuşa. [18]

Sovet rəhbərliyinin 50-ci illərin ikinci və 60-cı illərin birinci yarısında subyektivizmə söykənən səhv siyasətinə qarşı 1963-1965-ci illərdə SSRİ-də yüzlərlə etiraz aksiyası baş verib. Azərbaycanda ləğv olunmuş 23 rayon içərisində ən güclü etiraz Zərdabda baş vermişdi.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 48 səh. illüstrasiya.
2. Əhmədoğlu M. Ucar gələcəyə inamla baxır. Ədalət qəzeti. 2011.- 3 mart.- S. 7.
3. Əliyeva İ. Qanlı izlərlə yaddaşlaşan tarix Azərbaycan qəzeti 01 aprel 2023
4. Nağıyev, F. Ucarın tarixi coğrafiyası /Fazil Nağıyev; baş məsl. və elmi red. B.Budaqov; red. M.Novruzov.- Bakı: Araz, 2005.- 160 s.
5. Tapdıqoğlu, N. Ucar rayonu və onun toponimiyası: [qısa ensikloopedik dərgi] /Nazim Tapdıqoğlu; elmi red.: T.Bünyadov, B.Buda qov.- Bakı: Təhsil, 2005.- 120 s.
6. Süleymanov E. Gərəkli olmağı seçdim... həyatım. düşüncələrim. xatirələrim. Bakı, "Şərq-Qərb", 2025, 640 s. (illüstrasiya)
7. Zülfüqarlı M.P. İkinci Respublikanın tarixi. Bakı 2020,310 s.
8. APA.TV - https://www.youtube.com/watch?v=ICjvTvcdJFQ
9. https://eres.preslib.az/site/historical/page/az/gOFKmkp
10. *https://bizim.media/az/read/197162/https://bizim.media/az/cemiyyet/197162/kurdemirde-yasi-esr-yarima-yaxin-olan-tkllrn-aqbt-aradirmafoto/*
11. *https://publika.az/projects/haralisan/170368.html*

Rus dilində

12. Исмаилов Е. Р. Власть и народ. Послевоенний сталинизм в Азербайджане.1945-1953. Баку, «Адилоглы», 2003, 344 с.
13. Исмаилов Э.Р. Очерки истории Росии советского перио да. Баку-2008, с.250
14. История СССР. т.XI. 1945-1961 гг. Москва 1980, 653 с.

15. Еженедельник «Аргументы и Факты» № 41. 11/10/2023
16. https://stav.aif.ru/society/education/istoricheskaya_oshibka_opravdyvayushchie_deportaciyu_kavkazcev_uchebniki_zamenyat
17. *SSSR: Administrativno-territorialğnoe delenie soöznıx respublik (na 1 ənv. 1962 q.) (İzd. 11-e). M.: İzvestiə Sovetov deputatov trudəhixsə SSSR. Otv. red.: P. V. Tumanov. 1962. 5, 7*
18. *Spisok rayonov, uprazdnennıx v svəzi s ukrupneniem selğskix i obrazovaniem promışlennıx rayonov (dekabrğ 1962 – fevralğ 1963). Dop. k spravoçniku: SSSR. Administrativno-territorialğnoe delenie soöznıx respublik na 1963. M.: İzvestiə. 1964.)*
19. Linnæi C. Species Plantarum (lat.): Exhibentes plantas rite cognitas ad genera relatas. 1753. C. 2. S. 1007.
20. https://az.wikipedia.org/wiki/A%C5%9Fafatma_K%C9%99rimova
21. https://www.facebook.com/100064021811409/posts/sosialist-əməyi-qəhrəmanı-vəsilə-zahidovanın-anım-günüdür-vəsilə-zahidova-19-mar/310892460552580/

6.4. Ucara birləşdirilmə əleyhinə Zərdab üsyan (1963-1965-ci illər)

Əzizim harda qaldı,
Anamız darda qaldı.
Getmişdi tez qayıtsın,
Qarda, Ucarda qaldı.

Sovet rəhbərliyinin 50-ci illərin ikinci yarısı və 60-cı illərin birinci yarısında subyektivizmə söykənən səhv siyasəti SSRİ-ni ictimai-siyasi və iqtisadi böhrana saldı. Bu da əhalinin haqlı narazılıqlarına, hətta üsyanlara gətirib çıxarmışdı. Sovet hakimiyyəti illərində mövcud olan totalitar sistem bu rejimə qarşı baş verən etiraz aksiyalarını, üsyanları daim xalqdan gizli

saxlamış, bu hadisələr haqqında danışanları susdurmağa çalışmışdır.

SSRİ-nin digər ərazilərində baş vermiş anti-sovet üsyanlar, etiraz aksiyaları haqqında da məlumatlar XX əsrin 80-ci illərin axırlarında aşkara çıxmağa başlamışdı. Sov.İKP MK Baş katibi M. S. Qorbaçov 1988-ci ildə SSRİ Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri V. Çebrikova SSRİ-də 1957-1988-ci illərdə baş vermiş kütləvi ixtişaşlar haqqında məxvi arayış hazırlanmağı tapşırmışdır. DTK tərəfindən M. S. Qorbaçova təqdim olunmuş arayışda yazılmış məlumatlar yalnız SSRİ dağıldıqdan sonra xalqa məlum olmuşdur. Arayışda 1957-ci ildə Rusiyada Moskva ətrafında Podolsk şəhərində, 1959-cu ildə Qazaxstanın Temirtau şəhərində, 1961-ci ildə Azərbaycanın Kirovabad (indiki Gəncə) şəhərində, 1961-ci ildə Rusiyanın Altay vilayətinin Biysk şəhərində, həmçinin Krasnodar, Murom və Aleksandrov şəhərlərində, 1961-ci ildə Osetiyanın Beslan şəhərində, 1962-ci ildə Rusiyanın Novoçerkassk şəhərində, 1963-cü ilin 7 noyabrında Azərbaycanın Sumqayıt şəhərində və digər ərazilərdə sovet hakimiyyəti əleyhinə etiraz aksiyaları, üsyanlar, iğtişaşlar baş verdiyi qeyd olunsa da 1963-1965-ci illərdə Azərbaycanın Zərdab rayonunda baş verən hadisələr barədə məlumat verilməmişdir. Arayışda digər ərazilərlə yanaşı Azərbaycanın Kirovabad (indiki Gəncə) şəhərində 1961-ci ildə futbol oyunundan sonra azərbaycanlılarla ermənilər arasında baş vermiş toqquşma və Sumqayıtda 7 noyabr 1963-cü il tarixdə baş vermiş antisovet üsyan haqqında məlumat verilib. Sumqayıt hadisəsi haqqında qısa olaraq qeyd olunur ki, 800 nəfərin iştirakı ilə baş vermiş kütləvi ixtişaşda bir nəfər yaralanmış, 6 nəfər həbs olunub. [3;9, s. 506-511] V.A. Kozlovun kitabında Sumqayıt hadisəsi "Yaşasın Stalin?! Sumqayıtda qiyam 7 noyabr 1963-cü il" başlığı altında verilib [9, s. 506-511].

Bu günə qədər sovet rejiminə qarşı 1963-cü ilin 7 noyabrında baş vermiş Sumqayıt üsyanı haqqında son zamanlar nəşr olunmuş kitablar və məqalələr yazılsa da, hətta sənədli

film çəkilsə də, [1,s.212-214; 2;3;6;9,s. 506-51] təəssüf ki sovet rejiminə qarşı Zərdab üsyanı (1963-1965-ci illər) haqqında son dövrlərə qədər elmi ədəbiyyatda və KİV-də heç bir yazı dərc olunmayıb. Zərdab üsyanı haqqında fikrimizcə hələlik bizə məlum olan yeganə mənbə 2021-ci ilin 4 fevralında "Zərdabın Tanınmışları" Facebook səhifəsinə qoyulmuş Sarvan Kərimov tərəfindən hadisələrin şahidləri olmuş Zərdabın tanımış şəxslərindən olan Hüseyn Həsənov, "Əkinçi" qəzetinin baş redaktoru İsaməddin Əhmədov, Firudin Məmmədov, əməkdar müəllim Ömər Tarverdiyev, atası Səbbət kişinin və digərlərinin xatirələri əsasında hazırlanmış *"Doğrudanmı 1963-1964-cü illərdə Zərdabda üsyan olub?* başlıqlı yazıdır [7]. Fikrimizcə bu yazı rəsmi olaraq heç bir qəzet və jurnalda dərc olunmadığına görə buna yalnız inkişaf etmiş ölkələrdə geniş istifadə olunan şifahi tarixi mənbə kimi istinad etmək daha düzgün olar.

Məhz bu mənbəyə istinad edilməklə iki məqalə nəşr olunub [4; 5].

Üsyanın əsas səbəbi kimi 1963-cü ilin yanvarında Zərdab rayonunun statusunun ləğv edilərək 35 km uzaqda yerləşən Ucar rayonunun tərkibinə birləşdirilməsi göstərilir. Lakin sovet rejimin daxili siyasətdə buraxdığı kobud səhvlər, 60-cı illərin sosial –iqtisadi problemləri, bu dövrdə ölkədə hökm sürən ərzaq qıtlığı, hətta əhaliyə qara çörəyin talon sistemi ilə verilməsi və s. məsələlər də əhalinin səbr kasasının dolmasında mühüm rol oynamışdır.

Zərdab üsyanı sovet rejiminin səhv inzibati idarəçilik sisteminə qarşı çevrilsə də digər ərazilərdən fərqli olaraq buna qarşı silah işlədilməməsi, zorakılıq metodları ilə yatırılmamasının fikrimizcə obyektiv və subyektiv səbəbləri var.

Faktlar sübut edir ki, N. S. Xruşovun hakimiyyətdə olduğu 1957-1964-cü illərdə SSRİ-də sovet rejiminə qarşı baş vermiş 11 hadisənin 8-i, Brejnevin dövründə baş vermiş 9 hadisənin yalnız 3-ü silah tətbiq edilməklə (bunların da hamısı 1967-ci ildə) aradan qaldırılmış, bu zaman 264 nəfər

öldürülmüş, 71 nəfər yaralanmışdır. Həbs olunanların sayı ilə bağlı statistika da analoji mənzərə yaradır. Xruşovun vaxtında hər il orta hesabla 35 nəfər olunmuşdusa, Brejnevin vaxtında 10 nəfər həbs olunmuşdur [8; 9; 10].

Burdan belə nəticə çıxarmaq olar ki, Zərdab üsyanı keçid dövrünə düşdüyündən, yəni 1964-cü ilin oktyabrında N. S. Xruşşovu L. İ. Brejnev əvəz etdiyindən, hakimiyyət dəyişikliyi yeni baş verdiyindən ona qarşı silah tətbiq edilməmişdir

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, sovet hakimiyyətinin yeritdiyi səhv siyasət nəticəsində 60-cı illərin əvvəllərindən hər iki rayonun əhalisinin sosial-iqtisadi vəziyyəti ağırlaşmışdır. N.S. Xurruşşovun Kommunizm quruculuq proqramı olan yeddillik planın (1959-1965) iflasa uğraması, bütün SSRİ ərazisində əsasən qarğıdalı bitkisinə üstünlük verilməsi, mal-qaraya, o cümlədən yük daşımaq üçün istifadə olunan heyvanlara vergi tətbiq edilməsi və s. bütün rayonların, o cümlədən Ucar və Zərdab əhalisinin sosial vəziyyətinin ağırlaşmasına səbəb olmuşdu. Zərdab rayonunu statusunun dəyişdirilib qonşu rayonuna birləşdirilməsinin Ucar rayonun da qayğılarının artmasına səbəb olduğundan bu dəyişiklik rayonun əhalisinə də mənfi təsir göstərmişdi. Bu baxımda hər iki rayonun əhalisi bu dəyişiklikdən, hakimiyyətin siyasətindən eyni dərəcədə narazı idi. 60-cı illərdə yolların bərbad vəziyyətdə olması, nəqliyyatın qıtlığı, rabitə sisteminin geriliyi də Zərdabın Ucara birləşdirilməsinə mənfi təsir göstərirdi.

Sonrakı illərdə Kür çayı üzərində körpü çəkilənə qədər Zərdab əhalisinin digər ərazilərə çıxışı Ucardan keçən Bakı-Tiflis dəmir yolu və şose yolu vasitəsi ilə həyata keçirildi. Buna görə də bu iki qonşu rayon əhalisi arasında mehriban, səmimi münasibətlər hökm sürürdü. Lakin yaddan çıxarmaq lazım deyil ki, sovet hakimiyyəti antisovet hərəkatların qarşısının alınmasında çar Rusiyasının da tətbiq etdiyi zorakı, anti-hümanist metodlardan, milli, dini, məhzəb ayrı-seçkiliyi salmaq kimi metodlarda daim istifadə etmişdir. Sovet rejimi kimi hakimiyyətlər tarixən özlərini qorumaq üçün nəinki

müxtəlif millətləri bir-birinə qarşı qoymaq, hətta eyni milləti parçalayaraq vətəndaş müharibəsi və digər münaqişələr törətməkdən belə çəkinməyib. Buna misal olaraq 1917- 1920-ci illərdə baş vermi. vətəndaş müharibəsini, 2022-ci ilin fevralından başlayan Rusiya-Ukrayna müharibəsini göstərmək olar. Buradan belə qənaətə gəlmək olar ki, əgər problem dinc yolla həll olunmasaydı sovet rejimi üsyanı yatırmaq üçün iki rayon əhalisinin bir-birinə qarşı qoymaq metodlarından da istifadə edə bilərdi. Ola bilsin bəlkə də buna cəhdlər də edilib. Lakin fikrimizcə hər iki rayonun əhalisinin mütləq əksəriyyəti eyni millətə, eyni dinə mənsub olması, bu birləşmənin hər iki rayon əhalisinin mənafeyinə zidd, hər iki rayon əhalisinin birləşmə əleyhinə olması bəlkə də sovet rəhbərliyini bu cür zorakı addımlardan çəkindirmişdir.

Zərdab üsyanı (1963-1964-cü illər) haqqında yuxarıda qeyd etdiyimiz, şahidlərin xatirələri əsasında tərtib edilmiş yazıda aşağıdakı faktlar öz əksini tapıb:

"1963-cü ilin yanvarında Zərdab rayonunun statusunun ləğv edilərək 35 km uzaqda yerləşən Ucar rayonunun tərkibinə birləşdirilməsi əhalinin ciddi etirazına səbəb olmuş və insanlar Zərdabın "Dördyol" adlanan yerində şlaqbaum quraraq rayona gəlib, gedənlərə nəzarəti öz əllərinə almışdır.

Zərdab rayon müharibə, əmək və silahlı qüvvələr veteranları şurasının sədri, istefada olan kapitan, SSRİ-nin I dərəcəli alpinisti, "Şərəf nişanı" ordenli, hadisələrin şahidi və iştirakçısı Hüseyn Həsənov "Zərdab üsyanı"nı bu cür xatırlayır:

"Beləliklə, ilk dəfə 1935-ci il fevralın 5-də Zərdaba rayon statusu verilib və Zərdab şəhəri rayon mərkəzinə çevrilib. Amma bu statusun ömrü heç 28 il də olmayıb: 1963-cü ilin yanvarında Zərdab öz kəndləri ilə bərabər 35 km uzaqdakı Ucar rayonunun tərkibinə verilib. Ucar, Kürdəmir, Beyləqan, İmişli, Ağcabədi, Bərdə və Ağdaş rayonları ilə həmsərhəd olan Zərdab rayonunun statusu ilə bərabər, o vaxtlar "Kolxozçu" adı ilə nəşr olunan qəzeti də ləğv edildi, əvəzində Kürdəmirdə "İrəli" adlı zona qəzeti buraxılmağa başlandı.

Zərdabın Ucar rayonuna birləşdirilməsi əhalidə ciddi narazılıq doğurdu. Xüsusən, birləşdirilmənin səhəri günü Zərdab rayon partiya komitəsinin, rayon Sovetinin, "Kolxozçu" qəzeti redaksiyası və mətbəəsinin avadanlıqlarının Ucara və Kürdəmirə daşınması insanları bərk qıcıqlandırdı, açıq etirazlara, küçə yürüşlərinə, vətəndaş itaətsizliyinə səbəb oldu. Hətta həmin yükləri maşınlarda müşayiət etməyə məcbur edilən zərdablılar hiddətlənərək yolboyu avadanlıqları, mebelləri yol kənarlarına atırdılar.

Zərdabda istehsal olunan məhsullar da bu birləşdirilmədən sonra Ucara daşınırdı, adi bir arayış almaq istəyən zərdablı Ucara getməli olurdu. Halbuki Zərdabın Bıçaqçı və ya Əlvənd kəndindən Ucara qədərki məsafə təqribən 60 kilometr idi. Bütün bunlar Zərdabda kütləvi etiraz mitinqlərinin başlanması ilə nəticələndi.

Əlbəttə, bu birləşdirilmə Sovet dövlətinin rəhbəri Nikita Xruşşovun sərsəm siyasətinin nəticəsi idi. Xruşşov özünü islahatçı kimi göstərir və bir-birindən gülünc, həm də icra olunmayan fərman və qanunlar verirdi. Bu "siyasətin" nəticəsində o illərdə SSRİ-də, o cümlədən Zərdabda çörək qıtlığı da yarandı, nəinki kişilər, elə qadınlar və uşaqlar da mağazalar qarşısında gecə-gündüz növbələrdə dayanmalı, qramla satılan qarğıdalı, darı unundan bişirilən çörək, hətta mal-qara qidası olan jımıx, cadı yeməyə məcbur olurdular.

Xruşşov isə utanmadan sürətli inkişafdan, Amerikanı ötüb keçmək strategiyasından, kommunizmdən dəm vururdu.

Heç bir savadı olmayan, Zərdabdan başqa heç yerdə tanınmayan, indi isə tamam unudulan el şairimiz Xanlar kişi o illərdə, bir para və iki tikə qara çörək əlində basabasdan birtəhər sürüşüb çıxanda gözü çörək zavodunun qarşısına vurulan Xruşşovun "Yolumuz kommunizmədir!" şüarına sataşmışdı və kişi bədahətən belə demişdi:

Əlimizdə para-tikə,
Danışırıq yekə-yekə,
Belimizi bükə-bükə
Kommunizmə gedirik biz…

Zərdabın nüfuzlu şəxsləri əhalinin hiddətləndiyini və kütləvi etiraz aksiyalarına başlanmasını nəzərə alaraq, məsələni sivil yolla həll etməkdən ötrü "Antibirləşmə" dərnəkləri yaratdılar. Bu dərnəklərdə Ucara birləşdirilmənin törətdiyi və törədə biləcəyi çətinliklər, rayonun statusunun bərpası üçün nə işlər görülməsi müzakirə olunur, hər kəsin vəzifəsi dəqiqləşdirilirdi."

H. Həsənov üsyan barədə daha sonra bunları bildirdi: "Zərdab Ucarın tərkibinə veriləndə Ucar rayon partiya komitəsinin 1-ci katibi Qazax rayonundan olan Abbas Yolçuyev idi. Birləşməyə qədər mən Zərdab rayon partiya komitəsində Partiya uçotu bölməsinin müdiri işləyirdim. Birləşmədən sonra, Azərbaycan KP MK-nın tövsiyəsi ilə Abbas Yolçuyev məni də Ucara dəvət etdi və Ucar rayon partiya komitəsi Təşkilat şöbəsinin müdiri işləməyimi məsləhət bildi. Mən ailə vəziyyətimlə əlaqədar Ucara köçə bilməyəcəyimi, yollar çox bərbad olsa da, nəqliyyat çatışmasa da gündəlik Zərdaba gedib-gələcəyimi dedim və xahiş elədim ki, məni şöbəyə təlimatçı təyin etsin.

Belə də oldu. Amma bütün zərdablılar kimi mən də bu birləşdirilmədən narahat idim; bunu, elə ilk görüşümüzdə Abbas Yolçuyevə də dedim. O da bu məsələnin çox ciddi problemlər yaradacağını bildiyini dedi.

Ucar rayon partiya komitəsi Zərdabda baş verənləri diqqətlə izləyirdi və vəziyyətin düzəlməsi üçün yollar axtarırdı. Amma zərdablılar ipə-sapa yatmır, yalnız Mərkəzi Komitənin katibləri ilə görüş tələb edirdilər.

Mən və təqribən 20 nəfər həmyerlimiz Ucarda məsul vəzifələrə təyin olunsaq da, ürəyimiz Zərdabımızda idi, baxmayaraq ki, Zərdab camaatı bizim Ucar rayonunda işləməyimizin, hər gün ora gedib-gəlməyimizin əleyhinə idi.

Həmin günlərdə hər gün Zərdaba gəlib-gedirdim və görürdüm ki, Zərdabın fəal ziyalıları başda olmaqla minlərlə insan mitinqləri davam etdirir, birləşdirilmənin ləğvinədək açıq mübarizəni dayandırmayacaqlarını bildirirdilər. Mitinqlər Zərdab şəhərinin indiki Həsən bəy Zərdabi və Ramiz Kərimov

küçələrinin kəsişdiyi yerin 10 metrliyində - keçmiş raykomun və rayon prokurorluğu binasının 5 addımlığında keçirilirdi. Buradakı "tribuna" əllə düzəldilmiş 2 metr hündürlüyündə torpaq topası idi...

Etiraz aksiyasına rəhbərlik etmək üçün 1964-cü ilin soyuq dekabr günündə qərargah yaradıldı və məqsəd, Zərdabın Ucardan ayrılmaqla rayonun statusunu bərpa etməsi hərəkatını istiqamətləndirmək və onu idarə etmək idi. Həmin "Antibirləşmə" qərargahı Zərdabın indiki Ramiz Kərimov küçəsində yerləşən keçmiş raykomun partiya kabinetində fəaliyyət göstərirdi və hərəkat oradan istiqamətləndirilirdi. Kabinetin açarını da biz qərargahın üzvlərinə vermişdik. Qərargahın üzvləri isə: Qədim Qədimov, Məcid Cavadov, Şahgəldi Məmmədov, Sona Mahmudova, Ağahüseyn Ağayev, Namizəd Abdullayev, Babaş Babaşov, Fəzayıl Mahmudov, Cəbi Abdullayev, Məbud Məmmədov, Xəlil Allahverdiyev, Ağasəf Əliyev, Sərkər Həsənov, Talıb Bayramov və başqaları idilər. Halbuki bu insanların çoxu birləşdirilmədən sonra Ucarda vəzifələrə təyin olunmuşdular."



1963-1965-ci illərdə Ucarda məsul vəzifələrdə işləyən, birləşmənin qatı əleyhdarı olan zərdablılar

Hadisələrin digər şahidi "Əkinçi" nin veteranı, Firudin Məmmədov Zərdab üsyanı xatırlayaraq bunları deyib:

"Cavan oğlan idim, Ticarət texnikumunu təzə bitirmişdim və indiki R. Kərimov küçəsindəki qastronomda satıcı işləyirdim. Səhərdən gecə yarıyadək o təpənin ətrafında tələtüm yaşanırdı. Çıxış edən natiqlər, hətta Bıçaqçı kəndindən sıravi kolxozçu Gülxara xanım, Zərdab şəhər sakini Şirin əminin anası, indiki Həsən bəy Zərdabi Muzeyinin direktoru Vəfa Bayramovanın nənəsi Fatma xanım, hərəkatın fəallarından olan Məbud Məmmədovun anası Asiya xanım Sovet hökumətindən Zərdabın rayon statusunu bərpa etməsini tələb edirdilər və bildiridilər ki, məqsədimizə çatana qədər vuruşacağıq, öldü var, döndü yoxdur.

O sərt, kəskin çıxışları eşidənlərin bəziləri pıçıldaşırdılar ki, bunlar dəli olublar, hökumət hamısını güllələyəcək bu adamların. Bununla belə, tribuna-təpəcik boş qalmırdı: natiqlər çıxış üçün növbə gözləyirdilər. Xüsusən Qədim Qədimov, Şahgəldi Məmmədov, Məcid Cavadov və b. saatlarla və çox ucadan danışırdılar…"

Zərdab şəhərindəki 1 saylı məktəb-liseyin Əməkdar tarix müəllimi Ömər Tarverdiyev xatırladıqlarını və hadisələrin ən fəal iştirakçılarından olan atası Səbbət kişinin söhbətləri haqqında bunları deyib:

"Atam deyirdi ki, etirazçılar ilk vaxtlar Azərbaycan Sovet Sosialist Respublikasının rəhbərliyinə, Respublika Kommunist Partiyasının Mərkəzi Komitəsinə çoxsaylı müraciətlər, teleqramlar göndərdilər. Amma bu bir nəticə vermədi; yəqin ki, respublika rəhbərliyi Moskvadan ehtiyatlanaraq məsələyə münasibət bildirməyə cürət etmirdi. Ona görə də sonrakı günlərdə Zərdabdan Moskvaya, SSRİ rəhbərliyinə, Sov. İKP MK-ya hər gün onlarla ərizə, şikayət, müraciət, teleqram göndərilməsinə başlandı. Bu da gözlənilən nəticəni vermədi; yəqin ki, Moskva bu işə baş qoşmağın SSRİ-nin digər bölgələrində də narahatlıq yaradacağından ehtiyatlanırdı.

Atam söyləyirdi ki, vəziyyəti belə görəndə biz, hərəkatın rəhbərlərindən olan Zərdab rayon Maliyyə idarəsinin müdiri Qədim Qədimovun və qərargahın digər üzvlərinin göstərişi ilə, Zərdabdan Ucara gedən yeganə avtomobil yolunu bağlayaraq Zərdabın indiki "Dördyol" ərazisində şlaqbaum qurduq, nəzarət-keçid məntəqəsi təşkil etdik. Qədim Qədimov başda olmaqla, hərəkata rəhbərlik edənlər nəzarət-keçid məntəqəsinin işinə rəhbərlik etməyi, zəhmətkeş sinfin nümayəndəsisən, deyib, mənə tapşırdılar. Hərəkatın fəallarından olan Mirqiyas kişi isə zəhmətkeş sinfin nümayəndəsi kimi mənə köməkçi təyin olundu.

Qərargahın tapşırığına əsasən biz, nəzarət-keçid məntəqəsi yaradılandan sonra Zərdabın sovxoz və kolxozlarında istehsal olunan məhsulların Ucara göndərilməsinə imkan vermədik; südü, pendiri, yağı, taxılı və s. siyahı ilə və qrafik əsasında camaata paylamağa başladıq. Məhsulların "it-bata" düşmədən qəsəbə və kəndlərdən Zərdaba daşınmasına, əhaliyə paylanmasına mənim köməkçim Mirqiyas şəxsən nəzarət edirdi. Atam deyirdi ki, görülən işlər gözlənilən nəticəni vermirdi və onda qərargahın tapşırığı və təşkilatçılığı ilə Zərdabın müxtəlif təbəqələrini təmsil edən, əksəriyyəti kolxozçulardan və fəal evdar qadınlardan ibarət olan 150 nəfərlik nümayəndə heyəti kuzovuna çadır çəkilmiş yük maşınlarında Bakıya göndərildi. Nümayəndə heyətinin tərkibində, Zərdab mitinqlərində kişilərlə bərabər fəal iştirak və çıxış edən mübariz qadınlar, Gülxara xanım, Fatma xanım, Asiya xanım, Sona Mahmudova və b. da vardı."

Hüseyn Həsənov hadisələrin sonrakı gedişi ilə bağlı demişdi:

"Bir gün səhər tezdən Abbas Yolçuyev məni otağına çağırdı. Dedi ki, sizinkilərdən 150 nəfər Bakıya gediblər və Mərkəzi Komitənin binası qarşısında oturaq mitinq keçirirlər, heç kəsi eşitmək istəmirlər, deyirlər Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundov yoldaş bizi qəbul etməsə, heç yana getməyəcəyik. Raykomun səlahiyyətli nümayəndəsi kimi təcili gedirsən Bakıya. Orada səni Azərbaycan KP MK-nın Kənd

təsərrüfatı üzrə katibi Qənbər Kazımov qəbul edəcək. MK o adamlar və baş verənlər barədə dəqiq məlumat istəyir. Bizi də töhmətləndirirlər ki, vəziyyətə nəzarət edə bilmirik. Mərkəzi Komitə məsələni dəqiq öyrənəndən sonra lazımi ölçü götürmək fikrindədir. Hər halda, ciddi söhbət olacaq, bunu nəzərə al.

Elə həmin gün Bakıya getdim. Gözlədiyimin əksinə olaraq, Qənbər Kazımov yoldaş məni çox isti qarşıladı. Amma vəziyyətin belə kəskinləşməsində bizim də günahımız olduğunu dedi.

Mən MK-nın katibini diqqətlə dinlədim və izah etdim ki, insanlar üçün Zərdabdan Ucara gedib-gəlmək hədsiz çətinliklər törədir. Birləşmə ilə əlaqədar çox sayda iş yerləri ləğv olunub və s. Xahiş etdim ki, vəziyyəti yoluna qoymaq üçün mümkünsə, o insanlarla görüşün və qərar qəbul edin.

Elə həmin gün axşama yaxın Qənbər Kazımov MK-nın salonunda 150 nəfər nümayəndə ilə görüşdü və səmimi söhbət etdi. Bununla belə sonda o, Zərdabın rayon statusunu bərpa etməyin mümkün olmadığını dedi və bu barədə danışan etirazçıları axıradək dinləmək belə istəmədi.

Onda bıçaqçılı Gülxara xanım söz istədi və zərdablı analar adından, onların düşdüyü vəziyyət barədə ağlaya-ağlaya danışdı. Dedi ki, mən bir neçə qadınla arayış almaq üçün lafet qoşulan traktorla Ucara getmişdim. Qarlı-çovğunlu havada 120 kilometr yolu traktora qoşulan üstü açıq dəmir lafetdə gedib-qayıtmaq ana üçün bilirsiniz nə deməkdir? Qarlı havada kəndimizə gecə gəlib çata bildik. Uşaqlarımız ac və üstü açıq yatmışdılar. Özümüz də bir həftə soyuqdəymədən xəstə yatdıq. O gecə böyük oğlum mənə bu şeiri yazıb:

-Əzizim harda qaldı,
Anamız darda qaldı.
Getmişdi tez qayıtsın,
Qarda, Ucarda qaldı.

Gülxara xanım bu qəmli bayatını ürəkgöynədən yanıqlı səslə muğam üstündə ucadan oxudu və bu ana naləsi, qadın fəryadı Qənbər Kazımovu da, bizim hamımızı da ağlatdı. Onda Qənbər Kazımov növbəti çıxışçılara söz vermədən dedi ki, mən

sizin vəziyyətiniz barədə yoldaş Vəli Axundova məruzə edəcəyəm və çox istərdim ki, problem həll olunsun.

Səhəri gün 15 nəfər etirazçını və Ucar rayon Partiya Komitəsinin səlahiyyətli nümayəndəsi kimi məni yoldaş Vəli Axundov qəbul etdi. Çıxış edənləri səbrlə və diqqətlə dinlədi. Açıq və səmimi danışdı. Dedi sizin vəziyyətinizi başa düşürəm və çox istərdim ki, problem tezliklə həll olunsun. Amma Sov. İKP MK ilə mütləq məsləhətləşməliyik. Siz bir az səbrli olun və bilin ki, bizdən asılı olan hər şeyi edəcəyik...

Ömər müəllim, atası Səbbət kişinin o görüşlər barədə dediklərini belə xatırlayır:

"Bu görüşdən aydın oldu ki, Zərdabın rayon statusunun bərpa edilməsi Moskvanın səlahiyyətinə aiddir, Azərbaycan KP MK belə məsələləri həll etmək gücündə deyil. Əslində "yuxarıdan" bizə məsləhət görülürdü ki, bu "oyunu" dayandıraq, hökumətlə hökumətlik etməyək, rayona qayıdıb sonrakı nəticənin ağır ola biləcəyini camaata izah edək və evimizdə oturub veriləcək qərarı gözləyək.



Zərdab etirazçıları Moskvada, Soldan 1-ci, Şahgəldi Məmmədov, Məcid Cavadov, Məbud Məmmədov və Ağahüseyn Ağayev

Nümayəndə heyəti Zərdaba qayıtdı və qərargah üzvləri təcili müşavirə keçirib, həbslər başlanmamış, əhalinin etirazını Moskvaya-SSRİ-nin mərkəzi hakimiyyət orqanlarına bildirmək üçün nümayəndə heyəti yaratdı. Moskvaya yollanacaq heyətə o dövrün tanınmış hüquqşünası, Naxçıvanda və digər bölgələrdə prokuror işləmiş Məcid Cavadov, milis zabiti Şahgəldi Məmmədov, fəal qadınların lideri Sona Mahmudova, əhali arasında böyük nüfuzu olan Babaş Babaşov, Ağahüseyn Ağayev, Asiya Məmmədova və b. daxil edildilər.

Özü də o heyət yola salınmazdan əvvəl Zərdabın kolxozlarından "Dördyol" ərazisinə gətirilmiş 200-ə yaxın yük maşınının kuzovuna cadır örtük çəkilərək bir tərəfinə Zərdabın rayon statusunun bərpa olunmasını tələb edən rus dilində şüar, o biri tərəfinə isə "Zərdab-Moskva" sözləri yazılmışdı. Qərargahın ilkin qərarı belə idi ki, bu maşın karvanı yüzlərlə Zərdab fəalını da Moskvaya aparsın, lakin son məqamda qərara alındı ki, Moskvaya ilk olaraq rus dilini və hüququ yaxşı bilən nümayəndə heyəti getsin.

Beləliklə, seçilmiş həmin insanlar Moskvaya gedərək 1964-cü ilin dekabrında və 1965-ci ilin yanvarının ilk günlərində orada çalışdılar. Nümayəndələr, Moskvada olarkən Zərdabda bütün sutka boyu işləyən qərargahla hər 4 saatdan bir əlaqə saxlayırdılar, təkid edirdilər ki, Zərdabın sayılıb-seçilən şəxsləri, xüsusən nüfuzlu ziyalılar, veteranlar, çoxuşaqlı analar və gənclər SSRİ rəhbərliyinə statusun bərpasını tələb edən hər gün azı 15-20 teleqram göndərsinlər. Moskvadaki

nümayəndələr telefon əlaqələrində və göndərdikləri teleqramlarda "Teleqram göndərin" sözünü parolla "Göyərçinləri uçurdun" və "Quşları havaya buraxın" sözləri ilə ifadə edirdilər.

O günlərdə Zərdabdan Moskvaya göndərilən teleqramların mətnini Zərdab maliyyə şöbəsində çalışan Firəngiz xanım Əsədova hazırlayırdı. Ədalət naminə onu da deməyə borcluyuq ki, o vaxtlar Ucar rayonunun rəhbəri olan Abbas Yolçuyev də Zərdabın rayon statusunun ləğv edilməsinin zərdablılar üçün ciddi çətinliklər yaratdığını səmimiyyətlə etiraf edir və bu birləşmədən yaranan kütləvi etirazları açıq-aşkar olmasa da, dəstəkləyirdi.

Zərdablıların Moskva səfəri ilk nəticəsini verdi: rayonun nümayəndə heyətini SSRİ rəhbəri Leonid İliç Brejnevin köməkçisi Starçenko qəbul edib dinlədi. Nəhayət, sonda kütləvi etirazlar öz bəhrəsini verdi və 1965-ci il yanvarın 6-da Zərdabın rayon statusu bərpa olundu.

Hüseyn müəllim sözlərinə görə, Moskvaya gedən Asiya xanımın oğlu, fəallardan biri olan Məbud Məmmədov o vaxtlar həbs olunmuşdu və Asiya xanım Moskvada Voroşilovla görüşərək oğlunun həbsdən buraxılmasına da nail oldu.

Zərdabın rayon statusu bərpa ediləndə əslən Ağdaş rayonundan olan Paşa Paşayev Zərdab rayon partiya komitəsinin birinci katibi, zərdablı Əmirəli Əmirəliyev rayon xalq deputatları Sovetinin sədri oldular. Hüseyn Həsənov isə Zərdab raykomunda Təşkilat şöbəsinin müdiri, az sonra raykomun ikinci katibi oldu, 1980-ci ilin avqustuna qədər həmin vəzifədə işlədi. Sonra isə rayon təhsil şöbəsində müdiri,

sonra Dövlət sığorta agentliyi Zərdab şöbəsinin rəisi, daha sonra şəhər Sovetinin sədri oldu.

Sovet rəhbərliyi gələcəkdə rayonda etiraz aksiyalarının baş verməməsi üçün profilaktik tədbirlər görməyə başladı. Hərəkatın bir neçə fəalı, Zərdabın rayon statusu bərpa olunandan az sonra, məlum olmayan səbəblərdən birdəfəlik başqa şəhərlərə, əsasən Bakıya köçüb getdilər. Hərəkatın ən fəallarından olan Səbbət kişi o hadisədən sonra, Zərdabın rayon statusu bərpa ediləndən təqribən 1 il keçəndə qeyri-müəyyən səbəblərdən həbs olundu. Hərəkatın ən fəallarından olan Mirqiyas kişinin taleyi daha acı oldu. O, kütləvi etirazlar müsbət sonluqla bitəndən az sonra Kürsahili meşədə müəmmalı şəraitdə həlak oldu [7].

Zərdab üsyanının müsbət sonluqla, əhalinin tələbinin yerinə yetirilməsi ilə başa çatması SSRİ-də görünməmiş, nadir hadisə idi. Sonrakı illərdə bu cür proseslərin qarşısı alınsa da 1985-ci ilin aprelindən, ölkədə aşkarlıq və yenidən qurma konsepsiyasının həyata keçirilməsi ilə SSRİ-nin demək olar ki, əksər ərazilərində anti-sovet aksiyalar başladı.

İstifadə olunmuş ədəbiyyat

1. Zülfüqarlı M.P. İkinci Respublikanın tarixi (1920-1991-ci illər). Bakı: Mütərcim, 2020, 310 s.
2. Zülfüqarlı M.P. Sumqayıt siyasi mübarizə burulğanında. “Millət” qəz. 17 avqust 1996
3. Zülfüqarlı M.P. Sovet arxivlərində məxvi qrif altında saxlanılan sənədlər-Sumqayıt üsyanı (7 noyabr 1963-cü il) GEO STRATEGĢYA jurnalı noyabr-dekabr 2016 № 06 (36), s.16-19

4. Zülfüqarlı M.P. Sovet rejiminə qarşı Zərdab üsyanı (1963-1965-ci illər)" "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnal Say 4, 2024, s. 86-99

5. Zülfüqarlı M.P. Zərdab üsyanı (1963-1965-ci illər). "Bakı xəbər" qəzeti 13 yanvar 2026-cı il

6. "İctimai TV" "Danışan tarix. Sumqayıt ...1963" sənədli filmi

7. Kərimov S. "Doğrudanmı 1963-1964-cü illərdə Zərdabda üsyan olub? Zərdabın Tanınmışları Facebook səhifəsi-
https://www.facebook.com/photo?fbid=1543137655884912&set=pcb.1543137679218243

8. АПРФ, ф.45,оп. 1,д. 1120, лл. 48-81;

Rus dilində

9. Козлов В.А. МАССОВЫЕ БЕСПОРЯДКИ В СССР ПРИ ХРУЩЕВЕ И БРЕЖНЕВЕ (1953 - НАЧАЛО 1980-Х ГГ.) Издание третье, исправленное и дополненное. Москва РОССПЭН 2009.s.518, s.506-511

10. https://oper-1974.livejournal.com/ 754414.ht



6.5. 1969-1991-ci illərdə Ucar rayonunun inkişafı

Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda Respublika rəhbərliyinin dəyişdirilməsi, Heydər Əliyevin I katib seçilməsi ilə əvvəlki illərdən tamamilə fərqli yeni ictimai-siyasi mərhələnin başlanğıcı qoyuldu. Buna görə elmi ədəbiyyatda SSRİ-nin 70-80-ci illərin birinci yarısına aid verilmiş xarakteristika və bölgünün mexaniki şəkildə Azərbaycana aid edilməsini düzgün saymaq olmaz. Çünki bu dövrdə Azərbaycan SSR-in ictimai-siyasi və iqtisadi vəziyyəti digər müttəfiq respublikalardan köklü şəkildə fərqlənirdi. Dövrə qiymət verərkən bu amili nəzərə almaq vacibdir. Tanınmış tarixçi alim, t.e.d., professor Seyfəddin Qəndilov öz əsərində bu dövrü coşqun yüksəliş illəri kimi xarakterizə etmişdi.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illəri iki dövrə bölmək olar. I dövr -1969-1982-ci illər; II dövr 1993-2003- cü illər. Fikrimizcə H. Əliyev hakimiyyətinin bu iki dövrü müxtəlif tarixi şəraitin mövcudluğuna görə bir-birindən köklü şəkildə fərqlənsə də, burada varislik ənənəsi özünü açıq aydın büruzə verir. Yəni hər iki dövrdə H. Əliyev öz idarəçilik prinsipinə sadiq qalaraq ölkənin mövcud

problemlərinin həllində əlindən gələni əsirgəməmişdir [9, s. 227-228].

70-ci illərdə H.Əliyevin təşəbbüsü ilə Taqanroqda 416-cı Azərbaycan diviziyasının böyük qələbəsinə möhtəşəm xatirə ansamblı, Sevastopolda Sapundağda 77-ci Azərbaycan diviziyasının şərəfinə böyük abidə ucaldılmışdı. Heydər Əliyev Bakı neftinin İkinci dünya müharibəsində faşizm üzərində qələbədə oynadığı ümumdünya tarixi əhəmiyyətli rolunun SSRİ rəhbərləri tərəfindən etiraf edilməsinə nail oldu. 1978-ci ildə Bakı şəhəri Lenin ordeni ilə təltif edildi [10, 25 noyabr 1997].

Ucar rayonunda pambıqçılığın daha da inkişaf etdirilməsi 1969-cu ildən sonra rayonda fəaliyyət göstərən Pambıq zavodunun (indiki Ucar "Pambıq" Açıq Səhmdar Cəmiyyəti) daha da genişləndirilməsini zəruri edirdi.



Giriş darvazası


İnzibati bina

Bəzi mənbələrdə bu zavodun 1926-1927-ci illərdə işə salındığı qeyd olunsa da fərqli məlumatlar da mövcuddur. Bunlardan Ucar Tarix-diyarşünaslıq muzeyinin sabiq əməkdaşı Cəmil Xəlilov aşağıdakı məlumatı diqqəti cəlb edir:

"Ucar pambıq zavodunu fəaliyyətə başlaması haqqında ziddiyyətli fikirlər var. Rəsmi sənədlərdə zavodun fəaliyyətə başlaması 1930-cu ildən hesablanır. Bəzi mənbələr zavodun hələ 1922-ci ildən fəaliyyətə başlamasını haqlı olaraq qeyd edirlər. Zavodda uzun müddət işləmiş həmyerlimiz Tofiq Quliyev maraqlı bir fikirlə çıxış edir. O qeyd edir ki, Ucar Pambıq zavodunda "Azərbaycan zəhmətkeşlərinin Leninə

məktubları" adlı bir kitab var. Bu kitabda Leninə 1922-ci ildə vurulmuş bu məzmunda bir teleqram yer alıb: teleqramın mətni - "Bakı quberniyasının Göyçay qəzasının Ucar stansiyasında sahibkarlar tərəfindən dağıdılmış pambıq zavodu dövlət vəsaiti hesabına bərpa edilərək ilk pambıq emalı müəsisəsi kimi işə salınmışdır. Kollektivimizin ümumi yığıncağında zavoda sizin adınız verilmişdir ki, bu barədə sizi məlumatlandırmağı lazım bildik" [12].

Arxivdən onu da müəyyən etdim ki, zavodumuzu Rəhim bəy Ağabəyov qardaşları layihələşdiriblər. İnternetlə kiçik araşdırma apardım bu memarın Ağabəylilər nəslindən olduğu qənaətinə gəldim (Bu, müəllifin ehtimalıdır.), Bu nəslin görkəmli nümayəndəsi Rəhim bəyin qardaşı general mayor, şərqşünas alim, Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər nazirinin müavini Sadıq bəy Ağazadə olub, Göyçayda doğulub. Təəssüf ki, Rəhim bəyin ad və soyadından başqa internetdə heç bir məlumat mövcud deyildir.

Aydın olur ki, zavodumuzun əsl yaşını, tarixini bu mənbə bir daha təsdiq edir. Ümid edirəm ki, gələcəkdə gənc ucarlı tarixçilərimizdən kimsə bu faktı arxivdəki mənbədən daha geniş və təfsilatı ilə araşdıracaq.

Ucar pambıqtəmizləmə zavodu şərəfli və tarixi bir yol keçmişdir Zavoda bir müddət əslən Kürdəmir rayonundan olan Heybət Qədirov rəhbərlik etmişdir. Daha sonra onun yetirməsi Müsüslüdən olan Şaban Səmədov bu zavoda rəhbərlik edib. Uzun illər bu zavodun əsl peşəkar simalarından biri də mərhum Ramiz Hacıyev olmuşdur.

Dəfələrlə keçici qırmızı bayraq alan zavodun qabaqcıl işçiləri Məlahət Atayevaya və Kifayət Əliyevaya müxtəlif vaxtlarda yüksək etimad göstərilərək onları Azərbaycan SSR Ali Sovetinə deputat seçmişlər.

Əvəz Məmmədov isə Sovet İttifaqı Kommunist Partiyasının XXVI qurultayına nümayəndə seçilib. Zavodun xeyli sayda işçiləri bir sıra orden və medallarla təltif edilmişlər. Mahlıc istehsalına görə Ucar Pambıqtəmizləmə zavodu ötən

əsrin 70-80-ci illərində ittifaq üzrə həmişə birinci yerdə olmuşdur" [16].

Ucar sakini Xəyal Rəhimovun sosial şəbəkədə yaydığı "Ucar haqqında bilmədiklərimiz (hamı oxusun, bilsin)" başlıqlı yazıda digər sahələrlə yanaşı rayonun mədəniyyət sahəsi ilə bağlı maraqlı məlumatlar verilib: "1977-ci ildə Rayon Mədəniyyət evinin "Çənlibel" xor kollektivi ümumrespublika müsabiqəsinin qalibi olmuş Saratov şəhərində keçirilən Ümumittifaq mahnı bayramında, 1979-cu ildə Mədəniyyət evinin rəqs kollektivi ümumrespublika müsabiqəsinin qalibi kimi Arxangelsk vilayəti əməkçiləri qarşısında müvəffəqiyyətlə çıxış etmişdir. 1986-cı ildə bədii təşviqat briqadalarına ümumrespublika baxış müsabiqəsində Rayon Mədəniyyət evinin bədii təşviqat briqadası qalib olaraq Xalq Təsərrüfatı Naliyyətləri sərgisində uğurla çıxış edərək 1-ci dərəcəli diplomla təltif olunmuşdur. 1987-ci ildə Rayon Mədəniyyət evinin "Şopur" folklor kollektivi Respublika müsabiqəsində qalib olmuş və kollektiv haqqında 1988-ci ildə C.Cabbarlı adına Respublika Kinostudiyasında sənədli film çəkilmişdir. Hal-hazırda Rayon Mədəniyyət evində 2 xalq kollektivi və 7 dərnək fəaliyyət göstərir.

Mədəniyyət evində "Şirvan ocağı" xalq folklor kollektivi 1985-ci ildən fəaliyyətə başlamış, ümumrespublika müsabiqələrində fəal çıxış etmiş, Azərbaycan Mərkəzi Xalq yaradıcılığı evinin birinci dərəcəli diplomu ilə təltif edilmişdir. 18 oktyabr 1990-cı ildə kollektivə "xalq" adı verilmişdir. Mədəniyyət evində "Bahar" xalq çalğı alətləri ansamblı 1973-cü ildən fəaliyyət göstərir. Ümumrespublika müsabiqələrində fəal iştirak etmiş, zəhmətkeşlərin birinci ümumittifaq festivalının birinci dərəcəli diplomuna layiq görülüb. Kollektivə 03 aprel 1991-ci ildə "xalq" adı verilmişdir. Azərbaycan respublikasının bayramları və əlamətdar günlər münasibəti ilə rayonda keçirilən mədəni-kütləvi tədbirlərdə bu kollektivlərin gücündən geniş istifadə edilir.

Yuxarı Şilyan kənd Mədəniyyət evi - 1976- cı ildən fəaliyyət göstərir. Ümumi sahəsi 198 kv.m, yer tutumu 250

nəfərdir. Mədəniyyət evinin kollektivi respublika əhəmiyyətli müsabiqələrdə fəal iştirak edir. 15 may 2008-ci ildə Mədəniyyət və Turizm Nazirliyinin Şamaxı şəhərində Ulu öndər Heydər Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş Ailə bayramında Mədəniyyət evinin nümayiş etdirdiyi əl işləri yüksək qiymətləndirilərək Mədəniyyət və Turizm Nazirliyinin, Gənclər və İdman Nazirliyinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komissiyasının Diplomları ilə təltif edilərək qiymətli hədiyyələrlə mükafatlandırılmışdır. Eyni zamanda 2008-ci ilin iyul ayında Şirvan şəhərində keçirilən həvəskar rəssamların və tətbiqi sənət ustalarının zonalar üzrə baxış müsabiqəsində Mədəniyyət evi təqdim etdiyi həvəskar tətbiqi sənət ustalarının əl işlərinə görə Mədəniyyət və Turizm Nazirliyinin, Respublika Rəssamlar İttifaqının Fəxri fərmanları ilə təltif edilmişlər.

2009-cu ilin aprel ayında Şəki şəhərində keçirilən həvəskar rəssamların və tətbiqi sənət ustalarının baxış sərgisində Mədəniyyət evinin təqdim etdiyi "Şilyan xalçası"Şirvan xalçaçılıq məktəbinin layiqli nümunəsi kimi rəğbətlə qarşılanmışdır. Mədəniyyət evində 1xalq kollektivi və 4 dərnək fəaliyyət göstərir. Mədəniyyət evində fəaliyyət göstərən "Zopu-Zopu"xalq folklor kollektivi 1997-ci ildə yaradılmış,1999, 2000, 2001-ci illərdə keçirilmiş bədii özfəaliyyət kollektivlərinə ümumrayon baxış müsabiqələrində qalib olmuş və diplomla təltif edilmişdir. Kollektivə 04 iyun 2002-ci ildə "Xalq kollektivi" adı verilmişdir. Kollektiv 2002 və 2006 –cı ildə dövlət televiziyasının "Novruz" bayramı şənliklərinə həsr etdiyi xüsusi proqramda ugurla çıxış etmişdir. "Zopu-Zopu "xalq folklor kollektivi bugün də xalq yaradıcılığının inkişafında səmərəli fəaliyyət göstərir, gənclərin və yeniyetmələrin estetik zövqünün formalaşmasında öz tamaşa və oyunları ilə mühüm rol oynayır.

Təzə Şilyan kənd Mədəniyyət evi -1976 –cı ildən fəaliyyət göstərir.Ümumi sahəsi 250kv.m,yer tutumu 200 nəfərdir. Mədəniyyət evində 2 dərnək fəaliyyət göstərir. Rayonda keçirilən bayram tədbirlərində Mədəniyyət evinin

“Tello” rəqs kollektivinin gücündən daima istifadə edilir.Mədəniyyət evinin kollektivi dəfələrlə rayonda keçirilən bədii özfəaliyyət kollektivlərinin ümumrayon baxış müsabiqəsində zonalar üzrə qalib olmuş,rayon Mədəniyyət və Turizm şöbəsinin,Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Ucar rayon komotəsinin diplom və mükafatları ilə təltif edilmişdir.

Lək kənd Mədəniyyət evi -1958-ci ildən fəaliyyət göstərir.Ümumi sahəsi 920kv.m,tamaşa zalında yerlərin sayı 400 nəfərlikdir.Mədəniyyət evində 3dərnək və 1 poeziya həvəskarları klubu fəaliyyət göstərir. Mədəniyyət evinin kollektivi rayonda keçirilən tədbirlərdə ,eləcə də baxış və müsabiqələrdə fəal iştirak edir. Qarabörk kənd Mədəniyyət evi 1958-ci ildən fəaliyyət göstərir. Ümumi sahəsi 500 kv.m, tamaşa zalında yerlərin sayı Mədəniyyət evində 4 dərnək fəaliyyət göstərir. Mədəniyyət evində əlamətdar günlərlə əlaqədar mütəmadi olaraq tədbilər keçirilir. “Yallı” rəqs kollektivinin gücündən ümumrayon tədbirlərində daima istifadə edilir.

Quləbənd kənd Mədəniyyət evi - 1976-cı ildən fəaliyyət göstərir. Mədəniyyət evinin ümumi sahəsi 870kv.m,tamaşa zalında yerlərin sayı 350 nəfərlikdir.Mədəniyyət evində 4 dərnək fəaliyyət göstərir.Mədəniyyət evinin “Bənövşə”folklor rəqs kollektivi ümumrayon “Novruz” şənliyində,eləcə də digər tədbirlərdə fəal çıxış edir.

Ramal kənd Mədəniyyət evi - 1964-cü ildən fəaliyyət göstərir.Mədəniyyət evinin ümumi sahəsi 244kv.m,tamaşa zalında yerlərin sayı 250 nəfərlikdir.Mədəniyyət evində 42 nəfər həvəskarı öz ətrafında birləşdirən 4 dərnək fəaliyyət göstərir.Eyni zamanda Mədəniyyət evinin “Səməni”rəqs kollektivi öz ətrafında 12 nəfər yeniyetmə həvəskarı birləşdirir.Bu kollektiv mütamadi olaraq ümumrayon “Novruz”şənliklərində fəal iştirak etmişdir.

Qaradağlı kənd Mədəniyyət evi - 1959-cu ildən fəaliyyət göstərir. Mədəniyyət evinin ümumi sahəsi

960kv.m,tamaşa zalında yerlərin sayı 400 nəfərlikdir. Mədəniyyət evində 4 dərnək və 12 nəfər uşaq həvəskarı öz ətrafında birləşdirən "Lalələr"mahnı və rəqs kollektivi fəaliyyət göstərir.. Mədəniyyət evinin kollektivi rayonda keçirilən bədii özfəaliyyət kollektivlərinin ümumrayon baxış müsabiqələrinin qalibi olmuşdur.

Ucar Uşaq İncəsənət məktəbi - 1970-ci ildən musiqi məktəbi kimi fəaliyyətə başlamış və 1986-cı ildən Uşaq İncəsənət məktəbinə çevrilmişdir. Məktəb uşaq və yeniyetmələrə musiqi təhsili verməklə yanaşı, həm də onlara Milli musiqimizin inkişafında böyük xidmətləri olmuş dahi Ü.Hacıbəyovun, S.Hacıbəyovun, Niyazinin, F.Əmirovun, Q.Qarayevin, Ş.Məmmədovanın, eləcə də dünya musiqi korifeylərinin həyat və yaradıcılıqları da öyrədilir. Məktəb Mədəniyyət və Turizm Nazirliyinin keçirdiyi baxış və müsabiqələrdə,eləcə də rayonda keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirak edir. Hal-hazırda məktəbin 93 nəfərdən ibarət pedoqoji kollektivi vardır və onlar 392 nəfər şagirdə musiqi təhsili verməklə məşğuldur [13].

Azərbaycan KP MK birinci katibi Heydər Əliyevin 1969-1982-ci illərdə Azərbaycanın rayonlarına tez-tez səfər edib, zəhmətkeşlərlə görüşməsi ənənə halını almışdı. Bu görüşlər əhalidə böyük ruh yüksəkliyinin artmasına, məhsuldarlığın artmasına müsbət təsir göstərirdi. Səfər proqramı elə tərtib olunurdu ki, respublika rəhbəri qısa müddətdə bir deyil, bir neçə rayonda görüşlər keçirirdi. H. Əliyev belə səfərlərindən birini 29 may 1978-ci ildə Ucara, 3 iyun 1978-ci ildə Zərdaba etmişdi.

H. Əliyev Ucara qatarla getdiyinə görə dəmir yolu vokzalında təntənəli şəkildə qarşılanmışdır. Böyük Vətən müharibəsi iştirakçılarının şərəfinə ucaldılmış abidəni ziyarət edildikdən sonra H. Əliyev Ucar şəhər ictimaiyyətilə görüşərək Alpoud, Qaradağlı, Lək, Yuxarı Şilyan kəndlərində zəhmətkeşlərlə canlı toplantılar keçirib.





Ucar dəmir yolu stansiyasında qarşılanma mərasimi







Böyük Vətən müharibəsində həlak olanların şərəfinə ucaldılmış abidənin ziyarəti



Ucar rayon ictimaiyyəti ilə görüş



Alpout kəndi, heyvandarlıq kompleksində yaradılan şəraitlə tanışlıq



Lək kəndi, Sovet Azərbaycanı kolxozunda kənd zəhmətkeşləri ilə görüş



Lək kəndi Sovet Azərbaycanı kolxozunda kənd zəhmətkeşləri ilə görüş







Qaradağlı kəndi, Lenin adına kolxozunda əkin sahələrinə baxış







Yuxarı Şilyan kəndi, Moskva kolxozunda kənd zəhmətkeşləri ilə görüş [11]

Ucardan sonra Kürün növbəti dəfə daşması nəticəsində Zərdab şəhərinin köçürülməsi təhlükəsi yaranarkən H. Əliyev 3 iyun 1978-ci il tarixdə Ucarla qonşu olan Zərdab rayonuna səfər etmişdir.

Coğrafi mövqeyinə görə Ucarla qonşu olan Zərdab şəhəri Kür çayı ilə Qarasu çayının yaratdığı yarımadaya bənzər bir ərazidə yerləşdiyinə görə burada daşqın təhlükəsi daim mövcud olub. H. Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Zərdab şəhərinin Kür çayının daşqınlarından mühafizəsi sahəsində xeyli iş görülmüş, sahil bənd-bərkitmə işləri, beton üzlüklər çəkilməsi həyata keçirilmişdir. "Əkinçi" qəzetinin 3 iyun 1978-ci il tarixli sayında ulu öndərin Zərdaba səfəri haqqında aşağıdakı məzmunda məlumat verilmişdir: "Heydər Əliyev insanlarla çox mehriban görüşüb, onların qayğı və problemləri ilə maraqlandı. Ulu öndər təsərrüfatlarla tanışlığa da böyük diqqət verdi. Şəhərimizin girəcəyindəki 800 başlıq mal-qara, südçülük-əmtəə kompleksinə gəldi. Sonra isə 50 min başlıq quşçuluq kompleksində, daha sonra 1977-ci ildə istifadəyə

verilən 1600 başlıq mal-qara kökəltmə meydançasında oldu. Böyük yem zavodu da ölkə rəhbərinin diqqətini cəlb etdi.

H. Əliyev 70-80-ci illərdə Mərkəzin yeritdiyi siyasətin əksinə olaraq Azərbaycan dilinin qorunub saxlanmasına, onun dövlət dili kimi inkişafına ciddi fikir veriridi. Bu dövrdə Azərbaycan rəhbərliyinin milli dilin inkişafına göstərdiyi qayğısı öz nəticəsini verirdi. 1979-cu ildə Azərbaycan SSR-in əhalisinin 21,9%-i başqa millət və xalqlar təşkil edirdi ki, onların da 287 min nəfəri Azərbaycan dilində sərbəst danışırdı [14].

Bunu həmin dövrdə Ucar stansiyası yaranandan bura işləməyə gələn ruslarla yanaşı digər millət və xalqların varislərinin mütləq əksəriyyətinin Azərbaycan dilində sərbəst danışması da sübut edir. Məsələn, Ucar şəhər 2 saylı orta məktəb həmin dövrdə beynəlmiləl məktəb adlanırdı. Birinci sinifdən onuncu sinfə qədər mövcud olan 30 sinifdən, 20-si Azərbaycan, 10-nu rus sektoru idi. Rus sektorunda dərs deyən müəllimlərin və oxuyan şagirdlərin əksəriyyəti Azərbaycan dilində sərbəst danışırdı.

Ucar aqrar rayon olsa da 1969-1982-ci illərdə burada sənaye də inkişaf edirdi. Təsərrüfatda aparıcı sahə olan pambıqçılıq olduğundan burda yetişdirilən pambığı emal etmək üçün Pambıq zavodu fəaliyyət göstərirdi. Bundan başqa rayonda yetişdirilən meyvələrdən müxtəlif məhsullar istehsal edən Konserv zavodu var idi. Bu zavodun istehsal etdiyi "Nar şirəsi", "Nar şərab" lar hətta xarici ölkələrə də ixrac olunurdu.

Respublikanın digər ərazilərində olduğu kimi Ucarda da 1969-1982-ci illərdə mövcud olmuş iqtisadi yüksəliş sonrakı illərdə SSRİ-də həyata keçirilmiş "Yenidənqurma, aşkarlıq, demokratiya" siyasəti nəticəsində dayanmış, iqtisadi böhranla nəticələnmişdir. Bu siyasət nəticəsində Azərbaycanla Ermənistan arasında qızışdırılan Dağlıq Qarabağ münaqişəsi böyük faciələrə səbəb olmuşdu.

Ucar rayonun 1920-1991-ci illər sovet dövrü tarixinə yekun vurarkən bu dövrdə rayona rəhbərlik etmiş şəxslər

haqqında da qısa məlumat vermək fikrimizcə zəruridir. Sovet dövründə 50-ci illərdən başlayaraq Ucar rayonunun aşağıdakı şəxslər rəhbərlərlik etmişdir:

Rayon Partiya Komitəsinin birinci katibləri:

- Cəfər Cəfərov (1954–1957)
- Fərrux Hüseynov (1958–)
- Ağa Ağamirov
- Abbas Yolçuyev (1963–1965)
- Zülfüqar Abdullayev (1965–1970)
- Sərxan İsmayılov (1970–1981)
- Əhəd Kərimov (1981–1985)
- İrşad Əliyev (1985–1991)

Cəfər Hüseynqulu oğlu Cəfərov (2 iyul 1915, Təzəkənd, Naxçıvan qəzası – 27 iyun 1957) — Azərbaycan-sovet dövlət xadimi, Azərbaycan Kommunist Partiyası Ucar Rayon Komitəsinin birinci katibi (1954–1957), Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri (1951–1952), Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini (1949–1951).

Əmək fəaliyyətinə atası vəfat etdikdən sonra, 8 yaşında muzdur kimi başlamışdır. Doğulduğu kənddə kolxoz təşkil edilən zaman anası burada çalışmağa başlamış, beləliklə Cəfər Cəfərov kənd məktəbində təhsil ala bilmişdir. O daha sonra kəndli-gənclər məktəbində oxumuş, 1928-ci ildə isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu yanında fəhlə fakültəsini bitirmişdir.

Cəfər Cəfərov 1928-ci ildən komsomol üzvü olmuş, 1931-ci ildə Naxçıvan Rayon Komsomol Komitəsinin Təşkilat-təlimat şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmişdir. Ardınca o, Fəhlə-Kəndli Qırmızı Ordusunda hərbi xidmətdə olmuş, ordudan tərxis edildikdən sonra Naxçıvan Rayon Komsomol Komitəsinin birinci katibi, 1939-cu ildən Naxçıvan Rayon ZDS İcraiyyə Komitəsinin sədri, 1941–1943-cü illərdə Azərbaycan LKGİ Naxçıvan Vilayət Komitəsinin birinci katibi, 1943–1946-cı illərdə isə Azərbaycan LKGİ Mərkəzi Komitəsinin kadrlar üzrə katibi vəzifələrində çalışmışdır.

Cəfər Cəfərov 1946-cı ildə ÜİK(b)P MK yanında Ali Partiya Məktəbində oxumağa göndərilmiş və 1949-cu ilin sentyabr ayında bu məktəbi bitirmişdir. 1949–1951-ci illərdə Naxçıvan MSSR Nazirlər Soveti sədrinin birinci müavini, 1951-ci ildən Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri, 1952-ci ildən Bakı konyak kombinatının direktoru, 1953-cü ildən Azərbaycan Sovxozlar Trestinin müdir müavini vəzifələrində işləmişdir. 1954-cü ilin yanvar ayından həyatının sonunadək Azərbaycan Kommunist Partiyası Ucar Rayon Komitəsinin birinci katibi olmuşdur.

Cəfər Cəfərov IV çağırış Azərbaycan SSR Ali Sovetinin və III çağırış Naxçıvan MSSR Ali Sovetinin deputatı seçilmişdir. "Şərəf nişanı" ordeni, "Qafqazın müdafiəsinə görə" və "1941–1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalları ilə təltif edilmişdir. Müharibə dövründə Naxçıvan MSSR komsomolçularının müharibədə fəal iştirakındakı xidmətlərinə görə, eləcə də müharibə fonduna toplanan yardıma görə Stalin tərəfindən qızıl qol saatı ilə mükafatlandırılmışdır. Cəfər Cəfərov 27 iyun 1957-ci ildə vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur [4; 5].



Fərrux Əsgər oğlu Hüseynov - 1936-cı ilin fevralında Ermənistanın Zəngibasar rayonunun Şöllü Mehmandar kəndində doğulub. 1957-ci ildə Azərbaycan Politexnik İnstitutunun inşaat-mühəndis fakültəsini bitirib. 1958-ci ildə Ucar rayon partiya komitəsinin birinci katibi işləyib.1976-1978-ci illərdə Şuşa Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, 1978-1991-ci illərdə Dağlıq Qarabağ Muxtar Vilayəti Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsi sədrinin birinci müavini işləyib. Fərrux Hüseynov 2016-cı ilin iyulunda Bakıda vəfat edib.

Ağa Musa oğlu Ağamirov Şuşa şəhərində dünyaya göz açsa da, Ağdamda boy atmış, orta təhsilini burada başa vurmuş, sonra Azərbaycan Sənaye İnstitutuna daxil olmuş, əsgəri xidmətini başa vurub, Ağdama qayıtmış, rayon partiya komitəsində, Gəncə Vilayət Partiya Komitəsində təlimatçı işləmiş, müxtəlif vaxtlarda iki dəfə Azərbaycan KP MK-da məsul vəzifələrdə işləmiş, Bakıda partiya məktəbini bitirərək, yenidən Ağdam Rayon Partiya Komitəsinə təlimatçı vəzifəsinə göndərilmişdi. O sonralar Zərdab Rayon Partiya Komitəsinin ikinci katibi seçilmiş, daha sonra Ucar Rayon Partiya Komitəsində birinci katib olmuşdu. O, burada işləməklə yanaşı, qiyabi yolla Moskvada Ali Partiya Məktəbini bitirmişdi. 1963-cü ildən 1972-ci ilin may ayınadək Ağdam Rayon XDS İcraiyyə Komitəsinin sədr müavini işləmiş, nəhayət son iş yeri Ağdam Rayon Xalq Nəzarəti Komitəsinin sədri vəzifəsi olmuşdu [6].

Abbas Yunis oğlu Yolçiyev -1963–1965-ci illərdə Azərbaycan Kommunist Partiyasının Ucar Rayon Komitəsinin birinci katibi vəzifəsində çalışıb. O, sonralar Azərbaycan SSR-də həmkarlar ittifaqları sistemində rəhbər vəzifədə fəaliyyət göstərib və Azərbaycan SSR Ali Sovetinin deputatı olub.



Zülfüqar Səfər oğlu Abdullayev (1933, Şamxor) — Azərbaycan Kommunist Partiyası Mirbəşir Rayonvə Ucar Rayon Komitəsinin birinci katibi, Şamxor Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri.

1933-cü ildə kəndli ailəsində anadan olmuşdur, azərbaycanlıdır, 1957-ci ildən Sov.İKP üzvüdür, ali təhsili var – Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu və Azərbaycan KP MK yanında Ali Partiya Məktəbi bitirmişdir.

1951-ci ildən kolxozçu olmuşdur. 1953–1957-ci illərdə Kənd Təsərrüfatı İnstitutunda oxumuşdur. 1958–1959-cu illərdə maşın-meliorasiya dəstəsinin rəisi, 1960-cı ildən Şamxor Partiya Komitəsinin təlimatçısı, Şamxor Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri vəzifələrində işləmişdir. 1965-ci ildən Yevlax Kənd Təsərrüfatı İstehsalat İdarəsinin rəisi, Azərbaycan KP Ucar RK-nın birinci katibi vəzifələrində işləmiş, 1970-ci ildən isə Azərbaycan KP Mirbəşir RK-nın birinci katibi, Azərbaycan KP MK üzvlüyünə

namizəd olmuşdu.Yeddinci, səkkizinci və doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir (Dəmirçilər seçki dairəsi) [1].

Sərxan İsmayılov 1970-1981-ci illərdə Azərbaycan Kommunist Partiyası Ucar Rayon Komitəsinin birinci katibi vəzifəsində çalışıb. O, bu vəzifədən əvvəl, 1965–1970-ci illərdə Qubadlı Rayon İcraiyyə Komitəsinin sədri kimi fəaliyyət göstərib



Əhəd Əli oğlu Kərimov 1940-cı ildə indiki Ağdərə rayonunun Umudlu kəndində anadan olmuşdur. Çapar kənd orta məktəbini bitirdikdən sonra 3 il kolxozda işləmiş, Azərbaycan Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsinə qəbul olunmuşdur. Burada ikinci kursda oxuyarkən oxuduğu orta məktəbin Azərbaycan bölməsində müəllim işləmiş, bir ildən sonra əyani təhsilə keçərək əvvəlcə fakültə, sonuncu kursda isə universitetin komsomol təşkilatının katibi olmuşdur. Təyinatla Azərbaycan SSR Elmlər Akademiyasının Mexanika-Riyaziyyat İnstitutuna göndərilmiş, öz istəyi ilə Mərdəkandakı çətin tərbiyə olunan uşaqlar üçün açılmış xüsusi internat-məktəbdə

bir il tərbiyəçi, üç il yarım isə direktorun tərbiyə işlər üzrə müavini işləmişdir.

Azərbaycan Pedaqoji İnstitutunun Xankəndidə filialı açılan zaman burada müəllim ştatı üçün keçirilən müsabiqədə iştirak etmiş və 1970-ci ildə institutun komsomol təşkilatının katibi seçilmişdir. 1971-ci il noyabr ayında Azərbaycan LKGİ Dağlıq Qarabağ Muxtar Vilayət Komitəsinin ikinci katibi seçilmiş, 1975-ci ilin iyununda Şuşa Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri, həmin ilin dekabr ayında isə Azərbaycan Kommunist Partiyası Şuşa Rayon Komitəsinin birinci katibi vəzifələrinə irəli çəkilmişdir.

1980-ci ilin yanvar ayında Əhəd Kərimov Azərbaycan KP Laçın Rayon Komitəsinin, 1981-ci ilin oktyabr ayında Ucar Rayon Komitəsinin, 1985-ci ilin dekabr ayında isə Bərdə Rayon Komitəsinin birinci katibi işləmişdir. Paralel olaraq 1987-ci ilin noyabr ayında Azərbaycan SSR Ali Soveti sədrinin müavini seçilmişdir. 1991-ci ildə Azərbaycan öz müstəqilliyini elan edəndə Ali Sovetdə həmin iclasa sədrlik edib.

X və XI çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, Ali Sovetin Xalq maarifi və elm komissiyasının üzvü olmuşdur.Əhəd Kərimov 67 yaşında vəfat etmişdir [2; 7].



İrşad Nadir oğlu Əliyev (30 iyun 1944, Gürzallar, Qasım İsmayılov rayonu (indiki Goranboy rayonu))

İrşad Əliyev 1944-cü il iyunun 30-da Goranboy rayonu Gürzalılar kəndində anadan olmuşdur. 1970-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu, 1974-cü ildə Bakı Ali Partiya Məktəbini fərqlənmə diplomu ilə bitirmişdir.

Əmək fəaliyyətinə 1961-ci ildə başlamışdır. 1961–1966-cı illərdə bir çox müxtəlif siravi vəzifələrdə çalışmışdır. 1966–1970-ci illərdə rayon kənd texniki təminat birliyində çilingər, "Oraq-Çəkic" kolxozunda mexanik işləmişdir.

1970–1972-ci illərdə Azərbaycan LKGİ Şaumyan rayon (hazırda-Xətai rayonu) komitəsində ikinci katib, 1974–1980-ci illərdə Şaumyan rayon partiya komitəsində təlimatçı, 1980–1982-ci illərdə rayon partiya komitəsində ikinci katib, 1982–1983-cü illərdə Azərbaycan KP MK-də inspektor, 1983–1985-ci illərdə Azərbaycan Kommunist Partiyasının Balakən rayon komitəsinin birinci katibi, 1985–1991-ci illərdə Azərbaycan Kommunist Partiyasının Ucar rayon komitəsinin birinci katibi, 1991–1992-ci illərdə Azərbaycan Kommunist Partiyasının Goranboy rayon komitəsinin birinci katibi, sonra isə Goranboy rayon İcra hakimiyyətinin başçısı, 1992-ci ildə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi idarəetmə orqanları ilə iş şöbəsində məsləhətçi, 1992–1994-cü illərdə Azərbaycan Respublikasının Daimi yaşayış yerlərini məcburi tərk etmişlərlə iş üzrə Dövlət Komitəsinin sədri, 1994–2004-cü illərdə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri, 2005–2012-ci illərdə Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı, 2012–2014-cü illərdə isə Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrində çalışmışdır.XI–XII çağrış Azərbaycan SSR Ali Sovetinin deputatı olub.Yeni Azərbaycan Partiyasının üzvüdür. Ailəlidir, üç övladı var [3].

Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədrləri

- İskəndər Xudaverdiyev (1953–)
- Kamal Ağayev (1960–1962)
- Əlisaab Babayev (1963–1966)
- Əhməd Qurbanov

Bu rəhbərlər içərisində Ucarın Müsüslü kəndində anadan olmuş, Ucardan sonra Saatlı rayonun inkişafında mühüm rol oynamış, əhalinin böyük rəğbətini qazanmış Əlisaab Babayevin və Ucarın Qarabörk kəndində anada olmuş müxtəlif məsul vəzifələrdə çalışmış Kamal Ağayevin fəaliyyətləri xüsusi qeyd olunmalıdır.



Babayev Əlisaab Baba oğlu — Azərbaycan SSR Ali Sovetinin IX çağırış deputatı

Əlisaab Baba oğlu Babayev 1927-ci ilin mart ayının 10-da Ucar rayonunun Müsüslü kəndində qulluqçu ailəsində anadan olmuşdur. Orta təhsilini doğma kəndində aldıqdan sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinə qəbul olunmuşdu. 4 qız, 1 oğul övladı vardır.

1947-ci ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuş, 1951-ci ildə oranı bitirmişdir.

Fəaliyyəti haqqında

- 1951-ci ildən 1953-cü ilə kimi Müsüslü kənd məktəbində müəllim işləmişdir.
- 1953–1954-cü illərdə Ucar rayon Komsomol Komitəsinin ikinci katibi işləmişdir.
- Ə. B. Babayev 1954-cü ildə partiya işinə keçirilmişdir.
- Ucar rayonundakı Müsüslü MTS partiya təşkilatının katibi, Azərbaycan KP Ucar rayon Komitəsinin təlimatçısı, katibi və ikinci katibi olmuşdur.

• 1963-cü ildə Ucar rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri seçilmişdir. 1966-cı ilə kimi həmin vəzifədə çalışmışdır.

• 1966-cı ildə Sov. İKP. MK yanında Moskva Ali Partiya məktəbində oxumağa göndərilmiş, 1968-ci ildə həmin məktəbi bitirmişdir.

• 1968-ci ilin sentyabrından 1982-ci ilin mart ayına kimi Azərbaycan Kommunist Partiyası Saatlı rayon Partiya Komitəsinin 1-ci katibi vəzifəsində işləmişdir.

• 8-ci və 9-cu Çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

• Azərbaycan SSR Ali Sovetinin Mədəniyyət Komitəsinin üzvü, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi üzvlüyünə namizəd olmuşdur.

• Ə. Babayevin xidmətləri iki Qırmızı Əmək Bayrağı və Şərəf Nişanı ordenləri ilə qeyd edilmişdir. Ə. Babayev 1994-cü ildə may ayının 26-da Bakı şəhərində vəfat etmiş, doğulduğu Ucar rayonunun Müsüslü kəndində dəfn edilmişdir. Ucar rayonunun küçələrindən biri Əlsaab Babayevin adını daşıyır. Deyilənə görə, onun xoşladığı və tez-tez təkrar etdiyi bir kəlam varmış: Elə yaşayın ki, insanlar sizi görəndə sevinsin, görməyəndə darıxsın [8].

Əhməd Əli oğlu Qurbanov -1937- ildə anadan olub. Uzun illər Ucar rayon komsomol təşkilatının birinci katibi vəzifəsində çalışıb. Əlissab Babayevdən sonra 1966-cı ildən Ucar Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri olub. 1990–1995-ci illərdə Azərbaycan Respublikası Ali Sovetinin XII çağırış deputatları sırasında da yer almışdır. Deputat kimi Ucar rayonu üzrə 299 nömrəli Ucar şəhər seçki dairəsini təmsil etmişdir. Həmçinin, 5 fevral 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin birinci sessiyasının katibliyinin tərkibinə daxil edilmişdir



Kamal Ağayev

15 iyul 1930-cu ildə Ucar rayonunun Qarabörk kəndində anadan olub. Orta məktəbi bitirərək Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olub. 1952-ci ildə Universiteti müvəffəqiyyətlə bitirib və Dövlət Təhlükəsizlik Komitəsinə işə dəvət olunub. 1954-cü ilə kimi DTK-də müxtəlif vəzifələrdə işləyib, atasının ölümü ilə əlaqədar həmin ildə öz ərizəsi ilə DTK-dən istefa verib. Doğma rayonuna qayıdan Kamal Ağayev 1961-ci ilə kimi Ucarda müxtəlif vəzifələrdə (rayon komsomol komitəsinin I katibi, Rayon İcrayyə Komitəsinin sədri, Rayon Partiya Komitəsinin III katibi) işləyib.

1961-63-cü illərdə Moskvada Ali Partiya məktəbində təhsil aldıqdan sonra Qubadlı Rayon Partiya Komitəsinin 1-ci katibi seçilib və 1970-ci ilə kimi həmin vəzifədə işləmişdir. 1970-80-ci illərdə Cəbrayıl RPK-nin 1-ci katibi işləyib. 1980-ci ildən 2002-ci ilə kimi Bakı şəhərində bir sıra məsul vəzifələrdə (Ət-süd sənaye nazirliyində şöbə müdiri,"Bakmoloko" İB-də Baş direktor müavini, Respublika Kolxoz Bazarlarının baş direktoru, "Azərittifaq" Sənaye Birliyinin sədrinin müşaviri və s.). 2002-ci ildə təqaüdə çıxıb, 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə fəxri təqaüdə layiq

görülüb. Azərbaycan Parlamentinin 4 dəfə dalbadal (6,7,8 və 9-cu çağırış) deputatı seçilib. İşlədiyi dövrdə bir sıra dövlət mükafatları ilə, o cümlədən, 3 dəfə Qırmızı Əmək Bayrağı Ordeni, fəxri fərman və medallarla təltif edilib.
27 noyabr 2006-cı ildə Bakı şəhərində vəfat edib, Ucar rayonu Qarabörk kəndində dəfn edilib. [15]

İstifadə edilmiş ədəbiyyat

1. Abbasov Zülfüqar Səfər oğlu -Azərbaycan SSR Ali Sovetinin deputatları. Doqquzuncu çağrış. Bakı: Azərbaycan Dövlət nəşriyyatı. 1976, s. 14
2. Aqil Abbas. Əhəd Kərimovun ruhuna. Arxivləşdirilib 2022-02-21 at the Wayback Machine — *adalet.az*, 2008-08-03
3. Ağalarov Əlövsət Özünün memarı olan insan. https://www.azerbaijan-news.az/az/posts/detail/ozunun-memari-olan-insan-1719530513
4. Cəfərov C.H. Kommunist qəzeti. № 151 (10487). 29 iyun 1957-ci il s. 4.
5. Cəfərov Cəfər Hüseynqulu oğlu // Fəxri Xiyaban. Bakı: *Heydər Əliyev Fondu*. 2007. səh. 37.
6. Hüseynov B. Əsl insan ömrü. https://525.az/news/29660-esl-insan-omru
7. Məhərrəmov, Z. Sözün yaddaşı əbədidir. Bakı: Günəş. 2003. səh. 34–44.
8. Piriyev Q. İnsanlıq qalır bu dünyada https://525.az/?name=xeberprint&kecid=1&news_id=77659
9. Zülfüqarlı M.P İkinci Respublikanın tarixi (1920-1991-ci illər). Bakı: Mütərcim, 2020, 310 s.
10. Xalq qəz.
11. http://www.ucar-ih.gov.az/az/page/67.html
12. Fond 44. Opis 5. Delo xranitsya 249 xlopkooçistitelnıy zavod postroenı v sele Udjarı 1913-1916.
13. https://ok.ru/group/52046638350507/topic/6214222897 1691

14. Население СССР. Справочник, Москва 1983, 342 s.131
15. https://www.facebook.com/105689347739560/photos/a.105802051061623/217216543253506/?type=3
16. https://www.facebook.com/groups/1086097141506133/posts/2145555908893579

VII Ucar rayonu dövlət müstəqilliyinin bərpasından sonra (1991-2026-cı illər)

7.1. 1991-1993-cü illərdə Ucarda ictimai-siyasi vəziyyət

80-ci illərin ikinci yarısında, SSRİ-də "yenidənqurma" prosesi nəticəsində mərkəzdənqaçan qüvvələrin fəallaşdığı dövrdə SSRİ-ni dağıtmaq istəyən dövlətlər erməni amilindən bəhrələnməyə çalışdı. Bu məqsədlə Avropa parlamenti qondarma "Erməni genosidi" faktını 1987-ci il iyulun 18-də tanıdı. Erməni "genosidi" qurbanlarına xatirə günü təsis edildi [1,s.193]. Bununla da Qərb ölkələri erməni separatizminə dolayı yolla dəstək verdilər.

SSRİ-nin dağılması prosesində əsas amillərdən biri olan millətlərarası münaqişələr müxtəlif ərazilərdə baş versə də bunlardan ən güclüsü, böyük dövlətlər tərəfindən qızışdırılan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olmuşdu. Millətlərarası münaqişələrin qızışdırılmasında maraqlı olan qüvvələr SSRİ-nin müxtəlif ərazilərində eksperimentlər keçirərək məkrli niyyətlərini həyata keçirmək üçün Azərbaycanın Dağlıq Qarabağ ərazisinin SSRİ-nin digər ərazilərindən daha münasib ərazi olduğu qənaətinə gəldilər. Bundan sonra Moskavadakı havadarlarının köməkliyi ilə erməni separatçıları vasitəsilə 1988-cı ilin fevralından başlayaraq Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa qarşı təxribatlara başladılar.

Ermənilərin törətdikləri vəhşiliklərə etiraz olaraq Azərbaycanda başlamış milli-azadlıq hərəkatı nəticəsində

1991-ci ilin avqustunda Ali Sovetdə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında" qəbul olunmuş bəyannamə deklarativ sənəd olduğundan, tərkibində hüquqi normalar olan Konstitusiya qüvvəsinə malik normativ sənədə ciddi ehtiyac var idi. Gərgin mübarizədən sonra Azərbaycan Respublikası Ali Soveti 18 oktyabr 1991-ci il tarixdə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında‖" Konstitusiya Aktını qəbul etdi [2, s.113-114].

1991-ci ilin axırlarında Ermənistan və Rusiya arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" imzalandı. Beynəlxalq ictimaiyyət tərəfindən, demək olar ki, heç bir müqavimətə rast gəlməyən, Rusiyanın himayəsini açıq-aşkar hiss edən erməni millətçiləri və separatçıları daha da azğınlaşdılar. 1991-ci il avqustun 30-da prezidentin milli ordu deyil, milli qvardiya yaratmaq təklifi Ali Sovetdə keçmədi, milli özünümüdafiə qüvvələri yaratmaq haqqında qərar qəbul olundu. Noyabrın 19-da 22 rayon və şəhər özünümüdafiə taburu yaradılması haqqında əmr verildi. Tərkibi yerli əhalidən olan Qazax, Ağstafa, Ağdam, Kəlbəcər, Laçın, Şuşa, Qubadlı, Zəngilan, Cəbrayıl, Tovuz, Füzuli, Goranboy, Xanlar, Yevlax, Bərdə, Tərtər, Ucar, Gədəbəy və Şəmkir rayonlarında, Gəncə və Xocalı şəhərlərində, 1992-ci ilin fevralında isə Ağcabədi və Beyləqanda ərazi özünümüdafiə taburları yaradıldı. Mart ayında Füzuli, Şəmkir özünümüdafiə taburları, Bakı, Gəncə, Laçın, Göyçay, Ucar, Ağdam və Mingəçevirdə xüsusi təyinatlı reyd dəstələri təşkil olundu. Bu qüvvələr müvəqqəti hesab olunur, yerli imkanlar hesabına saxlanırdı. Silah, sursat, təcrübəli hərbçilər çatışmırdı [1,s.240].

1991–1992-ci illərdə Azərbaycanın müxtəlif rayonlarında olduğu kimi Ucar rayonunda da könüllü taburu yaradılmışdır. Ucar özünümüdafiə taburu düşmənə qarşı döyüşlərdə böyük iğidliklər göstərsələr də onların fəaliyyəti haqqında yazılı ədəbiyyatda təəssüf ki, çox az məlumat mövcuddur. Lakin bəzi sosial şəbəkələrdə olan məlumatlar onların qəhrəmanlıqları haqqında təsəvvür yaratmağa imkan verir. Ucar batalyonunun

döyüşçüləri əsasən Ağdam istiqamətində ən ağır döyüşlərdə, Füzuli rayonu**n** müdafiə və əks-hücum əməliyyatlarında

Füzuli rayonunun müdafiə və əks-hücum əməliyyatlarında, Tərtər və Goranboy bölgələri və digər ərazilərdə gedən döyüşlərdə iştirak etmişdir. 1992-ci ilin iyun ayında Ucar batalyonu Tərtər-Ağödərə cəbhəsində, Tərtərin Əskipara kəndindəki fəaliyyətinə aid sosial şəbəkələrdə qısa video çəkiliş mövcuddur [5].

Azərbaycan Respublikasında, o cümlədən Ucar rayonunda əsrin əvvəllərində istehsal edilmiş, lakin sonradan unudulmuş Biyan bitkisinin yenidən istehsalı və emalı 1992-ci ildə Ucar və ətraf rayonlarda bərpa olundu. Prezidentin 20 noyabr 1992-ci il fərmanı ilə Azərbaycan Respublikasının "Biyan" İstehsalat Birliyi yaradıldı [3]. Sonradan, 2008-ci il sentyabrın 26-da Saatlı rayonunda "Biyan Məhsulları İstehsalı" zavodunun, 2019-cu il oktyabrın 28-də Ağdaşda "Biyan Products" MMC-yə məxsus Biyan Sənaye Parkının açılışı olub. [4]

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci il-lər). Bakı. "Elm". 2008. 608 səh. + 48 səh. illüstrasiya.
2. Zülfüqarlı M.P. Azərbaycanı kimlər idarə edib? (may 1918- oktyabr 2003).Bakı, Qanun nəQriyyatı,2006, 135s.
3. https://e-qanun.az/framework/8033
4. https://apa.az/social/agdasda-biyan-senaye-parkin in-acilisi-olub-556719
5. https://www.youtube.com/shorts/flDT3Z0fwU8



7.2. Ucar rayonu 1993-2026-cı illərdə

1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın ictimai-siyasi həyatında həlledici dönüş baş verdi, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırıldı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı.

Belə gərgin vəziyyətdən başlayaraq Ucar rayonuna müxtəlif icra başçıları rəhbərlik etsə də sosial şəbəkələrdə, mətbuatda onların bəziləri haqqında məlmatlar məhdud, bəziləri haqqında məlumatlar yox dərəcəsindədir. 1992-ciildən başlayaraq aşağıdakı İcra Başçıları rayona rəhbərlik etmişlər:

- Beydulla Abdullayev (1992–1993)
- Rəşid Mehdiyev (1994–2000)
- Nəriman Gülüşov (2000–2005)
- Arzu Qafarov (2005–2010)
- Yaşar Məmmədov (2010–2015)
- Mənsur Məmmədov (2015–)

Abdullayev Beydulla Məhəmməd oğlu 2 iyul 1954-cü ildə Ucar rayonu Bərgüşad kəndində anadan olmuşdur. O, 1971-ci ildə Bərgüşad kənd orta məktəbini bitirmiş, 1973-cü ildə Azərbaycan Dövlət Universitetinin "Tarix" fakültəsinə qəbul olmuşdur. 1978-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra, 1978-1982-ci illərdə Ucar rayonu Bərgüşad kənd orta məktəbində tarix müəllimi, 1982-85-ci illərdə Bakı 5 saylı ŞTPM-də tərbiyəçi müəllim, 1985-92-ci illərdə isə Azərbaycan Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunda elmi işçi vəzifələrində işləmişdir. Beydulla Abdullayev 1992-93-cü illərdə Ucar rayonu icra hakimiyyətinin başçısı vəzifəsini tutmuşdur. 2006-cı ildən Bakı Qızlar Universitetində baş müəllim vəzifəsində çalışır [19].

Nəriman İbiş oğlu Gülüşov — 2000–2005-ci illərdə Ucar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb. O, bu vəzifəyə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 26 iyul 2000-ci ildə təyin olunub [10].

Arzu Telman oğlu Qafurov - (2005–2010)Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərancamı ilə 29 mart 2005-ci il Ucar Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib [11; 13].

Yaşar Qəhrəman oğlu Məmmədov – (2010–2015) -Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərancamı ilə 5 aprel 2010-ci il Ucar Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib [12; 13].



Mənsur Həmzə oğlu Məmmədov - 20 aprel 1965-ci ildə Ucar rayonunun Qazıqumlaq kəndində anadan olmuşdur 1989-cu ildə Azərbaycan Politexnik İnstitutunun mühəndis-texnoloq ixtisası üzrə bitirmişdir. 29 mart 2005-14 dekabr 2007-ci il tarixlərində Zərdab rayon İcra hakimiyyətinin başçısı, 14 dekabr 2007—27 yanvar 2015-ci il tarixinə kimi Göyçay İcra hakimiyyətinin başçısı vəzifələrinfə çalışıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 yanvar 2015-ci 1007 saylı sərəncamı ilə Ucar rayon İcra hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdir. Hal-hazırda Ucar rayon İcra hakimiyyətinin başçısı vəzifəsində fəaliyyətini davam etdirir [5].

Ucar rayonun əhalisinin ümumi sayı 01 yanvar 2026-cı ilə olan məlumat görə əhalinin ümumi sayı 85918 nəfər**,** kişi - 42415 nəfər (49,37 %), qadın - 43503 nəfər (50,63%).

Şəhər əhalisinin sayı 17198 nəfər (20,02 %) kişi - 8120 nəfər (47,21 %), qadın - 9078 nəfər (52,79 %).

Kənd əhalisinin sayı 68720 nəfər (79,98 %) **,** kişi -34295 nəfər (49,91 %), qadın -34425 nəfər (50,09 %).

Əhalinin orta sıxlığı 103 nəfər. Ali təhsilli əhalinin sayı, (5,70 %) 4849 nəfər (2019-cu il siyahıyaalmasına görə).

Orta ixtisas təhsilli əhalinin sayı, (5,34 %) 4539 nəfər (2019-cu il siyahıyaalmasına görə).

Məskunlaşmış məcburi köçkünlərin sayı 756 nəfər,o cümlədən məcburi köçkün ailələrin sayı 221 nəfər. Məskunlaşmış qaçqınların sayı 41 nəfər [12].

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra Ucar əhalisinin milli tərkibində köklü dəyişik baş vermişdi. 2019-cu il siyahıya alınmasına görə rayon əhalisinin milli tərkibində azərbaycanlılar 99,96 % təşkil etmişdir. Rayonda bu zaman cəmi 17 nəfər milli azlıqların nümayəndəsi yaşamışdır ki, onlardan da 8-i rus, 1- i ukraynalı, 2-si axiska türkü, 1-i tatar və 6 nəfər isə digər millət və xalqların nümayəndəsi idi [1].

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra digər ərazilərdə olduğu kimi Ucar rayonunda da sovet dövründə qalmış, xalqa zidd olan adların dəyişdirilməsi prosesi baş vermişdi. Azərbaycan xalqına düşmən olmuş, XI işğalşı rus ordusnun rəhbərlərindən biri Kirovun adını daşıyan Kirovkəndin adının 12 fevral 2008-ci il tarixdə Ənvər Məmmədxanlı adı ilə əvəz edilməsi buna misal ola bilər

Rayona Ucar şəhəri, Əlikənd, Müsüslü qəsəbələri və Qazıqumlaq, Məlikballı, Əlikənd, Ramal, Şahlıq, Qaradağlı, Çiyni, Alpout, Qarabörk, Gəraybəyli, Rəstəcə, Qazyan, Lək, Xələc, Boyat, Bağban, Yuxarı Şilyan, Bərgüşad, Müsüslü, Təzə Şilyan, Pirkənd, Qaracallı, Küçəkənd, Ənvər Məmmədxanlı, Türkəci, Güləbənd, Alpı, Bağırbəyli, Çiyni kəndləri daxildir.



Ucar rayonu 2004-2008 -ci illərə aid təsərüfatın bütün sahələri, təhsil, səhiyyə və s. sahələr üzrə bütün faktlar Pərviz Sadayoğlunun "Günü-gündən inkişaf edən və gözəlləşən UCAR..." məqaləsində öz əksini tapıb. Məqalədə qeyd olunur ki, Dövlət proqramının icrasını təmin etmək üçün Ucar rayon İcra Hakimiyyəti tərəfind ən 2004-2008-ci illər ərzində ardıcıl tədbirlər həyata keçirilib.

Şəhərin Heydər Əliyev,Nərimanov, Azərbaycan, Məhəm məd Əmin Rəsulzadə və Oğuz küçələrinin işıqlanmasını təmin etmək məqsədilə 4,3 kilometr uzunluğunda elektrik verili şi xətləri və dirəkləri yenisi ilə əvəzlənir.

Bununla yanaşı,20 Yanvar küçəsində əhali üzrə sayğaclaş ma 98,7 faizə çatdırılıb. Əhalinin təbii qazla təminatının daha d a yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilib.

Bu dövrdə rayonun içməli su probleminin həlli istiqamətində də mühüm addımlar atılıb. Rayon mərkəzində, Ucar şəhərinin ayrı-ayrı küçələrində müxtəlif diametrli su xətlərinin 8913 paqonmetrlik hissələri dəyişdirilib, 200 tonluq su qülləsi əsaslı təmir olunaraq istifadəyə verilib. Bu tədbirlərlə yanaşı, "Potu" su mənbəyində 3 ədəd subartezian nasosu əsaslı təmir edilib, 1 ədəd yeni subartezian nasosu quraşdırılıb, 1 ədəd gücü saatda 65 ton olan yeni subartezian quyusu istifadəyə verilib.

Keçən dövr ərzində rayon ərazisində görülmüş tədbirlər nəticəsində bir sıra istehsal və emal müəssisələrinin yaradılmasına da nail olunub. "Müsüslü-Quşçuluq" və "Ucar-Broyler" quşçuluq fabrikləri özəlləşdirilərək bərpa olunub. Rayonda emal sənayesini inkişaf etdirmək üçün "Ucar-Konserv" ASC-nin nəzdində yeni istehsal sexi, şəhərin Ş.Fərzəliyev küçəsində "Saniyə" MMC yaradılıb, rayonun Boyat kəndində "Ucar-Konserv" Məhdud Məsuliyyətli Cəmiyyəti, Qazyan kəndində yeni konserv sexi fəaliyyətə başlayıb.

Rayonda abadlıq-quruculuq işlərinə də xüsusi diqqət yetirilir. Ümumilikdə, küçə və meydanlara 10,000 kvadratmetrdən çox döşəmə plitəsi, 3000 kvadratmetrdən çox üzlük plitə, 800 kvadratmetrdən çox mərmər plitə vurulub, 600 kvadratmetrdən çox metal məhəccər, Heydər Əliyev, Oğuz küçələrində 1395 kvadratmetr milli ornamentli beton məhəccər çəkilib, 15000 kvadratmetrdən çox rəngləmə işləri aparılıb. Bundan başqa, 2000 kvadratmetrdən çox piyada yolu təmir olunub, 20 Yanvar küçəsində 2200 metr uzunluğunda açıq kanalizasiya xəttinin hər iki tərəfi betonlanıb, Heydər Əliyev, Oğuz, N.Nərimanov, Azərbaycan küçələrinin işıqlanması sistemi qurulmuş, şəhərin küçələrində yeni işıqforlar quraşdırılıb. 21 ictimai yaşayış binasının 15540 kvadratmetr dam örtüyü dəyişdirilib, tarixi abidə olan "Su qülləsi" bərpa edilib, şəhərin Azərbaycan və M.Ə.Rəsulzadə küçələrinin kəsişməsində "Ay-Ulduz" rəmzli qüllə ucaldılıb, Şəhidlər Xiyabanında yenidənqurma işləri aparılıb. Rayonun Göyçay və Zərdab istiqamətlərindən giriş hissələri yenidən qurulub, şəhərin giriş qapısı ucaldılıb, rayon mərkəzində və Qazıqumlaq kəndində Heydər Əliyev parkı, parkda əlavə əyləncə və istirahət guşələri, Ucar şəhərində Heydər Əliyev muzeyi sakinlərin ixtiyarına verilib [3].

Ucarda əhalinin maarifləndirilməsi istiqamətində hər il müxtəlif konfranslar, seminarlar keçirilir. Bunlardan "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca

istiqamətləri” mövzusunda 24 aprel 2017-ci il tarixdə keçirilmiş seminar-müşavirəni misal göstərmək olar.

Aprelin 24-də Ucar şəhərindəki Heydər Əliyev Mərkəzində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Ucar Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri” mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Ucar RİH başçısının müavini Şəhla Abdullayeva, Ucar RİH başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini - dini qurumlarla işin təşkilatçısı Məhəmməd Bayramov, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsinin əməkdaşları, dini icma sədrləri, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Müşavirəni Ucar RİH başçısının müavini Şəhla Abdullayeva açaraq qeyd edib ki, bu gün dünyada islamofobiyanın baş alıb getdiyi bir dövrdə Azərbaycanda “İslam Həmrəyliyi İli” elan edilməsi dünyada birliyə çağırış rolunu oynayır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətlərinin sağlam prinsiplər üzərində qurulduğunu deyib. O bildirib ki, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edilməsində əsas məqsədlərdən biri də İslam həmrəyliyində Azərbaycanın özünəməxsus rolunu gücləndirməkdir. IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır.

Səyyad Salahlı İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri barədə dini icma sədrlərinə tövsiyələrini verib. O, bildirib ki, dini-mədəni irsin

məhvi prosesləri kimi təhdidlərdən İslam dünyası, ümumən bəşəriyyət yalnız səylərin birləşdirilməsi, həmrəylik, dinlər arasında əməkdaşlıq sayəsində xilas ola bilər. Sonda seminar-müşavirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb [16].

Ucar Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 11 dekabr 2021-ci il tarixində Ucar Rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda konfrans keçirilib [18].

Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi 11 iyul 2023-cü il tarixdə Ucarda "Ulu Öndər Heydər Əliyev irsi milli sərvətimizdir" mövzusunda tədbir keçirilib [17].

Bu cür tədbirlər sonrakı illərdə də mütəmadi olaraq keçirilib. Heydər Əliyev Fondu respublikamızın bütün bölgələrində, o cümlədən Ucar rayonunda ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ciddi layihələr həyata keçirir.

Fondun təşəbbüsü ilə rayonun iri yaşayış məntəqələrindən olan Alpı kəndində 200 yerlik orta məktəb binası inşa olunub. Müasir memarlıq üslubunda tikilən, hər cür şəraiti olacaq məktəb binası kənddə təhsilin müasir standartlar səviyyəsində qurulmasına imkan verir. [2]

Dövlət siyasətinin əsas prioritetlərindən biri də mədəniyyət ocaqlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, ədəbi və elmi-fəlsəfi irsin qorunub saxlanılmasından ibarətdir.

01 yanvar 2023-cü il mədəni-maarif müəssisələrinin sayı dəyişməmiş, əhaliyə 17 mədəniyyət evi, 7 klub, 40 kitabxana, Heydər Əliyev Mərkəzi, 1 Tarix-Diyarşünaslıq Muzeyi, 1 Uşaq İncəsənət Məktəbi vasitəsilə mədəni xidmət göstərilmiş, Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin Ucar rayonu üzrə nümayəndəliyi tərəfindən rayonda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin xətti ilə bir sıra tədbirlər hazırlanıb həyata keçirilmişdir.

01 yanvar 2023-cü il vəziyyətinə rayonda 245942 ədəd kitab fondu olan 38 kütləvi kitabxana əhaliyə xidmət edir.

Onların 35-i kənd yaşayış məntəqəsində, 3-ü isə rayon mərkəzindədir.

01 yanvar 2023-cü il vəziyyətinə kitabxana fondu 245942 nüsxədən ibarət olmuşdur.

01 yanvar 2023-cü il vəziyyətinə rayonda 2 muzey - Heydər Əliyev Mərkəzi və Tarix-Diyarşünaslıq muzeyi daimi fəaliyyətdədir.

Heydər Əliyev Mərkəzində 273 ədəd, Tarix-Diyarşünaslıq muzeyində isə 3185 ədəd əsas fond eksponatları vardır.

Rayonda 3 istirahət parkı fəaliyyət göstərir. Rayonda qeyd olunan el bayramları, tarixi və əlamətdar günlərin əksər hissəsi rayonun mədəniyyət kollektivlərinin yaxından iştirakı ilə keçirilmiş, bu tədbirlər bədii özfəaliyyət kollektivlərinin konsert proqramları ilə yekunlaşmışdır.

2023-cü ildə rayon əhalisinə rayon Mədəniyyət Mərkəzi, 2 Diyarşünaslıq evi, 5 Folklor evi, 9 Mədəniyyət evi, 6 klub, 1 Diyarşünaslıq klubu, 38 kitabxana, Heydər Əliyev Mərkəzi, 1 Tarix-Diyarşünaslıq Muzeyi, 1 Uşaq İncəsənət Məktəbi vasitəsilə mədəni xidmət göstərilmişdir.

Rayon mədəniyyət və folklor evlərində, klublarda əhalinin asudə vaxtının səmərəli təşkili məqsədilə tarixi və əlamətdar günlərlə əlaqədar keçirilmiş tədbirlər şöbənin daim diqqət mərkəzində saxanılmış, Heydər Əliyev Mərkəzində, rayon Mədəniyyət Mərkəzində və digər müxtəlif yerlərdə belə tədbirlərin keçirilməsi təmin edilmişdir [15].

Ucar rayon ərazisindəki abidələr aşağıdakılardır:

1. Ulu Öndər Heydər Əliyevin heykəli. Heykəl rayonun Qazıqumlaq kəndindəki Heydər Əliyev parkında ucaldılmışdır.
2. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin heykəli. Abidə Ucar dəmir yolu vağzalının qarşısında 2006-cı ildə ucaldılmışdır.
3. Ulu Öndər Heydər Əliyevin heykəli.Heykəl rayonun Qazıqumlaq kəndindəki Heydər Əliyev parkında 2006-cı ildə ucaldılmışdır.

4. Ulu Öndər Heydər Əliyevin büstü. Büst Heydər Əliyev Mərkəzində 2011-ci ildə ucaldılmışdır.

5. Ulu Öndər Heydər Əliyevin büstü. Büst Ucar rayonu Qazıqumlaq kəndində 1 № -li orta məktəbdə ucaldılmışdır.

6. Ulu Öndər Heydər Əliyevin büstü. Büst Ucar rayonu Qazıqumlaq kəndində 2 № -li orta məktəbdə 2005-ci ildə ucaldılmışdır.

7. Görkəmli oftolmoloq, akademik Zərifə Əliyevanın büstü. Büst rayonun Qazıqumlaq kəndindəki Zərifə Əliyeva adına xəstəxananın qarşısında 2006-cı ildə ucaldılmışdır.

8. Azərbaycanın böyük yazıçısı, ictimai və siyasi xadim N. Nərimanovun heykəli. Abidə Ucar şəhər 1 saylı məktəb-liseyin qarşısında ucaldılmışdır. Abidə 1990-1992-ci illərdə tikilmiş,texniki cəhətdən yararlıdır.

9. XV-XVI əsrlərə aid nekropol. Nekropol rayonun Bərgüşad kəndindəki qədim qəbiristanlığın ərazisində yerləşir.

10. 1941-1945-ci illər Böyük Vətən Müharibəsində həlak olanların xatirəsini əks etdirən abidə. Abidə rayon Mədəniyyət evinin qarşısında ucaldılmış və 1976-cı ildə inşa edilmişdir. Abidənin texniki vəziyyəti normaldır. 2005-ci ildə yenidən qurulmuşdur.

11. 1941-1945-ci illər Böyük Vətən Müharibəsində həlak olanların xatirəsini əks etdirən abidə. Abidə RİHB-nın Əlikənd kənd üzrə ərazi nümayəndəliyinin həyətində yerləşir. Abidə 1986-1987-ci illərdə inşa edilmişdir. Abidə texniki cəhətdən normaldır.

12. "Şəhid anası" adlı monumental abidə. Abidə Ucar şəhərində "Şəhidlər Xiyabanı"nda ucaldılmışdır. Abidə 1994-ci ildə tikilmişdir.

13. 416-cı Taqanroq Diviziyasının xatirəsinə ucaldılmış abidə. Abidə 3 saylı şəhər orta məktəbinin həyətində yerləşir. Abidə texniki cəhətdən normaldır. 1976-1978-ci illərdə inşa edilmişdir.

14. "Naməlum əsgərin" xatirəsini əks etdirən monumental abidə. Abidə Ucar pambıq zavodunun ərazisində

yerləşir. Abidə 1981-1982-ci illərdə inşa edilmişdir. 2010-cu ildə yenidən qurulmuşdur. Abidə texniki cəhətdən yararlıdır.

15. "Su qülləsi" abidəsi. Abidə Dəmir Yolu vağzalının ərazisində yerləşir. Abidə 1949-1950-ci illərdə inşa edilmişdir və texniki cəhətdən yararlıdır.

16. "Su qülləsi" abidəsi. Abidə şəhərin Ş.Fərzəliyev küçəsində yerləşir. Abidə 1953-1954-cü illərdə inşa edilmişdir və texniki cəhətdən yararlıdır.

Rayonda "Yeni söz" rayon qəzeti dərc edilir. "Yeni söz" ictimai-siyasi qəzetdir. Əsası 1941-ci ildə qoyulmuş və rayon Partiya Komitəsinin orqanı olmuşdur. Hazırda ayda bir dəfə 300 nüsxə ilkə dərc edilməklə ictimai-siyasi qəzetdir.

Qəzetin ayrıca 2 mərtəbəli redaksiya binası vardır. Bina birtipli layihə əsasında tikilmişdir. Rayonda radio, televiziya və digər kütləvi informasiya vasitələrinin rayon təşkilatları fəaliyyət göstərmir [15].

Prezident İlham Əliyev regionlara səfər çərçivəsində 29 iyun 2006-cı il, 30 oktyabr 2011-ci il və 06 oktyabr 2015 -ci il tarixlərində Ucar rayonunda səfərdə olub. Birinci səfərdə dövlətimizin başçısı Ucarda Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 iyun 2006-cı il tarixdə Ucara gəlişi ilə əlaqədar Heydər Əliyev muzeyi açılmışdır. Muzey Ulu Öndərin adını daşıyan parkda müasir memarlıq üslubunda inşa edilmişdir və 2011-ci ilin oktyabr ayının 30-da ikinci dəfə Ucara gələn cənab Prezident İlham Əliyevin iştirakı ilə açılmış "Heydər Əliyev" Mərkəzinə köçürülmüşdür. Binanın geniş salonunda görkəmli dövlət xadimi və siyasi xadim Heydər Əliyevin həyat və fəaliyyətinin ayrı-ayrı dövrlərini, o cümlədən xarici ölkələrə səfərlərini əks etdirən fotoşəkillər toplanmışdır.Muzey Ulu öndər Heydər Əliyevin 1978-ci ildə Ucar rayonuna gəlişinə həsr olunmuş ayrıca bölmə var. Muzey həm də Heydər Əliyevin zəngin irsinin öyrənilməsində ideoloji mərkəz rolunu oynayır. Məktəblilər, rayona gələn qonaqlar burada Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı geniş məlumat əldə edirlər.

Ucar rayon Heydər Əliyev Mərkəzi Milli memarlıq elementlərindən istifadə olunmaqla ucaldılan Mərkəzin ünumi sahəsi 5270kv.m.olmaqla 3 mərtəbədən ibarətdir.

Mərkəzdə 383 kv.m.sahəsi olan otaqda Ümummilli Liderin zəngin irsinə həsr olunmuş ekspozisiya zalı,bu zalda Ulu öndərin irsini gələcək nəsillərə çatdırmaq üçün 2 virtual tədris sinifi,kitabxana, Ümummilli Liderə aid sənədlərin saxlandığı xüsusi guşə yaradılıb.

Mərkəzdə 36 kv.m.sahəsi olan otaqda xalçaçılıq, 20 kv.m.sahəsi olan otaqda xarici dillər, 42 kv.m.sahəsi olan otaqda rəsm, 20 kv.m.sahəsi olan otaqda foto studiyalar və 138 kv.m.olan otaqda internet klub fəaliyyət göstərir.

Mərkəzdə xüsusi dizaynerlə yaradılmış 383 kv.m. sahəsi olan 208 nəfərlik akt zalı və 180 kv.m. sahəsi olan 60 nəfərlik konfrans zalında rayon və respublika əhəmiyyətli tədbirlər keçirilir.

Mərkəzdə 190 kv.m. sahəsi olan rəsm qalereyası fəaliyyət göstərir.

Heydər Əliyev Mərkəzinin qarşısında 3 hektara yaxın sahədə xüsusi ornament və kompozisiya ilə qurulmuş parkda Ulu öndərin əzəmətli heykəli ucaldılıb [4].





İlham Əliyev Ucarda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir. 30 oktyabr 2011 [6]

Prezident İlham Əliyev 06 oktyabr 2015-ci il tarixdə baş tutan səfərinfə Ucar şəhərinin su təchizatı sisteminin yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə iştirak edib.



Prezident İlham Əliyev Ucar ictimaiyyətinin nümayəndələri ilə görüşdə geniş məruzə ilə çıxış edib:

"Ucar rayonunda olmağımdan çox məmnunam. Şadam ki, Ucar rayonu uğurla, sürətlə inkişaf edir. Bir neçə il bundan əvvəl burada bir sıra açılışda iştirak etmişəm, o cümlədən

Heydər Əliyev Mərkəzinin açılışında. O vaxtdan bu günə qədər rayon çox sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır, binalar tikilir, parklar salınır. Bu, məni çox sevindirir. Çünki mən çox istəyirəm ki, Azərbaycanın hər bir rayonu abad, gözəl olsun, şəhərlər gözəlləşsin, insanlar üçün bütün lazımi şərait yaradılsın. Şadam ki, Ucar rayonunun siması sürətlə dəyişir və gözəlləşir.

Eyni zamanda, rayonun bütün sosial və infrastruktur layihələri də uğurla icra edilir. Onların arasında, əlbəttə, içməli su layihəsi birinci yerdədir. Çünki təmiz içməli su insan sağlamlığı üçün əsas şərtdir. Bildiyiniz kimi, içməli su və kanalizasiya layihələrinin icrası ölkəmizdə çox geniş vüsət almışdır. Bir neçə il bundan əvvəl qarşıya vəzifə qoyulmuşdur ki, hər bir şəhərimizin içməli su və kanalizasiya problemi həll olunsun. Artıq bir müddətdir ki, Ucar şəhərinin içməli su problemi öz həllini tapıb. Gözəl, təmiz su mənbəyindən su verilir. Mənə verilən məlumata görə, bütün evlərin su təminatı artıq təşkil edilibdir. Bu, böyük tarixi nailiyyətdir. Çünki Azərbaycanda bütün dövrlərdə içməli su problemi çox ciddi problem olaraq qalmışdır. Sovet dövründə müəyyən işlər görülmüşdür. Ancaq biz bu məsələni tam şəkildə həll edə bilməmişdik. Siz də yaxşı bilirsiniz ki, vaxtilə fasilələrlə, sutkada bir neçə saat su verilirdi, ya verilmirdi. İndi isə bu problem aradan götürülüb. Əminəm ki, 2-3 il ərzində bütün başqa rayonlarda da bu məsələ öz həllini tapacaq. Çünki bir çox rayonlarda artıq bu, həll olunubdur. Ucar rayonunda təkcə şəhərə deyil, eyni zamanda, 15 yaşayış məntəqəsinə də, kəndlərə də su verilir. Kanalizasiya layihəsi isə 2017-ci ildə başa çatacaq və beləliklə, bu məsələ tamamilə aradan götürüləcəkdir.

Digər infrastruktur layihələri icra edilir. Bu ilin sonuna qədər qazlaşdırma tam şəkildə təmin ediləcəkdir, təxminən 90 faizə çatacaqdır. Bu da böyük nailiyyətdir. Çünki əvvəlki illərdə qazlaşdırma çox aşağı səviyyədə idi, hətta rayon mərkəzinin özü qazsız qalmışdı. Bu gün isə demək olar ki, bütün kəndlərə qaz xətləri çəkilir və bu da böyük nailiyyətdir.

Çünki bu, həm insanlara rahatlıq verir, həm də qazdan istifadə etmək iqtisadi cəhətdən daha səmərəlidir.

Elektrik enerjisi layihələri, xüsusilə "Azərişıq" təşkil olunandan sonra daha da sürətlə aparılır. Kənd yolları tikilir. İndi Bakı-Ucar magistral yolu tikilir, az hissəsi - Kürdəmir-Ucar hissəsi qalıb ki, o da yaxın zamanlarda başa çatacaq. Göyçay-Ucar avtomobil yolu bu gün istifadəyə veriləcək.

Ucar rayonunda sosial obyektlər yaradılır, Gənclər Mərkəzi tikilib, parklar salınır. Yəni, Azərbaycan belə inkişaf etməlidir, hər bir yerdə quruculuq, abadlıq aparılmalı və sosial inkişaf olmalıdır. Sosial sahə insanları ən çox maraqlandıran və bəzi hallarda narahat edən bir sahədir. Bu gün yeni Rayon Mərkəzi Xəstəxanasının açılışını da qeyd etdik. Xəstəxana göz oxşayır, ən yüksək dünya standartlarına cavab verir. Burada şərait də, avadanlıq da ən yüksək səviyyədədir.

Bax, bizim yanaşmamız bundan ibarətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı üçün nə lazımdırsa, o da olmalıdır. Amma buna nail olmaq üçün əlbəttə ki, iqtisadiyyatımız daha da güclü olmalıdır, daha da sürətlə inkişaf etməlidir. Regionların inkişaf proqramının məqsədi məhz bundan ibarətdir ki, bölgələrdə, kəndlərdə, qəsəbələrdə, rayon mərkəzlərində lazımi şərait yaradılsın, insanlar rahat yaşasınlar, iş yerləri açılsın, yaxşı məvacib alsınlar, biznes imkanları genişlənsin. Deyə bilərəm ki, bizim bu əsas prioritet istiqamətlər Ucar rayonunun timsalında öz əksini tapır.

Bu gün quşçuluq fabriki ilə tanış oldum. Çox müasir bir sənaye müəssisəsidir. Həm iş yerlərinin yaradılması, həm yerli istehsalın gücləndirilməsi və ən əsası odur ki, biz indi özümüzü ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Bu fabrik işə düşəndən sonra biz özümüzü quş əti ilə 100 faiz təmin edirik. Amma 10 il bundan əvvəl heç özümüzü 50 faiz də təmin etmirdik. Xaricdən asılı idi, idxaldan asılı idi, xaricə pul ödənilirdi. İndi pul Azərbaycanda qalır, yerli sahibkarlar işləyir, pul qazanır, işçilərə əmək haqqı verirlər. Özü də bu

fabrikdə işləyənlərin əksəriyyəti qadınlardır. Bu da qadınlar üçün iş yerləridir. Bax, düşünülmüş siyasət olan yerdə inkişaf da var. Azərbaycanda düşünülmüş siyasət aparılır. Məhz buna görə biz bütün bölgədə, dünyada yaşanan böhranlı şəraitdən, sınaqdan şərəflə çıxırıq. Həmişə demişəm, Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Azərbaycan vətəndaşı təhlükəsizlik şəraitində yaşayır və yaşamalıdır, sabitlik şəraitində yaşayır və yaşamalıdır. Ancaq ölkə bu təqdirdə inkişaf edə bilər. Harada ki, təhlükəsizlik, sabitlik pozulur, orada ölkə dağılır, iqtisadiyyat çökür, sosial problemlər yaşanır və başqa xoşagəlməz hallar üzə çıxır. Biz Azərbaycanda elə siyasət aparırıq ki, bütün mümkün olan risklərdən özümüzü qoruyaq, sığortalayaq və buna nail oluruq. Nəyə görə? Çünki xalqla iqtidar arasındakı birlik bunu şərtləndirir. Ona görə ki, Azərbaycan iqtisadi sahədə, beynəlxalq aləmdə müstəqil, düşünülmüş siyasət aparır. Bizi ancaq Azərbaycan xalqının maraqları maraqlandırır. Azərbaycan xalqının marağında nə varsa, o da olacaq. Əgər maraqlarımızın kənarlarında hər hansı bir təşəbbüs göstərilirsə, biz o təşəbbüsə qoşulmuruq. Ona görə, bəzi hallarda təzyiqlərə də məruz qalırıq. Ancaq biz əsas məqsədi təmin edirik - Azərbaycanın təhlükəsizliyi, inkişafı, insanların rifahı və xoşbəxtliyi.

Bu gün dünyada, bölgədə yaşanan xoşagəlməz mənzərə bir daha Azərbaycanın uğurlu inkişaf modelini ortaya qoyur. Bizim ölkə nümunədir. Mən ona görə demirəm ki, özümüzü tərifləyək, qüsurlar da çoxdur. Ancaq indi dünyada gedən ümumi proseslərə baxdıqda görürük ki, Azərbaycanda həm ictimai proseslər, həm də iqtisadi inkişaf düzgün məcrada gedir. Baxmayaraq ki, neftin qiyməti iki dəfədən çox aşağı düşüb, gəlirlərimiz azalıb Azərbaycan vətəndaşı bunu hiss etməməlidir. Maaşlar, pensiyalar vaxtında verilir, islahatlar aparılır, beynəlxalq imicimiz gündən-günə güclənir. Çünki bu uğurlu inkişaf modelinin təməlində əlbəttə ki, düşünülmüş siyasət dayanır. Biz həmişə çalışmışıq və çalışırıq ki, daxili resurslara arxalanaq. Ona görə, heç kimdən asılı deyilik. Ona görə, özümüz öz həyatımızı qurmuşuq və yaxşı həyat qururuq.

Bununla bərabər, hamımız yaxşı bilirik ki, hələ görüləsi işlər çoxdur, həm mərkəzdə - Bakıda, həm bütün bölgələrdə quruculuq, abadlıq, inkişaf, islahat və sosial ədalət - bütün bu məsələlər daim diqqət mərkəzindədir. Mənim bölgələrə mütəmadi səfərlərimin məqsədlərindən biri də odur ki, vəziyyətlə tanış olum, soruşum işlər necədir, hansı məsələlər insanları narahat edir, incidir ki, biz onları həll edək. Bax, biz bu yolla gedirik və əminəm ki, yaxın bir neçə il ərzində ölkə qarşısında duran bütün əsas infrastruktur və sosial məsələlər öz həllini tapacaq.

Bax, Ucar rayonunda içməli su problemi həll olundu. Qazlaşdırma bu ilin sonuna qədər demək olar ki, tam həll olunacaqdır. Kənd yolları tikilibdir. Ancaq hələ ki, ehtiyac var, yenə də tikiləcək. Çoxmənzilli binaların təmiri əlbəttə ki, təşkil edilməlidir. Biz bu məqsədlə əlavə tədbirlər görəcəyik. Sahibkarlığın inkişafı daha da sürətlə getməlidir. Yeni müəssisələr yaradılmalıdır. İnfrastruktur layihələri başa çatandan sonra bizim diqqət mərkəzində olan əsas məsələlər kənd təsərrüfatı, sənaye istehsalıdır.

Bu gün quşçuluq fabriki ilə tanış olarkən mənə, ümumiyyətlə, Aran iqtisadi rayonunda və Ucar rayonunda gedən proseslər, ayrılmış kreditlər haqqında məlumat verildi. Dövlət öz tərəfindən sahibkarları dəstəkləyir, güzəştli kreditlər verir, texnika, gübrə ilə təmin edir, şərait yaradır, siyasi dəstək də var. Sahibkar da gərək işləsin. Yerli icra orqanları da kömək etsin, mane olmasın. Onda sahibkarlıq daha da sürətlə inkişaf edəcək. Mən demişəm, bir daha demək istəyirəm, iqtisadiyyatımız elə işləməlidir ki, biz neftin qiymətindən asılı olmayaq. Hələ ki, asılıyıq. Bax, neftin qiyməti iki dəfədən çox düşüb, gəlirlərimiz azalıb. Ancaq biz qeyri-neft sektorumuzu daha da sürətlə inkişaf etdirsək, onda neftin qiyməti düşdü, ya qalxdı o qədər də əhəmiyyət daşımayacaq. Bax, bu, əsas istiqamətlərdir və bu istiqamətlər prioritet təşkil edir.

Əminəm ki, Ucar rayonu bundan sonra daha da gözəlləşəcək. Çünki siz burada belə gözəl şərait yaratmısınız. Mən buna çox sevinirəm. Mən son dəfə burada 2011-ci ildə

olmuşam, çox böyük dəyişikliklər var. Dəyişikliklər münasibətilə sizi təbrik edirəm və yeni uğurlar arzulayıram" [7]. Ucar şəhərində Tarix-Diyarşünaslıq Muzeyi fəaliyyət göstərir.



Ucar Tarix-Diyarşünaslıq Muzeyi — 1986-cı ildən fəaliyyət göstərir.Muzeyin fondunda 3170 muzey əşyası qorunur. Tarix-Diyarşünaslıq Muzeyində "Təbiət", "Qədim dövr", "Müasir dövr" bölmələri və s. bölmələri fəaliyyət göstərir. Təbiət bölməsində quş müqəvvaları, ağac nümunələri, mədəni və texniki bitkilərin toxumları və s. toplanıb. Qədim dövr bölməsində Azərbaycan xalqının adət-ənənələrini, məişətini, həyat tərzini əks etdirən eksponatlar nümayiş olunur.

Muzey 2015-ci ildə yeni binaya köçmüşdür. Muzeyin sahəsi 573,44 kv.m.-dir. Bina müasir texnologiyanın ən son nailiyyətləri əsasında qurulmuş, binada istilik-havalandırma sistemi, elektron xəritə quraşdırılmışdır. Muzeyin ekspozisiyası qədim dövr, təbiət, etnoqrafiya, müasir dövr bölmələrindən ibarətdir. Burada "20 Yanvar", "Xocalı faciəsi", "Şəhidlər", "Həmiyerlilərimiz", "Şair və yazıçılarımız", "Müstəqillik yollarında" və s. guşələr fəaliyyət göstərir. 2015-ci ildə başlayaraq Cənubu Qafqaz Boru Kəmərinin genişləndirilməsi zamanı Ucar rayonunun Ramal kəndində b.e.ə. II əsrlərə və

b.e.II əsrinə aid 16 ədəd artefaktlar AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloqları tərəfindən muzeyə təhvil verilmişdir.

Müasir dövr bölməsində bugünkü hadisələrdən bəhs olunur. Bu eksponatlar aşağıdakı guşələrdə cəmlənib.

1. Müstəqillik yollarında
2. Alim həmyerlilərimiz.
3. Səhiyyə.
4. Mədəniyyət.
5. İdman.
6. 20 Yanvar
7. Xocalı soyqırımı.
8. Qarabağ müharibəsi.
9. Etnoqrafiya.
10. Numizmatika.
11. Şair və yazıçılarımız [8; 9]



Prezident İlham Əliyev 06 oktyabr 2015 Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan yeni binanın açılışında iştirak edib.

Ucar rayon İcra Hakimiyyətinin saytında rayonda anadan olmuş görkəmli şəxslər haqqında məlumat verilib. Saytdaki bu səhifəni yaradan şəxslərə təşəkkür edir, bu çətin və xeyirxah işlərində onlara müvəffəqiyyətlər arzulayırıq. Şəkillər əlavə etmək və texniki redaktə həyata keçirməklə məlumatları oxuculara təqdim edirik:



1. Həbibi: Təqribən 1470-1475-ci illərdə, indiki Ucar rayonunun Bərgüşad kəndində anadan olmuşdur. Azərbaycan şairi, əsl adı mənbələrdə çəkilmir. Rəvayətə görə uşaqlıqda çobanlıq etmiş Həbibi təsadüf nəticəsində gənc yaşlarından Ağqoyunlu hökmdarı Sultan Yaqubun sarayına gətirilmişdir. Sonralar Şah İsmayıl Xətainin sarayında böyük nüfuz qazanmış, hətta Məlik üş-şüara olmuşdur. Çaldıran döyüşündən (1514) sonra ömrünü Türkiyədə keçirmişdir. Mənbələrdə Türkiyəyə getməsinin səbəbləri barədə dəqiq məlumat yoxdur. Həbibi lirik şairdir. Lakin sənətkarlığı ilə Füzulini belə heyran edən şairin divanı dövrümüzədək gəlib çatmamışdır. Əbədi irsindən yalnız 50-yə qədər şeri (qəsidə, qəzəl, müsəddəs, tohid, qitə və sair) məlumdur. Şeirlərində insan ləyaqətini, mənəvi gözəlliyi, məhəbbəti tərənnüm etmişdir. Həbibinin

yaradıcılığı Azərbaycan şeirinə (Şah İsmayıl Xətai, Füzuli və başqaları), ümumiyyətlə, türkdilli poeziyaya güclü təsir göstərmişdir. Şeirlərinin dili əksər hallarda xalq ifadə tərzinə yaxın və sadədir. Çətin anlaşılan ərəb və fars tərkibləri azdır.

Əsərləri: Şeirlər, B. 1981; Qəsidələr, qəzəllər, "Azərbaycan klassik ədəbiyyatı kitabxanası", "20 cildə", s. 3, B. 1984.



2. Məlikballı Qurban: XIX əsrdə indiki Ucar rayonunun Məlikballı kəndində yaşamışdır. Əsasən aşıq poeziyası səpgisində şeirlər qoşmuşdur. Klassik üslubda müxəmməs, qəzəl, müstəzadları da var, şeirlərində məhəbbət və gözəlliyin tərənnümü ilə yanaşı dövrandan şikayət motivləri də mühüm yer tutur.

Əsərləri: Şeirlər, "El şairləri" kitabında (toplayanı S.Mümtaz) h-1-2, B. 1935.



3. Əliyev Ehtiram İsrayıl oğlu: 01 avqust 1972-ci ildə Ucar rayonunun Qazyan kəndində anadan olub. Orta təhsilini Ucar rayonunun Qazyan kəndində alıb. 1992-ci ilin iyunun 5-dən 1996-cı ilin avqustuna qədər hərbi xidmətdə olub. 1995-ci ildə vətən qarşısında borcunu yerinə yetirərkən göstərdiyi igidliyə və şücaətinə görə ona Azərbaycan Respublikası Prezidentinin 1995-ci il aprel tarixli 307 saylı Fərmanı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Hazırda Bakı şəhərində yaşayır. Ehtiram Əliyev 1996-cı ildə ordudan tərxis olunub. 1997-1998-ci illərdə Bakının Sabunçu rayon Polis İdarəsində işləyib. 2000-ci ildə "Təfəkkür" universitetinə qəbul olunub. Hazırda Bakı Beynəlxalq və şəhərlərarası Avtovağzalında rəis müavini vəzifəsində çalışır və Bakı şəhərində yaşayır. Ailəlidir. Bir qızı, iki oğlu var. Onu Naxçıvana göndərirlər. Hərbi təlimlər keçən Ehtiram Sədərəkdə və Batabat yaylağında əsl qəhrəmanlıq səhifələri

yazır. Daha sonra onu 1993-cü ildə Ağdam cəbhəsinə göndərirlər. 1994-cü il 5 yanvar döyüşçülərimiz hücum edərək ermənilər 45 km geri oturda bildilər bu döyüşdə Ehtiram yaralanmasına baxmayaraq silahı yerə qoymur müalicə olunan kimi yenidən səngərə dönür. 20 aprel 1994-cü ildə onu Tərtər cəbhəsinə göndərdilər. Bu döyüşlər zamanı onlarla erməni qulduru məhv edildi.



4. Məmmədov Elton Arzuman oğlu: 18 dekabr 1954-cü ildə Ucar rayonunun Qazıqumlaq kəndində anadan olub. Tomsk İnşaat Mühəndisləri İnstitutunun avtomobillər və avtomobil təsərrüfatı fakültəsini bitirmişdir. Milli Məclisin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin Təbii Ehtiyatlar, Energetika və Ekologiya Komitəsinin sədr müavini olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən ölkənin ictimai-siyasi həyatında

fəal iştirakına görə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 18 dekabr 2014-cü ildə Azərbaycan Texniki Universitetinin professoru, Tomsk Dövlət İnşaat Arxitektorları Universitetinin fəxri professoru, Tomsk şəhərinin fəxri vətəndaşı, MDB-nin «Sodrujestvo» ordeni ilə təltif edilmiş, Azərbaycan-İsveçrə, Azərbaycan-Bolqarıstan, Azərbaycan-Misir, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qruplarının üzvü, Texnika elmləri üzrə fəlsəfə doktoru, professor, "MDB Parlamentlərarası Assambleyası "20 il" medalı, GUAM-ın Parlamentlərarası Assambleyasında Azərbaycan nümayəndə heyətinin rəhbəridir. Ailəlidir, 2 övladı var, Bakı şəhərində yaşayır.



5. Hacıyev Şəmsəddin Hümmət oğlu: 08 noyabr 1950-ci ildə Ucar rayonunun Lək kəndində anadan olub. 1966-cı ildə Lək kənd orta məktəbini və 1970-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun "Ticarətin iqtisadiyyatı" fakültəsinə bitirmişdir. Milli Məclisin üzvü, Azərbaycan Respublikasının Milli Məclisinin Elm və Təhsil Komitəsinin sədri, "Dünya təsərrüfatı və beynəlxalq

iqtisadi münasibətlər" üzrə İqtisad elmləri doktoru, 10 noyabr 2011-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən ölkənin ictimai-siyasi həyatında fəal iştirakına görə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 1992-ci ildə dosent, 2004-cü ildə isə professor elmi adını almışdır. 110-dan çox elmi əsərin müəllifidir. Bunların sırasında 2 monoqrafiya, 10-a qədər broşura və kitabça, iki dərslik və dərs vəsaiti, 50-yə qədər elmi məqalə, məruzə, tezislər və s. vardır ki, onların da 30-dan çoxu yaxın və uzaq xarici ölkələrdə çap edilmişdir. İndiyə qədər onun bilavasitə elmi rəhbərliyi ilə 7 iqtisad elmləri namizədi hazırlanmış, hazırda 10-dan çox aspirant və dissetantın namizədlik və 3 doktorluq dissertasiya işinin elmi rəhbəridir. Azərbaycan Dövlət İqtisad Universitetinin Dissertasiya Şurasının və Tbilisi Dövlət Universitetinin Dissertasiya Şurasının üzvü, Azərbaycan Marketinq Assossiasiyasının vitse-prezidentidir. Ailəlidir, 1 övladı var. Bakı şəhərində yaşayır.



6. Xəlilov Rövşən İbrahimxəlil oğlu: 14 mart 1952-ci ildə Ucar rayonunun Qazyan kəndində anadan olub. 1976-cı

ildə MDU-nun fizika fakültəsini bitirmişdir. Ali bitkilərin plazmatik membran və qəfəsələrində ultrabənövşəyi şüalarla oyanma zamanı "binar cavab reaksiyaları", bu sahədə tədqiqat aparan dünya alimlərinin diqqətini cəlb etmiş, bu elmi ədəbiyyata "yeni hal" kimi daxil olmuşdu. Bu təcrübələr göstərdi ki, plazmatik membranın cavab reaksiyalarının surətinin dəyişməsi, membran potensialının depolyarizasiyası və repolyarizasiyası ilə xarakterizə olunur ki, bu da antropogen təsirlər nəticəsində stratosferdə ozon qatının azalması zamanı ultrabənövşəyi şüaların hərəkət mexanizminin potensialını müəyyən etməyə imkan verdi. Bitkilərin biofizikası, fiziologiyası və habelə fotobiologiyası ilə bağlı yeni elmi istiqamətlərin inkişafına yol açdı.1979-cu ildən assistent, dosent, 1992-ci ildən professor BDU ilə bağlıdır. Əsas elmi nailiyyəti Abşeron yarmadasının radioekoloji durumu qiymətləndirilmiş, ərazinin radioekoloji xəritələri tərtib olunmuşdur. Onun rəhbərliyi altında doktorluq və namizədlik dissertasiyaları müdafiə olunmuşdur. Öz elmi nəticələrilə Bolqariya, Almaniya, İran, ABŞ, Türkiyə, Yaponiya və Çində keçirilən elmi konfranslarda iştirak etmişdir. 1990-cı ildə altı ay Çində elmi ezamiyyətdə olmuşdur. 1994-95-ci illərdə Ankara universitetində, 1998-ci ildə Berlinin Humbold universitetində mühazirələr oxumuşdur. Beynəlxalq Elektromaqnit Paramaqnit Rezonansı Cəmiyyətinin və biofizika, biokimya, bitkilərin fiziologiyası ilə bağlı dünya elmi cəmiyyətlərinin və Beynəlxalq Energetika Akademiyasının həqiqi üzvüdür. Bakı Dövlət Universiteti biofizika və molekulyar beynəlxalq yarbiologiya fakültəsinin müəllimidir, elmlər doktoru, Almaniya Beynəlxalq Elmlər Akademiyasının

akademiki, Amerika Beynəlxalq Elektron Paramaqnit Rezonans Cəmiyyətinin üzvüdür. Beynəlxanq Elmlər Akademiyasının Azərbaycan bölməsinin akademiki və Rəyasət heyətinin üzvü və Avropa Fotobiologiya cəmiyyətinin üzvüdür. O, 100-dən artıq çap olunmuş elmi işin, metodik dərs vəsaitlərinin müəllifidir.Ailəlidir, 3 övladı var. Bakı şəhərində yaşayır. **Əsas nəşrlərin adları:**

1. R.I.Khalilov, I.S.Ahmadov, S.G.Kadirov. Two types of kinetics of membrabe potential of water plant leaves illuminated by ultraviolet light. Bioelectrochemistry, 2002, v. 58, p.189-191. 2. R. I. Khalilov and S. R. Khudaverdieva . Role of photorespiration in increase of stability of plants to action UV-B and increased radiating background, Materials of the International Conference "PHOTOSYNTHESIS in the POST GENOMIC ERA: Structure and Function of Photosystems", Moscow, 2006, p.248. 3. Goldfield M.G., Tizapin A.I., Vozvishaeva L.V., Halilov R.I. Paramagnetic centers and photochemical reactions of subchloroplasts fragments of the Photosystem II, -J. Biophizika, 1978,23,2,p.266-277, Moscow. 4. Goldfield M.G., Halilov R.I., Hangulov S.V., Kononeuko A.A, Knox P.P. Correlation of the light-induced change of absorbance with ESR signal of Photosystem II in presence of silicomolybdate. Biochemical and Biophysical Research Communications, 1978, 85, p. 1199-1203. 5. Goldfield M.G., Kononenko A.A, Knox P.P. Halilov R.I, Hangulov S.V. Molar extinction of P680 center of chloroplasts Photosystem II. – J.Biophizika, 1979,24,1,p. 170-172. Ailəlidir, 3 övladı var. Bakı şəhərində yaşayır.



7. Mahmudov Rəfael Umud oğlu: 1954-cü ildə Ucar rayonunun Quləbənd kəndində anadan olub. "Asadov Kapital" MMC-nin direktoru, Biologiya elmləri üzrə fəlsəfə doktoru Ailəlidir, 2 övladı var. Bakı şəhərində yaşayır.



8. Mahmudov Adil Umud oğlu: 23 fevral 1937-ci ildə Ucar rayonunun Quləbənd kəndində anadan olub. 1954-1959-cu illərdə tələbə, fizika fakültəsi, BDU-də təhsil

alıb. “Optika və molekulyar fizika kafedrasının professoru, 1990-cı ildə kimya elmləri doktoru, “Yüksək molekullu birləşmələr“ və „Fiziki-kimya“, Moskva, Kimya Texnologiyası İnstitutu. 1967-ci ildə f.r.e.n. „Ümumi fizika“, Moskva Vilayət Pedaqoji İnstitutu. Ultrasəsin yayılma sürəti və başqa fiziki kəmiyyətlər vasitəsilə ikifazalı sulu polimer sistemlərinin əmələ gəlməsinin fiziki kimyəvi aspektlərinin tədqiqini aparmış, Ultrasəs dalğalarının udulmasının molekulyar kristallarda ərimə temperaturu ətrafinda onların kristal dənəciklərinin ölçülərindən asılılığının tədqiqi. Ultrasəs dalğalarının yayılması və udulmasına aid beynəlxalq konfransda iştirak etmişdir.



9. Rəhimov Ağarəhim Nüsrət oğlu: 26 oktyabr 1948-ci ildə Ucar rayonunun Boyat kəndində anadan olub. 1965-ci ildə Boyat kənd orta məktəbini, 1972-ci ildə Gəncə Dövlət Pedaqoji İnstitutunu bitirib 1992-ci ildən Azərbaycan Qızlar

Universitetinin rektoru Pedaqoji elmlər doktoru, professor, nasir və dramaturqdur. Elmi fəaliyyəti “Ana dili tədrisinin aktual problemləri”nə həsr olunub. Onun 300-dən artıq elmi-nəzəri və praktik məqaləsi, ana dili tədrisinin problemlərinə aid 46 kitab və kitabçası, o cümlədən IV sinif üçün "Azərbaycan dili", ali pedaqoji məktəblərin pedaqoji fa¬kültələri üçün "Ana dilinin tədrisi metodikası" dərslikləri, "Azərbaycan dilindən sintaksisin tədrisinin nəzəri və praktiki əsasları" və "İbtidai siniflərdə oxu təlimi", “Azərbaycan dili dərslərində şagirdlərdə monoloji nitqin inkişafı”, “Şagirdlərin obrazlı nitqinin inkişafı” monoqrafiyaları çap olunub. Uzun müddət ixtisaslaşdırılmış Müdafiə Şurasının üzvü olub, namizədlik və doktorluq dissertasiyalarına opponentlik edib. Alimin pedaqoji elmlər sahəsində magistr və doktorantların hazırlanmasında böyük əməyi vardır. Yüksək elmi-təşkilati fəaliyyətinə görə Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanlarını, Qabaqcıl Təhsil işçisi medalını alıb. Azərbaycan Yazıçılar Bìrlìyìnìn üzvü, “Qızıl Qələm” , “Qızıl ürək” mükafatlarının laureatıdır. Etìk fəlsəfə sahəsìndə “Allah¬la ünsìyyət“, “Ölüm və ölməzlìk“, “Zəka sìmfonìyası“ “Düşüncələr”, “Qüdrətdən doğan nur” kitabları və fəlsəfi-əxlaqi esselərin müəllifidir. Görkəmli nasir və drama¬turqdur. Yazıçı hekayə, povest, roman, esse, pyes və kinossenarilərdən ibarət 31 bədìì kìtabın müəlìfidìr. 20 cilddə seçilmiş əsərlərini çap etdirib. 200-ə qədər hekayəsi, o cümlədən “Hikkəbaz Gülsənəm”, “Bu ki komediyadır”, “Əcəb işə düşdük”, “Toy əhvalatı”, “Canavar balası”, “Molla-aşıq Məməti” və başqa hekayələri, “Gəlìn¬qayada qoşa məzar“, “Ulu kəndìm“, “Fırıldaqçı Nìftulla”, “Mənim qəribə taleyim”, “Taleyin hökmü”, “Bank əməliyyatı”, “Əcəl təri”, “Meteor parçası”, “General” və “Tənha çinarın pıcıltıları” povestlərì, “Yaddaşda yaşar xatirələr”, “Ovlaq keçidi”, “İkìlì dünyam”, “Qoşa qanad”, “Səfalət”, “Gìr¬dab”, “Cinayət və etiraf”, “Təxribat” və “Mürdəşirlər adası” romanları, “Əl əlì yuyar”, “Məhəbbət və cìnayət”, “Xəyanət”, “Haray”, “Maska”, “Nə tökərsən aşına”, “Qatillər”, “Vicdan məhkəməsi”, “Əcaib

macəranın nadürüst tipləri", "İstintaq yekunlaşdı", "Dünyanın beş günü", "Daşqala əməliyyatı", "Düdəməli qalmaqalı", "Qatı cinayətkarlar", "Qadın hikkəsi", "İblisin oyunu", "Xəcalət", "Cələkəsənlər", "Şərikli uşaq", "Namərd körpüsü", "Qırmızı qar", "Ca¬navar balası", "Əsgər anası", "Xanımın desant batalyonu" və "Qızıl əllər" pyeslərì oxucuların dərin rəğbətini qazanıb. A.N.Rəhimov "Canavar balası", "Qırmızı qar", "Əsgər anası", "Bazar həngaməsı və ya gicbəsərlər", "Ala qarğa", "Quzğun", "Kələkbazlar", "Qana qan", "Hörümcək toru", "Uçurum" və "Qəzəb" kinossenariləri, "Duyumlar və deyimlər" müdrük kəlamlar, portret-oçerk və müsahibələrin müəllifidir. A.N.Rəhimovun "Əsgər anası", "Məhəbbət və cìnayət", "Pul hərisləri" əsərləri tamaşaya qoyulub, "Canavar balası" və "Qırmızı qar" əsərlərì əsasında film çəkilib. Rus və ingilis dillərində hekayə, povest, roman və etik-fəlsəfi esselərindən ibarət "Modern Azerbaijanian Prose", "Anxieties of the sensitive heart", "Stories", "Short stories", "Shine from the Creator" və "Матъ солдата» kitabları xaricdə çap olunub. A.N.Rəhimovun bədii yaradıcılığı haqqında "Sözün divanı və vətəndaş yanğısı", "Sənət və şəxsiyyət", "Kökün və sözün yaddaşı", "Bir nəsrin poetikası", "Zamanın üzü, yazıçının sözü", "Qələmin ucu, qılıncın gücü", "Nəsrin axarı: zaman və məkan konteksti", "Dramaturq: sənət və həqiqət", "Ağarəhim Rəhimov bədii nəsrinin dil və üslub özəlliyi", "Yazıçı karyerası: dilin və sənətin işığında" monoqrafiyaları çap olunub. "Əsgər anası", "Məhəbbət və cinayət" pyesləri tamaşaya qoyulmuşdur. "Canavar balası", "Qırmızı qar" kinossenariləri əsasında bədii televiziya filmləri çəkilmişdir. Ailəlidir, 3 qızı, 1 oğlu var. Bakı şəhərində yaşayır.



10. Əzimov Mirəli Məmməd oğlu: 20 sentyabr 1946-cı ildə Ucar rayonunun Müsüslü kəndində anadan olub. 1953-cü ildə Müsüslü kənd orta məktəbini, 1964-cü ildə Azərbaycan Politexnik İnstitutunun Mexanika fakültəsi «Maşınqayırmanın texnologiyası, metalkəsən alətlər və dəzgahlar» ixtisasına daxil olmuş, 1969-cu ildə həmin ixtisası fərqlənmə diplomu ilə bitirmişdir. Azərbaycan Texniki Universitetinin dosenti Texnika elmləri üzrə fəlsəfə doktorudur. 1970-ci ildə «Materiallar müqaviməti» kafedrasına assisent vəzifəsinə keçirilmişdir.1981-ci ildə kafedranın baş müəllimi vəzifəsinə təyin olunmuşdur. 1987-ci ildə dissertasiya müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi adını almışdır. 1991-ci ildə kafedranın dosenti vəzifəsinə seçilmiş və hazırda həmin vəzifədə çalışır. Bir çox elmi məqalələrin və elmi-metodik işlərin müəllifidir.



1. Sədrəddinov Sədrəddin Ələkbər oğlu: 27 sentyabr 1941-ci ildə Ucar rayonunun Pirkənd kəndində anadan olub. 1958-ci ildə Ucar rayonunun Küçəkənd kənd orta məktəbində, 1968-1974-cü illərdə BDU-nun Fizika fakültəsində ali təhsil alıb. Bakı Dövlət Universitetinin dosenti, Fizika elmləri üzrə fəlsəfə doktoru, 1965-ci ildən BDU-nun Fizika fakültəsinin Ümumi fizika kafedrasında işləyir. 1984-cü ildə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi almışdır, „Nazik təbəqəli ftalosianin və onun metal komplekslərində yükdaşınma mexanizmlərinin tədqiqi“ mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Ümumi fizika kursundan mühazirələr, məşğələlər və laboratoriya işləri və s. 28 məqalə və tezisin, 1 dərs vəsaitinin müəllifidir. 2003-Bakı,Azərbaycan. “Rabitə Nazirliyinin yaranmasının 85 illiyinə həsr olunmuş Respublika elmi-texniki konfransı”,2004-Bakı, Azərbaycan “Fizikanın aktual problemləri”, III Respublika konfransı 2007-Bakı, Azərbaycan “Fizikanın aktual problemləri”. I Respublika konfransında iştirak etmişdir. Üzvü yarımkeçirici

maddələrin nazik təbəqələrinin alınması və bu təbəqələrdə yükdaşınma mexanizmlərinin tədqiq etmişdir.



12. Bayramov Ağalar Xanlar oğlu: 16 yanvar 1954-cü ildə Ucar rayonunun Boyat kəndində anadan olub. Bakı Mədəni-Maarif Texnikumunu, sonra isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini fərqlənmə diplomu ilə bitirib. 1984-cü ildən Tədris teatrında aktyor kimi fəaliyyətə başlamış, 1991-ci ildən bu günə kimi həmin Universitetin "Səhnə danışığı" kafedrasında dosent kimi, aktyorlara "Səhnə danışığı fənnini tədris edir. 2001-ci ildə "İlin ciddi sənətcisi" nominasiyası üzrə mükafata və diploma, 2002-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına, 2003-ci ildə isə "Qızıl qılınc" mükafatına layiq görülüb. Dünya Azərbaycanlı-ları Konqesinin (rəhbəri Paşa Qəlbinur) İdarə Heyətinin üzvü və mədəniyyət mərkəzinin rəhbəridir. Bir neçə filmdə baş rola çəkilib. C.Məmmədquluzadə – "Kişmiş oyunu", Türkçülükdən bəhs edən "Tanrı işığı", Məhəmməd Peyğəmbərə həsr olunmuş "Adın hikməti". 1983-cü ildən bu günə qədər Dövlət Teleradio Şirkətində bədii qiraətçi-aktyor kimi çalışmaqdadır. Onun ssenarisi üzrə çəkilmiş və özünün

iştirak etdiyi 11 ədəbi teatr televiziyanın qızıl fondunda qorunub saxlanmaqdadır. Bunlar Aşıq Ələsgər, Məmməd Araz, Fikrət Qocanın əsərlərindən ibarət olmuşdur. 2004-cü ildən DAK-ın qurultaylarında və keçirdiyi tədbirlərində fəal iştirak etmişdir. 2014-cü ilin 20-24 iyul tarixində Belçikanın paytaxtı Brüssel şəhərində keçirilən X (növbədənkənar) Birlik qurultayında, Dünya Azərbaycanlıları Konqresinin Mədəniyyət və İncəsənət Mərkəzinin rəhbəri seçilib. DAK-dakı fəaliyyətinin başlıca məqsədi parçalanmış vətənimizin bütövlüyünə, Güney Azərbaycanımızın müstəmləkə buxovundan azad olmasına nail olmaqdan ibarətdir. Harada çıxış etməsindən asılı olmayaraq, gənc nəsilə Bütöv Azərbaycanın varlığını, keçdiyi keçmə-keçli yolları aşılamaqdan ibarətdir. Ailəlidir, 2 övladı var, Bakı şəhərində yaşayır.



13. Rəhimov Əhliman Rəhim oğlu: 1955-ci ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olub. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aşıq sənəti kafedrasının müdiridir. Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar Mədəniyyət işçisidir. Respublika Aşıqlar

Birliyinin üzvüdür. Ailəlidir, 3 övladı var, Bakı şəhərində yaşayır.



14. Əhədov Ağamirzə Qulam oğlu: 18 oktyabr 1937-ci ildə Ucar rayonunun Çiyni kəndində anadan olub. 1968-ci ildə Sverdlovsk Sənaye institutunu bitirimş, iqtisadçı ixtisasına yiyələnmişdir. Sumqayıt "Karvan İstehsalat Kommersiya Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktorudur. YAP Sumqayıt şəhər təşkilatının şura üzvüdür. Ailəlidir, 5 övladı var. Sumqayıt şəhərində yaşayır. 04 iyun 2016-cı ildə dünyasını dəyişib.



15. Zahidova Vəsilə Alı qızı: 10 mart 1922-ci ildə Ucar rayonunun Yuxarı Şilyan kəndində anadan olmuşdur. Ali təhsillidir. Kənd Təsərrüfatı İnstitutunu bitirib. 1952-ci ildən Sovet İttifaqı Kommunist Partiyasının üzvü olub. 1943-1954-cü illərdə inzibati idarələrdə işləmiş, Boyat kənd sovetinin sədri olmuşdur. 1954-cü ildən 1983-cü ilədək "Sovet Azərbaycanı" kolxozunun sədri işləmişdir. 1960-cı illərdə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin (5,7,9-cu çağırış) deputatı olmuşdur. 2 dəfə "Lenin" ordeni, 2 dəfə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir. 1966-cı ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adını almışdır. 2002-ci ildən Prezident təqaüdçüsüdür. Ucar şəhəri, M.Hüseynzadə küçəsi 21 saylı evdə yaşayıb. 02 may 2005-ci ildə vəfat etmişdir.



16. Böyükağa Yəhyayev: 1948-ci ildə Ucar rayonunda anadan olub. 1973-cü ildə Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbini bitirib. 1978-ci ildə V.Muxina adına Leninqrad Rəssamlıq İnstitutunu bitirib. 1990-cı ilə qədər Moskva və Leninqradda keçirilən sərgi və müsabiqələrdə fəal iştirak etmişdir. 1992-ci ildən «Günəş» jurnalının bədii redaktoru vəzifəsində çalışır. Respublika mətbuatında karikaturaçı rəssam kimi fəaliyyət göstərir. Bir çox respublika və beynəlxalq sərgilərin iştirakçısıdır. 2005-ci ildən Rəssamlar İttifaqının üzvüdür. 2006-cı ildə Azərbaycan «Karikaturaçı Rəssamlar Birliyi»nin və FECO (Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyası) Azərbaycan qrupunun üzvü olmuşdur.



17. Hüseyn Haqverdiyev: 1956-cı ildə Ucarda anadan olmuşdur. Rəssam Həsən Haqverdiyevin və Vera Kalininanın oğlu olaraq 1958-ci ildə ailəsi Bakıya köçmüşdür. 1971-ci ildə Əzim Əzimzadə adına İncəsənət Kollecinə daxil olmuş, 1975-ci ildə oradan məzun olmuşdur. Həmin il Vera Muxina adına Leninqrad Ali İncəsənət Akademiyasına daxil olmuş, heykəltaraşlıq fakültəsini 1980-ci ildə bitirmişdir. 2003-cü ildə Azərbaycan Respublikası xalq artisti titulu verilmişdir. Azərbaycan Həvari Prefektinin baş kafedral kilsəsi olan Müqəddəs Bakirə Məryəm kilsəsindəki "Bakirə Məryəm" heykəlinin müəllifidir. Səngəçal terminalının girişindəki "Xəzər dənizi əfsanəsi" əsərinin müəllifidir. İlk simpoziumu 1980-ci ildə nümayiş olunmuşdur. Hindistan, ABŞ, Almaniya, Gürcüstan, BƏƏ kimi ölkələrdə sərgi və simpoziumları baş tutmuşdur. 2014-cü ildə Özbəkistanda solo sərgisi baş tutmuşdur. Bakıda yaşayır. Əli Haqverdiyev, Ucal Haqverdiyev, Səidə Haqverdiyeva, Aidə Haqverdiyeva və Zemfira Qafarovanın qardaşıdır.



18. Mübariz Əsgərov: 20 yanvar 1962-ci ildə Ucar rayonunda anadan olub. Moskva Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. 1992-1998-ci illərdə AzTV-də işləyib. 1998-ci ildən ANS TV-də çalışır. Qulp satirik telelayihəsinin və "Mübarizə" verilişinin müəllifidir. Tanınmış telejurnalistdir.



20. Məhərrəm Paşa oğlu Zülfüqarlı: 19 avqust 1955-ci ildə Azərbaycan Respublikasının Ucar rayonunda anadan olub. Ucar şəhər 2 saylı orta məktəbini fərqlənmə ilə bitirib. 1978-ci

ildə Bakı Dövlət Universitetinin tarix fakültəsi əyani şöbəsini, 1986-cı ildə aspiranturasını bitirib. 1990-cı ildə tarix elmləri namizədi, 2018-ci ildə tarix elmləri doktoru alimlik dərəcəsinə, 2010-cu ildə Dosent, 2022-ci ildə Professor elmi adına layiq görülüb.1977-1980-ci illərdə dövlət təyinatı ilə Saatlı rayonu Nərimankənd orta məktəbində müəllim işləyib. Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialında baş müəllim (1981-1992-ci illərdə), 1992-1993-cü illərdə Sumqayıt şəhər İcra Hakimiyyəti başçısı aparatında humanitar məsələlər üzrə şöbə müdiri, Bakı Dövlət Universitetində baş müəllim (1998-2000-ci illərdə), Bakı Biznes universitetində baş müəllim, "Magistratura şöbəsi"nin müdiri (2000-2001-ci illərdə), Azərbaycan Dövlət Pedaqoji Universitetində dosent (2017-2020-ci illərdə), Azərbaycan Universitetində professor (2022-2023-cüillərdə) vəzifələrində çalışıb. Hazırda Azərbaycan Turizm və Menecment Universitetinin Professoru, H.Əliyev lektoriyasının sədridir.

1997-ci ilin aprel-dekabr aylarında "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzində jurnalist vəzifəsində işləyib. 2004-2005-ci illərdə Azərbaycan Milli Araşdırma Assosiasiyasının icraçı direktor vəzifəsində çalışıb. 2005-ci ilin may-oktyabr aylarında "İctimai Liderlər" seçki blokunun rəhbəri olub. 2005-ci ilin dekabr ayından İctimai Problemlərin Tədqiqi Assosiasiyasının sədridir. 2007-ci ilin sentyabr ayından Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, 2018-2024 cü illərdə assosiasiyanın vitse prezidenti olub.

Qafqaz Media Tədqiqatlar Mərkəzinin "Korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə medianın rolu" mövzusunda keçirdiyi müsabiqənin mükafatçısıdır. Türkiyə, Quzey Kıprıs, ABŞ, Almaniya, İsveç, Belçika, Polşa, Bolqarstan, İran, Rusiya, Gürcüstan və s. dövlətlərdə təşkil olunmuş 41 beynəlxalq konfranslarda məruzəçi qismində iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin 27 may 2019-cu il 1205 nömrəli sərancamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı,

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Fəxri Fərmanı, Millli QHT Forumunun İdarə Heyətinin Fəxri Fərmanı, Azərbaycan Turizm və Menecment Universiteti Rektorunun Fəxri Fərmanları(2015,2019, 2025), Şah İsmayıl Xətainin fəaliyyətinə həsr olunmuş beynəlxalq elmi konfransın (İİR Ərdəbil şəhəri 06 Avqust 2014) qızıl nişanı, stolüstü medalı, Türkiyyə Cümhuriyyətinın Ankara Universitetində "Ermenistanın Savaş Suçları ve Karabağ Zaferinin Etkileri" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransın (20 may 2021) mükafatı ilə təltif olunub. Şamaxı və Göyçay Ensklopediyalarının redaksiya heyətinin üzvü olub.

234 elmi əsərin, o cümlədən 108 kitabın, 118 elmi məqalənin, 8 medodik işin, 605-dən artıq qəzet məqaləsinin müəllifidir. Kitab və məqalələri Azərbaycan, türk,rus, ingilis, fransız, alman, italyan, ispan, portuqal və fars dillərində nəşr olunub. 8 kitabı nəşrə hazırdır.

Nəşr olunmuş kitablarla **maharramzulfugarli.com** saytında tanış olmaq mümkündür.



20. Natiq Qubad oğlu Babayev: 20 may 1959-cu ildə Ucar rayonunun Qaradağlı sovetliyinin Çiyni kəndində anadan olub. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. 1989-cu ildən 2005-ci ilədək Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətində redaktor, böyük redaktor vəzifələrində işləyib. 2005-ci ildən bu günədək İctimai Televiziya və Radioyayımları Şirkətində Koordinasiya və proqram direktorluğunun direktor müavini vəzifəsində çalışır. Natiq Qubadoğlu bədii yaradıcılıq sahəsində də uğurla qələm işlətmişdir. "Bəlkə bir də görüşdük", "Mənsiz dözə bilsən", "Yaşayan məhəbbət" şeirlər kitabının, "Bir kəndin nağılı" telehekayələr və "Püsyan eli" kitabının müəllifidir. AMEA-nın dissertantıdır. İctimai Televiziya və Radio Yayımları Şirkətində "Bir kəndin nağılı" adlı Azərbaycan toponimlərinə həsr olunmuş televiziya layihəsinin müəllifi və aparıcısıdır. Ailəlidir. Iki övladı var.

Əsərləri: "Bir kəndin nağılı" kitabında ölkəmizin tanınmış şəxsiyyətlərinin ata-baba yurdu olan kəndlərindən söhbət açılır, tarixi, təbiəti, insanları barədə məlumat verilir. Hər bir ziyalının doğulub boya-başa çatdığı doğma kəndinin müəlliflə birgə ziyarət etməsi, ağsaqqallarla, ziyalılarla, sadə əmək adamları ilə görüşü oxucu marağını cəlb edir. "Püsyan eli"- (Tarixi-genealoji tədqiqat). Jurnalist-etnoqraf Ənvər Çingizoğlu ilə birgə hazırlanan bu kitab Azərbaycan xalqının etnogenizində, siyasətində və mədəniyyətində mühüm rol oynayan Püsyan eli və oymaqlarının yaşam yolundan bəhs edir."Bəlkə bir də görüşdük"- (şeirlər). "Mənsiz dözə bilsən"- (şeirlər). "Yaşayan sevgi"- (bədii-sənədli poema)."İlham-Fərizə" poeması əsasında yazılan eyniadlı liberetto müqəddəs sevginin epizodlarını göz önünə gətirir.



21. Orucov Novruzəli Hüseyn oğlu: 1962-ci ildə Ucar rayonunda anadan olub. Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, general-mayordur. Ucar şəhərindəki 2 nömrəli orta məktəbdə təhsil alıb. 1969-cu ildə, 6 yaşında ikən atasını itirib. Zaqafqaziya Hərbi Dairəsində-Gürcüstanın Qori şəhərində kiçik tank komandirləri kursunu bitirib. Sonra Axalkələkdəki 13-cü qvardiya diviziyasında kiçik tank komandiri kimi müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmət zamanı göstərdiyi şücaətə görə «Döyüş xidmətlərinə görə» medalı ilə təltif olunub. Hərbi xidməti bitirdikdən sonra bir müddət zavodda fəhlə işləyib. Daha sonra Xarkov Ali Hərbi Tank Komandirləri məktəbinə qəbul olunub. Sovet ordusunun Macarıstandakı hərbi birləşməsində 1 il kəşfiyyat taqımının komandiri, sonra isə müvafiq olaraq tank taqımının və bölüyünün komandiri vəzifələrində çalışıb. Azərbaycana 1991-ci ildə gələn N.Orucov bir müddət Salyan Rayon Hərbi Komissarının müavini vəzifəsində çalışıb. Qazax rayonunun müdafiəsində, həmçinin Füzulidə tank taborunun komandiri kimi döyüşlərdə iştirak edib. N.Orucov 2007-2012-ci illərdə KHVTİC Respublika Şurasının sədri vəzifəsində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 13 mart 2010-cu il tarixli Sərəncamı ilə general-mayor hərbi rütbəsi verilib. 2012-ci ilin may ayından Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavinidir.



22. Seyidağa Mövsümlü: 1954-cü ildə Ucar rayonunda anadan olub. 1969-cu ildə Bakı Dəmir Yolu Texnikumuna daxil olsa da, tale elə gətirib ki, tamamilə başqa bir istiqamətə-televiziya sahəsinə gedib. Azərbaycan Dövlət Teleradio Komitəsində teleoperator assistenti vəzifəsində əmək fəaliyyətinə başlayıb. Bu sahədə təhsil almaq üçün 1980-ci ildə Ümumittifaq Teleradio İnstitutuna göndərilib. 1988-ci ildə erməni daşnaklarının törətdikləri cinayətləri videolentə çəkmək üçün dəfələrlə Şuşa, Laçın, Zəngilan, Naxçıvan və digər bölgələrimizdə olub. Özünün də dediyi kimi, həyatının ən ağır anları başımıza gətirilən müsibətləri lentə aldığı günlər olub. 1990-cı il yanvarın 20-də Sovet ordusu Bakıda qırğınlar

törədəndə Seyidağa müəllim həyatını təhlükəyə ataraq bu dəhşətli səhnələri çəkmişdi. Qarabağda qızğın döyüşlərin getdiyi günlərdə isə o, Azərbaycanın müdafiəsinə qalxmış, könüllü olaraq cəbhəyə yollanmışdı. 1991-ci ilin son ayından atəşkəs elan olunan dövrədək müxtəlif döyüş bölgələrində olmuş, bəzən kamerası ilə o anları tarixin yaddaşına köçürmüş, bəzən isə vaxtilə Sovet İttifaqının xüsusi təyinatlı dəstəsində xidmət etmiş təcrübəli hərbçi kimi, silahdaşları ilə birlikdə hərbi əməliyyatlarda yaxından iştirak etmişdir. Onun ən böyük xidmətlərindən biri isə 1992-ci il fevralın 26-sı ermənilərin Xocalıda törətdiyi insanlığa sığmayan dəhşətli qətlləri lentə almasıdır. Seyidağa Mövsümlü Xocalı soyqırımını 26 fevral 1992-ci ildə ilk hərbi operator kimi lentin yaddaşına köçürmüşdür. Adı sənin, dadı mənim (film, 1980) (tammetrajlı televiziya tamaşası)(Aztv), Kökdən düşmüş piano (film, 1982), Bağışla (film, 1983), Göz həkimi (film, 1985), Gülüş sanatoriyası (film, 1989), Günəşin batdığı yer... (film, 2012), Səndən xəbərsiz (film, 1985), Sən həmişə mənimləsən (film, 1987), Səhər (veriliş, 1995), Səmədbəy (film, 1995), Pəncərədə işıq (film, 1987)



23. Beydulla Ağaəli oğlu Musaev: 10 avqust 1907-ci ildə Ucar rayonunda toxucu ailəsində anadan olmuşdur. İbtidai təhsili doğma Ucarda almış, Bakıda Pedaqoji Texnikumunu bitirən B.Musayev Mahaçqalada dil və ədəbiyyat müəllimi kimi əmək faliyyətinə başlamışdır. «Dağıstan füqərası» qəzetində və «Yeni yol» jurnalında çalışdığı illərdə (1926-1939) ilk hekayələri mətbuatda dərc olunmuşdur. Moskva Dövlət Universitetinin Ədəbiyyat fakültəsində təhsilini davam etdirərkən tərcüməçilik sənəti ilə yaxından maraqlanmağa başlamışdır. Sonralar Bakıda Pedaqoji Texnikumda ədəbiyyat müəllimi, «Ədəbiyyat qəzeti»ndə şöbə müdiri və məsul katib, eyni zamanda bədii ədəbiyyat şöbəsində tərcüməçi və redaktor vəzifələrində çalışmışdır. Azərbaycan Yazıçılar Birliyinin Tərcüməçilər bölməsinə rəhbərlik etmişdir. Bütün ömrünü bədii yaradıcılığa və tərcümə məsələlərinə həsr etmiş Beydulla Musayev 30-a yaxın kitabın rus dilindən

Azərbaycan dilinə tərcüməsini həyata keçirmişdir. Dünya ədəbiyyatı klassiklərinin onlarla əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Anatol Fransın «Mələklərin üsyanı» (1933), Aleksandr Dümanın «Üç müşketor» (1949), Viktor Hüqonun «Qavroş» (1979) və «Səfillər» (1988), Artur Konan-Doylun «Baskervillərin iti» (1980), Covanyolinin «Spartak» (1970) və s. əsərlərin tərcüməsi B.Musayevə aiddir. Tərcüməçinin rus ədəbiyyatından etdiyi tərcümələr də diqqəti cəlb edir. Novikov-Priboyun «Susima», Aleksey Tolstoyun «Birinci Pyotr», M.Saltıkov-Şedirinin «Seçilmiş əsərləri», Fyodor Dostoyevskinin «Cinayət və cəza», Lev Tolstoyun «Sevastopol hekayələri, Valentin Katayevin «Alay oğlu» və s. əsərlər Azərbaycan dilində tərcümə ədəbiyyatı fondunun incilərindəndir. 1942-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuş, tərcüməçi olub. 1979-cu il iyun ayının 23-də Bakıda vəfat etmişdir.



24. Abışova Vüsalə Mahir qızı: 5 avqustu 1979-cu ildə Azərbaycan Respublikasının Ucar rayonun Lək kəndində anadan olub. 1985-ci ildə Rafiq Abbasov adına Ucar rayon, Lək kənd 1 saylı orta məktəbinə daxil olub, 1996-cı ildə həmin məktəbi fərqlənmə attestatı ilə bitirib. 1996-cı ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub. 2000-ci ildə həmin ali məktəbin bakalavr pilləsini, 2002-ci ildə isə magistr pilləsini fərqlənmə diplomu ilə bitirib, ixtisası folklorşünas-mifoloqdur. 1996-cı ildən mətbuatda əmək fəaliyyətinə başlayıb. "Bakı Universiteti", "Hürriyyət" qəzetləri ilə əməkdaşlıq edib, 1998-2000-ci illərdə "Bu gün" qəzetində müxbir vəzifəsindən baş redaktorun birinci müavini vəzifəsinə qədər çalışıb. 2000-2001-ci illərdə "Məkan" qəzetində baş redaktor müavini işləyib. 2001-2003-cü illərdə «Xalq Cəbhəsi» qəzetinin baş redaktoru kimi fəaliyyət göstərib. 2004-cü ilin noyabr ayından "Azəri-Press" İnformasiya Agentliyini (APA) təsis edib. 2007-ci ildə Azərbaycanın ilk idman agentliyi olan "APASport" agentliyini təsis edib. 2008-ci ildən etibarən "Lent.Az" İnformasiya Agentliyini, 2009-cu ildən isə "Vesti.az İnformasiya Agentliyini, 2010-cu ildən isə rus dilində fəaliyyət göstərən "APA-Ekonomist" jurnalını təsis edib. 2011-ci ildə "APA Servis" MMC-ni təsis edib. Azərbaycan Jurnalistlərinin III (I) qurultayında Mətbuat Şurası İdarə Heyətinin üzvü seçilib. 22 iyul 2010-cu ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Əməkdar Jurnalist" fəxri adına layiq görülüb. 22 iyul 2012-ci ildə Azərbaycan Mətbuat Şurasının təsis etdiyi Ali Media Mükafatına layiq görülüb. ABŞ, Fransa, Türkiyədə istehsalat təcrübələri keçib. Beynəlxalq səviyyəli tədbirlərdə

media ilə bağlı çıxışlar, Azərbaycanda mətbuatın vəziyyəti ilə bağlı məruzələr edir. jurnalist, "APA-Holding" MMC-nin prezidenti [15].

İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında əhalinin siyahıyaalınması - 2019: statistik məcmuə = Population census in the Republic of Azerbaijan - 2019: statistical yearbook / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi; məcmuənin rəh. T. Y. Budaqov.-Rəsmi nəşr.I kitab: A.- Bakı: Narıncı, 2022.-489 s.
2. Azərtac 14.07.2007
3. Sadayoğlu Pərviz "Günü-gündən inkişaf edən və gözəlləşən UCAR...

   Yeni Azərbaycan.- 2009.- 23 may.- S.10-11.
4. https://aghdash.mct.az/az/view/360/16/Ucar_rayon_Heyder_Eliyev_Merkezi
5. https://president.az/az/articles/view/14140
6. https://president.az/az/articles/view/3460/images
7. https://president.az/az/articles/view/16350/images/354
8. "Ucar Tarix-Diyarşünaslıq Muzeyi". https://museum.az. İstifadə tarixi: 22.12.2020
9. "Ucar Tarix-Diyarşünaslıq Muzeyi". https://heydaraliyev-centers.az. 2021-04-20 tarixində arxivləşdirilib. İstifadə tarixi: 22.12.2020.
10. https://e-qanun.az/framework/9713
11. https://e-qanun.az/framework/9714
12. https://e-qanun.az/framework/19343
13. https://apa.az/daxili-siyaset/-182790
14. http://ucar-ih.gov.az/az/page/12.html
15. http://ucar-ih.gov.az/az/page/16.html

16. https://scara.gov.az/az/xeberler/print/ucarda-islam-hemreyliyinin-tebliginde-dini-icmalarin-fealiyyetinin-baslica-istiq
17. https://scara.gov.az/az/xeberler/print/ucarda-ulu-onder-heyder-eliyev-irsi-milli-servetimizdir-movzusunda-tedbir-kecirilib
18. https://report.az/herbi-xeberler/ucarda-heyder-eliyev-ve-azerbaycanda-ordu-quruculugu-movzusunda-konfrans-kecirilib. İki sahil qəz. 11 dekabr 2021
19. https://bqubgu.wordpress.com/2015/02/06/abdullayev-beydulla-m%C9%99h%C9%99mm%C9%99d-oglu/

7.3. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda döyüşlərdə həlak olmuş Ucar şəhidləri





Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda digər ərazilərdən olan qəhrəmanlar kimi Ucarlı qəhrəmanlar da fəal iştirak etmişlər. Ucarlılar vətən uğrundan canını fəda etmiş şəhidləri daim etiramla yad edirlər.

Birinci Qarabağ müharibəsində itkin düşmüş şəhidlərin nəşri tapılaraq rayon rəhbərliyinin iştirakı ilə böyük izdihamla dəfn edilir.

Şəhid Azad Sabir oğlu Cəlilov 1975-ci il fevralın 14-də Ucarın Alpout kəndində anadan olub. 1994-cü il fevralın 6-da Kəlbəcər rayonunun Bağırlı kəndi (Murovdağ silsiləsi) istiqamətində gedən döyüşlər zamanı itkin düşüb.

İtkin düşmüş şəhidlə vida mərasimi keçirilib, Ucar rayonunun Alpout kənd qəbiristanlığında dəfn edilib.





Dəfndə Ucar Rayon İcra Hakimiyyətinin başçısı, rayonun hüquq mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, din xadimləri, şəhid ailələri və müharibə iştirakçıları iştirak ediblər.

Ucar RİH-nin başçısı Mənsur Məmmədov üçrəngli Azərbaycan bayrağını şəhidin qardaşı Mayis Cəlilova təqdim edib [5].



14 fevral 2022-ci il tarixdə YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ucar rayon şöbəsinin rəisi Ceyhun Əliyev, Ucar rayon İcra Hakimiyyətinin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Cəbrayıl Tağıyev, rayon Heydər Əliyev Mərkəzinin direktoru Mətanət Qəribova, rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Nəzakət Qasımova, rayon Uşaq Yaradıcılıq Mərkəzinin direktoru Mədinə Əhmədova, şəhid ataları, Alpout kənd 1 və 2 saylı tam orta məktəblərinin müəllim və şagirdlərinin bir qrupunun, kənd sakinlərinin iştirakı ilə 06 fevral 1994-cü ildə Kəlbəcər rayonunda-Murovdağda itkin düşmüş şəhid Azad Sabir oğlu Cəlilovun adına ailəsinin inşa etdiyi bulağın açılış mərasimində iştirak etmişlər [6].



Abdullayev Rayət İslam oğlu 22 iyul 1993-cü il tarixdə şəhidlik zirvəsinə ucalanmışdır. Şahlıq kənd əhalisi şəhidin anım günü münasibətilə rayonun kənd qəbiristanlığında məzarını ziyarət etmiş,ruhuna dualar oxunmuşdur.Rayət Abdullayev 18 may 1971-ci il tarixdə rayonun Şahlıq kəndində anadan olub. Ailədə 10 uşaq arasında-4 qardaş,6 bacı arasında 6-cı uşaq,3-cü oğlan övladı olub.Şahlıq kənd tam orta məktəbini bitirmişdi. 27 noyabr 1989-cu ildən 30 oktyabr 1991-ci il tarixədək Sovet Ordusu sıralarında xidmət etmiş, 22 avqust 1992-ci ildə Ucar rayon Hərbi Komissarlığından səfərbərliyə alınaraq xidmətə başlamışdır. 21 iyul 1993-cü il tarixdə xidmətinin 11 ayında-ömrünün 22 yaş 2 ay 3-cü günündə Ağdam rayonunda şəhid olmuşdur. 22 iyul 1993-cü il tarixdə Şahlıq kənd qəbiristanlığında dəfn edilmişdir [1].



Şəhid **Hüseynov Mirsaab Əşrəf oğlu** 12 aprel 1973-cü ildə Ucar rayonunun Qaradağlı kəndində anadan olub. 2 qardaş 1 bacı arasında üçüncü uşaq olub. Qaradağlı kənd tam orta məktəbini bitirib.

Ucar rayon Hərbi Komissarlığının xətti ilə sürücülük kursunu bitirmişdir. 1991-ci ilin may ayında Sovet Ordusu sıralarına çağrılıb və bir il yarım Qorki şəhərində (hazırkı Nijni Novqorod) xidmət edib. Noyabr 1993-cü ildə səfərbərliyə alınaraq Ucar batalyonu deyilən 702 saylı hərbi hissədə xidmətə başlayıb. Hərbi xidmətinin ömrü 2 ay olub. Ömrünün 20 yaş 9 ayında - 13 yanvar 1994-cü ildə Füzuli rayonunda şəhid olub [11].

Ucarda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) tərəfindən rayon İcra Hakimiyyəti ilə birgə 21 dekabr 2018-ci il tarixdə "Vətənin müdafiəsinə hazıram!" adlı tədbir keçirilib.

Hərbi-vətənpərvərlik tərbiyəsi, yeniyetmə və gənclərdə vətəndaşlıq hisslərinin yüksəldilməsi, onların ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq

ruhunda tərbiyə edilməsi məqsədi daşıyan tədbir,rayon ictimaiyyəti və vətəndaş cəmiyyəti institutları nümayəndələrinin, orta məktəblərin yuxarı sinif şagirdlərinin, şəhid ailələri üzvlərinin və Qarabağ müharibəsi veteranlarının iştirakı ilə təşkil olunub.

Heydər Əliyev Mərkəzində keçirilmiş tədbir Dövlət Himninin ifası ilə başlayıb. Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ucar Rayon İcra Hakimiyyəti başçısının müavini Şəhla Abdullayeva çıxış edərək xidmətin həyata keçirdiyi tədbirlərin əhəmiyyətini qeyd edib, vətənpərvərlik tərbiyəsi sahəsində Ucar rayonunda görülən işlərdən danışıb. Bildirib ki, müharibə vəziyyətində olan ölkəmizdə gənc nəslin vətənpərvərlik tərbiyəsi hər zaman prioritet əhəmiyyət daşıyır.

Xidmətin Aparatının şöbə rəisi, polkovnik Niyaz Məmmədov xidmət tərəfindən gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlər haqqında məlumat verib. SHXÇDX-nin fəaliyyət istiqamətlərindən bəhs edib, elektron xidmətlərin tətbiqi sahəsində görülmüş işləri tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, SHXÇDX tərəfindən hazırda bir neçə istiqamət üzrə elektron xidmətlər göstərilir. Bu xidmətlərdən istifadə etmək üçün **www.seferberlik.gov.az** internet saytına və ya "Elektron hökumət" portalına müraciət oluna bilər.

Respublika Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev vurğulayıb ki, cəmiyyətimizin bütün sahələrində fəallıq göstərərək, ölkəmizin iqtisadi və hərbi qüdrətinin artırılması işinə əhəmiyyətli töhfə verən gənclərin hərbi peşəyə marağı ildən-ilə artmaqdadır. Ali hərbi təhsil almaq istəyən, həmçinin ehtiyata buraxılmış gənclərin yenidən Silahlı Qüvvələrə müddətdən artıq hərbi xidmətə qəbul ilə bağlı müraciətlərinin artması cəmiyyətimizdə yüksək hərbi-vətənpərvərlik ruhunun nümunəsidir.

Tədbirdə rayonda gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində xidmətlərinə və nailiyyətlərinə görə bir qrup şəxsə diplom və xatirə hədiyyələri təqdim olunub.



Tədbir hərbi-vətənpərvərlik mahnılarının ifaçısı Şəmistan Əlizamanlının və məktəblilərin hazırladıqları ədəbi-bədii proqramla davam etdirilib [2].

İkinci Qarabağ müharibəsində də Ucarın qəhrəman oğulları mərdliklə mübarizə aparıblar. Ucar rayon İcra Hakimiyyətinin saytında onlar haqqında aşağıdakı məlumat verilib:

Vətən Müharibəsi şəhidləri



Həsənov Hüseyn Vahib oğlu



Məmmədov Kənan Nifdalı oğlu



İsmayılov Orxan Zöhrab oğlu



İsmayılov Elçin Mübariz oğlu



Məmmədov Rəcəb Xalid oğlu



Bəkirov Təbriz Etibar oğlu



Ələkbərov Vüqar Telman oğlu



Mehdili Niftalı Qnyaz oğlu



Hacıyev Elnur Yaqub oğlu



İbrahimov Hikmət Zaur oğlu



Əliyev Kərim Məhəmmədəli oğlu



Qəfərli Samir Möhlət oğlu



Xəlilov Ayaz Qnyaz oğlu



Ələkbərov Allahverdi Məzahir oğlu



Məmmədov Fikrət Elşad oğlu



Süleymanov Səbuhi Ələkbər oğlu



Əliyev Ağayusif Mübariz oğlu



Vəliyev Elnur Əli oğlu



Cəbrayılov Xəyal Rafiq oğlu



Məmmədov Coşqun Elnur oğlu



Gülüşov Rəmal Şahin oğlu



Qarayev Namiq Qarakişi oğlu [3]



Məmmədli Şahı Eman oğlu

44 gün davam edən Vətən müharibəsində işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad edilməsində rolu olan qəhrəmanlarımızdan biri də şəhid Şahı Məmmədlidir.

1995-ci il iyunun 6-da Ucar rayonunun Bərgüşad kəndində anadan olub. 2013-ci ildə həqiqi hərbi xidmətə yollanan Ş.Məmmədli xidməti dövründə fəallığı və cəsurluğu ilə seçilib. 2015-cü ildə xidmətini başa vuraraq evinə geri dönüb.2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü şəkildə qatılan qəhrəman döyüşə gedərkən oğlu 22 günlük olub.Ş.Məmmədli gərgin döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv edib. Döyüş zamanı 16 yaralı hərbçi dostunun həyatını xilas edib. Suqovuşan və Ağdərə uğrunda gedən döyüşlərdə mühasirəyə düşərək, şəhidlik zirvəsinə ucalıb. Ailəsi 44 gün ondan xəbər ala bilməyib. Əvvəl onun girov düşdüyünü zənn etsələr də, sonradan şəhid olması barədə məlumat alıblar. Şahı Məmmədli dekabrın 1-i doğulduğu kəndin qəbiristanlığında torpağa tapşırılıb.İndi Ş.Məmmədlidən dörd aylıq körpəsi Ömər Məmmədli yadigar qalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Şahı Məmmədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib. [4]



Məmmədov Coşqun Elnur oğlu 1994-cü il sentyabrın 9-da Ucar rayonunun Qarabörk kəndində anadan olub. 2000-ci ildə Ucar rayon 5 saylı tam orta məktəbin birinci sinfinə daxil olur. 2011-ci ildə məktəbi bitirib, 2012-ci ilin aprel ayında həqiqi hərbi xidmətə çağırılıb. Xidmətini Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda nümunəvi əsgər olaraq başa vurur. Vətən müharibəsinin elə ilk günlərindən "mən Vətən oğluyam, düşmən mənim torpağımın bir qarışına belə ayaq basa bilməz", deyərək müharibəyə yollanıb.

Şəhid Coşqun Məmmədov Vətən müharibəsində Vətənimizin azadlığı uğrunda Ağdərə-Xocavənd istiqamətində gedən döyüşlərdə oktyabrın 13-də qəhrəmancasına şəhid olub. Ailəli idi. İlkin adlı oğlu Vətənə əmanət qalıb.

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Coşqun Məmmədov ölümündən sonra “Cəsur döyüşçü”,

“Vətən uğrunda” və “Suqovuşanın azad edilməsinə görə” medalları ilə təltif edilib [7].



Samir Qəfərli 1 noyabr 1994-cü ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olmuşdur. 2001-ci ildə Ucar rayon Bərgüşad kənd Şəhid Ağamusa Mustafayev adına 1 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuşdur. 2012-ci ildə həmin məktəbi bitirən Samir Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kulturologiya fakültəsinə qəbul olmuşdur. Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası ilə təhsilini davam etdirmişdir. Təhsilində bir müddət fasilə yaranan Samir 2016-cı ildə təhsilini yenidən davam etdirmiş və 2019-cu ildə həmin məktəbi bitirmişdir. Təhsil aldığı müddətdə Samir Qəfərli Xəzər TV-də yayımlanan "Ata ocağı" serialına çəkilmişdir. 2019-cu ilin oktyabr ayında Samir Qəfərli hərbi xidmətə yollanmışdır.

Azərbaycan Ordusunun əsgəri olan Samir Qəfərli 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Sonuncu dəfə ailəsi ilə 15 oktyabrda əlaqə saxlamışdır. Cəbrayılın, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə

vuruşmuşdur. Əsgər Samir Qəfərli 30 oktyabr 2020-ci ildə Laçın istiqamətində gedən döyüşlərdə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. 31 oktyabr 2020-ci ildə Ucar rayonunun Bərgüşad kəndində anasının yanında torpağa tapşırılmışdır. Subay idi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Qəfərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Qəfərli ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdi.

Qubadlı şəhərinin işğaldan azad olunmasına görə gedən döyüşlərdə xüsusi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Qəfərli "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilmişdi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Samir Qəfərli ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Samir Qəfərli ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdi [8].



Təbriz Bəkirov 1993-cü il yanvarın 26-da Ucar rayonunun Bağırbəyli kəndində anadan olub. 1999-2003-cü illərdə Bağırbəyli kənd tam orta məktəbində, 2004-2010-cu illərdə Ucar şəhərində 1 nömrəli tam orta məktəbdə təhsil alıb.

2010-2014-cü illərdə Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) təhsilini davam etdirib. Təbriz Bəkirov 2014-2015-ci illərdə müddətli həqiqi hərbi xidmətdə olub. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Ağdərə istiqamətində gedən döyüşlərdə iştirak edib. Oktyabrın 8-də Ağdərə istiqamətində şəhadətə qovuşub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Prezident İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Təbriz Bəkirov ölümündən sonra "Vətən müharibəsi iştirakçısı", "Ağdamın azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilmişdir [9].

İkinci Qarabağ müharibəsində Ucarlı qəhrəmanlar müharibənin gedişində Hadrudun, Şuşanın azad edilməsi uğrunda gedən döyüşlərdən sonra bu ərazilərdə “Ucar Şuşada”, “Qazqumlaq Hadrutda” və s. ifadələrlə tarixə düşüblər.







Ucar... Vətən müharibəsi zamanı igidlərimizdən birinin buraxdığı xatirə. Şəkil italyan fotoqraf Fabrizio Konti

tərəfindən çəkilib və Nyu-Yorkun qabaqcıl sərgi salonlarından birində sərgidə nümayiş etdirilib [12].

Sosial şəbəkələrdə Ucar şəhidləri haqqında aşağıdakı məlumat verilib.

11 Noyabr 2020 ·

Ucar rayonundan olan şəhidlərimiz

Mayor: Hacıyev Elnur.

Kapitan: İsmayılov Elçin

Gizir: Əliyev Kərim

Əsgər: Bəkirov Təbriz

Əsgər: Hüseynzadə Təbriz

Kapitan:Kazımov Kamran

Əsgər: İsmayılov Orxan

Əsgər: Məmmədov Rəcəb

Əsgər: Həsənov Hüseyn

Kapitan: Məmmədov Kənan

Əsgər: Mehdiyev Nifdalı

Əsgər: Qəfərli Samir

Gizir: Ələkbərov Vüqar

Əsgər: İbrahimov Hikmət

Əsgər: Xəlilov Ayaz

Allah hər birinə rəhmət eləsin!



KAPİTAN İSMAYILOV ELÇİN



GİZİR ƏLİYEV KƏRİM



MAYOR HACIYEV ELNUR



BƏKİROV TƏBRİZ



FƏRİD HÜSEYNZADƏ [13]



Vəliyev Elnur Əli oğlu

Azərbaycanın bütövlüyü, toxunulmazlığı və azadlığı uğrunda canından keçən şəhidlərimizin ömür yolu bütün gənclərə örnəkdir. Onları tanımaq, xatirələrini əbədi tutmaq isə, hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Bu gün haqqında söz açacağımız qəhrəmanımız 2-ci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan, Xüsusi Təyinatlı Qüvvələrin Leytenantı Elnur Vəliyevdir.

14 aprel 1997-ci ildə Ucar rayonunda anadan olub. Elnur Vəliyevlər ailəsinin son beşiyi, 3 bacının bir qardaşı idi. O, orta məktəbi burada bitirdikdən sonra, 2014-cü ildə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olur. 2018-ci ildə universiteti bitirdikdən sonra isə, Xüsusi Təyinatlı Qüvvələrin(XTQ) təlimlərinə qatılır. Beləcə Elnurun hərbi həyatı başlayır, uşaqlıq arzusu çin olur. Elnur Vəliyev 2018-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi.

Azərbaycan Ordusunun leytenantı olan Elnur Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Elnur Vəliyev oktyabrın 26-da Xocavənd döyüşləri zamanı şəhid olub. Ucar şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Elnur Vəliyev ölümündən sonra “Vətən uğrunda”, "Vətən müharibəsi iştirakçısı”, “Kəlbəcərin azad edilməsinə görə”, “Cəbrayılın azad edilməsinə görə”, “Xocavəndin azad edilməsinə görə”, “Füzulinin azad edilməsinə görə” və "Şücaətə görə” medalları ilə təltif edilmişdir.





"Vətən uğrunda" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Kəlbəcərin azad olunmasına görə" medalı, "Şücaətə görə" medalı, "Vətən müharibəsi iştirakçısı"medalı

Torpaq uğrunda ölən varsa Vətəndir deyirlər. Bəli, qaraca torpağı Vətən edən, yüzillər, minillər boyunca üstünə hopmuş Elnurların qanıdır. Əcdadlarımızdan bizə miras qalan milli ruh bu gün hər bir Azərbaycanlının qəlbində şəhidlərimizin qanı ilə bir daha möhkəmləndi. Elnur Vəliyevin timsalında bütün şəhidlərimizə rəhmət, ailələrinə isə səbr diləyirik.

Şəhidin həyat və döyüş yolu ilə bağlı video:

https://www.youtube.com/watch?v=DNefMlnGBIY [14]

Ucar rayonunda hər il Vətən müharibəsindəki qələbə münasibətilə müxtəlif tədbirlər həyata keçirilir



Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təşkilatçılığı ilə Ucar rayon Heydər Əliyev Mərkəzində 4 noyabr 2022-ci il tarixdə "Zəfərin mübarək, Vətən!" adlı tədbir keçirilib [10].

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrundakı müharibədə əldə edilmiş möhtəşəm qələbə münasibətilə Ucarda hər il təntənəli tədbirlər keçirilir. Qədirbilən Ucarlılar bu tədbirlərdə şəhidlərin ruhunu etiramla yad edirlər.

İstifadə edilmiş ədəbiyyat

1. "Ədəbiyyat və incəsənət" qəz.(25.09.2023) https://edebiyyatveincesenet.az/life/item/10657-shaehidlaerimizi-tan-dag-rayaet-abdullayev
2. https://525.az/news/112199-ucarda-vetenin-mudafiesine-haziram-adli-tedbir-fotolar
3. http://ucar-ih.gov.az/az/veten-muharibesi-sehidleri.html
4. http://ucar-ih.gov.az/az/page/97.html
5. http://ucar-ih.gov.az/az/news/birinci-qarabag-muharibesinde-itkin-dusmus-celilov-azad-sabir-oglu-ucar-rayonunun-alpout-kend-qebirstanliginda-defn-edilib.html#gallery-5
6. https://sia.az/az/news/politics/931106.html
7. https://unudulmazlar.az/az/infom/4491
8. https://unudulmazlar.az/az/infom/3990
9. https://memorial.az/az/qehremanlarimiz/803
10. https://teleqraf.az/news/toplum/347200.html

11. https://www.facebook.com/105689347739560/photos/a.105802051061623/241707470804413/?type=3&locale=de_DE
12. https://www.facebook.com/100064021811409/posts/kil-italyan-fo/1439357041541676/
13. https://www.facebook.com/100064021811409/posts/ucar-rayonundan-olan/201081178200376/
14. http://ucar-ih.gov.az/az/page/94.html

Tərcüme-hal üz qabığının arxasında verilməlidir



Zülfüqarlı Məhərrəm Paşa oğlu - 19 avqust 1955-ci ildə Ucar şəhərində anadan olub. 1972-ci ildə 2 saylı Ucar şəhər orta məktəbini fərqlənmə ilə bitirib və həmin il Azərbaycan Dövlət Universitetinin (hazırda BDU) tarix fakültəsinə daxil olub. 1977-1980-ci illərdə dövlət təyinatı ilə Saatlı rayonu Nərimankənd orta məktəbində müəllim,1980-1981-ci illərdə Azərbaycan SSR EA Tarix İnstitutunda baş laborant,1981-1992-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialında əvvəlcə müəllim, sonra isə baş müəllim, 1992-1993-cü illərdə Sumqayıt şəhər İcra Hakimiyyətində humanitar məsələlər üzrə şöbə müdiri vəzifəsində, 1998-2000-ci illərdə Bakı Dövlət Universitetində

baş müəllim, 2000-2001-ci illərdə Bakı Biznes universitetində baş müəllim, "Magistratura şöbəsi"nin müdiri vəzifələrində çalışıb. 2017-2020-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində, 2023-2024 illərdə Azərbaycan Universitetində "Azərbaycan tarixi", "Beynəlxalq münasibətlər tarixi" və s. fənləri tədris edib.

2007-ci ildən Azərbaycan Turizm və Menecment Universitetində işləyir. 2010-2018-ci illərdə Azərbaycan Turizm və Menecment Universitetinin elmi katibi, universitetdə nəşr olunan AAK tərəfindən məqalə nəşr tövsiyyə olunan " Turizm və otelçilik tədqiqatları" jurnalının məsul katib olub. Hazırda H.Əliyev lektoriyasının rəhbəri, "İctimai fənlər"kafedrasının professorudur.

2007-ci ilin sentyabr ayından Azərbaycanda Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası (AVCİYA) Seçki Qərargahının rəhbəri, 2020-2024-cü illərdə AVCİYA-nın vitse prezidenti olub. Milli QHT Forumu İdarə heyətinin üzvü (2008-2022), Jurnalistlər Birliyinin üzvüdür. ABŞ Respublikaçılar İnstitutunun Seçki Kompaniyası Akademiyasının məzunudur.

1990-cı ilədə tarix elmləri namizədi elmi dərəcəsinə, 2010-cu ildə dosent elmi adına, 2018-ci ildə tarix elmləri doktoru elmi dərəcəsinə, 2022-ci ildə professor elmi adına layiq görülüb.

AMEA Tarix İnstitutunun nəzdində tarix üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təşkil olunmuş Müdafiə Şurasının üzvüdür.

Azərbaycan Respublikası Prezidentinin 27 may 2019-cu il 1205 nömrəli sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Fəxri Fərmanı, Milli QHT Forumunun İdarə Heyətinin Fəxri Fərmanı, Azərbaycan Turizm və Menecment Universiteti Rektorunun Fəxri Fərmanları(2015,2019), Şah İsmayıl Xətainin fəaliyyətinə həsr olunmuş beynəlxalq elmi konfransın

(İİR Ərdəbil şəhəri 06 Avqust 2014) qızıl nişanı, stolüstü medalı, Türkiyə Cümhuriyyətinin Ankara Universitetində "Ermənistanın Savaş Suçları ve Karabağ Zaferinin Etkileri" mövzusunda keçirilmiş beynəlxalq elmi konfransın (20 may 2021) mükafatı ilə təltif olunub. Şamaxı və Göyçay Ensklopediyalarının redaksiya heyətinin üzvü olub.

Qafqaz Media Tədqiqatlar Mərkəzinin "Korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə medianın rolu" mövzusunda keçirdiyi müsabiqənin mükafatçısıdır. Türkiyə, Quzey Kıprıs, ABŞ, Almaniya, İsveç, Belçika, Polşa, Bolqarstan, İran, Rusiya, Gürcüstan və s. dövlətlərdə təşkil olunmuş 41 beynəlxalq konfransda məruzəçi qismində iştirak edib.

234 elmi əsərin, o cümlədən 108 kitabın, 118 elmi məqalənin, 8 metodik işin, 608-dən artıq qəzet məqaləsinin müəllifidir. Kitab və məqalələri Azərbaycan, türk, rus, ingilis, fransız, alman, italyan, ispan, portuqal və fars dillərində nəşr olunub.

Səkkiz kitabı nəşrə hazırdır. Nəşr olunmuş kitablarla **maharramzulfugarli.com** saytında tanış olmaq mümkündür.

Kitab İ.Q.Məmmədovun (VÖEN 2700771212)
Poliqrafiya ofisində çap olunmuşdur.
Fiziki çap vərəqi 18. Sifariş 03


Məhərrəm Zülfüqarlı
UCAR
TARİXİ